**CƏFƏRQULU RÜSTƏMOV**

# QOBUSTAN DÜNYASI

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**

**BAKI - 1994**

BBK 9.2.6
R 88

Redaktoru: Məlahət Əsədova
Rəssamı: Məmmədtağı Abdullayev

Kitab Qazax «Tac» səhmdar cəmiyyətinin vəsaiti hesabına nəşr olunub. Səhmdar cəmiyyətinin məsul nümayəndəsi Rüstəm Söhrab oğluna xeyirxah niyyətinə görə təşəkkürümüzü bildiririk.

**Rüstəmov Cəfərqulu.**
R 88. Qobustan dünyası. - B.; Azərnəşr, 1994, 176 səh.
Əsər Qobustanda son 10-15 min il ərzində qədim azərbaycanlıların qayaüstü təsvirlər, ibtidai insan düşərgələri, yaşayış yerləri və b. abidələrin aşkar edilməsi və öyrənilməsi tarixindən, aparılmış arxeoloji qazıntılar, onların nəticələrindən bəhs edir. Müəllif 25 illik tədqiqat nəticəsində Qobustanda orta daş dövründə başlamış həyat və təsərrüfatın, incəsənətin mədəniyyətin inkişafını abidələrin dili ilə yığcam şəkildə izah edir.

BBK 902.6
R 0504000000-59 10-94
M (651)-07-94

İSBN 5-552-01097-3

© Azərnəşr, 1994

# MÜƏLLİFDƏN

Tarixin bir ümumi məqsədi var-keçmişi öyrənmək. Onun öyrəndiyi sahələr çoxdur. Lakin tarix sözü ilk növbədə xalqın tarixi, millətin tarixi, vətənin tarixi kimi qəbul edilir. Bu tarix nə qədər zəngin olarsa adama bir o qədər böyük qürur gətirər, vətənə və xalqa rəğbətini artırar. Atalar deyiblər: «Ot kökü üstündə bitər», xalq qəhrəmanı qoç Koroğlu da demişdi ki, «qoç oğlu qoç olar». Elə isə gəlin baxaq görək babalarımız kim olub? Doğrudan da biz kimlərin sələfləriyik? Min-min illər bundan qabaq bugünkü torpağımızda babalarımız necə yaşayıb, məşğuliyyətləri nə imiş, hansı dünyagörüşə və mədəni inkişaf səviyyəsə malik olmuşlar?

***Tarix.*** Bəli. kimliyimizi bilmək, vətənimizi sevmək, onun dost və düşmənlərini seçmək, onlarla münasibətlərimizi düzgün qurmaq üçün tariximizi öyrənmək, bilmək lazımdır.

***Tarix necə öyrənilir?*** Deyirlər «tarixi xalq yaradır» və ya «tarix xalqın içində yaranır». Bəli, bu belədir. Hər kəs ailəsinin, qəbilə üzvü qəbiləsinin, kənd əhli öz kəndinin, ölkə əhli vətənin həyatında baş verən hadisələr, dəyişikliklər və s. haqda baba ataya, ata oğula, oğul nəvəyə nəsilbənəsil məlumat verir, tarixi yaşadıb davam etdirir. Bu cür yaşadılan tarix bəzək, danışanların istək və arzusundan asılı olaraq, şişirdirilib əsası həqiqət olan əfsanəyə də çevrilir, boylar, dastanlar yaranır.

Tarixin öyrənilməsi üçün əsasən iki mənbədən -yazılı və maddi mənbələrdən istifadə edilir. Bu mənbələrin heç birində tarixi, yuxarıda göstərdiyimiz kimi, nəsildən-nəslə şifahi ötürməyə əsaslanmaqla yox, ilk mənbə əsasında işıqlandırılır. Tarixi mənbələrdə biz tarixi min illər bundan qabaq yazılmış kitablardan oxuyur, necə deyərlər, tarixin şahidi olmuş adamın dilindən «eşidirik».

Tarixi öyrənmək üçün ikinci mənbə arxeoloji materiallardır. Arxeologiya tarixi maddi dəlillər əsasında öyrənən xüsusi elmdir. Arxeologiya insanların min illərlə bundan qabaqkı, yazı dövrünə qədərki həyatını öyrənməklə məşğul olur. Onun arxivi arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış yaşayış-yerləri, qəbir abidələri, əldə edilmiş əmək alətləri, silahlar, təsərrüfat və bəzək əşyaları, onların üzərində saxlanmış naxış formaları, şəkillər və s. və s. abidələrdir.

Bəli, keçmiş həyatı canlandırmaq, ulu babalarımızın necə yaşadığını, nə ilə məşğul olduğunu, kimliyini müəyyənləşdirmək və bunun üçün yüzlərlə-minlərlə suallara cavab vermək üçün bu arxivi oxumaq lazımdır. Bu arxivi oxumaq nə deməkdir? Yəni deyək ki, arxeoloq filan yaşayış yerini qazıb, buradan o nə oxumalıdır. Əvvələn, bu yaşayış yerinin yaşını-dövrünü müəyyənləşdirməli, o dövrün təbii şəraiti cəmiyyətin ictimai-iqtisadi səviyyəsi əsasında həmin yaşayış yerinin niyə məhz burada (deyək ki, bu təpənin üstündə) salınması sualına, sonra yaşayış yerində evlərin, küçələrin bu formada planlaşdırılma səbəblərinə, yaşayış evlərinin, yardımçı binaların yerləşmə xüsusiyyətlərinin müxtəlif tarixi şəraitin tələbatından irəli gələn səbəblərinə və s. məntiqi cavab

tapmalıdır. Əmək alətləri və silahların hansı materialdan və necə hazırlanması üsullarına, onların necə işlədilməsinə, dəfn abidələrinin hansı adət-ənənəyə qulluq etməsi, bəzən əşyalarına görə onların sahiblərinin həyata baxışı və dini görüşlərinin necə olması və s. haqda suallara savab tapmalıdır.

Gəlin, arxeoloji arxiv adlandırdığımız bir növ materialların-ulu baba və nənələrimizin min illər boyu məişətinə daxil olmuş, bununla da min illər ərzində yaranmış qədim mədəniyyətlərin dövrləşməsində arxeoloqlar üçün «məlumat kitabçası» sayılan keramika adlandırdığımız gil qabların öyrənilməsi üçün nə qədər zəhmət tələb olunduğuna fikir verək. Gil qabların meydana gəlməsi Neolit dövrünə and edilir. Azərbaycanda bu dövr eramızdan əvvəlki VII-VI minilliklərə aiddir. O vaxtdan keçən 8-9 min il ərzində həmişə gil qab istehsalı olub. Düzdür ilk vaxtlar kiçik, kövrək, bəsit olsalar da, Eneolit (Mis-tunc) dövründən başlayaraq gil qabların çeşidləri də, həcmləri də durmadan artır, bu proses zəmanəmizə qədər davam edir.

Lap qədimdən başlayaraq gil qablar üzərində onları hazırlayanların istək və arzusunu, estetik cəhətdən gözəlliyə məftunluğunu, müxtəlif baxışlarını əks etdirən bəzək nümunələri meydana gəlib getdikcə [müxtəlifləşir, forma və işlənmə texnikasına görə çoxalırdı. Bunun üçün sızma, qazma, yapma, eləcə də sürtmə ilə və rənglə vurulmuş naxış və bəzəklərdən istifadə edilir. Lakin bütün dövrlər üçün cam camlığında, bardaq bardaqlığında, qazan qazanlığında, küp küplüyündə və s. qalır. Bəlkə heç bunlardan hansının nə üçün işlədildiyini demək də çətin deyil, lakin gil qabların tarix üçün əhəmiyyətini o adam (əslində arxeoloq) dərk edə bilər ki, yerdən qaldırdığı gil qab qırığının keçən minilliklərin hansı tarixi dövründə, bu dövrün hansı mərhələsində (Eneolit, Tunc, Dəmir dövrünün, antik və orta əsrlərin hansı mərhələsində) hazırlanmış olduğunu söyləyə bilsin. Bunun üçün isə bir, beş, on və hətta daha çox kitab oxumaq da azlıq edir, bunun üçün uzun illərin zəhməti, təcrübəsi lazımdır. Belə olduqda «arxeoloji arxiv» də düzgün oxunur, tariximiz, keçmişimiz də yazılan kitabda, yaranan tarix güzgüsündə düzgün əks olunur.

«Qobustan dünyası» adlı bu kitabda qədim tarixi köklərə, qədim mədəniyyətə malik çox qədim xalq olduğumuzu dünyaya car çəkən Qobustan abidələri haqda məlumat verəcəyik. Qobustanın qayaüstü təsvirlərinin tapılması, öyrənilməsi, bu misilsiz tarixi abidələrə münasibətdən söhbət açacaq, Qobustan «arxivini» qədim qayaüstü rəsmləri oxumağa çalışacağıq.

# QAYAÜSTÜ TƏSVİRLƏR

Tarix-insan bu iki məfhum biri digəri ilə bağlıdır. İnsan olmayan yerdə tarix də yoxdur, tarixsiz də insan, cəmiyyət yoxdur. Tarix insanın varlığı ilə yaranır, onun nə vaxtdan mövcudluğu, həyatının inkişaf mərhələləri və bu mərhələlərin yaranma və bir-birini əvəzetmə səbəbləri, insan cəmiyyətlərinin yaranması, onların inkişafını təmin edən təbii və iqtisadi amillərin rolu və s. məsələləri işıqlandırır. Tarix dedikdə keçmiş nəzərdə tutulur, lakin keçmiş var uzaq keçmiş, var yaxın keçmiş, yaxın keçmiş, əsasən, yazılı dövrü əks etdirir ki, bu dövrün tarixi hər il, hər ay, hər gün yaranır və yaranmaqda davam edir.

Uzaq keçmişi, insan övladının yaranmasından yazı ixtira edilməsinə qədərki dövrü əhatə edir. Bu dövrün tarixi maddi mədəniyyət qalıqları-qədim düşərgə və yaşayış yerləri, buradakı insan yaşayışının qalıqları, təsərrüfat və məişətə aid tapıntılar (alətlər, silahlar, qablar, bəzək əşyaları və s.) vasitəsilə öyrənilib bərpa edilir. Bu kimi maddi mədəniyyət qalıqları elmdə tarixi abidələr, arxeoloji materiallar adlanır.

Tarixi abidələrin ən maraqlı və sirlilərindən biri də qayaüstü təsvirlərdir. Qədim qayaüstü təsvirlər ibtidai cəmiyyətdə insan əməyi və fəaliyyətini, onun həyatı və dünyagörüşünü rəngarəng və canlı şəkildə əks etdirən arxeoloji abidə - tarixi sənədlərdir.

Qədim rəsmlər qayalar üzərində müxtəlif üsullarla (döymə, qazma, sürtmə, eləcə də rənglə) çəkilmişdir. Onların ən qədimlərinin yaşı 20 min ildən çoxdur, cavanları son orta əsrlərdə yaradılmış abidələrdir.

Qədim qayaüstü təsvirlər dünyanın bir çox ərazilərində aşkar edilib öyrənilmişdir.

XIX əsrin ortalarına qədər arxeologiya elmi yenicə formalaşırdı. Bu işlə həvəskarlar maraqlanırdı. İnsan cəmiyyətinin keçmişinə, xüsusilə onun görkəmli və real sənət əsərləri yarada biləcəyinə şübhə ilə yanaşılırdı və yaranmaqda olan cavan elm sahəsi hələ kilsə (din) baxışlarına qarşı çıxmaq üçün nə lazımi gücə, nə də öz sözünü demək üçün lazımi qədər inkaredilməz materiallara malik idi. Tək-tək təsadüfi tapılmış daş alətlər, naxışlı qədim əşyalar və s. kimi klassik tarixi abidələr ziyalılar içərisində maraq doğurur, diqqəti cəlb edirdi. Tapıntılar arasında insan əli ilə düzəldilməsi şübhə doğurmayan nüsxələrin mənşəyi haqda mübahisələr gedir, bu sayaq materialların axtarılması üçün addımlar atılırdı.

Qayalar üzərində qədim təsvirlərin varlığı keçən əsrin ortalarından qeydə alınmağa başlanmışdır. Qədim şəkillər əsasən iki üsulla çəkilmişlər. Onlarları birincisi petroqliflər (petroz - daş, gluphe - naxış açma) daş üzərində naxış, digəri isə palitra - rənglə çəkilmiş təsvirlərdir.

Bunlardan əslində birincilərin tapılma tarixi daha qədimə aiddir. Onları ilk dəfə 140 il bundan əvvəl - 1848-ci ildə Oneqa gölü sahilində K. Qrevink görmüşdür (Савватеев Наскалвные рисунки Карелии. Петрозаводск, 1983).

Lakin o zamanlar bu kimi abidələrə fikir verilməməsi üzündən qədim petroqliflər ədəbiyyatda öz əksini tapmamış və öyrənilməmişdir.

Palitra tipli, tarixən daha qədim dövrlərə aid (yuxarı Paleolitə) qayaüstü təsvirlərin varlığı isə keçən əsrin 70-ci illərində ilk dəfə İspaniyada aşkar edilmişdir. Bir dəfə çiynində tüfəng, yanında ov tulası olan bir ovçu Altamira kəndi yaxınlığında ətraf ərazidən seçilməyən alçaq bir təpəyə qalxırmış (Altamira kəndi İspaniyada santandera şəhərindən 30 km qərbdədir). Təpənin başında birdən it yoxa çıxır. Ovçu iti axtarır, çağırır və görür ki, itin səsi çəmənlikdəki daş topasının altından gəlir. O daşları qaldırdıqda onların arasından yerin altına aparan yol açılır. Ovçu yeraltı boşluğa aparan yolun tam düz sahədə olmasına təəccüb edir və ora yıxılan olmasın deyə yolun ağzını iri bir daşla örtür. Bir qədər keçdikdən sonra bu çəmənliyin sahibi Don Mapselino de Sautuola ilə rastlaşdıqda onun sahəsində gördüyü yeraltı yol haqqında ona danışır.

Don Marselino de Sautuola vəkil idi, boş vaxtlarında arxeoloji ədəbiyyat oxuyardı. Fransa mağaralarında qədim insan izlərinin tapıldığından xəbərdar idi. Bununla belə onun ağlına gəlmir ki, Altamira kəndi yaxınlığındakı yeraltı yolu yoxlasın. O, yalnız 7 ildən sonra bu fikrə gəlir. Sautuola bir əlində şam, digər əli ilə yeraltı yolun divarlarını tuta-tuta irəliləyir. Bir qədər getdikdən sonra əli divara çatmır və şamı başı üstə qaldırdıqda özünü mağaranın içində görür. O, burada ibtidai insanların izi ola biləcəyini yəqin edib mağaranın gil döşəməsini bir qədər qazır və bir neçə ədəd çaxmaq daşından hazırlanmış uzunsov lövhəvari, ucu itilənmiş və ağzı diş-diş edilmiş qəlpələr tapır.

1978-ci ildə Sautuola Parisdə ümumdünya sərgisində tapıntılarını göstərir. O vaxtın tanınmış arxeoloqu fransız Pyet bu tapıntıların insan tərəfindən düzəldildiyini təsdiq edir və Sautuolaya hətta qazıntı aparmaq üçün göstərişlər də verir.

Bir gün Sautuolanın 9 yaşlı qızı Mariya ondan xahiş edir ki, heç olmasa bir dəfə onu özü ilə aparsın. Mağarada Sautuola qazıntı ilə məşğul ikən qızcığaz bir əlində şam, digər əli ilə divardan tutaraq mağaranın dərinliyinə tərəf gedir. Elə yerə gəlib çıxır ki, burada onun atası ayaq üstə dura bilməzdi. Tavandan qaya çıxıntıları sallanırdı. Birdən uşaq elə qorxur ki, şam əlindən düşür və «Tors», «Tors», yəni «Öküz», «Öküz» deyə qışqıraraq atasının yanına qaçır. Sautuola qızını sakitləşdirməyə çalışır, həyəcanlanmış qız atasının əlindən tutub onu öz tapıntısının yanına aparır. Qaya üzərindəki bizən şəkillərini gördükdə alim özü də bir an tarazlığını itirir. Axı, minillərlə insan gözündən gizlənmiş bu şəkilləri ilk dəfə 9 yaşlı qız aşkar etmişdir.

Sautuolanın Altamira mağarasında aşkar etdiyi qədim qayaüstü təsvirlər ilk vaxtlar bütün İslaniyada sensasiya kimi çox böyük maraq doğurur. Hətta İspaniya kralı özü bu qədim sənət əsərinə baxmaq üçün mağaranı ziyarət edir.

Lakin tezliklə Sautuolanın tapıntısına şübhə yaranır. O dövrün elm və din xadimləri, arxeoloji yığıncaqlar belə, onu saxtakarlığda təqsirləndirirlər. Altamira

mağarasının şedevrləri tədricən yaddan çıxır. Yalnız 20-25 ildən sonra - Fransa Paleolit mağaralarında oxşar rəsmlər tapılıb elmə məlum olduqdan sonra Altamira rəsmləri öz elmi əhəmiyyətini təsdiq edir, lakin bu etirafları görməyə Sautuolanın artıq ömrü çatmır.

Lakin qeyd edək ki, Altamira mağarasından əvvəldə bir sıra mağaralarda (Marsula, Per-non-per, Şabo) şəkil və xətt qalıqlarına rast gəlinmiş, lakin buna əhəmiyyət verilməmişdir. Hələ 1864-cü ildə Fransadakı Nio mağarasının sonralar «Qaras» adlanan salonunda F. Qarriq öz gündəliyinə: «Burada divarlarda şəkillər var. Bu nədir?» - yazmışdı. Sonralar bu mağaralarda və La Müt mağarasında qədim rəsmlərin Paleolit dövrü rəsmləri olduğu təsdiq olunmuşdur.

XX əsrin əvvəllərindən başlayaraq qayaüstü təsvirlərin axtarılıb qeydə alınması və öyrənilməsi geniş vüsət alır. İlbəil qədim qayaüstü rəsmlərin aşkar edildiyi mağara və ərazilərin sayı artır.

Azərbaycanda qədim qayaüstü təsvirlər ilk dəfə 1939-cu ilin yazında Qobustanda aşkar edilmişdir. Onları elm aləminə Qobustan qayaüstü təsvirlərinin ilk tədqiqatçısı İ. M. Cəfərzadə həmin ildə tapmış, 1947-ci ildən başlayaraq bu təsvirlərin sistematik tədqiqinə başlanmışdır.

1960-cı illərdə Abşeron yarımadasında, Naxçıvan MR-da Gəmiqaya və Kəlbəcər rayonu ərazisində də qaya və daşlar üzərində qədim şəkil və təsvirlər qeydə alınmışdır.

# QOBUSTAN

Qobustan Şərqi Azərbaycanda coğrafi rayondur. Böyük Qafqaz dağlarının cənub-şərq ətəkləri ilə Xəzər dənizi arasındakı qobu və yarğanlara malik geniş ərazi Qobustan (qobular diyarı) adlanır.

Qobustan sözünün mənasını müxtəlif cür yozanlar var. Bəziləri Qobustan sözünün dil oynaqlığı nəticəsində qor (od), kov, kav (öküz) və ya kəbr (atəşpərəst mənasında), kavır (kafir) sözlərindən əmələ gəldiyini göstərirlər. Onlardan birincisi Qobustanı odun "(günəşin) çıxdığı yer mənasında (sonrakılar Kovıstan, Kavıstan, sonra isə Qabıstan, Qəbristan sözlərindən yarandığını iddia edirlər. Hətta yadımdadır, Qobustan qoruğunun qarovulçusu, o vaxt 82 yaşı olan Şıxlar kənd sakini Əliağa kişi (Allah ona rəhmət eləsin) deyərdi: «Buraya ona görə Qobustan deyilir ki, burada qış olmur və qar yağsa bostan olur, Qobustan - qar bostan sözündəndir».

Əlbəttə, fikir söyləmək, söz demək xatirinə hər bir sözü hecalara bölüb, hecalara uyğun sözlərlə eyniləşdirmək, onu istənilən formada yozmaq olar. Lakin məncə dilimizdə olan söz üçün məna axtarmaq lazım deyil. Azərbaycan dilinin izahlı lüğətində oxuyuruq «Qobustan qobu və stan (yer), yəni qobuluq, qobular olan yer deməkdir».

Qobu sözü türk mənşəli sözdür, qurumuş geniş çay vadisi mənası verir. Qazax rayonunda -Ceyrançöldə böyük bir vadi xalq arasında Qara qobu adı ilə tanınır. Monqolustanda Mərkəzi Asiya səhrası Qobi (görünür bizə rus dilindən çatdığına görə Qobi) - qobu səhrası adlanır. Qobustan ərazisi özü də (indiki Qobustan rayonunun mərkəzi Mərəzə qəsəbəsindən Xəzər dənizilə Qobustan qəsəbəsinə, Sumqayıt çayından Pirsaat çayına qədər) təbiət, iqlim və yer quruluşuna görə göstərilən ərazilərlə eynilik təşkil edir.

Qobustan ərazisi şimalda Baş Qafqaz silsiləsinin cənub yamacı, qərbdə Pirsaat çayı, cənubda Hərəmi Mişov dağları, şərqdə Xəzər dənizi və Abşeron yarımadası ilə (Yasamal dərəsi, Çala yeri və Ceyranbatan çökəkliyi) sərhədlənir. Bu ərazinin uzunluğu (şimaldan cənuba) 100 km, eni 80 km-ə yaxındır. Ərazinin orta hündürlüyü 600-700 m-dir, bəzən 1000 m-ə çatan nöqtələri də vardır.

Qobustanın mərkəz hissəsini Ceyrankeçməz çökəkliyi tutur. Geoloji cəhətdən Qobustanın şimal hissəsində təbaşir, qalan sahələrində əsasən Paleogen və Neogen çöküntüləri yığılmışdır. Qafqazda ən böyük palçıq vulkanları Qobustandadır. Qobustan dağətəyi zona olsa da burada qayalıq sıralar çoxdur. Bu çıxıntılar arasında yarımsəhra sahələr inkişaf etmişdnr.

Qobustan quru subtropik iqlimə malikdir. Havanın orta illik temperaturu 12-14,5°-dir. Qışı mülayimdir, yayı isti və quru keçir, bəzən istilik 40°-dən çox olur. Yağıntı əsasən payızın sonundan yazın ortalarına qədər düşür və illik balansı orta hesabla 218 mm-ə bərabərdir.

Qobustanın əsəs çayı onu iki yerə bölən Ceyrankeçməzdir. Suyu şorandır və əsasən yağış suları ilə qidalanır. İsti aylarda tamamilə quruyur. Qobustanın içərilərində də tək-tək şoran qaynamalara rast gəlmək olur. Böyükdaş dağında mənbəyini əhəngdaşından süzülən atmosfer suları təşkil edən su quyuları və bulaq var.

Qobustanda əsasən boz qonur şoran və yuxarı hissələrdə şabalıdı və açıq şabalıdı torpaq sahələri yayılmışdır.

Ərazi bitki örtüyü cəhətdən kasıbdır. Ot örtüyü əsasən payız və yaz aylarında, yağışdan sonra əmələ gələn və istilərin düşməsi ilə quruyur. Yarımsəhra və quru çöl bitkiləri geniş yer tutur. Buraya azömürlü bitkilər (otlar), çoxillik şoran otlar və yovşan daxildir. Xüsusən yaz aylarında yovşan göyərən sahələrdə adda-budda torpağı partladıb qaldırmış, çox dadlı yerdonbalanına rast gəlmək olur.

Qobustanla ağac və kollar əsasən qayalıqlar arasında, kökləri əhəngdaşı qayalarından nəm götürə biləcək yerlərdə bitir. Qayalar arasında vəhşi qızılgül (itburnu), böyürtkən, doqquzdon, ardıc, dağdağan, cır albalı, dovşanalması, iynəyarpaq armud və s. kollarına, eləcə də cırlaşmış əncir, nar və meynəyə də rast gəlmək olur. Cırlaşmış meyvə ağaclarının qayalıqlarda saxlanması qədimdən bu yerlərdə yaşamış əhalinin bağ qalıqlarından xəbər verir. Biz arxeoloji tədqiqatlarla əlaqədar müşahidələrimizdə əncir, nar, dağdağan, meynə kimi meyvə ağaclarının qalıqlarının hər yerdə qədim insan məskənləri ilə əlaqədar olması fikrini yəqin

etmişik (söz yox ki, bu insanların bağçılıq təsərrüfatı yaranan tarixi dövrdən sonraya aiddir). Məsələn, Avey dağının qərb tərəfindəki «Daş salahlı» mağarası ətrafında (mağarada Mustye dövründə - 100-80 min il bundan əvvəl yaşayış olmuşdur) bu kimi bağ meyvələrinin qalıqları yoxdur. Lakin dağın şərq tərəfində Damcılı mağarası və onun ətrafında üst Paleolit, Mezolit, Neolit qalıqları olan sahədə sonrakı tarixi dövrlərdə - Tunc, Antik və ilk orta əsrlərdə də gur həyat olmuş və burada o dövrlərdən qalma çoxlu cır əncir, nar, üzüm, dağdağan ağacları var və indi də bar verir.

Qobustanın nə bitki örtüyü, nə də heyvanat aləmi xüsusi olaraq öyrənilməyib. Bu yerlərin heyvanat aləmi kasıbdır. Hazırda burada canavar, tülkü, boz dovşan, çöl siçanı, tısbağa, kərtənkələ (aqama), koramal, zəhərli ilanlar (əsasən gürzə), quşlardan - kəklik, göyərçin, çöl bülbülü və s. xırda quşlar, həşəratlardan - əqrəb, böy və s. görmək olar. Dənizkənarı zonada və yağmurlu aylarda maldarların heyvanları suvarmaq üçün düzəltdikləri göl və nohurlarda çöl ördəyi, qaşqaldaq və xırda su quşları yuva qururlar.

XX əsrin 40-cı illərinə qədər Qobustan çöllərinin yaraşığı ceyran olmuşdur. Lakin onlar ovlanıb (xüsusən hərbi hissələr tərəfindən U-2 təyyarəsi ilə) qırılmışdır. İndi Qobustanda onlara rast gəlmək demək olar ki, çətindir. Mən şəxsən yalnız bir dəfə, 1976-cı ildə Qobustanın içərilərində Qaynarca deyilən yerdə qazıntıya gedərkən Torağay dağından qərbdə üç ceyran otladığını görmüşəm. Onlar da bizim maşını görüb uzaqlara qaçdılar.

Hazırda Qobustanda kəkliklərin də aqibəti ceyranlarınkına yaxınlaşır. Onlara, ovlandığına görə, az-az rast gəlinir.

Qobustanın müasir dövr üçün təbii şəraiti, bitki örtüyü və heyvanat aləmi haqda qısaca olaraq yuxarıda məlumat verdik. Bəs Qobustanın qədim qayaüstü təsvirləri və başqa tarixi arxeoloji abidələrinin yarandığı keçmiş dövrlərdəki vəziyyəti necə olmuşdur? Necə olmuşdur ki, indi çox quru və kasıb görünən təbiətə malik bu ərazi qədim insanların diqqətini cəlb etmişdir və onlar burada necə yaşamışlar? Oxuculara təqdim etdiyimiz bu yazının məqsədi elə həmin suallara bacardığımız qədər izahlı cavab vermək, qədim dövrlərdən bizə yadigar qalmış abidələrin dili ilə qədim qobustanlıların təsərrüfat həyatı, dini və dünyəvi görüşləri, adət-ənənələri, qədim mədəniyyət sahələrinin tarixi dövrlərdə inkişafı kimi məsələlərdən söhbət açmaq, qədim qobustanlıların kimliyini aydınlaşdırmağa çalışmaqdır.

Qobustanda ərazinin geoloji dövrlərdəki vəziyyətindən danışmaq bizim gücümüz dairəsindən və məqsədimizdən kənardır, bu, geoloqların işidir. Söz yox ki, Qobustan ərazisində (Şərqi Azərbaycan) neft laylarının yaranması, palçıq vulkanının təqribən 1 m dərinlikdən atdığı daşlaşmış ağac qalığının dövrü, keçmiş Duvarını (indi Qobustan) sahəsində neft quyusundan çıxmış və 70-ci illərin əvvəllərində Üçtəpə ərazisində əsgərlər hərbi səngər qazdıqları zaman təpələrin birində aşkar edilmiş balina sümükləri sübut edir ki, okean dövründə Qobustan

ərazisinin quruluşu indiki kimi olmamışdır. O vaxtlar nə Abşeron dənizinin qalıqları olan Qobustan qayaları, nə yanar vulkanlardan əmələ gəlmə Torağay və Kənizə kimi əzəmətli dağlar vardı. Qobustanın indiki görkəmi geoloji cəhətdən çox cavandır, onun formalaşma və dəyişilmə prosesi indi də davam edir. Söz yox ki, bu dəyişikliklərin şahidi olmaq üçün bir insan ömrü kifayət deyildir, hətta bir neçə min il də o qədər hiss olunan deyil. Belə ki, Kənizə vulkanı sonuncu dəfə 1950-ci ilin may ayında püskürmüşdür. Bu yaxınlarda (15-20 il ərzində) Ələt yaxınlığında Ayranaxan dağının, Lökbatan vulkanının, Seyildağ və s. palçıq zulkanlarının püskürməsinin şahidi olmuşuq. Arxeoloji tədqiqatlar zamanı qədim insanların yaşayış üçün istifadə etdikləri sığınacaqları əmələ gətirmiş, eləcə də üzərində qədim təsvirlər qalmış qayaların yerdəyişməsi, çevrilməsi və s. kimi dəyişikliklər qeydə alınmışdır ki, bunlar Qobustan ərazisində geoloji inkişaf prosesinin aktivliyini göstərir. Göstərilən dəyişikliklərin bəziləri haqda (qayaların yerdəyişməsi) işin gedişində, xüsusilə tarixi abidə və qayaüstü təsvirlərin dövrünün dəqiqləşdirilməsi ilə əlaqədar məlumat verəcəyik.

Qayıdaq Qobustanın bizi maraqlandıran keçmişinə - yəni Qobustan abidələrinin yaranma dövrünün şəraitinə. Yəqin oxucuları maraqlandırır ki, min illər bundan əvvəl mövcud olmuş şəraiti necə bilmək olar? Elə Qobustanın özündə də bu mümkündürmü?

Bəli, mümkündür. Müxtəlif sahələr üzrə kompleks elmi axtarışlar və (geoloji, arxeoloji, paleontoloji, paleocoğrafi, etnoqrafik və s.) tədqiqatlar əsasında onları məntiq maşınından keçirməklə.

Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqatların nəticələri göstərir ki, burada -Böyükdaş və Kiçikdaş dağları sahəsində qədim insanın yaşaması tarixi üst Paleolit dövrünün sonu, Mezolit (orta daş) dövrünün əvvəllərindən, ümumən 15 min il əvvəlki dövrdən başlayır. Ola bilsin ki, ondan da 3-5 min il əvvəl buraya insan ayağı dəymişdir və hələlik o dövrün düşərgəsi qayalıqların altında qalmış və ya sadəcə olaraq aşkar olunmamışdır. Lakin 30 illik tədqiqat və müşahidələrim əsasında Qobustanda həyat izinin ondan daha qədimdə olmasını güman edə bilmərəm.

Ümumiyyətlə, həyatın başlanması, özü də ibtidai-daş dövrü insanlarının yaşaması üçün mütləq lazımi şərait olmalıdır. Bu şərait ilk növbədə ibtidai insanlar üçün iqlim şəraiti və qida mənbəyinin əlverişliliyi və bolluğu ilə şərtlənir. Demək, əgər 15-20 min il bundan əvvəl Qobustanda həyat başlanıbsa, burada lazımi şərait olub, bu ərazi indiki kimi quru və susuz, bitki və heyvanat aləmi isə kasıb olmayıb.

Qobustan indinin özündə də, bitki örtüyü və heyvanat aləminin kasıb olduğu dövrdə də insanı cəlb edir. Bunu hiss etmək üçün Qobustan torpaqlarına səfərə çıxmaq, onun dağlarına, düzlərinə ayaq basmaq, palçıq vulkanlarının kraterlərindəki «pil-pilə»lərə tamaşa etmək gərəkdir. Bəs keçmişdə?

Qobustan qayaları üzərində çəkilmiş heyvan təsvirlərinin çoxnövlülüyü göstərir ki, o vaxt Qobustan ərazisində gur, ceyran, ibtidai öküz, dağ keçisi, maral

və s. sürüləri olmuşdur. Bu heyvanların burada yaşaması üçün ərazi bol yem ehtiyatına, sıx bitki örtüyünə malik olmalı idi. Belə olmasa idi, qayalarda təksir edilmiş və arxeoloji qazıntılar zamanı sümük qalaqları tapılmış heyvanlar bu ərazidə yaşaya bilməzdi. Qədim Qobustanda nəinki bol bitki örtüyü, savanna tipli, bəlkə də daha sıx meşə də olmuşdur. Arxeoloji qazıntı zamanı «Ana zağa» adlanan Daş dövrü yaşayış yerindən aşkar olunmuş ocaq yerindən götürülmüş kül-kömür qalığı analiz olunarkən burada şam və palıd ağacları da yandırıldığı müəyyənləşdirilmişdir. Bunu necə izah edək? Qobustanın Daş dövrü adamları yandırmaq üçün uzaq şimal ərazilərindən və Böyük Qafqazdan palıd odunu gətirmişlər? Özü də elə bir zamanda ki, hələ heyvanlar əhliləşməmiş, heç bir nəqliyyat vasitəsi olmamışdır. Yoxsa, ocaq üçün palıd və şam ağacını yüz kilometrlərlə məsafədən çiyinlərində gətirmişlər? Əlbəttə, yox, Qobustanda qayalar arasında indi də şam ağacları fəsiləsinə mənsub ardıc kollarına rast gəlmək olur. Söz yox ki, göstərilən ağaclar vaxtilə Qobustanda olmuş və son minilliklər ərzində iqlimin dəyişməsi, münbitliyin azalması, bəlkə elə Xəzər dənizində «yeni kaspi» dövrü dəniz qalxmasının təsiri ilə şimala və qərbə tərəf çəkilmişdir.

Qobustan qayalarındakı qaban və qaban ovu səhnəsi vaxtilə burada bu növ heyvanın yaşadığını göstərmirmi? Qobustanda dəniz kənarında və çay yataqlarında onların qidalanması və yaşaması üçün qamışlıqlar olmuşdur. Şübhəsiz ki, qayalarda təsviri saxlanmış gəmiləri düzəltmək üçün qarğı və qamış heç də uzaq məsafələrdən gətirilməmişdir.

Bütün bunlar qədim Qobustanda təbii şəraitin insanların yaşaması üçün tam əlverişli olduğunu göstərir. Bu cür şərait Qobustanda, eləcə də Şərqi Azərbaycanda və Abşeronda Qobustandakı həyatın bizə məlum olmuş tarixindən çox-çox minillər əvvəl yaranmışdı. Binəqədidə aparılmış qazıntılar zamanı qurumuş qır gölündən Pleystosen dövrünə aid çoxlu fauna və flora qalıqları aşkar edilmişdir. Burada 40 növ məməli heyvanların, 110 növ quş, 22 növ bitki qalığı qeydə alınmışdır. Onurğalı və onurğasız heyvan və həşəratların müxtəlifliyi minlərlədir. Bütün bunlar da keçmişdə Şərqi Azərbaycanda, Abşeronda və yəqin ki, onunla bilavasitə qonşu Qobustan ərazisində də həyat üçün şəraitin çox qədim zamanlarda yaranmış olduğunu göstərir. Nəzərə alsaq ki, bu ərazilər həm də qiymətli balıqlarla (xəşəm, nərə, kütüm, ziyad, bölgə və s.) zəngin Xəzər dənizi sahilindədir, deməki, qədim qobustanlıların balıqçılıqla məşğul olmaq üçün də geniş imkanları olmuşdur. Qayalarda təsvir edilmiş gəmi və balıq təsvirləri, qazıntılar nəticəsində tapılmış balıqçılıq alətləri və balıq sümüyünün qalıqları da bunu sübut edir. Onlar haqda söhbətimiz sonradır.

Qobustanda həyatın bu qədər qədimdən başlaması və Qobustan mədəniyyətinin bu qədər zənginliyi, uzun minillər boyu davam və inkişaf etməsinin qanunauyğunluğuna şübhə qalmır. Axı ovçuluq bol ov olan yerdə, həyat, yaşayış üçün şərait olan yerdə, mədəniyyət də yaşayışın tam təmin olunduğu,

insanların onun inkişafı üçün imkan və vaxtları olduğu şəraitdə daha tez və sürətlə inkişaf edə bilər. Bütün bunlar göstərir ki, Qobustan qayaüstü təsvirlərinin yaranması bu ərazidə minillər davam etmiş əlverişli şəraitdə, bu yerlərin qədim sakinləri, Azərbaycan xalqının babaları tərəfindən yaradılmış və minillər ərzində qayalardan gəlib-gedənlərə, nəvə-nəticələrinə baxmışdır.

Lakin XX əsrin ortalarına qədər Qobustanda qədim insan düşərgələrində torpaq altında qalmış maddi mədəniyyət qalıqları nəinki elm aləminə məlum olmamış, qayalardan bizə baxan qədim təsvirlər də heç kəsi maraqlandırmamışdır. Onlardan bir qrupu - Yazılıtəpə təsvirlərinə görə bu yerlər pirə çevrilsə də bu haqda elm aləminə xəbər verən olmamışdır.

## QOBUSTAN QAYAÜSTÜ TƏSVİRLƏRİNİN AÇILMASI TARİXİNDƏN

Qobustanın qədim qayaüstü təsvirləri haqda ilk məlumat 1938-ci ildə alınmışdır. Qobustan qayaüstü təsvirlərinin ilk tədqiqatçısı Azərbaycanın əməkdar elm xadimi, mərhum İshaq Cəfərzadənin dediklərindən: «1938-ci ilin noyabr ayında Azərbaycan Xalqlar Dostluğu Muzeyinin (indiki Azərbaycan Tarixi Muzeyi) ekspozisiyasına baxmağa gəlmiş maşın-təmiri trestinin mexaniki Dmitri Antonoviç Antopov adlı bir nəfər muzeyin işçilərinə (o zaman İshaq müəllim də muzeydə işləyirmiş) danışır ki, 1924-cü ildə Kabristan ərazisində ovda olarkən söngəçal dəmiryol stansiyasından təxminən 10-15 km qərb tərəfdə üzunsov və düz zirvəli yastı bir dağın (Cingirdağ nəzərdə tutulur) ətəyindəki nəhəng bir qaya parçası üzərində əlində nizə tutmuş atlı təsviri və ona məlum olmayan qrafika ilə yazı, bu yerdən 7-8 km şimalda, Miyəcik qəsəbəsindən (vaxtilə neft kəşfiyyatçıları üçün salınmış bu qəsəbənin indi yalnız geri qalıb) bir qədər şimal, qərbdə köhnə bir karvansaranın uçuqlarını görmüşdür» (Bu karvansara XV əsr karvansaralarından biridir. O xalq arasında Qaraçı karvansarası adı ilə məlumdur və Azərbaycanda memarlıq abidələri siyahısına daxildir).

Antonovun bu məlumatına qədər nəinki Qobustanda, ümumən Azərbaycanda qədim qayaüstü təsvirlərin olması haqda heç bir məlumat yox idi. Ona görə də bu məlumat muzey işçilərini olduqca maraqlandırdı. Lakin məlumatın yoxlanılması məsələsi bir qədər mürəkkəb idi. Tarix muzeyinin belə bir məlumatı yoxlamaq üçün səfər təşkil etməsi bir sıra maddi və texniki imkanların azlığı üzündən çətin idi. Ona görə də 1939-cu ilin ilk aylarında bu haqda SSRİ EA Azərbaycan filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun müdiriyyətinə məlumat verilir. Tarix İnstitutu məsələnin əhəmiyyətini nəzərə alaraq 1939-cu il may ayının 12-də məlumatları, onların tarixi əhəmiyyətini yoxlamaq üçün Qobustan zonasına bir günlük səfər təşkil edir.

Qobustana ilk elmi səfərin iştirakçıları çox çətinliklə olsa da Cingirdağın ətəyinə gəlib Yazılıtəpədə Antonovun dediyi süvari təsvirini tapmış və ətrafdakı bir

neçə qayada çox iri ölçülü dağ keçisi təsvirləri olduğunu qeydə alıb Bakıya qayıtmışlar.

Bu səfərdən 5 gün sonra 17-20 may 1940-cı il tarixdə Qobustan ərazisinə 4 gün davam edən ikinci səfər təşkil edilmişdir. İ. Cəfərzadədən başqa İ. P. Şeblikin, N. Q. Mel (Korçakova), Y. A. Paxomov və muzeyin iki işçisinin də iştirak etdiyi bu səfər zamanı Antonovun göstərdiyi Miyəcik (və ya Qaraçı) karvansarasından başqa Puta dəmiryol stansiyası yanındakı karvansaraya (Yenqi-yeni), Səngəçal, Ağ-Arqun karvansaralarına, Sofu Həmid pirinə, Ceyrankeçməz çayı üzərindən karvan körpüsünə və s. abidələrə də baxılmışdır,

Qobustan ikinci səfərdə yenidən Cingirdağın ətəyindəki Yazılıtəpədə daha bir neçə şəkilli qaya aşkar edilib qeydə alınır, yerli əhali (bu ərazidə olan qışlaqların maldarları) ilə söhbətlər aparılır və çobanlar deyirlər ki, Yazılıtəpədə daşlar üzərindəki şəkillərdən Kənizə dağından cənub tərəfdə, Duvannı dəmiryol stansiyasından (indiki Qobustan qəsəbəsi) qərb və cənub-qərb tərəfdəki Böyükdaş və Kiçikdaş dağlarının qayaları üzərində də vardır.

Cəfərzadənin dediyinə görə, ilk dəfə (I səfərdə) buradakı maldarlar və onların ailə üzvləri arxeoloqlara yaxın gəlmək istəməmişlər. Lakin onların nə məqsədlə gəldiklərini bildikdən sonra kömək etməyə, yeni abidələr haqqında məlumat verməyə başlamışlar. Qaraatlı piri və Qaraatlı qəbiristanlığındakı daş atlı heykəli haqda əfsanə də danışmışlar.

İkinci səfər zamanı alimlər Kiçikdaş dağı ərazisində, Qaraatlı qəbiristanlığı yaxınlığındakı bir neçə qaya üzərində də qədim şəkillər aşkar edir, pirin özünü də nəzərdən keçirərək Bakıya qayıdırlar.

Bir neçə kəlmə Qobustan qayaüstü təsvirlərinin kim tərəfindən aşkar olunması haqqında. Yuxarıda göstərdiyimiz kimi mexanik D. Antonovun məlumatından sonra Qobustan qayaüstü təsvirlərinin tədqiqi ilə ilk İ. M. Cəfərzadə məşğul olmuşdur. Lakin ədəbiyyatda bu işi öz adı ilə bağlamaq fikrində olanlara da rast gəlmək olur. Bu səpkidə iki tapılmış paleontoloqun - N. K. Vereşakin və N. O. Burçak-Abramoviçin yazıları vardır. Onların birgə nəşr etdirdikləri iki məqaləsi və Vereşakinin tək nəşr etdirdiyi kitabçasında (bax: ədəbiyyat siyahısı) göstərilir ki, 1945-ci ilin yazında onlar «Qızılqum» və «Kiçikdağ (Böyükdaş və Kiçikdaş dağları nəzərdə tutulur) qayaları üzərində şəkillər qeydə almışlar və sonra İ. M. Cəfərzadəyə məlumat vermişlər. Məqalədə Böyükdaş dağı sahəsindəki bir sıra qədim təsvirlərin (o cümlədən dağın ətəyindəki 8 №-li daşdakı məşhur «Tiqris» tipli gəmilərin də) şəkillərini və bəzi izahatlar vermişlər. Qeyd edək ki, abidənin aşkar edilməsi arxeoloji cəhətdən onu birinci dəfə qeydə alan tədqiqatçının adı ilə bağlanır. Əlbəttə, böyük sahəli abidələrdə əsas tədqiqatçıya kömək edən hər bir ekspedisiya iştirakçısının tapdığı ayrı-ayrı tapıntılar da bilavasitə tədqiqatçının adına çıxılmalıdır. Qobustanda müxtəlif illərdə İshaq müəllimlə yanaşı ekspedisiya iştirakçılarının hər biri üzərində qədim rəsm saxlanmış bu və ya digər daşı ilk dəfə aşkar etmişdir. Elə mən özüm İshaq müəllimin kolleksiyasına 200-dən çox daşın

əlavə olunmasına kömək etmişəm. Böyük Qobustan ərazisinə daxil olan Şıxqaya və Şonqardağ sahələrində yeni kolleksiyaları ilk dəfə aşkar etməyimə baxmayaraq Qobustanda qədim qayaüstü təsvirlərin ilk tədqiqatçısı İ. M. Cəfərzadədir. Qədim təsvirlərin axtarışı üçün ilk təşəbbüsü də o irəli sürmüş, bu işə də o başlamışdır.

N. K. Vereşakin yazır ki, Böyükdaş dağında qədim şəkillər tapılmış sahəni 1945-ci ildə Bakı arxeoloqu İ. Cəfərzadəyə mən göstərdim və o, 1947-ci ildən onların qeydə alınması və öyrənilməsini təşkil etdi. (Н. К. Верешагин. Записки палеонтолога. Л., 1981, cəh. 49-50). İshaq müəllim isə öz əlyazmasında yazır (sağlığında da deyirdi) ki, Azərbaycan EA Təbiət Tarixi Muzeyinin paleontolotu N. O. Burçak-Abramoviç və Zoologiya İnstitutunun əməkdaşı N. K. Vereşakin 1945-ci ilin yazında Cingirdağ və Yazılıtəpədə qədim qayaüstü təsvirlərə baxmağa getmişdilər. Qayıdandan sonra onlarla qədim təsvirlərin tarixi, eləcə də Böyükdaş və Kiçikdaş dağları ərazisində də bu cür təsvirlərin olması haqda söhbətimiz oldu. Onlara Qaraatlı piri, oradakı 200-300 yaşlı ardıc ağacları və s. haqda da məlumat verildi. Burçak-Abramoviç və Vereşakin Böyükdaş dağında 1946-cı ildə Tarix İnstitutu tərəfindən Qobustana yoxlama səfərinə Tarix İnstitutunun işçiləri İ. P. Şebligin, O. Ş. İsmizadə, İ. M. və S. K. Cəfərzadələrlə birgə iştirakları zamanı olmuşlar.

Bəli, bu cür dolaşıqlıq əmələ gəlir. Böyükdağa dağında qədim qayaüstü təsvirləri ilk dəfə kim görüb? Burçak-Abramoviç və Vereşakinə görə onlar, 1945-ci ilin yazında. Cəfərzadəyə görə, 1945-ci ildə onlar Böyükdaş dağında qədim şəkillər olması haqda məlumatı ondan almışlar və 1946-cı ildə şəkilləri (öküz, insan, gəmi rəsmlərini) birgə görmüşlər.

Onu qeyd etmək istəyirik ki, Qobustanda qədim qayaüstü təsvirlərin varlığının ilk dəfə Cəfərzadə tərəfindən qeydə alındığını Burçak-Abramoviç və Vereşakinin özləri də etiraf edərək birinci məqalələrinin ilk səhifəsinin ikinci abzasında yazırlar: «Kabristanın qayaüstü təsvirləri ilk dəfə arxeoloq İ. M. Cəfərzadə tərəfindən Səngəçal dəmir yol stansiyasından 10 km qərbdə, Cingirdağ yaxınlığında aşkar edilmiş və ədəbiyyatda (1, 3, 7, 10) göstərilmişdir». Beləliklə, Qobustanda tədim qayaüstü təsvirlərin varlığının aşkar edilməsi Azərbaycanın qocaman arxeoloqlarından mərhum İshaq Cəfərzadəyə aid olması şübhə doğurmur.

Söz yox ki, 1939-40-cı illərdə varlığı məlum olmuş qayaüstü təsvirlərin elmin tələbi səviyyəsində öyrənilməsi adi səfərlərlə mümkün deyildi. Bu iş planlı şəkildə 1941-ci ildən görülməli idi. Lakin ikinci dünya müharibəsinin başlanması bu işin vaxtında təşkil olunmasına mane oldu. 1945-ci ildə müharibənin qurtarması ilə Qobustanda qayaüstü təsvirlərin də öyrənilməsi yada düşür. Bu işi öz üzərinə götürmüş İ. Cəfərzadə Qobustana xüsusi ekspedisiya planlaşdırır. Azərbaycan Respublikası EA A. Bakıxanov adına Tarix İnstitutunun ilk ekspedisiyası 1947-ci ildə təşkil olunur və sonrakı illərdə (1948, 1950, 1951, 1954, 1960, 1961, 1963, 1964, 1965) də davam edir. Lakin 1965-ci ildə ekspedisiya Qobustana çatandan 2 gün sonra İshaq müəllim xəstələnərək Bakıya qayıtdı və ömrünün sonuna kimi bir

daha ekspedisiyaya yollana bilmədi. 1965-ci ildən Qobustan arxeoloji ekspedisiyasına rəhbərlik bu sətirlərin müəllifinin üzərinə düşdü. Mən Qobustan ekspedisiyasının tərkibində 1960 və 1961-ci illərdə də «Ovçular zağası» adlı qədim sığınacağın arxeoloji qazıntısında köməkçi kimi iştirak etmişdim. 1965-ci ildə isə ekspedisiyaya köməkçi kimi yox, qədim düşərgədə qazıntı aparmaq üçün dəvət olunmuşdum. Beləliklə, Cəfərzadədən sonra onun tədqiqatlarının arxeoloji qazıntılarla bağlı hissəsini mən aparmalı oldum. 1965-66-cı illərdə yalnız arxeoloji qazıntı işləri ilə məşğul olur, İshaq müəllimin sağalaraq qayaüstü təsvirlərin qeydiyyatı, təsviri və tədqiqi ilə məşğul olacağını gözləyirdim.

1966-cı il sentyabr ayının 9-da Qobustanda qədim qayaüstü təsvirlər saxlanmış və qədim arxeoloji abidələr, düşərgələr qeydə alınmış Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və Yazılıtəpə ərazisi Respublika Nazirlər sovetinin 509 №-li qərarı ilə Dövlət tarixi-bədii qoruğu elan edildi və 1967-ci il fevralın 1-dən müəllifə mütəxəssis kimi Mədəniyyət Nazirliyi nəzdində yaradılmış bu qoruğu təşkil və rəhbərlik etmək işi tapşırıldı. Bundan sonra Qobustan ekspedisiyası Tarix İnstitutu və Qobustan qoruğu tərəfindən müştərək ekspedisiya kimi indiyə kimi də davam etməkdədir.

## QOBUSTANDA İLK AXTARIŞLAR

Qobustan, ərazisi çoxlu sönmüş və bəzən hələ də püskürən palçıq vulkanına, əhəng daşı örtüklü və ya qumlu çıxıntılardan ibarət alçaq dağlara, qobularla şırım-şırım bölünmüş geniş yaylalara malik çox qədim və ekzotik bir diyardır. Bu məkanın adı indi dildən-dilə gəzir, onu eşitməyən, bu yerlərin ulu babalarımızın yurdu olmasını bilməyən adam indi çətin tapılar. Qobustan sözünü bütün xalqların dillərində səsləndirən, Qobustanın başını uca edən buradakı çox qədim tarixə və mənəviyyata malik xalqımızın abidələr xəzinəsinin varlığıdır. Bu xəzinənin yaranma tarixi orta daş (mezolit) dövründən başlayır. Bütün sonrakı tarixi dövrlərdə də inkişaf edərək zənginləşən bu xəzinə babaların yaratdığı qədim qayaüstü təsvirlər və qazıntılar nəticəsində aşkara çıxarılmış əmək alətləri, silah nümunələri, təsərrüfat, məişət və bəzək əşyaları və s.-dən ibarət arxeoloji qalıqlardır.

Gəlin bu xəzinəyə nəzər salaq. Qobustana baş çəkək, abidələrlə tanış olaq, onların tarixi, necə və nə məqsədlə, kimlər tərəfindən yaradılması haqqında söhbət açaq, onları dindirməyə - oxumağa çalışaq. Bir də ki, bu abidələr necə aşkara çıxarılmış, axtarışlar, tədqiqatlar necə aparılmış, bu yoldakı müvəffəqiyyətlər və çətinliklər, onları dadan və səfasını çəkənlər, əmək sərf edənləri də hörmətlə yada salaq.

Qobustan abidələrinin öyrənilməsi ilə, qeyd etdiyimiz kimi, Tarix İnstitutunun Qobustan arxeoloji ekspedisiyası məşğul olmuşdur. 1960-cı ilə qədər ekspedisiya Yazılıtəpədə 13 №-li daşın altındakı sığınacaqda apardığı nəticəsiz

qazıntını nəzərə almasaq əsasən qayaüstü təsvirlərin axtarılıb tapılması, qeydiyyata alınması və şəkillərin surətinin təbii ölçüdə estampının çıxarılması ilə məşğul olmuşdur. Ekspedisiyaya İshaq müəllim başçılıq etmiş, ona isə müxtəlif illərdə texniki və yardımçı işçilərlə yanaşı institutun elmi işçilərindən – mərhum arxeoloqlarımızdan Osman Həbibullayev, Ömər İsmizadə, Nina Minkeviç, eləcə də ekspedisiyanın daimi üzvü, İshaq müəllimin həyat yoldaşı, rəssam Səfiyyə xanım Səfərzadə kömək etmişlər. Sonralar Naxçıvanda məşhur Kültəpə abidəsi və Naxçıvan abidələrinin ilk görkəmli tədqiqatçısı Osman müəllim də, Yaloylu təpə mədəniyyətinin, Mil düzündə Qaratəpə abidəsinin, Bakı orta əsr qalıqlarının tədqiqatçısı Ömər müəllim də, Mingəçevirdə, Örənqalada arxeoloji qazıntıların iştirakçısı, Xocalı-Gədəbəy mədəniyyətinin tədqiqatçısı Nina Vladimirovna da Qobustan qayaüstü təsvirlərinin aşkara çıxarılmasına böyük əmək sərf etmişlər. Allah onlara rəhmət eləsin.

O illər ekspedisiya xüsusən ağır şəraitdə işləmişdir. Ekspedisiya üzvləri alaçıqda yaşayır, ocaqdan istifadə edirdilər. İş yaz-yay aylarında aparıldığından gecələr hətta qaranlıqda oturardılar, çünki neft lampası olsa da işığa həşərat (qurd-quş) yığıldığı üçün ondan istifadə etmək təhlükəli idi. Axı ilin o vaxtı ətrafda hər daşın altında əqrəb, hər daşın kölgəsində böy, zəhərli ilan görmək olur. O zaman isə qayaüstü təsvirləri olan Böyükdaş, Cingirdağ sahələri insan nəfəsindən uzaq idi. Səfiyyə xanım danışırdı ki, «çox vaxt səhər tezdən qalxdıqda görərdik ki, yaxınlıqdakı düzdə bir dəstə ceyran otlayır. Sonra bizim tərpənişimizi və ekspedisiyaya qulluq edən maşının səsini duyub Kənizə dağından keçib, Qobustanın içərilərinə qaçardılar».

İshaq müəllim danışırdı ki, bir dəfə iyun ayında çox isti idi, günün istisindən daşlar, qayalar qızıb ətrafa istilik yayırdı. Yoldaşlarla hərəmiz dağın bir tərəfində daşlarda şəkil axtarırdıq. Mən Böyükdaş dağının yuxarı səki sahəsindəki bulağa yaxın yerdə idim. Gün günortaya qalxmışdı, bərk yorulmuşdum. Bulağa gedib əl-üzümü yudum, su içdim və yaxınlıqdakı iri bir qayanın kölgəsində oturdum ki, bir az dincəlim. Birdən yaxınlıqda güclü bir hənirti eşitdim. Dönüb bulağa tərəf baxanda belinin tükləri yolunmuş nəhəng bir yalquzaq qarşımda durdu. Biri-birimizlə göz-gözə gəldik. Doğrusu bərk qorxdum. Elə bil dilim tutulmuşdu, səsimi çıxara bilmədim. Deyəsən canavar da məndən qorxmuşdu, tez dönüb qaçdı. O bir qədər aralandıqdan sonra qışqıra bildim.

Ekspedisiya üzvlərinin ilk illərdə necə gərgin şəraitdə işlədiyini təsəvvür etmək üçün İshaq müəllimin bir söhbətini də vermək istəyirəm.

Söhbət ilanlardan gedir, Qobustan ilan olan yerdir. Oxucular diksinməsin deyə əvvəlcədən onu deyim ki, ilan zəhəri ilə nə qədər dəhşətli görünsə də o qədər də xeyirli və sülhsevər heyvandır. Düzü, əvvəllər ilan görən kimi öldürməyə çalışırdım. Öldürüb günaha batdığım vaxtlar da çox olub. İlandan heç vaxt qorxmamışam, lakin ölüsünə də əl vurmaqdan çəkinir, diksinirəm. Sonralar qəti yəqin etdim ki, ilanı tapdamasan, onu bilə-bilə və ya görmədən çıxılmaz

vəziyyətdə qoymasan, yəni onun qaçmağa yeri olmadıqda üstünə getməsən qorxulu deyil, özü aralanıb çıxıb gedər.

İshaq müəllim danışırdı: «Dəyəmiz Böyükdaş dağının aşağı səki sahəsində, 1 №-li şəkilli daşın yaxınlığında idi. Ekspedisiyaya elmi, texniki işçilər və sürücüdən başqa xörəyimizi bişirmək üçün İsmət adlı yaşlı bir qadın da götürmüşdük. Biz hamımız səhər çayından sonra qayalıqlara dağılıb şəkilli daş axtarmaq, tapılmış daşları işləməklə məşğul olurduq. İsmət xala isə evdə - alaçıqda qalır, yır-yığış edir, xörək hazırlayır, qabları yuyurdu (1-ci tablo,. şəkil A).

Böyükdaş dağı şərq tərəfdən amfiteatr formasındadır. Alaçığımız dağın aşağı hissəsində elə bil səhnədə idi. Dağın hər yerindən görünürdü. Mən hər dəfə alaçığa tərəf baxanda İsmət xalanı, işi olsa da olmasa da bayırda, alaçığın yanında, günün altında görürdüm. Bir dəfə ondan soruşdum ki, nə üçün həmişə günün altında oturursan, gün yandırmırmı? O adamların yanında cavab vermədi. sonra axşama yaxın, yoldaşlar dincələrkən yanıma gəlib dedi: «İshaq qardaş, vallah deməyə də dilim gəlmir, siz işə gedənə kimi mən lazımı qab-qacağı və ərzağı alaçıqdan çıxarıb ocağın yaxınlığındakı qayanın dibinə yığıram. Axı, gündüz mən alaçığa girə bilmirəm». Sonra nəql etdi ki, 10 gündən çoxdur siz yığışıb işə, çölə gedəndən sonra, o qayalığın dalından uzunluğu təxminən metrə yarımdan çox, belinin eni dörd barmaq olan iri bir ilan gəlir, alaçığa girir, qalxır Ninanın yığma çarpayısına və burulub yatır. Bir də sizin gəlmək vaxtınıza az qalmış sürünüb gedir.

İshaq müəllim deyirdi: «Mən onda başa düşdüm ki, biz gələndən bir neçə gün sonra, özümüzlə gətirdiyimiz pişik balasının itməsinin də bir neçə gün qabaq, biz alaçıqda qalarkən çarpayıların altındakı tapıltının da səbəbkarı bu imiş. Lakin Nina Bladimirovna qorxar deyə biz bu sirri Bakıya çatana kimi açıb ona demədik, eləcə də ekspedisiyanı başa vurub getdik, ilan isə orada qaldı».

Səfiyyə xanımın danışdıqlarından: «İshaq məni çox işlədirdi. Elə bil Qobustanda bütün qayaüstü şəkillərin surətini bir gündə qurtarmalıyammış? O vaxtlar cavan olsam da yorulurdum. Elə vaxt olurdu ki, böyük daşlardakı çoxşəkilli səhnənin surətini çıxarmaq üçün saatlarla dayanmadan, özü də qızmar günəş altında işləməli olurduq. Odur ki, iman olan kimi qayanın kölgəsində uzanıb dincələrdim. Bir dəfə beləcə, qayanın kölgəsində gözümə yuxu gedir. Bir də gördüm ki, İshaq alçaq və yumşaq səslə deyir: - Səfa, ay Səfa, məni eşit amma tərpənmə, o yan bu yana dönmə, yavaş-yavaş aşağı, ayağına tərəf sürüş. Əvvəl yuxulu olduğumdan elə bildim yuxu görürəm. Sonra gördüm İshaq yenə dediklərini təkrar edir. Yavaş-yavaş ayıldım. delim: - Nə olub, nə deyirsən? – və qalxdım. O dedi: - heç, daha heç nə, qurtardı, qalx. Və davam etdi: - Qorxma, sən yatmışdın, başının üstündə, təxminən 50-60 sm aralını göstərib, -burada da qınrılıb bir gürzə yatmışdı. Qorxurdum ki, səni çalar. Görünür ya mənim səsimdən, ya da sənin tərpənməyindən o da ayılıb sürünüb getdi».

Belə bir hadisənin şahidi mən özüm də olmuşam. 1975-ci ildə yayın ortasında, bir gün «Kənizə» düşərgəsində qazıntıdan sonra, axşam sərinində Qobustan qoruğu binasının cənub balkonunun qapıüstü kiçik örtünün altında Firuzə xanım stulda oturub dincəlir, mən ondan qərb tərəfdə əyilərək yuyulub sərilmiş qazıntı materiallarına baxırdım. Uşaqlarımız (oğlum və qızım) isə balkonun şərq hissəsində oynayırdılar. Birdən bir tappıltı eşitdim və başımı qaldırana kimi Firuzə bərk qışqırdı. Elə bu vaxt yanımdan bir nazik uzun ilan şütüyüb balkondan kənara atıldı. İlan balkonun tavanından sarafanda oturmuş Firuzənin açıq çiyninə düşmüşdü. Firuzə əvvəl elə bilib ki, çiyninə haradansa ip sürüşüb düşüb. Sonra baxıb görəndə ki, çiynindən düşən ilandır, qışqırmışdı. O ilana biz ox ilan deyirik. Qobustanda çox cəld, güllə sürəti ilə sürünən bu ilan zəhərsizdir, qorxulu deyil, lakin bu vəziyyətdə onun qorxusuz olmasını özü də qadına, eləcə də ilandan qorxan kişiyə, başa salmağa nə qədər vaxt lazımdır??

Əlbəttə, belə «təhlükəli» yerdə (axı çox adam ilan sözündən diksinir), göydən günəş, aşağıdan qızmış qayalar yandıran bir şəraitdə işləmək, bu şəraitdə qədim şəkillərin estamp surətini düzgün köçürtmək üçün estamp kağızını qaya üzərində saatlarla saxlayıb dayanmaq çox ağır iş, qəhrəmanlıqdır. Bəlkə də Qobustan ekspedisiyasının keçmiş üzvlərindən heç kəsin Qobustan abidələri üzrə ixtisaslaşması onların tədqiqi ilə məşğul olmaq istəmədiklərinin səbəblərindən biri də burada iş şəraitinin ağırlığı olmuşdur?

Qobustan başdansovdu tədqiqata sirr vermir. Qobustan abidələrini öyrənmək, onların sirlərinə yiyələnmək üçün Qobustan şəraitində işləmək, bu şəraitə dözmək, hətta qayalar arasında dolaşmağı sevmək gərəkdir.

1960-cı ildə Böyükdaş dağında Qobustan arxeoloji ekspedisiyası üçün tikilən 5 otaqlı baza -evin hazır olması ekspedisiyanın iş şəraitini xeyli yüngülləşdirdi. İndi bu binada, Qobustan qoruğunun bazası kimi həm Qobustanda aparılmış arxeoloji qazıntıların materiallarından ibarət qoruğun arxeoloji fondu yerləşir, həm də ekspedisiyanın fəaliyyətini əks etdirən sərgi -ekspozisiya fəaliyyət göstərir.

1960-cı ildən Qobustanda nəticəli arxeoloji qazıntı işlərinə başlanmışdır. Mən ona görə nəticəli deyirəm ki, buna qədər yuxarıda adını çəkdiyim Yazılıtəpə sahəsində 13 №-li daşın altında və ona yaxın bir neçə yerdə aparılmış yoxlama qazıntıları, Böyükdaş dağında 23, 29 və 65 №-li daşların dibində qədim şəkillərin torpaq basmış aşağı hissəsini açıb təmizləmək üçün aparılmış kiçik qazıntılar Qobustan qayaüstü təsvirlərinin dövrü mənsubiyyəti ilə əlaqədar tutarlı elmi dəlil verməmişdi. Bu baxımdan qayaüstü təsvirlərin dövrünü müəyyənləşdirməyə dəyən, ilk elmi nəticələrə imkan verən arxeoloji qazıntı İ. M. Cəfərzadənin rəhbərliyi altında Böyükdaş dağının yuxarı səki sahəsindəki «Ovçular zağası» adlandırılan daşaltı sığınacaqda başlandı və 1961-ci ildə də davam etdirildi.

1960 və 1961-ci illərdə Qobustan arxeoloji ekspedisiyasının iştirakçılarından 2 nəfər - Kostin familiyalı hərbi mütəxəssis və Tarix İnstitutunun

topoqrafi Kərimov Gümüş Qobustanda şəkilli da yerini topoplana salmaqla, İshaq müəllimin həyat yoldaşı, institutun rəssamı Səfiyyə xanım Qobustanın qədim qayaüstü təsvirlərinin estamp surətini çıxarmaqla məşğul olurdu. O illər Səfiyyə xanıma institutun laborantı, sonra Qobustanın Tunc dövrü abidələrinki tədqiqi üzrə elmi dərəcə almış, Qobustandan yeganə elmlər namizədi Firuzə Muradova kömək edirdi. Sonra müəlliflə ailə qurmuş Firuzə xanım 1965-ci ildən Qobustanda bütün arxeoloji qazıntıların iştirakçısı olmuşdur. Mən, tarix elmləri namizədi H. Kəsəmənli ilə «Ovçular zağasında» arxeoloji qazıntıda işləyirdim. Qeyd edim ki, bu qazıntıya mən bir növ mütəxəssis kimi kömək edirdim. Belə ki, əvvəlki illər Qazax rayonunda Lvey dağındakı «Daş salahlı», -«Damcılı» və Dağlıq Qarabağda «Azıx» mağaralarında Paleolit dövrü arxeoloji qazıntılarında iştirak etmişdim və Daş dövrü qazıntısı üzrə az-çox təcrübəm var idi. «Ovçular zağası»nın qazıntısında İshaq müəllimin köməkçisi kimi iştirak edirdim.

“Ovçular zağası»nda aparılan qazıntılar göstərdi ki, Qobustan qayaüstü təsvirlərinin tarixi bu qazıntıya göstərildiyi kimi eradan əvvəlki V-III minillərdən daha qədimlərə aiddir, Qobustan ov yeri, pir yeri yox, qədim insanların yaşayış yeri, çox qədim bir mədəni ocaqdır.

«Ovçular zağası»nda qazıntıdan sonra məlum oldu ki, burada geniş arxeoloji qazıntılar aparmaq lazımdır. O zaxt İshaq müəllim bir neçə dəfə mənə təklif etmişdi ki, bu işi öz üzərimə götürüm. Özünü öymək olmasın, deyəsən İshaq müəllimin mənim «Ovçular zağası»ndakı işimdən xoşu gəlmişdi. Lakin o vaxt mən razı olmamışdım. (Yuxarıda qeyd etdiyim kimi mən Qobustan abidələrinin arxeoloji qazıntılar yolu ilə tədqiqinə yalnız 1965-ci ildən başladım). Bu o demək deyildi ki, Qobustan abidələri məni maraqlandırmamışdı. Yox, sadəcə olaraq o vaxt mən Paleolit ekspedisiyasının üzvü idim. İkincisi və açığı, İshaq müəllimlə işləmək istəmədim. Çünki məndən qabaq Qobustanda işləmiş arxeoloqlardan heç biri burada daimi işləmək istəməmişdi. Bunun səbəbini Qobustanda iş şəraitinin çətinliyi ilə, bir də İshaq müəllimin ağır təbiətli olması ilə izah edirdilər.

İshaq Məmmədrza oğlu Cəfərzadə ucaboylu və düz qamətli idi. O vaxt artıq saçı-saqqalı çallaşmışdı. Tarix institutunun arxeologiya şöbəsinə rəhbərlik edirdi. Heç vaxt heç bir partiyada olmamışdı. Hökümət və partiya haqqında danışmaqdan qorxardı. Öz işində dəqiq, özünüsevən, öz işini üstün tutan adam idi. Bu, ilk söhbətindən özünü göstərirdi. İshaq müəllim yaxşı alim arxeoloq və xalqının adət-ənənəsinin gözəl bilicisi, geniş dairədə tanınmış görkəmli etnoqraf idi. Akademiya sistemində çox adam onu sanlı ensiklopediya adlandırırdı. Qanuna tabe idi. Ondan kənara çıxmazdı. İşini bərk tutmağı sevirdi. Ondan oxumaq üçün bir kitab götürsən, bir sənəd istəsən qəbz almamış verməzdi. Məqsədli iş, kömək, yoldaşlıq üçün əliaçıq, malını çölə atmayan xəsis idi. Hər işi bəyənməzdi. Çox tələbkar idi. Əyri işi görmək istəməzdi. Ağır təbiətliliyi də onun çox tələbkar olmaqla özünü sevməsindən irəli gəlirdi. Necə deyim görülən işləri müəyyən ölçü ilə

qiymətləndirəcək olsaq o özünün nisbətən ucuz işini, başqasının gördüyü daha baha işdən üstün tutar və bunu belə də qələmə verərdi. Danışığı amiranə, baxışları zəhmli idi. Nə isə. Onun ağır təbiətli olmasını birgə işlədiyim ilk illərdə mən də hiss edirdim. Mən hiss edirdim ki, onun əlinin altında işləmək, onun göstəriş və dediklərini haqq və ya nahaq, yersiz olub-olmamasına varmadan yerinə yetirməli, öz fikrini bir yana qoyub onun dediyini əsas saymalısan. İshaq müəllim ekspedisiya vaxtı, çöldə, üzvlərin qeydinə yaxşı qalardı. Lakin bəzən bu qayğı çox xırdalanar, yoldaşın durub-oturmasına, yeyib-içməsinə göstəriş verməyə çevrilərdi. Hamı onun hər göstərişinə (ürəkdə razı olmasa da) sözsüz əməl edər, böyük sözündən çıxmamağa dözər, dinməzdi. Ətrafın ona müsəlman itaətkarlığı onu daha da ruhlandırır, qol-qanad verirdi. Bütün bunları görə-görə əvvəl, 1964-cü ilə qədər onun təklifini hər dəfə bir bəhanə ilə rədd edirdim. Çünki neçə deyərlər, sərbəstlik istəyirdim. Beləcə daha iki il keçdi. Qazax arxeoloji ekspedisiyasında məşhur Şomutəpə abidəsinin qazıntısında iştirak etdim, Aşağı Göycəli kəndindəki Töyrətəpədə müstəqil qazıntı apardım və s. nə isə.

1965-ci ilin qışında, bir dəfə İshaq müəllim məni yanına çağırıb Qobustan ekspedisiyasının üzvü, qayaüstü təsvirlərin estamp surətlərinin çıxarılması üzrə rəssam, öz həyat yoldaşı, Səfiyyə xanımın* yanında dedi: «-Bala, Qobustan pis abidədir?» Mən cavabında «İshaq müəllim, bu nə sözdü, yəni Qobustanın tayı var ki?» sonra o dedi: «Mənim sənin səliqəndən, işindən xoşum gəlir, özüm də artıq yaşlaşmışam, istəyirəm ki, Qobustanda mənim işimi sən davam etdirəsən, səbəb nədir ki, sən belə bir abidəyə yaxın durmaq istəmirsən?»

Mən artıq tələdə idim. Bəhanə yeri qalmamışdı. Qobustanda işləmək istəmədiyimin əsl səbəbini demək məcburiyyətində qalmışdım. Ona görə bildirdim ki, sizin «səbəb nədir» sualınıza cavabıma görə məndən inciyərsiniz, istəmirəm, qoyaq qalsın. O bu səbəbin onun üçün çox maraqlı olduğunu bildirib cavab necə olursa-olsun inciməyəcəyinə qəti söz verdi. Mən onun xasiyyətinin ağır olması, onun rəhbərliyi altında sərbəst qazıntı aparmaq və sərbəst fikir söyləməyin çətin olacağı haqda, nədən çəkinirdim, hamısını açıb dedim. Rəhmətlik özünə məxsus əda ilə azca qımışdı və dedi: «Mənim yaşım keçir, özüm də tez-tez xəstələnirəm. Qobustanda geniş arxeoloji qazıntılar aparmaq lazımdır, bu işi sənə tapşırmaq istəyirəm». Sonra bir an dayanıb dedi: «Səfiyyə xanımın yanında söz verirəm ki, sən bu işdə tam sərbəst olacaqsan, mənim ağır saydığınız təbiətimlə əlaqədər dediyiniz hərəkətlərimi hiss etməyəcəksən, qazıntı ilə əlaqədar heç bir işinə qarışmayacağam, razısanmı?» Mənim sözüm qalmadı, razılaşmalı oldum və 1965-ci ildən Qobustanda qədim insan məskəni olmuş daşaltı sığınacaqlarda sərbəst qazıntı aparmağa başladım.

Ümumiyyətlə, xüsusən Azərbaycan xalqı üçün, qocaya hörmət, onun halal zəhməti, düzgün əməli qarşısında baş əymək, ağsaqqal məsləhətini dinləmək ən ali

* Kitab çapda olarkən Səfiyyə xanım rəhmətə getmişdir. Allah rəhmət etsin.

milli hissiyyatdır. Qobustan arxeoloji ekspedisiyasında çox adam iştirak etmişdir. Onların hamısının haqqında yazmağa o qədər də ehtiyac duymuram. Lakin Qobustan abidələrinin tapılıb öyrənilməsi yolunda zəhməti olan və çox böyük tədqiqatçıların, eləcə də Qobustanla yaxından maraqlanan adamların hörmətini qazanmış iki nəfərin zəhməti barədə oxuculara məlumat verməyi lazım bilirəm.

Səfiyyə xanım Qəhrəman qızı Cəfərzadə (Əhmədova). Heykəltəraş Cabbar Qaryağdı ilə bir oxuyub, 1932-ci ildə, Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadədən bir il sonra, Maral Rəhmanzadə və Fuad Əbdürrəhimovdan bir il qabaq Əzim Əzimzadə adına rəssamlıq məktəbini qurtarıb. 1937-ci ilə qədər Azərnəşrdə kiçik rəssam, 1937-ci ildən 1941-ci il müharibəsi başlanana qədər İncəsənət institutunda rəssam, 1941-1943-cü illərdə Azərbaycan XDİP-da 117 №-li senzura işçisi (ərəb əlifbası ilə məktubları oxuyan) sonra Tarix muzeyində, 1945-ci ildən Tarix institutunda rəssam işləyib. 1945-ci ildə İshaq müəllimlə ailə qurub və bütün ömrü boyu işi Qobustan qayalarındakı qədim təsvirlərin surətini kağıza köçürüb çap üçün hazırlamaq olub. Qobustan qayaüstü təsvirlərinin üzünü dəqiq çıxarmaq təsvirlərin xətti ilə qayalardakı təbii şırımları ayırmaq üçün Səfiyyə xanımın barmaqları qayaların səthini bir-bir tumarlayıb, bəzən barmaqlarının dərisi gedib qan axan vaxtlar olub. Günəşin istisindən qayaların saç kimi qızdığı vaxt o, yorulmadan işləyirdi. Bəzən qayanın çatı arasından ona baxan ilanla göz-gözə olsa da estampaj kağızını sürüşdürməmək, şəkilin surətində əyintilərə yol verməmək üçün işi bu şəraitdə saatlarla davam etdirməli olurdu. Qobustan ekspedisiyasının başqa iştirakçıları kimi belə işlərdə mənim də iştirak etdiyim vaxtlar çox olub. Səfiyyə xanım işin ağırlığından heç vaxt şikayətlənməzdi. Bəzən də qayalardakı keçi rəsmlərinin üzünü çıxarıb qurtarar və ona baxa-baxa zümzümə edərdi:

Sən özün bir dəcəl keçisən
Keçilərin ən bicisən
Verməyirsən xumsi-zəkat
Hanı gətirdiyin sovqat?

Bu bəndi Səfiyyə xanım üzünü keçi təsvirlərinə tutaraq çox şəstlə deyirdi. O danışırdı ki, 1935-36-cı illərdə Azərnəşrdə kiçik rəssam işləyərkən Azərbaycanın sevimli şairi Mikayıl Müşfiq də orada işləyirmiş və uşaqlar üçün şerlər hazırlayırmış. Bu bəndi də bir səhər M. Müşfiq iş yerində işçilər üçün deyib, Səfiyyə xanım da onu həmişəlik yadında saxlayıb.

İndi də bir şikayət. Səfiyyə xanımdan yox, ona qarşı haqsızlıqdan. 1965-ci ilə qədər İ. M. Cəfərzadənin aşkar edib qeydə aldığı Qobustanın qədim qayaüstü təsvirlərinin demək olar ki, hamısının təbii ölçüdə estamp surəti Səfiyyə xanım tərəfindən alınıb qrafitlə işlənmişdir. İshaq müəllimin çap etdirdiyi bütün məqalələrdə və eləcə də «Elm» nəşriyyatının buraxdığı sanballı

«Qobustan» (Bakı, 1973) albomunda çap olunmuş qayaüstü təsvirlərin hamısının surətini xanım hazırlamışdır. Lakin bu zəhmət heç yerdə qeyd olunmamışdı. Göstərilən albomda cəmi dörd rəngli fotonun H. Hüseynzadə tərəfindən çəkildiyi göstərilir. Kitabda verilmiş 120 daş üzərindəki qədim şəkillərin hamısının tək Səfiyyə xanım tərəfindən hazırlandığı halda kitabın rəssamları kimi A. Hacıyev və V. Seytinin adları qeyd olunur. Axı, onların heç biri Qobustan qayaüstü təsvirlərindən nəinki bir daşın, heç bir şəklin belə üzünü çıxarmayıblar. Səfiyyə xanıma isə kitabın ön sözündə kitabın bütün illüstrasiyalarının müəllifi kimi yox, V. Fomenko ilə bərabər köməkçi rəssam kimi təşəkkür bildirilir. Həm İshaq müəllimin, həm də nəşriyyatın təqsiri və nə qədər böyük haqsızlıq!

Səfiyyə xanımın 1947-ci ildən 1960-cı illərə qədər əziyyətlə hazırladığı (İ. Cəfərzadə və Ə. Ələsgərzadə ilə birgə) «Abşeronun qəbirdaşları üzərində qazılmış nəqşə və yazılar» albomu da 60-cı illərdə və 70-ci illərdə olmaqla iki dəfə nəşrə qəbul olunub, hər ikisində İ. M. Cəfərzadə tərəfindən hazırlanmış mətn nəşriyyat tərəfindən «itirilmiş» və albom işıq üzü görməmişdir.

Səfiyyə xanım gözəl, səliqəli, şirindil, çox xanım qadın idi. Övladı olmayıb, əvəzində İshaq müəllimə uşağı kimi qulluq edərdi. Çox mehriban və həssas idi. Tanıyanların çoxu etiraf edir ki, ömrünün son iki on ilini tez-tez xəstələndən İshaq müəllimin 87 yaşa qədər yaşamasına Səfiyyə xanımın qayğısı, mehribanlığı kömək etmişdir. İshaq müəllim də, ağırtəbiətli olsa da, Səfiyyə xanımla mehriban idi, zarafat edər, komplement deyərdi. Onun zarafatlarından biri haqda:

- Artıq 10 ildən çoxdur ki, İshaq müəllim aramızdan gedib. İndi Tarix İnstitutu Arxeologiya və etnoqrafiya şöbəsi elmi şurasının qərarı ilə «Qobustan petroqlifləri»ni (Qobustanın qədim qayaüstü təsvirlərini) tam şəkildə çapa hazırlamaq mənə həvalə edilib

İshaq müəllim özünün «Qobustan» (Baku, 1973) kitabında Böyükdaş dağı aşağı səki sahəsi üzrə 15 №-li daşda iki ədəd öküzə oxşar heyvanın estamp surətini və onların təsvirini çap etməklə qeyd edir ki, bu daş şəkillər çox olub, lakin daşkəsənlər daşı partladıblar, indi 15 №-li daş yoxdur, qalmayıb. Bir dəfə, iki-üç il bundan əvvəl, İshaq müəllimin materialları arasında mən bir fotoşəkilə rast gəldim. Onun arxasında «Aşağı səki daş № 15» yazılmışdı. Baxdım, böyük qaya parçasıdır üstündə də çoxlu qədim şəkillər var. Onların çoxu zamanın təsirindən pis oxunur, ortada isə haqqında qeyd etdiyim (15 №-li daşdakı) iki öküzəoxşar heyvandan biri tam görünür, qayanın dibində isə Səfiyyə xanım dayanıb. Məni maraq götürdü ki, Səfiyyə xanım bu daşdakı şəkillərdən niyə yalnız bu iki öküzün estamp sürətini çıxarıb? Bəs, o biriləri niyə çıxarılmayıb. Daş da ki, sınıb, indi artıq yoxdur.

Bu maraqla Səfiyyə xanımın yanına getdim və bu məsələni aydınlaşdırmağı xahiş etdim. O dedi:

- Nə bilim, İshaq müəllim mənə bu iki öküzün sürətini götür, dedi. Sonra da dedi ki, Sofa, onlar iki öküz, sən də dur daşın yanında ol üçüncü öküz, bir yerdə şəklinizi çəkim və çəkdi (foto).

Dedim:

- Səfiyyə xanım, bəs incimədinizmi ki, sizi də öküzlərə qatıb?

Dedi:

- Yox, zarafat etmək onun adəti ndi. Nə olsun, onda elə demişdi, bir dəfə də mən Yazılıtəpədə 9 №-li daşın şəkillərini işləyirdim. O daşda bir iri ölçülü, çox təbii nə gözəl çəkilmiş nəhəng maral şəkli var. İshaq fotoaparatı qurub mənə dedi: «Mənim maralım, get dur o maralın yanında ikinizin bir yerdə şəklinizi çəkim». Elə də etdi (1-ci tablo. şəkil B).

***Araz Gülü oğlu Məmmədov.*** Hamı ona Araz dayı deyərdi. 1950-ci illərdən Tarix İnstitutu onu Böyükdaş dağında qədim qayaüstü təsvirlərin qoruqçusu kimi işə götürmüşdü. Sonra ömrünün axırına kimi Tarix İnstitutu və Qobustan qoruğunun bu iş üzrə nəzarətçisi olmuşdu. Araz dayı hündürboylu, pəhləvan cüssəli, yorulmaq bilməyən, həyatda çox sadə, yumşaqürəkli, əyrilik haqda təsəvvürü belə olmayan adam idi. Ata-babadan kasıb olmuş, müharibədə əsir düşmüş, müharibədən sonra evinə qayıdaraq təsadüfi işlərdə işləmiş, bir çətən oğul-qız böyütmüşdü. O qədər ürəyi yumşaq idi ki, heç bir uşağına qışqırıb səsini qaldırmamışdı. Ailəsinin qulu idi. Çox diqqətli, çalışqan, hər cür iş bacaran və hər şeylə maraqlanan adam idi. Araz dayı tam savadsız olmasına baxmayaraq, Qobustanın tarixi abidələrilə lap tarixçi arxeoloq kimi maraqlanırdı. İshaq müəllimin aşkar edib qeydə aldığı 700-dən çox şəkilli, dəlməli, yalaqlı daşa inventar nömrəsini o qazmışdır. Bütün şəkilli daşların nömrəsi ilə yerini bilirdi. Qobustanın bir çox arxeoloji abidələri onunköməyi və məlumatı ilə aşkara çıxarılmışdır.

Araz dayı Qobustanda arxeoloji ekspedisiya dövründə, mənim Qobustan qoruğunun direktoru olduğum on ildə (1967-1976) isə həmişə bizimlə idi. Araz dayı Qobustanın içərilərini yaxşı tanıyırdı. Dəfələrlə, Xəzər dənizindən Mərəzəyə, Böyük Qobustanın içərilərinə qədər bizə bələdçilik etmişdi. Yeri gəlmişkən, Araz dayı yaxşı ovçu-canavar ovçusu idi. Bir dəfə qonşuluqdakı sovxoz yatağının sürüsünə dadanıb ziyan verən canavarları güdüb balaları ilə birlikdə məhv etmiş, dərilərini ovçular idarəsinə vermiş, fermadan da bir qoç mükafat almışdı.

Ekspedisiyalar vaxtı Araz dayı tez-tez qazıntı sahəsinə gəlir, qazmaqda olduğumuz qədim düşərgə, yaşayış yeri, hörgü ilə tikili qalıqları, kurqanlar və s. kimi abidələrin xarakteri ilə maraqlanır, burada material ola biləcəyini necə müəyyən etdiyimiz haqda suallar verirdi. İş gününün axırında ekspedisiya üzvləri o günün qazıntı materiallarını yuyub Qobustan bulağının yanında, ya da baza - binanın eyvanında sərdikdə Araz dayı gələr, bütün materialları (bəzən yüzlərlə daş alət və çaxmaq daşı qəlpəsini) bir-bir qaldırıb baxar, qaytarıb yerinə qoyardı.

Maraqlandığı yeni tapıntı haqqında soruşar, tanıdıqları nüsxələrin oxşarının adını çəkər, düz bildiyinə sevinərdi. Bizim işlə, arxeoloji abidələrlə, tanış olduqca bu və digər abidəyə oxşar yeri harada gördüyünü xəbər verərdi.

Bir dəfə, 1960-cı ildə Qobustan qayalarında, Böyükdaş dağının ayağında və Kiçikdaşdakı Qaraatlı piri qəbiristanlığındakı başdaşılarda qazılmış işarə və damğaların kağıza çıxartdığımız sürətlərini foto üçün kalkaya köçürərkən Araz dayı yanımıza gəldi. İşlədiyimiz işarələri görüb dedi ki, bu cür şəkillər Sofu Novruz qəbiristanlığı yanında, yolun sol tərəfindəki daşlarda çoxdur. səhəri bizi oraya apardı. Baxdıq ki, bu daşlar çox qədim, yazısı olmayan, bəlkə də müsəlmançılıqdan da qabaqkı yaddan çıxmış bir qəbiristanlığın baş daşılarıdır. Çoxunun da üzərində doğrudan da müxtəlif işarə və damğalar var. Sofu Novruz qəbiristanı Qobustan qəsəbəsindən Mərəzəyə gedən torpaq yolla 50 km-lik məsafədədir. Bu qəbiristanlıqdan topladığımız işarələr F. Muradovanın Qobustan - Şirvan zonasının işarə və damğaları haqda elmi məqaləsi üçün əsas oldu.

Qobustanda 1 və 2 №-li kurqanları qazan zaman Araz dayı Axtarma dağının cənub dibində də bu cür 3 qurama (o kurqanlara, əl ilə yığıldığı üçün qurama deyirdi) olduğunu bildirdi. Orada 4 kurqan var idi. Sonra onları qazıb Qobustanın Tunc dövrünü öyrənmək üçün xeyli material əldə etdik.

Göyərçin dağının dibindəki 28 №-li kurqanın və Şıxqaya zonasındakı «Yeddi qardaş» kurqanlarının yerini də, Böyükdaş dağında qədim ovçuluqla əlaqədə - «Tülkü tutan» qurğusunu və bir çox başqa abidələri də bizə Araz dayı göstərmişdir. Araz dayı daş karxanasının bağlanması ilə əlaqədər Qobustana gələn hökumət adamları və başqa qonaqlar üçün apardığım ekskursiya və izahatlardan elə öyrənmişdi ki, qoruğu işçiləri olmayan vaxt buraya yolüstü, vaxtsız gələnlərə ekskursiya aparıb marşrutdakı abidələri göstərir və müəyyən qədər məlumat verə bilirdi. Mən əminəm ki, Araz dayı 60-80-cı illərdə Qobustanda olmuş adamların çoxunun yadında qalıb.

Böyükdaş dağındakı bulağı Araz dayı tikib qaydaya salmış və divarında bir daşa «Araz bulağı» yazmışdı. Araz dayı rəhmətə gedəndən sonra hansı əli qurumuşsa yazını məhv edib. Nə deyim? Mən isə Araz dayı onun Qobustanla bağlılığı, Qobustana məhəbbəti haqda bu kiçik məlumatı kitaba salmaqla Araz dayının adının da yaddaşlarda qalmasını istərdim. Allah ona rəhmət eləsin!

## QOBUSTANA SƏYAHƏT

Qobustan böyük bir coğrafi rayondur. Onun adı artıq müxtəlif ölkələrdə, milyonlarla adamın dilində səslənir. Bunun səbəbi heç də Qobustanın ərazicə böyük olmasında deyil. Elə coğrafi rayonlar var ki, ərazisi Qobustandan bir neçə, bəlkə do on dəfələrlə böyükdür. Lakin onların adını nəinki çox adam bilmir, hətta heç iri miqyaslı xəritələrdə belə tapmaq olmur.

Qobustanı tək Azərbaycanda deyil, onun sərhədlərindən kənarda, başqa ölkələrdə də tanıtdıran onun qədim qayaüstü təsvirləri və qədim qobustanlıların məskənləri olmuş arxeoloji abidələrdir. Qobustanda aparılmış arxeoloji qazıntılar göstərir ki, Qobustan qayaları arasında orta Daş dövrünün əvvəllərindən başlayan həyat min illər boyu qaynamış, onların bizə miras qoyduqları qədim qayaüstü təsvirlər və qədim insan düşərgələrindən tapılmış maddi qalıqlar (daş alətlər, təsərrüfat və məişət əşyaları, gil qablar, bəzək şeyləri və s.) tariximizin 10 min ilindən çox dövrünü araşdırmaq üçün yazısız, dilsiz arxivə, kitabxanaya çevrilmişdir.

Oxucum, gəlin Qobustan abidələri, onların dövrü yaşı, yaranma səbəbi və məqsədi, qədim qobustanlıların təsəvvüründə həyatın əhəmiyyəti və s. haqda söhbət açmazdan əvvəl Qobustanın keçmişinə səyahət edək. Bu səfərdə icazə verin sizə artıq 30 ildən çox bu abidələrin arxeoloji qazıntısı və tədqiqi ilə məşğul olduğuma görə mən, Cəfərqulu Namaz oğlu Rüstəmov, bələdçilik edim, bu səfərdə sizin nümayəndəniz kimi ulu baba və nənələrimizi dindirim, onların keçmişdə necə həyat keçirmələri, məşğuliyyətləri və s. haqda söhbətlərinə birgə qulaq asaq.

***Yol.*** Təsəvvür edək ki, Bakıda avtobusa oturub Qobustana yola düşürük. Məqsədimiz yol boyu vətənimizin daşı-torpağı, ab-havası və sözsüz ki, tarixi yerlərilə də tanış olmaqdır.

Budur, Bibiheybət məscidi bünövrəsinin yanından keçib sıx burnunu dolanır. Şıx çimərliyinə çıxırıq. Maşınımızı saxlayıb çimərliyin şərq tərəfindəki, dənizə tərəf uzanmış, yarıya qədər dalğalar örtmüş kiçik daş təpəyə yaxınlaşırıq. Onun qərbə baxan üzündə eni 4, uzunu 10 metrə qədər sahədə, qaya üzərində qazılmış böyük bir balıqçılıq səhnəsinə tamaşa edirik. Burada üç balıqçı yönü bir tərəfə (quruya tərəf) olmaqla hər üçünün çiynindən keçən ipi çəkir. Şəkildəki balıqçılar elə dinamik təsvir edilmişlər ki, elə bil ipi çəkmək üçün etdikləri gücdən yorulub əldən düşmüşlər. Arxadakı balıqçının ayağı yanında şəbəkəli naxış qalığı, söz yox ki, balıq torunun hissəsidir. Ətrafda isə 10-a qədər real balıq təsviri vardır. Onların mütənasib ölçüdə, üzərlərində pulları, üzgəcləri, suya baş vurarkən bədənləri ilə quyruğu arasında əmələ gələn əyinti elə dinamik və realdır ki, adam ustasına (rəssamına) heyran qalır. Hər balıqçının başı üstündə isə uçuş vəziyyətində bir qağayı təsvir edilmişdir.

Bu səhnənin yaranma dövrü ilk orta əsrlərə aiddir. Şəkillər, xüsusən balıqçı kişilər ölçücə heç bir qayaüstü təsvirlər kolleksiyasında olmayan qədər iri (hündürlükləri 4 m-ə yaxın), lakin çox real və mütənasibdirlər. Xətlərinin eni 5, dərinliyi 2-3 sm-ə çatır. Bu səhnə, görünür, qədim Bakıda şəhərin təminatı üçün balıqçılıq təsərrüfatının mühüm yer tutması ilə əlaqədardır. Buradakı şəkillər tək ölçüsü ilə deyil, çəkilmə texnikası, reallıq dərəcəsi və mövzusu ilə də Qobustanın qədim qayaüstü təsvirlərindən fərqlənirlər.

Tunc dövrünün axırlarından başlayaraq Qobustanda təbiət dəyişməyə, iqlim qurulaşmağa, Xəzər dənizi vaxtaşırı (elə əsrimizin əvvəlində də) olduğu kimi

çəkilib uzaqlaşmağa başlayır. Artıq indiki Qaradağ-Ələt arasında qədim Qobustan qayıqları üçün dəniz limanları yararsızlaşır. Beləliklə, həyat yavaş-yavaş Qobustandan Bakı buxtasına, Abşeron yarımadasına üz tutur. Nəticədə ticarətin inkişafı, Bakı limanında yaşayış məskənlərinin get-gedə böyüyüb-birləşib şəhərə çevrilməsi ilə nəticələnir. İqlimin quraqlaşması, dənizin çəkilməsi ilə quruya çevrilmiş Xəzəryanı torpaqların şoranlığı yerli qəbilələrin əkinçi-maldar təsərrüfatının inkişafına əngəl törətdikcə, vaxtilə yardımçı təsərrüfat olmuş balıqçılıq yeni vüsət alır, Çox güman ki, Şıx çimərliyindəki balıqçılıq səhnəsi də o dövr və ondan sonrakı zamanlarda Qobustan adət-ənənəsinin saxlanması təcəssümüdür.

Biz avtobusa qayıdıb yola davam edirik. Qabaqda yol haçalanır. Biri sağa, sağ tərəfdə dağın döşündə görünən Lökbatan qəsəbəsinə, biri sola gedir. Sol yolla (Salyan şosesi ilə) gedirik. Bir az getmiş, solda, təpənin üstündəki mayakı keçdikdən sonra yol boyu qabaqda əhəng daşı örtüklü dağın qoşa zirvəsi görünür. Onlar Kərkəz dağının qoşa zirvələridir. 20-ci əsrdən başlayaraq ona Korgöz dağı, dağın şimal dibindəki kəndə də Korgöz kəndi deyirlər. Sözsüz ki, rus dilindən bizə dəyən zərbələrdəndir.

Kərkəz dağından sağa, bir qədər uzaqda əhəng daşı örtüklü daha bir dağın zirvəsi görünür. O Şonqar dağıdır. Dağ öz adını saxlayıb. Yaxınlığındakı qəsəbə də Şonqar adlanır. Kərkəz və Şonqar iki qoşa dağ, iki qardaş hərəsi qartal cinsli bir yırtıcı quşun – kərkəzin və şontarın adını daşıyır. Çox güman ki, bunlar şərqi Azərbaycanda atəşpərəstlik dövründə yaranmış adlardır. Bu adlar ölüləri «daxma»ya qoymaq adəti ilə bağlıdır, ölünün ətini sümükdən ayırıb - yeyən quşların adlarıdır.

Şonqar dağında Daş dövrünün orta (Mezolit) mərhələsinin sonuna aid düşərgə - sığınacaq və qədim qayaüstü təsvirlər aşkar edilmişdir. Bu, qədim qobustanlıların tək Böyükdaş və Kiçikdaş dağları ərazisində deyil, daha böyük ərazidə məskən saldıqlarını, Qobustanın 10 min il bundan əvvəllər insan yaşaması üçün indikindən daha əlverişli şəraitə malik olduğunu göstərir.

Yolumuza davam edirik. Qaradağ dəmir yol stansiyası, və Sahil qəsəbəsini keçirik. Yoldan sağa, şimal-qərbə, qabağımızı Qaradaq dağı kəsir. Yol istiqamətində Kənizə vulkan dağı, ondan sağa, azca uzağa, yanları maili olmaqla üstü duz, trapesvari uzun bir dağ görünür. Bu, Cingirdağdır. Qobustan qayaüstü təsvirlərinin yığcam sahələrindən biri –Yazılıtəpə, o dağın şimal (buradan sağ tərəf) dibindədir. Cingirdağın arxasında, Qobustanda ən hündür palçıq vulkanı olan Torağay dağı görünür. Qəribədir, Kərkəz və Şonqar kimi əhəng daşı örtüklü dağlar yırtıcı quşların adı ilə səsləndiyi halda, zirvəsi od püskürən (o son dəfə 1947 və 1950-ci illərdə püskürmüşdür), vulkan dağı sərçə boyda quşun adı ilə Torağay adlandırılmışdır.

Yolumuza davam edirik. Səngəçal qəsəbəsinə çatmamış yoldan sola, dənizin kənarındakı kiçik təpənin döşündəki kəsikdən bir süni mağaranın qapısı

yola baxır. O bərk, qumlu torpaqda qazılmış iki tağvarı otaqdan ibarət idi. Ortası təbii torpaq sütunla ayrılır, qapıları ümumi girişdə birləşirdi. İçərisi əhənglə suvaqlı idi.

Səngəçal süni mağarası tipli orta əsrlərin süni qazma evləri Ceyrankeçməz çayı hövzəsində, Mərəzə kəndi yaxınlığında (Diribaba piri yanında) çoxdur. Bu cür orta əsr süni mağaralarının özləri xüsusi tədqiqat obyektləridir.

Nəzərə alsaq ki, Səngəçal süni mağarası XV əsr Səngəçal karvansarasından beş-altı yüz metr aralıdadır, onun da karvan yolu üzərində qazıldığını söyləmək olar. Səngəçal karvansarası göstərilən süni mağara ilə Səngəçal qəsəbəsi arasında, mənbəyini Şıxqaya zonasından götürüb dənizə axan kiçik çayın sağ sahilində, şose və dəmir yolunun bilavasitə sağ (qərb) tərəfindədir. Dördbucaqlı formada, kiçik həyətə malik, qapısı dənizə tərəf, yonma əhəng daşından tikilmiş kiçik qala kimidir (2-ci tablo, şəkil A).

Qapısı üstündəki kitabədə karvansaranın hicri ilə 843-cü (miladi ilə 1439-cu) ildə I Xəlilullah Şirvanşahın vaxtında tikildiyi göstərilir. Karvansaranın yanında Bakı - Abşeron zonası üçün xas su anbarı - ovdan var. Səngəçal karvansarası ilə eyni formalı daha bir karvansara buradan təxminən 10 km qərbdə, Sofu Həmid qəbiristanı yanından keçib qərbə, Şamaxıya gedən qədim yolun üstündə, Şıxqaya dağlarına çatmamış yolun sağındadır (yuxarıda qeyd etdiyimiz Qaraçı və ya Miyəcik). Bu karvansaranın yanında isə su quyusu var.

Səngəçal və Qaraçı karvansaraları cənubdan (İran) şimala (Bakıya, Dərbəndə və Rusiyaya) gedən qədim karvan yolunun Qobustandan kəçən hissəsində tikilmişdir. Bu qədim yol cənuba və şimala tərəf bir sıra şaxələrə ayrılsa da Qobustanın şərqində, indiki Ələt qəsəbəsilə Qaradağ arasında (birləşib Kənizə və Böyükdaş dağının şərqindən, dənizlə onların arasından keçmişdir. Buradan yolun bir qolu hər yerdə dənizin qərb tərəfi ilə cənuba, ikincisi Kür çayı ilə qərbə, üçüncüsü, Cavaddan (Kürlə Araz çayının qovuşduğu yerdən) Naxçıvan istiqamətində gedirdi. Şimala tərəf isə bir qolu yenə dəniz boyu indiki Puta stansiyasından keçib Bakıya, ikincisi, Qaraçı karvansarasından qərbə, Şamaxıya, biri isə Qaraçı karvansarasından şimala tərəf Ağ - Arqun karvansarasına gedir, sonra Gülbax deyilən yerdən keçib indiki Sumqayıta tərəf dənizə çıxır və şimala davam edirdi. Qobustan ərazisində bu yolun şahidi olan daha iki tikili - körpü qalığı var. Onlardan biri Səngəçal qəsəbəsindən 1,5 km cənubda, Ceyrankeçməz çayı üzərində 1926-cı ildə tikilmiş, tağvari gözlü ensiz körpüdən təxminən 200 metr aşağıda olmuşdur. Abşeron əhəng daşından tikilmiş, eni 415 sm olmuş bu körpünün indi yeri və sol sahildə bir hissəsi qalmışdır.

İkinci bu cür tağvari, lakin ikigözlü körpünün orta hissəsi və yeri Ələt qəsəbəsindən cənub-qərb tərəfdə, Qalmaz dağının şərq ətəyində, köhnə su yatağındadır.

Böyükdaş dağının cənub-şərq qurtaracağı ətəyindəki latın dilli kitabə də şahidlik edir ki, I əsrdə Roma qoşunları bu yolun hansı qolu ilə isə Xəzər sahilinə, Böyükdaş dağının ətəyinə gələ bilmişdir.

Yolumuza davam edib Qobustan qəsəbəsinə çatırıq. Qəsəbənin mərkəzində şosedən sağa ayrılan bir küçənin başında 4 metrə qədər hündürlüyü olan iri və dik bir qala daşı basdırılıb. Ətrafı kiçik məhəccərlə hasarlanıb. Daşın üstündə qalın dəmir lövhədən kəsilmiş kəmərçinli siluet şəkildo ox atan adam fiquru bərkidilmişdir. O, oxunu (qərbə, küçə boyu Böyükdaş istiqamətinə tuşlamışdır. Daşın döşündə isə yenə də həmin istiqaməti göstərən ox işarəsi, rus və latın qrafikası ilə «Qobustan» və «Gobustan» sözləri yazılıb. Bu yol göstəricisi 1969-cu ildə düzəldilmişdir və o vaxt Qobustan qoruğuna, Böyükdaş dağına, Qobustan abidələri ilə tanış olmağa buradan dönüb getmək, dəmir yol relsləri üstündən keçmək lazım idi. İndi isə qəsəbənin cənub hissəsində tikilmiş körpünün üstündən keçmək lazımdır.

***Tarixi dövrlərlə üz-üzə.*** Maşınımız dəmir yolunun üstündən keçid körpüsünə qalxıb sağa dönür. Qarşımızda üzəri qalın əhəng daşı ilə örtülü, üstü mizin üstü kimi düz və hamar, ətəklərinə çoxlu iri qaya parçaları səpələnmiş iki dağ - Kiçikdaş və Böyükdaş dağları durur. Bu dağların hər biri öz quruluşuna görə təbii və tarixi abidədir. Hər ikisi, geoloji cəhətdən yuxarıda qeyd etdiyimiz kimi III dövr Abşeron dənizinin qalığı - əhəng daşı ilə örtülü, təbii formasına görə orijinal şəklə malikdir. Onların düz zirvəsinin kənarları 10-15 metr hündürlüyündə uçurumdur. Bu dağların hər birinin üstünə yalnız bir tərəfdən təbii, uçurum olmayan ensiz zolaqdan çıxmaq olar. Ona görə onlar tarixi cəhətdən, daş dövrü insanlarının ov etməsi və yaşaması üçün xüsusi əlverişli şəraitə malikdir.

Dağların bu cür təbii quruluşu 12-15 min il bundan qabaq Daş dövrü insanlarını özünə cəlb etmişdir. O vaxt qədim qobustanlılar vəhşi heyvanları ovlamaq üçün bu dağların zirvəsindən təbii tələ kimi istifadə etmişlər. Ətrafdakı vəhşi heyvanları qəbilə üzvlərinin birgə köməyi ilə bu dağların üstünə qovmuş, dağın uçurumuna qısnayıb uçurmuş, bol ət əldə etmişlər. Bu baxımdan Böyükdaş və Kiçikdaş dağları qədim ov yeri - təbii tələ olmaqla öz quruluşuna görə təbii-tarixi abidədir.

Söhbət, zirvəsi mizin üstü kimi düz, hər tərəfdən 10-15 m hündürlükdə qaya kəsiyi ilə əhatələnmiş Böyükdaş və Kiçikdaş dağlarının, öz quruluşuna görə, ibtidai dövrdə sürək üsulu ilə təbii tələ kimi istifadə edilməsinin ovçuluq üçün gözəl şərait yaratmasından getdi. Onu da qeyd edək ki, bu əlverişli ov şəraiti elə bu dağların ətrafına səpələnmiş qayalar «meşəsi» arasında da vardır. Məsələ burasındadır ki, adi daş alətlərlə, elə yenicə yaranmaqda olan bəsit yay-oxla da düzən sahələrdə hər vəhşi heyvanı, iti qaçan ceyranı, guru, dağ keçisini, maralı, güclü vəhşi öküzü və s. daş ucluq keçirilmiş nizə və ya çapacaq, bıçaq, balta və bu kimi daş alətlərlə heyvanları ovlamaq o qədər də asan iş deyildi. Göstərilən daş alətlərlə heyvanlara açıq şəraitdə fərdi zərbə endirməklə ov etməyə

az bel bağlamaq olardı. Qəbilə belə müvəffəqiyyətlərə ümid olsa idi ac qalardı. İri heyvanları ovlamaq üçün onu qayadan uçurmaq, yarğana salmaqdan başqa bir də kollektivin eyni zamanda zərbə endirməsi lazım idi. Lakin açıq, düzən yerdə hansı vəhşi heyvan insanı elə yaxına buraxar ki, insan, özü də bir yox, bir dəstə adam yaxın məsafədən eyni vaxtda ona zərbə endirsin? Bu işdə, yenə də Böyükdaş və Kiçikdaş dağları ərazisindəki qayalıqlar «meşəsi» arasında örüşə gedən və ya suya gələn (Böyükdaşda su bulağı və qaynamalar indi də var) heyvanların keçdikləri cığırların qayaların arasından keçən dar sahələrində pusquda durub onları müəyyən yerə buraxıb, sonra qabağı və arxanı kəsib ovlamaq mümkündür,

Maşınımız Qobustan qəsəbəsinin qərb tərəfindəki yeni salınmaqla olan məhəlləni, dəmir, beton zavodu və boru bazasını keçib qərbdə Böyükdaş dağına çatır. Burada bizi təbii qayalıqlar, bu yerlərdə Daş, Tunc və orta əsrlərə qədərki müxtəlif tarixi dövrlərdə yaşamış qədim qobustanlıların qayalar üzərində çəkdikləri rəsmlər, qayalar arasında sırlaşmış əncir, nar, dağdağan, meynə, albalı, armud, itburnu və s. ağaclar və kəkliklərin oxuması qarşılayır.

Əgər biz bu yerlərə 12-15 min il əvvəl gəlmiş olsaydıq, bizi daş dövrü düşərgələrinin sakinləri, ibtidai adamlar qarşılayar, təbiətin onlara bəxş etdiyi qayaaltı yaşayış düşərgələrinə aparar, ovladıqları gur və ceyran ətinə qonaq edərdilər. Gəlin hesab edək ki, biz buraya elə 12-15 min il bundan qabaqkı kimi qarşılanmağa, ulu babalarımızın nəfəsini duymaq, xəyalən onların ruhunu dindirməyə və bizim üçün qoyub getdikləri ibtidai sənət əsərlərinə tamaşa etməyə gəlmişik.

Budur, qayalar zümzümə edir. Qayalar arasından qalxan cəngisayaq yallı havası sel kimi axır, qavaldaşla çalınır, burada isə bir dəstə boylu-buxunlu cavan kişi əl-ələ tutub yallı oynayır. Bu yanda isə iri, vəhşi öküzlər durmuşlar. Onların bəzisi bizi görüb nərə çəkməyə, qabaq ayaqları ilə torpağı qazmağa hazırlaşır, bəziləri isə dayanıb gövşəyir. O tərəfdə bir it vəhşi qabanı qovur. Bu tərəfdəkilər gurlardır. Onlar ürkək-ürkək bizə baxırlar. O biri yanda vəhşi at ilxısı otlayır. Atlar sahibsizdir, ilxıçısı yoxdu. Onları vəhşi ayğır otarır. Bu yandakı atlar hürküb fınxırdılar. Onlara nə oldu? Biz ki onlara toxunmadıq? Yox, onlar bizdən yox, ilxının içindəki yay-oxlu adamlardan hürkmüşlər. Onlar ovçulardır, atları ovlamağa gəliblər. Bu yanda, sol tərəfdəki qayada isə öküzləri ovlayırlar. Ovçular öküzləri qayanın uçurumuna sıxışdırmışlar, onlara ox atırlar. Qabaqdakı öküz isə çıxılmaz vəziyyətdədir, buynuzlarını irəli verib adamlara hücum edir. Bəs bu nədir? Əlində qalxan tutmuş bir nəfər nizəni başqa birinin sinəsinə yönəldib. O isə yazıq-yazıq əllərini qaldırıb təslim olur. Bu ki Tunc dövrünün adamıdır. O yandakı başı dəbilqəli atlı isə orta əsr cəngavəridir. Sağ əlində toppuz tutub, sol əli ilə atın yüyənini dartır. Qayalardakı keçilərə bax, bir-birindən gözəl, iri, kök və mehriban keçilər. Elə qatarlanıblar ki, elə bil «yallı» tutublar. Görünür şifahi xalq ədəbiyyatında belə bir bayatı boş yerə deyilməyib:

Anam a xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdur yallı keçi.

Yoldaşlardan biri qıy vurdu: «Keçiyə bax halay tutub».

Keçinin səsi mələməyə çevrilir, qayalarda uğuldayır. Dağdan güclü gurultu qopur. Kənizə dağı püskürür, göyə od-alov qalxır. Qədim qobustanlılar kimi bir an bizi də vahimə bürüyür. Dönüb dala baxırıq, gəldiyimiz yola tərəf. Yol hanı? Dənizin dalğaları dağın ayağında qayaları döyəcləyir. Dalğalar üzərində isə gəmilər üzür, özləri də elə bil Tur Heyerdalın düzəltdiyi «Tiqris» gəmisidir. Çox qəribədir. Yoxsa yuxu görürük? Bəlkə əfsanəvi bir aləmə düşmüşük? (13-cü tablo, şəkil A).

Yox-yox, bu belə deyil. Biz heç bir əfsanə və ya yuxu görmürük. Biz Qobustandayıq, gördüklərimiz də qədim qobustanlıların həyat səhnələri, daş və qayalar üzərində qoyub getdikləri sənət əsərləridir. Onların heç biri canlı deyil, qayalar üzərində həkk edilmiş şəkillərdir. Lakin ibtidai rəssamlar bu təsvirləri adi daş alətlə, elə dinamik və real işləmişlər ki, onlar gözlərimiz qarşısında canlanmaq, uzaq keçmişdən söhbət açmaq qabiliyyətinə malikdirlər.

Bu səhnələrin yanından keçib Böyükdaş dağında Qobustan qoruğunun baza binasına çatırıq. Maşından düşüb kiçik təpəni qalxır və sığırla 30-40 metr qərbə tərəf gedirik. Qarşımızda, böyük qaya parçalarının altında, Qobustanda qədim insan düşərgələrindən «Ana zağa»dır. Biz oraya yönəlirik və özümüzü bir anlığa daş dövründə hiss edirik. Bu vaxt« «Ana zağa»dan qarşımıza boylu-buxunlu, əllərində yay-ox tutmuş, belələrindən kəmərçin sallanan, pəhləvan cüssəli kişilər, onların qabağında isə iri döşlü, yoğun baldırlı, dərisi günəşin istisi və küləyin təsirindən mis kimi qaralmış, sağlam bədənli, maral baxışlı bir qadın çıxır. Onun da əlində ox, çiynində kaman var. Biz yerimizdə donub qalırıq. Bir an bizi vahimə götürür.

Qabaqdakı qadın irəli çıxıb «bizi salamlayır, onları yada saldığımıza görə razılığını bildirər və içəriyə, qədimdə yaşamış olduqları «Ana zağa»ya dəvət edir. Bizi qarşılayan dəstənin kişiləri və başqa qadınlar bizə yol verib divara çəkilir, qədim şəkillərə çevrilirlər.

Biz başçı qadının dalınca «Ana zağa»ya, onun birinci otağına giririk. Sol tərəfimizdəki divar Böyükdaş dağı yuxarı səki üzrə 29 №-li daşın şimal üzüdür (3-cü tablo). Budur, bir an əvvəl qarşımıza çıxan kişilərin bir neçəsi bu daşda şəkil olub bizə baxırlar. Bizi içəri dəvət edən qadın - Ana, daşın orta hissəsini işarə ilə - Mənim yerim buradır, - deyir, - siz gedəcəksiniz, yenə burada şəkil olub qalacağam. Sonra bir an susub əlavə edir:

- Mənim şəklimin qrafitlə sürəti çıxarılıb kitablara nəqş edilib, dəfələrlə rəngli-rəngsiz foto-plyonkalara köçürülüb. Beləliklə, məni bütün dünyaya tanıtmısınız, əvəzində sizə nə qulluq edim? - Sonra daşdakı yay-oxlu bir kişi şəklinə, ərklə, - A bala, nə durmusan, düş daşdan, özünə gəl, gurlar Atbulaq kəndi tərəfdə, Qalmaz dağının dibindədir, get birini tut gətir, qonaqlara təzə ətdən dadlı kabab verək, - dedi. Mən irəli çıxıb geyirəm:

- Ulu nənə, zəhmət çəkməyin, indi Azərbaycan ərazisində heç zooparkda da gur tapılmaz. Sizin, bizdən çox-çox qabaq, 8-9 yüzil əvvəl yaşamış nəvələriniz onları ovlayıb bu yerlərdən kökünü kəsiblər.

- Bəli, mən bilirəm, mən il bundan qabaq nəvələrimdən Bəhram adlı bir şah gurları ovlamağı çox sevirdi. Xalq arasında opa «Bəhram gur» ləqəbi vermişdilər. Özü də 7 ölkədən 7 gözəl alıb gətirmişdi. Şəkillərini də bir az buradan yuxarı (qərbə tərəf) 78 №-li daş üzərində qazdırıbdır (4-cü tablo, şəkil A).

- Bəli, - dedim, - Ulu nənə, onu bilirik. Böyük şairimiz Nizami Gəncəvi onun - Bəhram gurun şərəfinə bir dastan «Yeddi gözəl» poeması yazıb, oxumuşuq. Siz bizə özünüzdən danışın. Niyə sizin şəklinizi belə xüsusi yerdə, daşın mərkəzi hissəsində və başqa qadınlarınkından çox iri çəkiblər, özü də silahlı? Sizin vaxtınızda bu yerlər necə idi. Qəbiləniz nə ilə məşqul olur, necə dolanırdı? Bunlar haqda məlumat bizim üçün ən böyük qonaqlıqdan artıqdır.

Onda, - dedi ulu nənə, - bizim vaxtımızdakı kimi daşları çəkin oturun üstündə. Qorxursunuz ki, daş soyuq olar? Qorxmayın, odur o küncdə üst-üstə yığılmış ceyran dərilərindən götürün qoyun daşın üstünə oturun. Biz də belə edərdik. sonra, bir qədər qurcalanıb və elə bil özünü ələ alaraq dedi:

- Əvvələn, onu deyim ki, mən sizin kimi oxumuş - savadlı deyiləm. Bizim məktəbimiz çöldə, ov arxasınca qaçmaq, ox atan atalarımızın, yeməli meyvə yığan, ev işləri görən anaların barmaqlarına baxmaqla müxtəlif işləri öyrənmək olub. İndi əgər səhvə yol versəm, danışığımda cümlələri düz qura bilməsəm məni barışlayın. Bir də yeri gəldikcə sizi maraqlandıran məsələləri suallarla yadıma salın.

- Mən anayam, qəbiləmizin ağbirçəyiyəm. Qəbilə üzvləri və ağsaqqallar mənə hörmət və ehtiram edirdilər. Çünki mən həm kişilərlə bərabər ovda iştirak edərdim, həm də ov uğursuz olan zaman gəlin və qızları başıma yığıb qəbilənin ac qalmaması üçün meyvə, göbələk, yeməli otlar və s. yığımını təşkil edərdim. Gecədə neçə dəfə durub ocağa odun atar, odu sönməyə qoymazdım. Qəbilə üzvləri arasında ərzaq bölgüsünü mən aparardım. Qızlara həsir toxumaq, səbət hörmək və s. kimi müxtəlif əl işləri öyrədərdim. Mən öləndən sonra mənə hörmət əlaməti olaraq və mənim həmişə onlarla birgə olmağım arzusu ilə qəbilə ağsaqqalları qərar verdilər ki, qəbilə rəssamı mənim surətimi qəbilə «albomunun» ortasında təsvir etsin. Budur, məndən soldakı kişi təsvirləri də çox iri çəkilmişlər. Onlar qəbilənin mahir ovçuları, igid ərlərdir. Onlar ovda olan gün qəbilə ac qalmayacağına arxayın olardı. Onlar yaşa dolandan sonra qəbiləyə ağsaqqallıq

edərdilər. Bu öküz isə (səhnənin ortasındakı iri öküz şəklini göstərir) bizim totemimizdir. Bizim ovçular əsasən ceyran və gur ovlayardılar. Ətdən korluq çəkməzdik. Bir də burada, qayalar üzərində gördüyünüz qədim şəkillərin heç biri elə-belə, boş yerə təsvir olunmayıb. Onlar Qobustanda yaşamış qəbilələrin min illər boyu yaratdığı mədəniyyətin kölgəsi, keçmiş həyatın güzgüsüdür. hər bir rəsmin qayada döyülməsi bir hörmətli qəbilə üzvünün xatirəsi, uğurlu ovun şənliyi mərasimidir. Şəkillər qayada bu və ya başqa məqsədlə və yalnız qəbilə ağsaqqalının göstərişi ilə həkk edilirdi. Bu təsvirlər arasında bir nəfər də qorxağın, tənbəlin şəkli yoxdur. Odur ey, bu daşın o biri üzündə bizim oğlanların ovdan qayıtma səhnəsi təsvir olunmuşdur (5-ci tablo, şəkil A). Ovçularımız ovdan iri heyvan cəmdəyi ilə qayıdan gün bayram olurdu. Tonqal qalanırdı. Cavanlar yallı gedər, qızlar çəpik çalar, onları ruhlandırardılar. Qocalar və ağsaqqallar bu mənzərəyə baxıb fərəhlənər, qəbilənin sağlamlığına, cavanların gücünə, çevikliyinə, dözümlülüyünə sevinər, qəbilənin gələcəyindən nigaran qalmazdılar.

Bu vaxt dəstəmizdən bir nəfər dillənir:

- Nənə, ay nənə, bəs sizin oğlanlar yallı rəqsini musiqisizmi oynayırdılar?

Nənə:

- Yox, ruhumun günəşi, - deyir musiqimiz var idi.

Yallı oynananda Qavaldaşın səsi dağı, dərəni lərzəyə gətirirdi. Odur ey, onlardan biri Cingirdağda, biri isə burada, dağın aşağısındadır.

Yoldaşlarımızdan biri:

- Hə, hə nənə, - deyir, - yadıma düşdü, məşhur qaval çalanımız, rəhmətlik Çingiz Mehdiyev o daşda çaldığı qədim ritmləri televizorda görüb eşitmişəm.

Çox gözəl, əsl qavaldan da yaxşı səslənirdi.

- Hə, bala, Qavaldaş çox yaxşı səslənir. Bir də ki, qavaldaşdan başqa da qamışdan, dəridən düzəldilmiş musiqi alətlərimiz var idi. Qavaldaş isə həm də bizim xəbərçimiz idi. Deyəcəksiniz necə? Belə ki, Qavaldaşda yallı havasının səslənməsi cavanları oyuna çağırıldı. Başqa bir hava ağsaqqalları yığırdı. Hətta, qabaqcadan şərtləşdirilmiş bir, iki, üç, beş və s. zərbənin səsi bu və ya başqa ağsaqqalın və ya deyək ki, təcrübəli bir qadının uşaq gözləyən cavan qadına köməyə çağırılması demək idi.

Nənə, sizin vaxtınızda bu yerlərin havası, təbiəti, görkəmi necə idi?

- Niyə ki, o vaxtlar, yəni bizim vaxtımızda burada hava, iqlim mülayim idi. Nə çox isti, nə də çox soyuq idi. Qış çox mülayim keçirdi. İl uzunu çöldə, meşədə qida axtarırdıq. Deyəcəksiniz hansı meşə, bu tərəflərdə meşə var ki? Bəli, ruhumun günəşləri, indi yoxdu, lakin o vaxt bu tərəflər indi sizlərin Savanna adlandırdığınız iqlim və təbii şəraitə malik diyarlar kimi idi. Seyrək də olsa meşələrimiz var idi. Orada palıd da, şam da bitən vaxtlar olub.

Bunu deyib ulu nənə üzümə baxdı və sualedici görkəm aldı. Elə bil bu baxışlarla mənə demək istəyirdi ki, niyə durmusan, sözümü təsdiq elə, axı siz

burada, «Ana zağa» adlandırdığınız bizim bu düşərgədə qazıntı apararkən ocaqlarda qalmış kömür qırıqlarından yoxlanmağa, analizə göndərmişdiniz sonra isə dəfələrlə bu haqda, elə burada qonaqlarınıza, mən bu divardan eşidə-eşidə deyirdiniz ki, göndərdiyim ocaq külünün içindən palıd və şam ağaclarının zərrələri tapılıb. Mən başımı tərpədərək ona:

- Düz deyirsiniz nənə, - deyib onun sifətindən oxuduğum bu məlumatları daha genişliyi ilə dəstəmizin iştirakçılarına danışıram.

Ulu nənəmiz söhbətdən razı qalıb sözünə davam edir:

- O vaxtlar indi gördüyünüz bu düzlər, terraslar
şoran deyildi, hər yan yaşıl otlarla, çəmənlərlə örtülü idi. Dərələrdə, çayların ağzında qamış bitərdi.

Kişilər qamışlardan qayıq düzəldir, balıq ovlamaq üçün dənizə çıxırdılar. Lakin bir vaxt dəniz qalxıb daşdı, ətrafı basıb şoranlaşdırdı. Deyəsən indi də, sizin vaxtınızda da suyu qalxır, çoxalır, sahələri basır. Vallah, qınamayın deyəsən qocalmışam, gözlərim yaxşı görmür, əvvəllər buradan baxanda dənizin kənarında balıqçılarımızın toruna hansı balıq düşdüyünü belə seçərdim. Bilirsinizmi, qəbiləmiz tək ovçuluqla deyil, balıqçılıqla da məşğul olurdu. Biz o zaman qamışdan və qarğıdan qayıq hazırlamağı öyrənmişdik. Qayalardakı qayıq şəkillərini görmürsünüz? Onların burnunda günəş şəkli çəkilib. Çünki biz həmişə, səhərlər günəşə, dənizə tərəf şərqə, axşam isə dənizdən evə, yenə günəşə tərəf, qərbə üzürdük. Bir də ki, əsl allah elə günəşdir. Günəş sönsə dünya qaranlıq olar, hər şey - insanlar da, heyvanlar da, bütün canlılar, bitkilər, həyat məhv olar. Günəşsiz yaşamaqmı olar? Biz ona sitayiş edirdik. Günəşə məbədlər də quran vaxtlarımız olub. Gəmilərimizin başında günəş bizə yol göstərməklə həm balıqçılarımızı, sonrakı dövrlərdə həm də döyüşçü dənizçilərimizi fəlakətdən, qasırğadan qoruyar, onlara güc və inam verərdi. Yadımdadır, bir dəfə, hələ cavan idim, axşam tərəfi qayanın üstündən dənizə, balıqçılara baxırdım. Qınamayın, bala, mənim istədiyim oğlan da, indi mənim sol tərəfimdəki şəkil, orada idi. Gördüm çox iri, qayıq uzunluqda bir balıq tutublar, sahilə çəkirlər. Böyük qız olsam da «bölgə-bölgə» deyə-deyə evə, düşərgəyə qaçdım. Anam soruşdu: «Nə qışqırırsan, hanı bölgə?» Dedim: «Tutublar, bölgə balığı tutublar, sahilə çəkirlər, özü də çox iridir, lap qayıq uzunluğunda». Balıqçılar gələndə məlum oldu ki, mən düz görmüşəm. Bir bölgə balığı tutublar ki, uzunluğu dörd metrdən çoxdur (6-cı tablo, şəkil A). Şənlik quruldu, yallı oynandı. İndi o balığın təsviri, odur ey, Kiçikdaş dağında, bu nəvəmin (məni göstərir) Qayaaltı» adlandırdığı qədim şəkillər qrupunun 5 №-li daşındadır. Bölgənin şəkli Kiçikdaşda ona görə çəkildi ki, onu bizim balıqçılar Kiçikdaş qəbiləsinin balıqçıları ilə köməkli tutmuşdular. Sonra balığın ətini bizim və onların qəbilə üzvlərinin sayına və ehtiyacına uyğun böldülər. Balığın şəklini harada çəkmək məsələsini isə çöp atma ilə həll etdilər. Bu şərəf Kiçikdaş qəbiləsinə qismət oldu. O vaxt ağsaqqalların məsləhəti ilə qəbilələr biri-birinə kömək edər,

ovu uğurlu keçmiş qəbilə ovdan uğursuz qayıtmış qonşu qəbiləyə əl tutardı. Hər işdə hörmətlə, mehribançılıqla qonşuluq edərdik. Qəbilələrimiz əyrilik, xainlik, pislik bilməzdilər. Bu sözlər heç dilimizdə belə yox idi.

Yenə dəstəmizdən bir nəfər soruşur:

- Ay nənə, o vaxt nə çox şəkil çəkmisiniz? Bu muzeyin bələdçisi deyirdi ki, Qobustanda qədim şəkillər 6 mindən çoxdur.

- Yox, bala, 6 min nədir ki, sizin babalar Qobustanda 10 min ildən çox yaşamışlar. 6 mindən heç hər ilə bir şəkil də düşməz. Bu qayalarda doğrudan da şəkil çox çəkilmişdir. Lakin onların çoxu zamanın təsirindən, küləyin yalaması, yağışın yuması və s. üzündən ovulub tökülüb, indiyə qalmayıb. Bir hissəsi də torpaq altında qalıb və hələ alimlərimizin tapıb qeydə almadıqları da var. Sizə məlum olanlar isə qədim rəssamlarımızın yaratdığı ibtidai sənət əsərlərinin az bir hissəsidir.

Yenə dəstəmizdən bir nəfər Ulu nənədən bu yerlərin o vaxtkı vəziyyəti, xüsusən Böyükdaş dağının keçmişdən bəri başına gələnləri soruşur. Cavabında Ulu nənə bildirir ki, «Böyükdaş» adlandırdığınız bu dağ 15 min il əvvəl, biz burada məskən salarkən də elə belə, təxminən bu vəziyyətdə idi. Sonradan dağın indiki su quyusundan cənuba olan hissəsinin qaya örtüyü, əmələ gəlmiş böyük və dərin çatdan ayrılıb yatdı. Oradakı mağaralarımızda çəkilmiş şəkillərimiz qayaların altında qaldı.

Kimsə yenə soruşdu.

- Ulu nənəmiz, bəs o uçqunun altında qalan olmadı? - Yox, qaya çox aralanıb uçmaq dərəcəsinə çatanda, indi qayanın altında qalmış düşərgə - sığınacaqlardan, artıq buraya köçmüşdük. Orada indi bu sizi qarşıladığım «Ana zağa»dan çox qabaqlar yaşamışdıq. Bura da qəbiləmizin yaşayış düşərgəsi idi. Özü də vaxtilə böyük sahəyə malik olmuş bu düşərgəmiz, indi üzərinə 31 yazdığınız bu daşın bizdən xeyli sonra, 5-6 min il bundan qabaq buraya düşməsi ilə düşərgəmizi iki otağa ayırıb. Odur, düşərgənin arxa (qərb) tərəfini tutmuş dik daş da o vaxt örtük qayanın üstündən lay kimi qopub düşərək düşərgəmizin qərb divarını əmələ gətirən daşda (siz onun üzərinə 32 yazmısınız) çəkilmiş şəkillərin qabağını tutub. Dağın bu sahəsində, «Ana zağa» ilə qaya kəsiyi arasında da bir çox qayalar yıxılıb, biri-birinin üstünə düşüb, bir çox rahat düşərgələrimiz və çoxlu qədim şəkillərimiz onların altında və arasında qalıb. Bu nəvəm (yenə məni göstərir) onların çoxunun yerini bilir, onların bəzini görmək üçün qayanın çatı arasından bir gözlə baxmaq lazımdır. İstəsəniz o sizə göstərə bilər. Bilirsinizmi, bu sahədə «Ana zağa» ilə «7 gözəl» mağarası arasında qədim şəkil niyə çoxdu? Çünki, bura bizim vaxtımızda, 10 - 12 min il bundan qabaq da, sonrakı nəsillərimizin vaxtında da ibtidai qəbilələrin yaşayış ocağı olub. Eh, siz bu ocaqdan hələ nə öyrənmisiniz ki? Doğrudur, bu nəvəm, bu mədəniyyət ocağında xeyli tədqiqat işi aparıb. Lakin hələ də açılmamış sirlərimiz, tariximizin sizin üçün qaranlıq səhifələri çoxdur. Deyim siz də biləsiniz? Yox, ruhumun çıraqları, buna

mənim ixtiyarım yoxdu. Bir də tariximizin necə keçdiyi haqqında danışsam da bu, quru söz olar, yuxuya bənzər. Bu balaca söhbətimiz kimi, heç kəs inanmaz, deyərlər ruh da danışar? Odur ki, tariximizi istədiyimiz kimi öyrənmək üçün bizim maddi qalıqları daha çox araşdırmaq, dindirmək lazımdır. Onda hər dövrün ruhu sizə söhbət açar. Bir də ki, həyat da, elə tarix də öyrənmək deməkdir, öyrənmək tələb edir. Bunsuz, əməksiz, zəhmətsiz həyatın nə mənası, nə də ləzzəti olar, xüsusən də insan üçün.

Sual: - Bəs o dövrə aid başqa, indi salamat qalmış düşərgələriniz yox idimi?

- Var idi, - deyir Ulu nənə. - Odur ey, birini Kiçikdaşın cənub baxarında qazıb öyrənmisiniz. Mən gördüm (siz bizim ruhumuzu görməsəniz də biz sizin əməllərinizi görürük), mənim bu nəvəm orada qazıntı apararkən oranı «Qayaarası» düşərgə adlandırıb. Bu, indi görüşdüyümüz yerə isə «Ana zağa» adını başqası verib. Yadımdadır, qabaqlar bu yerlərlə bizim şəkilləri bir kişi və bir qadın (görünür, İshaq müəllimlə Səriyyə xanımı deyirdi) kağıza köçürürdü. O vaxt o mənim ruhumla danışmamışdı, amma yazısında bizim bu məskənimizi «Ana zağa» adlandırmışdı. 12 il bundan qabaq (yanvar 1982-də) o sizin aləmdən bizim dünyaya köçdü. Bir dəfə ruhu buraya baş çəkməyə gəlmişdi. Məni görüb dedi ki, mən bu düşərgəni sizin şərəfinizə «Ana zağa» adlandırmışam. Nə olar, Allah ona rəhmət eləsin.

Bizim bir neçə mağara yaşayış yerimiz də bu dağın qərb tərəfində, qayanın altında idi. Dağın üstünün daşını sizinkilər maşınlarla doğrayıb apardılar, tozunu isə kürüyüb dağın dalına tökdülər. Bizim oradakı düşərgələrimiz o yana tökülən torpağın altında qaldı.

Yenə bir arxeoloq yoldaşımız soruşur: - Nənə, ay Ulu nənə, yəqin mağara - düşərgələrinizdə o dövrü öyrənmək üçün zəngin şahid tapıntılar qalıb. Nə olar, o mağaraların yerini bizə göstərin, tökülmüş torpağı daşıyıb mağaranı təmizləyərik.

- Yox bala, bu mümkün deyil. Axı, sizlə mənim ruhum danışır, özümü isə su səthinin aynasında, güzgüdə görən kimi görürsünüz. Mən yerimdən, qəbrimdən qalxa bilmərəm, qəbrimi açıb narahat edərsiniz.

İndi mən şükür edirəm ki, qəbrim olan, sümüklərim saxlanan yerdə qazıntı aparılmayıb. Yoxsa, məni dünyaya tanıdan nəvəm çoxdan onu açıb sümüklərimi bıçağın burnu ilə didik-didik etmişdi ki, bəzək əşyalarımı muzeyə qoysun, kəlləmi də verərdi o sizin, insanları kəllə sümükləri ilə öyrənən antropoloq arvada, adı da nəydi, hə, Rəbiyyəyə ki, apar öyrən görək bizim nənələrdəndir yoxsa yox. O da aparıb qoyardı şkafa, məndən 6-cı arxa sonrakı bir qrup nəvələrimin «Firuz» düşərgəsində açdığınız qəbrin kəllələri kimi.

Mən bilmirəm, sizin bəzi müasirləriniz niyə kökünüzə şübhə edir, niyə onu kənarlarda axtarırlar; Axı, sizin arxeoloqların üzə çıxartdıqları materiallar göstərir ki, onlar biri-birinin davamı kimi mən illər boyu inkişaf edib və həmişə də biz baba və nənələrin dəsti-xəttini yaşadıblar. Onların ən qədimlərinin tarixi buradan, «Ana

zağa»dan başlayır. Bu, sizin bizlərin nəvə-nəticələrimiz olmanıza sübut deyilmi? Siz niyə kökünüzü başqalarında axtarırsınız? Bilmirsiniz ki, onlar istərlər sizi bu əraziyə gəlmə kimi qələmə versin, sıxışdırsın, torpağınıza yiyələnsinlər. Atalar deyiblər ki, peyğəmbər də gözü öz qabağına çəkir.

Siz öz kökünüzlə, biz baba-nənələrinizin keçmişdə necə yaşaması, nə ilə məşğul olmağımızla maraqlandığınız kimi mən də siz nəvələrimin necə inkişaf etdiyi, mədəniyyəti, dolanması ilə maraqlanıram. Bunun üçün ruhum bütün Azərbaycanı (bizim o vaxt yaşadığımız ərazini indi siz belə adlandırırsınız) gəzir, gözünüzə görünmədən yığıncaqlarda olur, məruzələrinizi dinləyirəm və fəxr edirəm. Sizin mədəniyyətinizdən də, elmi səviyyənizdən də razıyam. Məni yalnız sizin, necə dedim, qətiyyətsizliyiniz, öz ünvanınızı başqasının dili ilə deməyə adət etməniz narahat edir. Çəkinin, başqalarından asılı olmaqdan! Öz tarixinizi özünüz yazın. Mən görürəm, buna mənim alim nəvələrimin gücü çatar, lakin bu işdə başqalarının yox öz tədqiqat və məntiqinizə inanın. Mənbələr dediyiniz qədim yunan, ərəb və s. tarixçilərinin məlumatları həmişə olduğu kimi düzgün yazılmayıb, onlar da hər şeyi özləri görüb yazmayıblar, çox vaxt eşitdiklərini, özü də öz istədikləri kimi yazıblar. Hələ bu harasıdır, onların əyri-düz məlumatları da sizə başqalarının tərcüməsində, onların da öz xeyrlərinə yozması ilə gəlib çatıb.

Mən istərdim ki, qədim kitabları mənim nəvələrim özləri əslindən oxuyub istifadə edəydilər. Axı buna onların qabiliyyəti də, gücü də çatar.

Görürəm və eşidirəm, bəzi nəvələrim də var ki, başqasının qoltuğuna girib, tariximizi onların dili ilə ucuzlaşdırır, kökümüzü heçə endirirlər. Mənim ruhum buna dözməyir. Az qalıram Allah qoyan qanunu, yəni ölünün dirilməməzliyi və ruhun sizin dünyaya qayıtmamazlığı, dirilərlə danışmamazlığı qanununu pozam, düşəm bu qayadan, qalxam qəbrimdən, kənd-şəhər gəzib qışqıra-qışqıra nəvələrimə deyəm ki, inanmayın onlara, inanmayın ki siz, sizin baba-nənələr, bu torpağa haradansa gəlməyik, guya dilinizi də dəyişib başqasının dilində danışırsınız. Deyəsən, sizi çaş-baş salırlar. Vallah, belə ki oldu, dözmürəm, lap məni indidən sonra cəhənnəmə də anarsalar, kimliyiniz haqda az da olsa deyəcəyəm.

- Hələ lap mənim də ulu babalarımın vaxtından biz elə sizin indi «Azərbaycan» sözü altında birləşən geniş ərazidə yaşamışıq. Bizim ulu babaların məskəni «Azıx», «Daş salahlı», «Tağlar», «Damcılı» kimi Daş dövrü mağaraları olub. Babaların bunlar kimi qədim düşərgələri çoxdur, mən yalnız şərtimizə görə sizin qazıb öyrəndiklərinizin adını deyirəm. Sonra isə Qobustanı elm aləminə tanıtdıran, bəşər tarixi ilə maraqlanan turistlər və qonaqlarınızın ziyarətgahına çevirən qədim qayaüstü təsvirlər kolleksiyasını - bu mədəniyyəti yaratdıq. Çaşmayın, kökünüzü türkdilli xalqlar yaşayan başqa ərazilərdə axtarmayın, bilin, bu qayaüstü təsvirlər mədəniyyəti bütün türk aləminə, türkdilli qəbilə və xalqlar yaşayan ərazilərə buradan yayılmış və sizin bizdən qalma gözəl dilinizi də özü ilə yaymışdır. Özü də bizdən mən nənənizin bu dünyada olub, bu qayalar arasında gəzdiyi vaxtdan xeyli sonra. Fikir verin, mənim surətim çəkilmiş bu daşda məndən

başqa da bizim dövrün adamları kölgə kimi qazılıb. Bizdən sonrakı dövrlərin insan təsvirləri isə belə deyil. İndi də bizdən şərqdəki böyük dənizə qədər türkdilli xalqlar yaşayan ərazilərdəki qayaüstü təsvirlərə fikir verin. Görərsiniz ki, orada bizim dövrün kölgəvari döyülmüş şəkilləri yoxdu. Olanların hamısı bizdən sonrakı dövrlərdə, Qobustan ruhunda çəkilmiş rəsmlərdir. Yadda saxlayın ki, türk aləmi dediyiniz ərazidə ən qədim xalq sizsiniz. Mənim dediklərimi təsdiq etmək üçün qazıntılarla aşkara çıxardığınız maddi qalıqlarımızı, arxeoloji materialları yaxşı öyrənin, tariximizi havadan deyilən sözlərlə yox, o materialları dindirməklə öyrənib yazın. Onda hər şey öz yerinə düşər və görərsiniz ki, sizin babalarınız kim olub, onlarla fəxr edərsiniz. Çalışın, öyrənin, aldanmayın. - Ulu nənə sonra sözü dəyişdi, - hə, ruhumun çiçəkləri, deyəsən, söhbətim sizin suallardan kənara çıxdı, özüm də qanunu pozdum. Bəlkə də buna görə cəzalanacağam. Nə olar, təki söhbətimin xeyiri olsun. İstəyirəm tarixinizi öyrənmək üçün düzgün istiqamət götürəsiniz.

İndi də qayıdaq bayaqkı söhbətimizə. Dedim ki, dağın dalında torpaq altında qalmış Qobustanda ən qədim mağara-düşərgələrimizin yerini göstərmək üçün cismani olaraq qəbirdən çıxa bilmərəm. Çünki siz bəylərə etibar qalmayıb. Son əsrlə lap yolunuzu azmısınız. Aləmi qarışdırır, bir-birinizi istismar edir, aldadır, nə bilim nə oyunlardan çıxırsınız. Bizim dövrdə belə deyildi. Nə hakim var idi, nə məzlum. Nə bəy var idi, nə nökər. Qəbiləmizin üzvlərinin hamısı bacardığı qədər çalışar və bərabər bəhrələnərdilər. Anaya, ağsaqqala, ovda və əməkdə seçilənlərə hörmət var idi, onların şərəfinə çəkilən şəkillərdir bu qayalarda gördükləriniz. Qaldı bizim keçmişdəki dolanacaq və məşğuliyyətimiz? Sizin alimlər öyrənib düzgün müəyyənləşdiriblər ki, insanlar həyata ilk addımlarını ovçular kimi atmışlar. Ovçuluq sizin Daş dövrü adlandırdığınız zamanın bütün mərhələlərində, bizdən də çox-çox sonrakı nəsillər heyvanları əhliləşdirənə və əkinçiliyə başlayana qədər ovçuluq və yığıcılıqla, balıqçılıqla məşğul olmuşdur. Onlardan da əsası ovçuluq idi. Lakin Daş dövrünün müxtəlif vaxtlarında ovçu babalarımızın ovçuluq təsərrüfatı da müxtəlif səviyyədə davam edib. Hər dövrün özünə xas daş alətləri, ov obyektləri, şəraiti olub və biri-birindən fərqlənib.

Bizim ulu babalarımız, bayaq dediyim kimi, «Azıx», «Daş salahlı», «Tağlar», «Damcılı» və hələ indiyə qədər aşkar edilməyən onlarca mağaralarda yaşamışlar. Bu yerlərə də orta Daş dövrünün sonlarında ov dalınca gəlib çıxmışlar. Sonra onları bu yerə bağlayan, o dövrdə bu ətrafda ovlanmalı heyvan sürülərinin çoxluğu, ov üçün əlverişli şərait, balıqçılıq üçün dənizə yaxınlığı, yaşamaq üçün hazır evlərin - qayaaltı sığınacaqların varlığı olmuşdur.

Sizin orta Daş (Mezolit) dediyiniz dövrdə bu qayaların arasında həyat qaynayırdı. Ov heyvanları da çox idi, balıq da, yeməli meyvə və bitkilər də, Kişilərimiz ceyran və gur ovlayar, balıq tutar, qadınlar isə ətraf - yaxın yerlərdən meyvə, göbələk, dombalan və bu kimi bitkilərin məhsulunu yığardılar. Əvvəllər alətimiz çaxmaqdaşından, qopardılmış tək qəlpədən və ya lövhədən düzəldilirdi.

Onlarda kəsər ağız kiçik idi, iş yavaş gedirdi. Sonra kişilərimiz çox kiçik lövhələri ağaca bərkitməklə yığma alətlər - nizə, xəncər, bıçaq, ox ucluğu, dənli otları yığmaq üçün iri ağızlı çin bıçaqlar hazırlamağı öyrəndilər. Əlbəttə, təsərrüfatın bəzi sahələrində bütün işləri yığma alətlərlə görmək olmurdu. Çaxmaqdaşından qaşov, siyirqaç, kəsər, mişar kimi alətlər də işlənməkdə davam edirdi. Bir sıra işləri görmək, məsələn, dəridən paltar düzəltmək (tikmək) üçün biz və iynə, balıq tutmaq üçün qarmaq, balıq toru toxumaq üçün alətlər və s. sümükdən hazırlanırdı. Eləcə də iri ölçülü işlər, deyək ki, ağac gövdəsinin içini yonub kiçik qayıq düzəltmək, gördüyünüz bu təsvirləri qayada əhəng daşı üzərində döymək, yeməli dənləri əzib yumşaltmaq və s. kimi işlər də yığma alətlərlə həyata keçirilə bilməzdi. Bu məqsədli alətlər - zərb alətləri, gərki tipli çopperlər, çapacaqlar, isgənələr, sürtgəclər, dəstəklər, balıq toru üçün ağırlıq daşları və s. iri, bərk bazalt cinsli çaydaşılardan düzəldilərdi. Adlarını çəkdiyim və çəkmədiyim alətlərin bütün formalarını (5-ci tablo, şəkil B), siz odur o qabaqdakı muzey etdiyiniz binada görə bilərsiniz. Sizi buraya gətirən bu nəvəm (yenə məni göstərir) bizim düşərgələrimizdə - burada «Ana zağa»da yaxındakı «Kənizə» və «Öküzlər» düşərgələrində, «Ovçular zağası» və «Çardaq zağa»da, dağın aşağısındakı «Daşaltı» düşərgəsində, Kiçikdağ dağı ərazisində «Ceyranlar», «Firuz», «Qayaarası» düşərgələrində, nisbətən son dövrlərə aid «Çapmalı», «Böyük daş», «Dairə» yaşayış yerlərində apardığı qazıntılardan bu alətlərdən minlərlə tapıb yığıb, muzey də düzəldib, Qobustan qoruğunun arxeoloji fondunu da o materiallar təşkil edir. O, qayalar arasında qazıntı apara-apara özü də qocalır. Bir də bu işləri xanımı ilə birgə görüb, uşaqlarını da burada böyüdüblər.

Mən gördüyüm işlər üçün tərif olunmaqdan utanaraq, tələsik:

- Nənə, - dedim, - mən sizin düşərgələrdə apardığım qazıntılarla ulularımızın, kökümüzün kimlər olduğunu öyrənməyə çalışmışam. İstəyirəm mənim həmvətənlərim bilsinlər ki, biz kimik və kimlərdən törəmişik? Sizlərdən sonra bu yerlərin torpağına, sərvətinə göz tikənlər azmı olub? Bizə qarışıb burada məskunlaşanlar da olub. Necə deyərlər, meşə çaqqalsız olmaz. İndi elələri var ki, siz deyən kimi, özləri bu yerlərə gəlmə olduqları halda özünü buralı, elə bizim qanımızdan olanlar da var ki, bizi kəlmə sayır.

Mənim Qobustanda apardığım qazıntılar və qədim təsvirlər üzərindəki müşahidələrimin nəticələri sizin bayaq dediklərinizi təsdiqləyir. Doğrudan da Qobustanda yaranan mədəniyyət ətraf regionlarda öyrənilmiş oxşar mədəniyyətlərin kökünü təşkil edir. Qobustanda ulu baba və nənələrimizin portretlərinin, siluet (kölgə kimi) çəkilmiş adam şəkillərinin tam oxşarı qonşu ərazilərdə yoxdur. Oralardakı, yəni nəinki Qafqaz, eləcə də dənizin o tayında, Orta Asiyada, Sibirdə ta Sakit okeana qədər yayılmış qayaüstü şəkillər, Uralda Paleolit dövrü ulularının Kap mağarasında çəkdikləri bizən və mamont kimi üst Paleolit şəkillərindən başqa, Qobustanın siluet adamlarından gecdir. Onlar yalnız buradakı Mezolitin sonundan başlayaraq çəkilmiş təsvirlərlə yaxınlaşır. Bu o

demək deyilmi ki, qayaüstü təsvirlər yayılmış ərazilərdəki mədəniyyət öz kökünü Qobustandan başlayır. Belə olduqda niyə biz Mərkəzi Asiyadan gəlmişlər olaq və ya onlar gəlib bizə dil öyrətmiş olsunlar?

Mən Qobustanı öyrənməklə yanaşı, vətənimizin başqa bucaqlarında və qonşu ərazilərdə aparılan arxeoloji qazıntılar, qədim mədəniyyət qalıqları, tapılmış əşyalar və s. abidələrlə də bir arxeoloq kimi az-çox tanış olmuşam. Mən görürəm ki, Qobustandan başlanğıc götürmüş qədim mədəniyyətimiz bütün sonrakı dövrlərdə də eyni dəsti-xətti saxlamaqla ilk əkinçi-maldar qəbilələrin Kültəpə, Şomutəpə, Töyrətəpə, Qarğalar təpəsi, Çalağantəpə və s. kimi yaşayış yerlərində daha da inkişaf edir. İlk Tunc dövründən Qobustanda, xüsusən göstərilən abidələrdə qəbilə birləşmələri böyüyüb daha da möhkəmlənir və onların bir-milli ruhdan törədiyi özünü daha aydın göstərməyə başlayır. Bu dövrdə Kültəpə, Töyrətəpə, Şomutəpə kimi ilk əkinçi-maldar qəbilələrin mədəniyyətləri əsasında babalarımızın yaratdığı Kür-Araz mədəniyyəti Baş Qafqaz dağlarının cənub ətəklərindən Göyçə gölü ətrafına, Şərqi Kiçik Asiyaya, Urmiya gölü ətrafına, Xəzər dənizi boyu Şimali Qafqaza qədərki ərazilərə yayılır. Sonralar bir mədəni kökdən olan tayfa, qəbilə birləşmələri bu geniş ərazidə Midiya, Manna, Atropatena, Albaniya kimi dövlətlər yaradırlar. Ayrı-ayrı ərazilərdə yaranan bu dövlət birləşmələri ümumi kökə malik qədim mədəniyyətimiz daxilində ərazi xüsüsiyyətlərinə malik yeni-yeni və dövrü mədəniyyətlərin: Naxçıvanda boyalı qablar, Kiçik Qafqazın şərq hissəsində Üzərlik-Göyçə, Xocalı-Gədəbəy, sonra Yaloylutəpə kimi mədəniyyətlərin yaranmasına gətirib çıxarır. Ayrı-ayrı ərazilərdə yaranan mədəni lokalizasiyalar ümumi kökə malik dilimizdə də ləhcə fərqlərinə səbəb olur. Beləliklə, mən hesab edirəm ki, Azərbaycan xalqı Qobustandan başlayıb sonrakı dövrlərdə də onun inkişafının nəticəsi olan mədəniyyətləri yaradanların varisləridir.

Söhbətimə diqqətlə qulaq asan Ulu nənə söhbətim üçün razılıq edib dedi:

- Nəvələrim, insan kimliyini bilməli, özünü dərk etməlidir. Heç bir kəlmənin özünü yerli, yerlinin özünü kəlmə kimi qələmə verməsi Allaha da xoş getməz. Düzdür, indi eləlɘri də belələri də var. Lakin ataların bir kəlamını yaddan çıxarmaq olmaz: «Əsil-nəslini danan haramzadədir». Adam gərək mənliyini, qürurunu itirməsin. İndi sizlərdə bir adət düşüb, deyirsiniz mənim hansı mahaldan, vilayətdən, şəhərdən, kənddən olmağımı soruşma, bilirsən ki, azərbaycanlıyam, kifayətdir.

Yox, bala, mən razı deyiləm. Hər kəs kəndlər arasında öz kəndi, rayonlar arasında öz rayonu, öz şəhəri, öz vilayəti, nəhayət, öz ölkəsinin təəccübünü, qürurunu gözləməli, gördüyü ümumi yaxşı iş üçün onlar qarşısında qürurlandığı kimi, pis işi üçün də cavab verməli, utanmalıdır. Millət adından alver edən, başqasının təsirinə düşüb kimliyini danan, şəxsi məqsədlər üçün başını başqasının pencəyinin altına soxan heç vaxt millətinə, xalqına xeyir verə bilməz. Aman

Allah, nəvələrimdən beləlləri varsa ona rəhmin gəlməsin, başına bu qayalar boyda daş sal!

sonra Ulu nənə yorulduğunu bildirib, qayada öz yerini tutub daşa döndü. Dəstəmizdən bir nəfər gileyləndi ki, bu nənə nə tez yoruldu? Heyvanların necə əhliləşdirilməsi əkinçiliyin yaranması, qayalardakı bir sıra şəkil və səhnələrin nə vaxt, nə üçün çəkilmələri və s. haqda da danışsaydı yaxşı olardı.

Ulu nənə yenidən daşda qabardı, lakin tam düşməyib dedi:

- Ay oğul, mən onsuz da «ölü kordan qayıtmaz» kəlamını pozub az-çox sizə məlumat verdim. Mən bunu etdim, amma etməli deyildim. Mən sizin rejimlə işləyə bilmərəm. Narahat olma, ömrünü bu qayalar arasında keçirmiş nəvəm apardığı qazıntıların nəticələri və müşahidələri əsasında fikirlərini söyləsə mənim deyəcəklərimi demiş olar. Allah canınızı sağ eləsin, nə qədər sizin dünyadasınız çalışın, çalışın bizim dünyaya köçənə kimi elə hörmət qazanasınız ki, sonra sizin də surətiniz abidə olaraq əbədiləşsin, ruhunuz üçün ev olsun.

Sonra ekskursiyanı mən davam etdirməli oldum.

* * *

Heyvanların nə vaxtdan və necə əhliləşdirilməsi hatda arxeoloji ədəbiyyatda çox yazılıb. Əlbəttə, bu proses dünyanın müxtəlif yerdərində müxtəlif minilliklərdə olsa da təsərrüfat və inkişaf baxımından əsasən Neolit (yeni Daş) dövründən, bəzən də kökləri lap Mezolitdən götürülür. Bu ədəbiyyatdan məlum olur ki ov zamanı anası ovlanmış balalar düşərgəyə gətirilir, ovda əldə edilmiş ət, yemək bol olduqca balalar bağlanıb yedizdirilir və bir müddətdən sonra insanlara öyrəşib onlardan qaçmır və beləliklə əhliləşir. Əlbəttə, çox yerdə, elə Qobustanda da müəyyən qədər belə olmuşdur. Lakin Qobustanda heyvanların əhliləşməsi iki mərhələdən keçmişdir. Birinci mərhələ ikincinin işini yüngülləşdirmişdir.

İlk qobustanlılar bu qayalar arasında məskən salan zaman, üst Paleolitin axırlarında Qobustanda o qədər heyvan sürüsü var idi ki, ilk qobustanlı babaların ov etməsi də asan idi. Onlar ətrafda otlayan heyvan sürülərini yavaş-yavaş Böyükdaş və Kiçikdaş dağlarının 10-15 metrlik dik uçurumla əhatə olunmuş zirvəsinə qovub qayadan uçurardılar. Bu vaxt heyvanların yaşlıları da, cavanları da qayadan düşüb parçalanar, ət o qədər bol olardı ki, heç balığa, yeməli meyvə və bitkilər yığmağa da ehtiyac qalmazdı. Sonradan get-gedə ov heyvanları azaldı. Həm onları ovlamaq çətinləşdi, həm də ağsaqqallar gördülər ki, belə getsə onları qırıb qurtararlar, deməli onsuz, ətsiz qalarlar. Bu vaxt artıq yay-ox da ixtira olunmuşdu. Ağsaqqallar qərar çıxarırlar ki, heyvanlar bir müddət yalnız yay-oxla, bayram şənliklərində və qəbilə xüsusi şəraitdə, ac qalarsa, lazımi sayda ovlansın. Qəbiləni yedirmək üçün, on çox balıq ovlansın, müxtəlif xırda heyvanların, meyvə və yeməli otların yığımı artırılsın. Bir müddətdən sonra belə vəziyyət yaranmışdı ki, heyvan ovlamaq lazım gələndə qoçaq ovçuya sürüdəki hansı heyvanın tək ovlanması tapşırılırdı.

Bu vəziyyətdə Qobustanda olan heyvan sürüləri elə bil burada yaşayan qəbilənin xüsusi sürüsünə çevrilmişdi. Bu əsasən Qobustanın şəraiti ilə də bağlı idi. Qobustanda Böyükdaş, Kiçikdaş, Cingirdağ qayalıqları Kənizə və Torağay dağları ətrafındakı düzən sahələr dağ keçisi, ceyran, gur və s. sürüləri üçün bağlı sahə təşkil edirdi. Buradakı heyvanların uzaq sahələrə getməsinə yol, şərait yox idi. Dağın deyək ki, şərq tərəfi düzənlikdəki ceyran sürüsü hürkdükdə, o biri dağın qərb tərəfindəki düzənliyə, dağın bu başı qayalıqdakı keçilər hürkəndə dağın o biri qayalıq başına qanırdı, vəssalam. Beləliklə, onlar bir növ bu dağlarda məskən salmış qəbilələrin xüsusi heyvanlarına çevrilmişdilər. Artıq Qobustan qəbilələri ətraflarındakı heyvanların balalarını qurdun-quşun aparmamasının qeydinə qalırdılar. Heyvanlar da daim rastlaşdıqları insanlara isinişir, onlardan qaçmırdılar. Qobustanda heyvanların əhliləşməsinin birinci mərhələsi belə keçdi. Get-gedə keçi və öküz kimi heyvanlar qayalar arasında balasından uzağa getmədiyindən insanlardan o qədər də qaçmırlar. Qəbilə üzvləri bundan istifadə edib balaları və elə iriləri də, xüsusən qış vaxtları, müəyyən yerlərə ot qoymaqla, yedirməklə özlərinə yaxınlaşdırırlar. Beləliklə, Neolit dövründən Qobustanda heyvanların (öküz və keçinin) əhliləşməsi başlanır (4-cü tablo, şəkil B).

Sual ola bilər ki, o vaxt Qobustanda, bu qapalı ərazidə nə qədər heyvan yaşaya bilərdi? Çox, lap çox, artımı ilə qəbilənin ehtiyacını ödəyə biləcək qədər. Oxucuya elə gəlməsin ki, mümkün olmazdı. Nəzərə alaq ki, o vaxt təbiət mülayim, bitki örtüyü zəngin idi. İkincisi, elə indinin özündə Qobustan qəsəbəsi və Şıxlar kəndinin minlərlə mal və qoyununu il uzunu bu ərazi saxlayır. Əhalinin ehtiyacını müəyyən qədər ödəyir. Qədim Qobustanda əhali indikindan dəfələrlə az, əsas işləri isə ovçuluq və maldarlıq idi.

Qobustanda yığıcılıq təsərrüfatından bitkilərin becərilməsinə, əkinçiliyə keçidə də əlverişli şərait səbəb olmuşdu.

Hələ Daş dövründə yeməli otları, onların kökü və dənini, meyvəsini yığan qədim insanlar çoxillik təcrübələri əsasında meşədə meyvə ağaclarının yerini, çöldə müəyyən otun, göbələyin, dombalanın və s. harada bitdiyini və onların nə vaxt baş verib yetişməsini yaxşı bilir, yadlarında saxlayırdılar. Söz yox ki, qədim qobustanlılar yeməli bitkiləri yığıb düşərgəyə gətirir, «evdəkilərlə» bölüşdürürdülər. Tökülmüş toxumların gələn mövsümdə, düşərgə yanında (həyətdə) bitib yetişməsi insanların diqqətindən yayınmır. Onlar bunun sirrini dərk etməyə başlayaraq yeməli bitkilərin toxumlarından yığıb düşərgələrinə yaxın yerlərdə özləri əkməyə başlayırlar. Sonra, get-gedə meyvə ağaclarını da düşərgə yanında bitirməyə nail olurlar. Antik və ilk orta əsrlərdə Qobustanda güclü bağçılıq olduğuna qayalar arasında sırlaşaraq indiyə qədər qalmış, bir sıra meyvə ağaclarının qalıqları şahidlik edir.

«Ana zağa»da Tunc dövrü təbəqəsinin qazıntısı zamanı anbar kimi istifadə edilmiş kiçik daş qurğuların içində, bir yerdə olmaqla, dağdağan meyvəsinin

toxumları aşkar edilmişdi. Görünür, Tunc dövrü qobustanlıları dağdağan meyvəsini qurudub əzuqə kimi saxlamışlar.

Son illərdə, xüsusən yaz yağmurlu keçəndə, iyun ayının sonunda, Böyükdaş dağı yuxarı səki sahəsində, qədim düşərgələrin ətrafındakı dinc sahələrdə diqqətimi alçaq, qaraqılçıq ot cəlb etmişdi. Mən onları yoxladıqda məlum oldu ki, onun kiçik gövdəsi, taxıl gövdəsidir, 3-4 buğumdan ibarət qaraqılçıq sünbülü var. Sünbülün içində isə 3-4 ədəd (bəlkə də quraqlıq, susuz olduğundandır) adi buğda dənələri var. Bu növ bitkinin Qobustanda yalnız qədim düşərgələr ətrafında olması, bəlkə də onların vaxtilə düşərgələr ətrafında əkilməsini göstərir.

## QOBUSTANIN QAYAÜSTÜ TƏSVİRLƏRİ

Qobustanı dünyaya tanıtdıran ilk növbədə onun qədim qayaüstü təsvirləridir. Qobustanda qayaüstü təsvirlərin yaranma tarixi üst Paleolit dövrünün orta Daş (Mezolit) dövrünə keçid mərhələsindən, 12-15 min il bundan əvvəldən başlayıb orta əsrlərə, islamın yayılması dövrünə kimi davam edir. İslamın "canlı aləmin yaradıcısı Allahdır, dünyanı, da o yaratmışdır, ondan başqa heç kəs canlı yaratmaq iqtidarında deyil" müddəaları insanı və bütün canlıları təsvir etməli də qadağan edirdi. Bu səbəbdən də artıq orta əsrlərdən Qobustan qayalarında təsvirlər getdikcə azalır, reallığını itirir. Lakin bundan sonra da yəni orta əsrlərin özündə, hətta son əsrlərə aid bəzi təsvir, işarə, damğa və simvollara rast gəlmək olur. Əlbəttə, on min illərlə yerli xalqın mədəni vərdişinə çevrilmiş mədəniyyət izlərini onun ruhu və qanından çıxarmaq, minillərin keçməsini, neçə-neçə nəsillərin dəyişməsini tələb edir.

Qobustanın qədim qayaüstü təsvirlər kolleksiyasının Böyükdaş, Kiçikdaş, Cingirdağ- Yazılıtəpə, Şonqar və Şıxqaya dağları sahəsində aşkar edilib qeydə alınmış abidələrinin ümumi sayı 6 mindən çoxdur. Buraya insan və heyvan təsvirləri, quş, balıq, hətta ilan və kərtənkələ kimi sürünənlər, böy, əqrəb kimi həşarət şəkilləri daxildir. Qayalarda çoxlu qayıq, balıq, tutmaq üçün tor şəkilləri, işarə və damğalar, latın və ərəb qrafikası ilə yazı qalıqları da saxlanmışdır.

Qobustan qayaları üzərində qazılmış və tərpənməz qablar rolu oynamış yüzlərlə qədim yalaqlar, heyvan bağlamaq və ərzaq asmaq üçün açılmış dəlmə-ilgəglər, insanların əyləncə və idmanla məşğuliyyət vasitəsi olmuş «ev köçdü» oyunu üçün kiçik yalaqlar qrupu və s kimi abidələrin çoxluğu Qobustanda qaynar həyatın əsrlər boyu davam etdiyini göstərir.

Qobustanın qayaüstü təsvirlər kolleksiyası sayca o qədər çox olmasa da əhatə etdiyi tarixi çərçivənin genişliyi, mövzu müxtəlifliyi, müxtəlif dövrlər üçün həyat səhnələrinin əks etdirilməsi, təsvirlərin müxtəlif texniki üsullarla real çəkilməsi cəhətdən tayı-bərabəri olmayan qədim abidələr kompleksidir.

Qobustanda qayalar üzərində qeydə alınmış 6 mindən çox qədim təsvir və başqa abidələrlə yanaşı «Ana zağa», «Ovçular zağası», «Çardaq zağa», «Kənizə»,

«Öküzlər», «Öküzlər-2», «Maral», «IV sığınacaq», «Daşaltı», «Ceyranlar», «Qaya arası», «Firuz», «Firuz-2» və bu kimi ondan çox Daş dövrü düşərgəsi, «Böyükdaş», «Dairə», «Çapmalı» kimi Tunc dövrü yaşayış yerləri və 30-dan çox o dövrün kurqan tipli qəbir abidəsi, antik və orta əsrlərə aid bir sıra tikili və həyat qalıqları aşkar edilib arxeoloji qazıntılarla öyrənilmişdir.

Qobustan abidələri kompleksi uzunu 15-20 km, eni 2 km olan zolaqvari kiçik bir sahədə yerləşən Böyükdaş, Kiçikdaş və Cingirdağ ərazisindəki qayalıqlar arasındadır.

Müxtəlif tarixi dövrlərdə yaranmış, qədim qobustanlıların keçmiş həyatını əks etdirən abidələrin saxlandığı bu kiçik ərazi əslində təbii arxeoloji rayon, açıq səma altında muzeydir. Elə muzey ki, bələdçi və hazırlıqlı tənəzzöhçünün müşayiəti ilə bu üç dağın ərazisini gəzənlər 10 min ildən artıq tarixi dövrdə arasıkəsilmədən bu dağların ərazisində yaranıb bizə qədər saxlanmış tarixi abidələrin əsli ilə tanış olar, bir növ muzeyə orta Daş dövründə girib zəmanəmizdə çıxarlar. Dünyada elə bir ikinci bu cür muzey yoxdur ki, onun 10 min ildən çox dövrü əhatə edən eksponatları, Qobustanda olduğu kimi, özünün ilkin yerində nümayiş etdirilsin. Gəlin Qobustan kolleksiyasının bəzi qədim şəkil və səhnələri, tarixi arxeloji abidələri ilə tanış olaq.

## İNSAN TƏSVİRLƏRİ

Qobustanda insan şəkillərinin ən qədimləri son Paleolit və Mezolit dövrünün qadın və kişi təsvirləridir. Onlar qayalarda öndən və yandan olmaqla siluet şəklində qazılmışlar. Qayalarda insan şəkillərinin bu cür döyülməsi Qobustan üçün səciyyəvidir.

***Qadın təsvirləri.*** Qobustanda qədim şəkillər arasında diqqəti xüsusi cəlb edən mövzulardan biri qadın təsvirləridir. Qobustanın qadın təsvirləri bu mövzuda yuxarı Paleolit dövrü şəkilləri və Heykəlcikləri ilə yaxınlıq təşkil edir. Qobustanda «Kənizə» düşərgəsində arxeoloji qazıntılar zamanı tapılmış Qobustanın Mezolit dövrü qadın fiqurları da qayalardakı qadın fiqurları formasındadır.

Qadın heykəlcikləri və şəkillərinin yaradılmasını alimlərin çoxu bolluq rəmzi kimi izah edir və onu ovsunçuluqla bağlayıb ilahiləşdirirlər. Anaya, bəşəriyyətin yaşaması səbəbkarına pərəstiş, onun ilahiləşdirilməsi tək ibtidai dövrdə deyil, indi də bir qanunauyğunluğa malikdir. Ana qarşısında dünyanın ən böyük alimi də, sərkərdəsi də, ən qəddar şahı da baş əymiş və bu baş əymədən boyun qaçıran tapılmaz. Hər birimizi dünyaya bir müqəddəs ana gətirib. Əgər dünyanın, bəşəriyyətin yaradıcısı kimi Allah tanınırsa bizi öz hüceyrələrindən yığıb, qanını, nəfəsini verməklə yaradan Ana əsl Allahımızdır. Hələ dünyanın təbii qanunlarını dərk etməmiş uşaq aclığa da, susuzluğa da, hər hansı ağrı əziyyətə ANA qışqırmaqla etiraz edir. Belə bir məxluqa, anaya pərəstiş olub və lazımdır.

Ananın obrazını yaratmaq - şəklini çəkmək, surətini heykəlciklər formasında düzəltməyə dəyər. Ananın siması, ana nəfəsinin istisi minillərlə ürəklərlə yaşayıb, səsi qulaqlarda qalıb.

Qobustanda qadın şəkilləri ən çox Kiçikdaş və Böyükdaş dağının yuxarı səki sahəsində qeydə alınmışdır. Aşağı səki sahəsində onlara nisbətən az rast olunur. Oxucu tələsib soruşa bilər: «Bəs Cingirdağda, Yazılıtəpədə?» Qeyd edim ki, Cingirdağ sahəsindəki qayaüstü təsvirlər kolleksiyası Kiçikdaş və Böyükdaş kolleksiyalarından çox-çox cavandır. Orada nəinki qədim qadın və kişi təsvirləri eləcə də ibtidai öküz, gur və daş dövrünə aid başqa heyvanların şəkilləri də yoxdur.

Qobustanda qeydə alınmış qadın şəkilləri çəkilmə üsulu və təsviri formalarına görə müxtəlif baxımlıdır (7-ci tablo, şəkil A). Onların bir qrupu qayalarda rəmzi olmaqla yandan, kölgə şəklində qazılmış və içərisi sürtülüb hamarlanmışdır. Üst Paleolit Dövrü qadın fiqurlarını xatırladan bu tip qadın təsvirlərinin döşləri çox iri, bədənləri incə, oturacaqları dairəvi və bəzən 2-3 yumru ilə verilmişdir. Onlar elə bil qabağa doğru əyilmiş kimi göstərilmişlər. Bu tip qadın təsvirləri Böyükdaş dağı yuxarı səki sahəsindəki 29 №-li daşın şimal üzünün sağdan aşağı hissəsində (7-ci tablo, şəkil A-da 1-3-cü fiqurlar), 46 №-li daşda (yenə orada, 4-5-ci fiqurlar), Kiçikdaş dağında 49 №-li daşda (17-18 №-li fiqurlar), Qayaaltı sahədə 1, 7, 8, 9 №-li və 5 №-li daşda (6-cı tablo, şəkil B) və s. qeydə alınmışlar. Yuxarı Paleolit dövrü adamlarının (qadın doğmaq və doğulmuşu yedizdirmək üçündür) dünyagörüşünü rəmzi olaraq əks etdirən bu tip qadın təsvirləri Qobustanda ən qədim şəkillərdir.

Qobustanda ikinci tip qadın təsvirləri mahiyyətcə yuxarıdakıları təkrarlayır. Mezolit dövrünün inkişaf mərhələsinə aid bu tip qadın təsvirləri düz iridöşlü, yoğun baldırlı, lakin dizdən boğma ilə ayrılmış ayaq hissəsinin əzələsi qabarıq verilmişdir. Onların çoxu öndən olmaqla təsvir edilmiş və xeyli iri ölçülüdürlər. Onların çiyinlərində Mezolit dövründə artıq əsas ov silahı olan yay-ox və ya ucuna daş bağlanmış toxa tipli yerqazan təsərrüfat aləti vardır (7-ci tablo, şəkil A-da 6-10, 16, 19-cu fiqurlar).

Üçüncü tip qadın rəsmləri ümumi baxımlığı cəhətdən ikinci tip qadınlar kimi, lakin kontur xətlə, əhatə edilməklə göstərilmiş və içərisi müxtəlif istiqamətli xətlərlə bəzədilmişdir (7-ci tablo, şəkil A-da 11-15 və 20-ci fiqurlar). Onlar da mahiyyət etibarilə ikinci tipi təkrarlayır və onun içində, onların davamı kimi yaranıb Eneolit dövründə də davam edir.

Qadın fiqurları haqda S. Peterburq alim-arxeoloqu Z. Abramova deyir ki, bunlar hər hansı həyatdankənar abstrakt ideyanın təzahürü və ya izahlı surəti yox, fərdi qadın təsvirləridir. Qadın fiqurlarının müxtəlifliyi isə ibtidai adamın təfəkkürünün xarakterindən xəbər verir.

Qeyd edək ki, Qobustan qayalarındakı insan təsvirləri qəbilənin ağsaqqalı, ovda və əməkdə fərqlənmiş kişinin və nəslin davam etdiricisi, ev işlərini sahmanlayan, gəlin və qızları ümumi işlər üçün təşkil edən, qəbilə ocağının

qoruyucusu hörmətli nənə və anaların şəkilləridir. Onu da qeyd etməyi lazım bilirəm ki, elə hesab edilməsin ki, ağsaqqal dedikdə bütün qocalar, ovçu dedikdə bütün kişilər, eləcə də qadın dedikdə bütün qadınların şəkilləri çəkilirmiş. Yox, ağsaqqal dedikdə qəbiləyə başçılıq edən, məsləhət və əməlləri ilə qəbilənin hörmət və ehtiramını qazanan, ovda və işdə fərqlənən dedikdə isə xüsusi şücaət göstərən, mahir ovçu, indiki ölçü ilə götürsək əsl xalq qəhrəmanına bərabər kişilər nəzərdə tutulur. Qadın şəkilləri də heç bütün ana-nənələrin yox, seçilmişlərin təsvirləridir.

Qobustan qayalarında o ananın (qadının) surəti qazılıb ki, qəbiləni ətrafına toplaya, özünə hörmət qazana bilmişdir. Deməli, Qobustan qayalarındakı hər qadın təsviri hansısa bir anaya pərəstişin, hörmətin təzahürü, onun adını (simasını, ruhunu) əbədiləşdirmə simvoludur. Belə olmasaydı (hər qadın və kişinin surəti daşa köçürülsəydi) 10--12 min ildən çox dövr ərzində Qobustan qayalarında həkk olunmuş insan təsvirlərinin sayı on minlərlə olardı. Doğrudur, Qobustanda bizə gəlib çatmış qədim təsvirlər vaxtilə qayada çəkilmiş şəkillərin bəlkə də heç $^{1}/_{3}$—$^{1}/_{5}$-i də deyil. Lakin on min il ərzində, hər iki ildə bir nəfərin şəkili çəkilsə idi belə, insan təsvirlərinin sayı daha çox olardı. Qobustan qayadarındakı insan təsvirləri ağsaqqallar yığıncağının qərarı ilə çəkilmiş, qəbilənin xüsusi fərqlənmiş kişi və qadınlarının surətidir. O vaxtlar belə işlər və ya irəli çəkilmələr üçün nə tanışlıq və ya qohumluq iş görür, nə də ağsaqqallar rüşvət alırdı. Görünür, bizdə də adamların fərqləndirilməsi üçün şərəf lövhəsinə vurulması və ensiklopediyaya salınması babalardan bizə qədər gəlib çatmış adət-ənənənin davamıdır. Antik dövrün görkəmli sərkərdələrinə, alimlərinə, allahlara, ilahələrə düzəldilmiş heykəllərin, orta əsrlər rəssamlarının yaratdıqları gözəlliklərin, şəkillərin kökü nəsldən-nəslə keçərək yaşayan bu ənənədən başlayır. Elə bizim vaxtımızda məbəd və binaların divarlarında, qoca çinarların gövdə və budaqlarında, xiyabanların oturacaq yerlərində və s. və s. yerlərdə düşünülməmiş və mənasız sözlərin, adların yazılması qədim, əbədiləşdirmə üsulunun qalıqlarıdır. Beləliklə, bunları yazan şəxs özü də bilmədən və hiss etmədən bu yerlərdə olması haqda nişanə qoymuş, məlumat vermiş olur. Lakin bu avtoqraflarla qayaüstü insan təsvirləri arasında dövrü qədər də böyük fərq var. Qədim insan şəkilləri qəbilə üzvlərinə, onların fərqlənmişlərinin sürətini qayada həkk etməklə, onlar kimi qoçaq, fədakar, hörmətli olmağa çağırırdısa indiki avtoqraflar qədim təsvirləri, abidələri zədələyib korlayır, adamlarda qəzəb oyadır.

Yeri gəlmişkən deyim ki, Qobustan qayalarında da belə avtoqraflara çox rast gəlmişik. Nə deyim!! Qobustan qayaları üzərində nəinki avtoqraf yazmaq, hətta cızıq çəkmək belə qəbahətdir. Axı, burada daşlar üzərindəki qədim şəkillərin, minillər ərzində saxlanma vəziyyətindən asılı olaraq çoxunu görmək, qədim şəkillərlə əvvəlcədən tanışlığı olmayanlar, bəzən lap olanlar üçün də çətindir. Ona görə də qayalar üzərində yazılan avtoqraflar bəzən qədim şəkillərin üstünə düşməklə abidələri korlayır, məhv edir.

***Bir qeyd.*** Deyə bilərlər ki, bəs Qobustan qoruğunun işi nədir? Əlbəttə, qoruq abidəni qorumalıdır. Lakin necə? Qoruğun 3-5 baxıcısı üçün üç dağın ərazisində 4-5 kv km sahəyə səpələnmiş 100 minlərlə qayalıqları, qorumaq mala-qoyuna baxan çoban-sığırçıya, qayaların dibində dincələnlərə, eləcə də ilin müəyyən vaxtlarında, gündə 15-20 avtobusla ekskursiyaya gələn uşaqlı-böyüklü qonaqlara gəzinti zamanı nəzarət etmək çox çətin işdir. Bunun üçün geniş və mərkəzləşdirilmiş təbliğat, adamların bu işə münasibətində abidələrin qorunması xeyrinə dəyişiklik gərəkdir.

***KİŞİ TƏSVİRLƏRİ.*** Qobustan üçün enli çiyinli, hündür qamətli, möhkəm bədənli kişi təsvirləri səciyyəvidir. Onların dizdən aşağı qıçlarının əzələləri qabarıq verilmişdir. Əllərində ox, çiyinlərində kaman göstərilmiş, bellərindən kəmərçin sallanır. Başları çıxıntı şəklində, qolları nazik xətlə göstərilmişdir. Bu tip kişi təsvirləri Böyükdaş dağının yuxarı səki sahəsindəki 23, 25, 29, 30, 38, 39, 44, 85, 128 №-li və b. daşlarda qeydə alınmışdır (3-cü tablo; 8-ci tablo, şəkil A; 10-cu tablo, şəkil A və B; 15-ci tablo, şəkil A, B və E). Bu tip kişi təsvirləri orta Daş dövrünün əməkdə və ovda fərqlənmiş qəbilə üzvləri - ovçulardır. Bu kişi təsvirlərinin qıçlarının qabarıq verilməsi onların gün çıxandan gün batana qədər - bütün günü ov dalınca qaça bilməsini, dözümlü olmasını nəzərə çarpdırmaq üçün idi. Söz yox ki, qəbilə ovçularının hamısı bütün günü ov dalınca qaçmağı bacarmalı idilər. Belə olmasaydı bir nəfərin gücsüzlüyü, dözümsüzlüyü üzündən cərgədən geri qalması ovun əldən çıxmasına, qəbilənin ac qalmasına səbəb olardı. Güclü və dözümlü olmaq üçün onlar boş vaxtlarında məşq etməli, yallı kimi kollektiv rəqslərdə bərkiməli idilər.

Kişi təsvirlərinin (bəzən qadın şəkillərinin də) yay-oxla silahlanması Qobustanda artıq orta Daş dövründən bu ov silahından geniş istifadə olunduğunu göstərir. Qədim Qobustanlıların kəmərçində təsviv olunması isə o dövrün təbii iqlimi və geyimləri haqda məlumat verir.

Qobustan qayalarında müxtəlif silahlarla (yay-ox, nizə, qılınc, gürz, sapand və s.) silahlanmış piyada və süvari ovçu, döyüşçü, cəngavər, yallı gedən və tək-tək rəqs edən, qayıqlarda mahir dənizçi-balıqçı, karvanbaşı və s. kimi kişi təsvirləri də qeydə alınmışdır.

Kişi qəbilənin vuran əli, gətirən ayağı idi. Ovçuluq da, balıqçılıq da əsasən kişi əməyinin kişi qüvvəsinin sayəsində qəbilənin həyat mənbəyinə çevrilirdi. Qəbilədə qadınların ovda və balıq tutmaqda iştirakı isə tam həlledici rol oynamayırdı; Qadınlar ovdan gətirilmiş heyvanı, dənizdən gətirilmiş balığı təmizləməli, bişirib hazırlamalı, qəbilə üzvləri arasında hər kəsin ehtiyacına görə bölməli, ev işlərini görməli, körpələrə baxmalı idilər. Qadınların məşğul olduğu əsas təsərrüfat sahəsi isə yığıcılıq idi. Bu təsərrüfat sahəsi özü qəbilənin ərzaqla təminatında heç də ovçuluq və balıqçılıqdan az əhəmiyyətli deyildi. Ovçuluğun inkişafı cəmiyyətin maldarlığa keçməsinə, yığıcılıq vərdişləri isə əkinçiliyin meydana gəlməsinə səbəb olmuşdur.

## HEYVAN TƏSVİRLƏRİ

Qobustan qayalarında çox qədim zamanlarda bu ərazidə yaşamış - bütün məməli heyvanların, eləcə də bəzi sürünənlər, quşlar və balıqların şəkillərinə rast gəlmək olar. Məməli heyvanlardan ibtidai öküz, keçi, marad, at şəkilləri çoxdur. Başqa məməlilərdən gur, ceyran, donuz, pişik, it, tülkü, şir, canavar, bəbir, dəvə, qoyun və s. şəkilləri də var.

Qobustan qayaüstü təsvirləri qayalar üzərində, əsasən, qazma, döymə və sürtmə üsulu ilə çəkilmişlər. Yağlı boya ilə çəkilmiş rəngli şəkillər və iti alətlə, çox nazik cızılmış xətlərlə verilmiş təsvirlər də qeydə alınmışdır. Heyvan şəkilləri əsasən kontur xətlə verilmişdir. Onlar adi xətlərlə o qədər real və mütənasib çəkilmişlər ki, adamı heyran qoyur. Onların mövzu zənginliyinin, real çəkilişinin sirri, ulu babalarımızın yadigarları olan bu qədim sənət əsərlərinin həyatla bağlılığındadır.

Qobustan qayalarında kölgə kimi döyülmüş qadın və kişi şəkillərindən sonra tarixi cəhətdən ən qədim şəkillər öküz təsvirləridir. Öküz təsvirləri Böyükdaş, Kiçikdaş və Şonqardağ zonasında, qədim insanların Daş dövrü düşərgələri və onların ətraf sahələrində saxlanmışdır. Onlar qayalarda əsasən qazma üsulu ilə yandan görünüşdə kontur xətlərlə çəkilmişlər. Öküzlər Qobustanda çəkildiyi dövrün çəkilmə zəruriyyətindən və (məqsədindən asılı olaraq müxtəlif böyüklükdə və görünüşdə, müxtəlif səciyyəli reallıqla təsvir edilmişlər. Onların ən qədimləri əsasən iri ölçülü və çox real təsvir edilmişlər. Öküz təsvirləri ilk növbədə ölçüsü və buynuzlarının müxtəlif formalılığı ilə fərqlənirlər.

Bir neçə qədim rəsm və səhnənin çəkilmə üsulunun və mövzusunun reallığına fikir verək:

Öküz şəkilləri Qobustanda ən qədim heyvan təsvirlərindəndir. Sayca da müəyyən qədər çoxdur. Bu, əlbəttə onun Qobustanda tutduğu mövqeyi ilə bağlıdır. Öküz təsvirləri qayalarda bir qayda olaraq dörd xətlə, konturdan çəkilmişdir. Burada bir xətlə öküzün qabaq buynuzu, başı və qabaqdan birinci ayağı; ikinci xətlə dal buynuzu, boyun-bel xətti və quyruğu; üçüncü xətlə bir qabaq və bir dal ayağı ilə qarınaltı xətti və dördüncü xətlə axırıncı dal ayağı göstərilir (6-cı və 8-ci tablolarda öküz təsvirləri). Dörd xətlə öküzün şəklini belə real və canlı təsvir etmək üçün qayada əvvəl rəsmin kontur xətti yan-yana olmaqla qazılmış nöqtələrlə ayrılmış, sonra onların araları birləşdirilərək xəttə çevrilmiş və içərisi sürtülüb hamarlanmışdır. Öküz rəsminin bu cür texniki üsulla çəkilmiş olduğuna Böyükdaş dağında yuxarı səki sahəsindəki Ovçular mağarasında qazıntı zamanı tapılmış daş üzərində və aşağı səki sahəsində 159 №-li daş üzərində qeydə alınmış yarımçıq (yarısı tam işlənmiş və yarısı hələ nöqtələrlə ayrılmış) öküz təsvirlərinin qalıqları şahidlik edir. Bu cür ifa üsulu Qobustan üçün səciyyəvidir. Öküz rəsmlərinin reallığını sözlə deməyə çətinlik çəkirəm. Lakin $^1/_4$, $^1/_5$ hissəsi

örtülməklə göstərilən bir neçə öküz təsviri arasında hansının Qobustan öküzünün şəkli olduğunu bilərəm. Çünki Qobustanın öküz təsvirlərində xətlərin əyintisi buynuzda, beldə, boyunda, ombada, ayaqlar və onların dirsəklərində o qədər təbii verilir ki, onların qarşısında fikirləşdikcə adam qədim Qobustan rəssamının bacarığı qarşısında baş əyməli olur.

Qobustan qayaları üzərindəki öküz təsvirlərinin mütənasibliyinə - başın bədənə, hündürlüyünün uzunluğuna nisbəti çox düzgün verilmişdir. Məncə, bu rəssamlıq bacarığı üçün çox vacib şərtdir. Doğrusu, mən özüm ali təhsilli, 30 ildən çox Qobustan abidələri arasında dolaşan, bəlkə min dəfə bu öküz şəkilləri qarşısında dayanmış, onların sirlərini öyrənməyə çalışmış tədqiqatçı olsam da, dəfələrlə cəhd etsəm də bir dəfə də olsa, çodur qaya yox, heç yağlı kağız üzərində də Qobustan öküzünü bütün səciyyəvi elementləri ilə axıra qədər tam çəkə bilməmişəm. Düzdür, öküz çəkə bilirəm, özü də lap qayadakı kimi, lakin haradasa Qobustan öküzü alınmır. Sözsüz, bu o demək deyil ki, bu şəkillər fövqəltəbiidir. Yox, amma indiyə kimi heç kəsin Qobustan öküzünü mən deyən şərtlə çəkə biləcəyinə söz verməsini görməmişəm, heç rəssamların da.

Dedim ki, mən 30 ildən çoxdur bu qayalar arasındayam, bu abidələrin tədqiqi ilə məşğulam, mütəxəssis kimi Qobustan qoruğunu təşkil etmiş və on il direktoru olmuşam. Bu müddət ərzində Qobustanın qədim qayaüstü təsvirlərini göstərib izah etmək üçün nə qədər ekskursiya aparmışam Allah bilir. Bu ekskursiyaların dinləyiciləri fəhlələr, kəndlilər və məktəblilər də olub, ziyalılar, elmi işçilər, rəssamlar, turistlər, xüsusi qonaqlar da. Hər dəfə də öküz rəsmlərindən söhbət gedəndə, elə bizim indiki söhbətimizin məqamında, Qobustandakı şəkillərin belə məharətlə çəkildiyi haqda söhbətə inamsızlıq yarananda, alimlərə də rəssamlara da təklif etmişəm ki, özlərini sınasınlar, Qobustan öküzünü çəksinlər, lakin bir şərtlə, burada gördüklərinə diqqət etsinlər, yadda saxlasınlar, canlı öküzü də ki, hamı görüb amma profesional rəssamlara məşq etmək olmaz. Əgər yumşaq qələmlə yağlı kağıza bir başa Qobustan öküzünü dəqiq çəkə bilən olsa mənə desin, mən bacardığımdan onu mükafatlandırım və təşəkkür edim. Lakin hələ ki nə belə mükafat vermək, nə də təşəkkür etmək qismətim olmayıb.

Qobustan qayalarında çəkilmiş ən qədim heyvan təsvirləri olduqca real və tam mütənasib çəkilmələri ilə əsl ibtidai incəsənət əsərləri olmasına şübhə qoymur. Qobustan rəssamlarının belə bacarıqlı, mahir usta olmalarının səbəbi isə onların bütün ömrünü, uşaqlıqdan qocalana qədər, ov dalınca, həmişə bu heyvanları müşahidə etmələrində, heyvanların hər cür duruşuna, baxışına, yerişinə, xasiyyətinə yaxından tanış olmalarında axtarmaq lazımdır. Bu bilikləri qədim qobustanlılar lazımi şərait daxilində daimi müşahidələr nəticəsində əldə edirdilər.

Qobustanda Daş dövründə yaranmış real ifaçılıq bacarığı sonrakı tarixi dövrlərdə də bir xüsusiyyət, milli ruhun təzahürü və davamı kimi saxlanılır.

Böyükdaş dağı yuxarı səki sahəsində nömrəsini 1 v kimi qeydə aldığımız daşda pişik təsvir edilmişdir. Şəkil Qobustan qayaüstü təsvirləri üzərində

müşahidələrimiz və arxeoloji tədqiqatlarımızın nəticələrinə əsasən orta əsrlər dövrünə aid edilir. Lakin daş dövrünün öküz rəsmi kimi olduqca dinamik, proporsional və real təsvir edilib. Burada pişiyin quyruğu dik qalxaraq heyvanın (belinə paralel uzanır, başı adi xətlə çəkilmiş, qulaqlar isə bu düz xətdən ibarət başa elə maili qoşulmuşdur ki, elə bil pişik indicə mosuldayacaq.

Qədim qobustanlıların heyvanların həyatına necə yaxından bələd olmalarını, gözəl bilmələrini Yazılıtəpədə 9 №-li daşdakı nəhəng maral (1-ci tablo, şəkil B), 42 №-li daşdakı şir (10-cu tablo, şəkil B), Böyükdaş dağının yuxarı səki sahəsindəki 42 №-li daşda otlayan (və ya su içən) öküz, 168 №-li daşda at, aşağı səki sahəsindəki 7 №-li, 23 №-li daşdakı ibtidai öküz, 259 №-li daşda tülkü və s. kimi heyvan şəkillərinin dinamikliyi və reallığı, eləcə də şəkillərlə yaradılmış kompozisiyalı səhnələr aydın göstərir.

Qobustanda heyvan təsvirlərindən ən çoxu keçi şəkilləridir. Onlar əsasən Yazılıtəpədə, Böyükdaş dağının aşağı düzən sahəsində, Kiçikdaş dağında yenə düzən sahədə qeydə alınmışlar. Böyükdaş və Kiçikdaş dağı ərazisindəki ən qədim insan düşərgələri ətrafında isə onlara az təsadüf olunur.

Keçi təsvirləri Qobustan qayaüstü təsvirləri arasında öküz, ceyran, gur, qaban kimi bir çox heyvanlara nisbətən cavan mövzudur. Onların çoxu, xüsusilə Yazılıtəpədə pirə qurban kimi çəkilmişlər, Qeyd edək ki, keçi şəkillərinə Qobustandan başqa kolleksiyalarda da rast gəlmək olur.

Keçi şəkilləri Qafqazda və Orta Asiya -Altay regionlarında çoxdur. Hər yerdə keçi keçidir. Keçi şəkilləri qayalarda dördayaq, dik qalxıb qabağa tərəf əyilmiş qısa quyruqlu, iki qoşa, bəzən isə Altay və İssıkgül ətrafında və Tacikistanda Dağlıq Bədəxşan Muxtar Vilayətindəki kimi Böyükdaş dağı aşağı səki sahəsindəki 13, 116, 140. 145 №-li daşlardakı keçilər də (9-cu tablo, şəkil A) tək bir yarımçevrə şəkilli, ucu belinə çatan buynuzla (görünür tam profildən olmaqla) çəkilmişlər. Lakin hər ərazinin, hər dövrün öz dəst-xətti, öz keçisi var.

Qobustanda keçi rəsmləri müxtəlif ölçülü, müxtəlif görünüşlüdür. Ən qədim keçiləri İshaq Cəfərzadə IV-III minilliyə aid etmişdir. Onlar (ümumiyyətlə, keçi təsvirlərinin hamısı) yandan görünüşdə təsvir edilmişlər. Onlarda baş bədənə nisbətən kiçikdir (Böyükdaş dağı aşağı səki sahəsindəki 13, 116, 140 və s. №-li daşlardakı kimi). Bu tip keçi təsvirlərində dal ayaqların dizlərinin əyrisi düzgün çəkilmişdir. Bu keçilərdə bədən ortada nazilib beli qarnına yaxınlaşır və xətlə kəsilir. Onlar üçün daha bir xüsusi əlamət isə döş hissəsinin irəli, çıxıntıvari və keçinin tək buynuzlu göstərilməsidir. Bu sahədəki 45 №-li daşda çəkilmiş iri ölçülü keçinin buynuzu isə qoşa çəkilib?.. Cingirdağ - Yazılıtəpə kolleksiyasında bu tip keçi təsviri yoxdur. Oradakı qədim keçi təsvirlərinin çox az hissəsi (burada şəkillərin əsasını keçi rəsmləri təşkil etsə də) Tunc dövrü və onun ilk mərhələlərinə aid edilə bilər. Keçi rəsmləri əsasən son antik və ilk orta əsrlərdə çəkilmişlər.

İ. M. Cəfərzadə Yazılıtəpədəki iri ölçülü, qəşəng çəkilmiş keçi rəsmlərini (9-cu tablo, şəkil B və 11-ci tablo, şəkil A) əsasən III minilliyə aid edir.

Yazılıtəpədə aparılan arxeoloji qazıntı nəticəsində X-XII əsrlərə aid, tağvari tikilmiş üçotaqlı bina qalığı aşkar edilmiş və daha qədim dövrə aid heç bir mədəni qalıqa rast olunmamışdır. Burada aparılmış qazıntı və başqa elmi tədqiqatların nəticəsinə görə hesab etmək olar ki, Böyükdaş və Kiçikdaş dağlarının qayalıqları arasında orta Daş (Mezolit), yeni Daş (Neolit) və sonra Tunc dövründə də həyat qaynayarkən Yazılıtəpədə yaşayış olmayıb. Çox güman ki, Ceyrankeçməz çayının qədim yatağında, hər tərəfdən alçaq olmaqla çökək bir sahədə - su-axarda yerləşməsi Yazılıtəpənin o vaxtlar ada kimi su içində olduğunu söyləməyə imkan verir. Elə indi də yaz və payız aylarında, yağışlar çox olarkən sudan Yazılıtəpəyə keçmək olmur. Görünür, Yazılıtəpə daşları üzərində ilk rəsmlər də elə o vaxtlar, bu şəraitdə, ovçular tərəfindən çəkilmiş, sonralar isə Yazılıtəpənin pirə çevrilməsinə səbəb olmuşdur.

Yazılıtəpədə keçi şəkilləri əsasən pirə qurban kimi çəkilib. İlk təsvirlərdən sonrakı dövrlərdə adamların hər yandan qamışlıq, palçıq və su ilə əhatə edilmiş Daşlı təpədə gördükləri şəkillər onlara möcüzə kimi görünmüş, onlar buradakı keçiləri öz totemləri kimi qəbul edərək Yazılıtəpəni pir hesab etmiş və adətlərində olan bayramlarda, təbiət və b. hadisələrlə əlaqədar bu yerə qurban gətirmişlər.

Sual olunar ki, keçilər, elə başqa heyvan və şəkillər nə məqsədlə çəkilib? Yazılıtəpə pirdir? Olsun pir. Qurban gətirirlər, gətirsinlər, bəs qayalarda heyvan şəkillərini dəymək nə üçün?

Birincisi, onu deyim ki, bu səpkidə elə bütün qayaüstü təsvirləri çəkilmə məqsədini, onların nə demək olduğunun sirrini açmaq bu sahədə - qədim qayaüstü təsvirlər problemi ilə məşğul olan alimlərin birinci arzusu, qarşılarında duran, tam qaldırılması mümkün olmayan elə bir iri daşdır ki, ağırlığı şəkillərin yaşının tona vurulmasından alınacaq çəkiyə bərabərdir. Bu bir də ona görə çətin məsələdir ki, qayaüstü təsvirlər müxtəlif ərazilərdə və müxtəlif dövrlərdə müxtəlif həyat düşüncəsinə, mədəni səviyyəyə, dini etiqada malik müxtəlif adamlar tərəfindən yaradılmışdır. Oxucu mənimlə razılaşar ki, ekiz doğulmuş iki qardaş (və ya bacı, fərqi yoxdur) belə tam eyni hərəkət edə və ya biri-birinin ürəyini oxuya bilməz.

İkincisi, tarixi dövrlərin bir-birini əvəz etməsi və bu abidələrin dövrlər üzrə biri-birindən əvvəl-sonra yaranması bir ardıcıllıq təşkil etdiyi kimi tarix özü də ardıcıllıqla söylənmək sevir. Lakin Qobustanda minilliklər ərzində yaranmış abidələr və şəkillər bəzən bir yerdə, bir sahədə elə qarşılaşmışdır ki, (uzun müddət yaşayış qalıqları və çəkilmiş şəkillər üst-üstə düşmüş) izahat vermək üçün tez-tez qədimdən son dövrə və əksinə sıçramalı olursan. Budur, ibtidai öküz təsvirlərindən sonra Qobustanda ən çoxsaylı keçi təsvirləri haqda məlumatla əlaqədar Yazılıtəpəyə gəldik və Daş dövründən, antik və orta əsrlər dövrünə keçdik.

Üçüncüsü, necə deyərlər - ay sağ olmuşlar, bu işlər (qədim şəkillərin çəkilməsi) 5 ilin, 10 ilin, lap yüz ilin söhbəti deyil ki, babadan, kəndin, elin ən yaşlısından soruşasan, lap o da öz babasından eşitdiyini söyləyə. Bu haqda heç

babalarımız albanların, midiyalıların nə ilk yazılarında, nə də sonrakı yazılarda bir söz deyilməyib. Di gəl yoz, özü də elə yoz ki, inandırıcı, həqiqət və ya ona çox yaxın, ağılabatan olsun. Bunun da bir yolu var, o da zəhmətdən keçir.

Tədqiqatçı arxeoloqlar hər hansı arxeoloji materialın, elə qədim qayaüstü təsvirlərin də tarixini müəyyənləşdirmək, mənası və yaranma məqsədini yozmaq üçün onlarca əməliyyat aparmalı, ondan qabaqkı yozmaları öz məntiqindən keçirməli olurlar. Bunun üçün inadkarlıqla işləməli, çıxarılmış nəticələrin əleyhinə çoxlu suallar qoyub, ona cavab axtarmalı və sonra öz fikrini əsaslandırmalısan. Çalışmaq lazımdır ki, başqasının fikrini kor-koranə qəbul etməyəsən, onu öz süzgəcindən keçirəsən.

Mən 30 ildir Qobustanla məşğul oluram, onunla yaşayıram. Qobustanda 13 Daş dövrü düşərgəsində, 6 Tunc dövrü yaşayış yerində, bir orta əsrlər bina qalığında və 4 yerdə kəşfiyyat qazıntısı aparmış, 2 Daş dövrü qəbri və 40-a yaxın kurqan qazıb tədqiq etmişəm. İ. M. Cəfərzadədən sonra 2000-dən çox qədim qayaüstü şəkil aşkar edib qeydə almışam. Sonuncuların bir qismi qazıntılar zamanı mədəni təbəqə altından və kurqanların qəbirətrafı daşlarından tapılıbdır. Qazıntılar nəticəsində aşkar edilmiş qədim şəkillərin, Qobustan, eləcə də ümumən qayaüstü təsvirlərin dövrünün müəyyənləşdirilməsində əhəmiyyəti haqda danışmaq artıqdır. Onlar qayaüstü təsvirlər üçün bir növ «doğum şəhadətnaməsi» rolu oynaya bilər. Bununla belə, mən Qobustan qayaüstü təsvirləri haqda deyəcəyim söz və izahın qətiliyi iddiasında deyiləm, lakin hər halda öz sözümü deməyə haqqım var. Əlbəttə, bu söhbət daxilində azdan-çoxdan başqalarının dediklərinə də öz məntiqimlə münasibətdə olmalıyam, Qobustanda çəkdiyim zəhmət və 30 ildən çox arxeo-loq kimi işimin və düşünsələrimin nəticəsinə əsaslanmaqla bəzi məsələlər üçün öz izahımı deməliyəm.

Yazılıtəpədə iri ölçülü və diqqəti cəlb edəcək dərəcədə gözəl çəkilmiş keçi təsvirlərini İ. M. Cəfərzadə qədim saymış, belindən kəsik keçiləri (başqa tədqiqatçıların çoxu kimi) ov keçisi, dağ keçisi; kəsik xətti və ya təsvirlərin üstünə düşmüş xətt və ya batığı ovsunçuluq əlaməti hesab etmişdir. Yazılıtəpədə alınmış bir vəziyyəti qeyd edək ki, 12 №-li daşda qabaqlar qeydə alınmış və qədim sayılmış şəkillər dağın üst üzündədir. Bu şəkillər iri və qəşəng çəkilmişdir. Onların arasında daşın vəziyyətinə görə ayaqları yuxarı, arxası üstdə keçi təsviri də vardır. Yuxarıda qeyd etmişdik ki, 1947-ci ildə İshaq müəllim 12 №-li daşın dibində, 13 №-li çox iri daşın bunun üstünə yatması nəticəsində alınmış örtülü sahədə (sığınacaqda) qazıntı aparmışdı. Qazıntı heç bir material verməmişdi, yalnız dövrü müəyyənləşdirilməmiş küllü torpaq sahələri qeydə alışmışdır. O vaxtdan çox keçmiş, 12 №-li daşın dibi həm küləyin, həm də aşınma ilə xeyli açılmışdır. 70-ci illərdə biz Yazılıtəpədə orta əsr bina qalığında qazıntı apararkən daşın altında da şəkillər olduğunu görüb yanından bir qədər qazdıq və aydın oldu ki, burada xeyli şəkillərdən (keçi və adamlar) ibarət böyük bir səhnə var. Bu şəkillər daşın qərb tərəfdən altındadır. Aydın oldu ki, bu şəkillər vaxtı ilə daşın qərb

üzündə olmuş, lakin daş qərbə tərəf çevrildiyindən torpağın üstünə yatmış, daşın altında qalmışdır. Hesabladıqda məlum oldu ki, daşın üstündəki, ayaqları yuxarı keçi rəsmi daş çevrilməmişdən daşın şərq üzündə düzgün vəziyyətdə çəkilmişdir. Deməli, daşın altında qalmış səhnə və tərsinə keçi təsviri, daşın üstündə düzgün vəziyyətdə qeydə alınmış şəkillərdən qabaq çəkilmiş və daha qədimdir. Maraqlı burasıdır ki, daşın altında qalmış şəkillər sonradan daşın üst üzündə çəkilmiş şəkillərə görə o qədər də tam mütənasib və qəşəng çəkilməmişlər. Onlara oxşar keçi rəsmlərinə isə Qobustan kurqanlarının qəbirətrafı və kromlex daşlarında (2, 7, 28, 30 №-li kurqanlarda) təsadüf etmişik. Deməli, beldən xətlə kəsilmiş iri ölçülü, mütənasib təsvir edilmiş keçilər ov obyekti deyil, ovsun üçün çəkilməyiblər, adi ev keçiləridir və canlı keçi əvəzinə pir üçün, çox güman ki, pirə qulluq edən xüsusi adamlar (təcrübəli rəssam-israçılar) tərəfindən çəkilmişlər. Onu da qeyd etməyi lazım bilirəm ki, Yazılıtəpədəki keçi təsvirləri ovlanmayıb, onların ovlana biləcəyi yay-oxla ovlanması səhnəsi də yoxdur (lakin buradakı keçilərin iri ölçülüləri dağ keçisi kimi və ov obyekti kimi qələmə verilmişdir). İshaq müəllim Yazılıtəpədə 24 №-li daşın üst üzündə bir keçi ovu səhnəsi qeydə alıb. Səhnədə atlı (süvari) nizəni qabaqda qaçan keçiyə tərəf yönəldib. Bəli, keçidir, arxasınca da onu nizə ilə vurmağa hazırlaşmış süvari ovçu. Nə söz ola bilər, təmiz ov səhnəsidir. İndi gəlin, yuxarıda şərtləşdiyimiz kimi bəzi məntiqi suallarla yoxlayaq görək bu doğrudan da ov səhnəsidir? Sual olunur: keçi, özü də dağ keçisi hansı şəraitdə yaşayır? Hamı deyəcək ki, əlbəttə, dəstə ilə, özü də dağ-daşda. Nahaq yerə dağ keçisinə ova dağa getmirlər. Uşaq şerində də deyilir: «dağa-daşa dırmanma»". Demək bu səhnədəki keçi vəhşi, ov keçisidirsə, o dağda-daşda yaşayır, lap elə Cingirdağda, Yazılıtəpədə, Böyükdaşda. Hər halda qayalıqda keçini ovlamaq üçün pusqu qurub yaxınlaşmalı, yaxın məsafədən oxla, qılıncla, nizə ilə zərbə vurmalısan. Keçi dəstəsini qaya uçurumuna qısnayıb uçurmaq da olar. Lakin bu cür at üstündə nizə ilə, qılıncla keçi ovlamaq çox çətindir, keçi qayadan-qayaya tullanıb çox vaxt aradan çıxa bilər. Süvarinin nizə və ya qılıncla dağ keçisi ovlaması isə mümkün deyil, keçi düzə, atın qova biləcəyi mənzilə düşən deyil, atla da qayada keçi ovlamaq? Nə deyim, mən hesab edirəm ki, bu səhnəni daşa həkk edən «rəssam» da həyatı, bu səhnəni həqiqi ov səhnəsi sayanlardan yaxşı bilməyib. Beləliklə, süvarinin nizə ilə keçi ovlaması səhnəsi heç cür həqiqətə uyğun deyil, nağıldır. Əgər süvarinin nizə ilə maral, ceyran, gur kimi heyvanı ovlaması səhnəsi olsaydı mən sözsüz inanar, bunu ov hesab edərdim. Lakin Qobustanda ceyran və gura süvarinin nizə ilə, ov səhnəsi yoxdur. Onu da deyək ki, qədim düşərgələrdə qazıntılar zamanı tapılıb yığılmış minlərlə sümük qalığının əksəriyyəti ceyran və gur sümüyüdür. («Ana zağa»dan tapılmış sümük qalığının 40%-ə qədəri ceyran və o qədəri də gur sümüyüdür. Yalnız qalan 15-20% sümük bütün qalan heyvanlara aiddir). Onu da nəzərə almaq lazımdır ki, gur və ceyran kimi qədim Qobustanda əsas ov obyekti olmuş heyvanların təsvirləri başqa heyvan təsvirlərinə nisbətən

olduqca azdır. Onların təsvirləri üzərində keçi üçün ovsunlama əlaməti sayılmış kəsik və ya başqa zərbə nişanəsi də yoxdur.

Maral təsvirləri Qobustanda diqqəti cəlb edən və göz oxşayan mövzudur. Maral təsvirlərinin ümumi sayı 100-dən çoxdur. Onların çoxu Yazılıtəpə, Böyükdaş dağı yuxarı səki və Daşqışlaq sahəsində qeydə alınmışdır. Maral təsvirlərinin az bir hissəsi çox real işlənmiş əsl sənət əsəridir. Onlarda yandan görünən bədənin dinamikliyi, baldır çıxıntıları, budun dolğunluğu, kiçik quyruğun çəkilişi, baş yandan görünsə də dinamik bədənə daha da gözəllik verən qabaqdan göstərilmiş şaxəli buynuzun təqdimatı adamı heyran edir. Yazılıtəpədə 4, 9, 13, 33, Böyükdaşda 138, Daşqışlaq kolleksiyasının 16, 17 və s. daşlardan maral təsvirləri bunlara misal ola bilər. Bu tip maralları və Yazılıtəpə 24 №-li daşdakı döymə (kölgə kimi) maral şəklini İshaq müəllim haqlı olaraq qədim sayır, onları eramızdan əvvəlki III-II minilliklərə aid edirdi (9-cu tablo, şəkil V və Q; 11-ci tablo, şəkil B).

Maral təsvirlərinin böyük çoxluğu yarıreal, lakin mütənasib və sxematik şəkillərdir. Onlar eradan əvvəlki II minilliklə orta əsrlərin arasında sonu müxtəlif dövrlərə (sxematik marallar daha gec dövrlərə olmaqla) aid edilirlər.

Bizim xüsusi qeydiyyatımız ondan ibarətdir ki, ən gözəl işlənmiş real və düzgün maral təsvirləri qazıntı aparılmış qədim düşərgə və yaşayış yerlərinin yaxınlığında yoxdur, qazıntılar zamanı (Daş və Tunc dövrü abidələrində) təsadüf olunmamışdır. Onlar ən çox antik, ilk orta əsrlərdə yaşayış izi olan sahələr, o yerlərə yaxın və adi qaya və daşlar üzərində qeydə alınmışlar. Məsələn, Böyükdaş dağı, yuxarı səki sahəsində su quyusu yanında bizim qeydə aldığımız 9a №-li daşda çoxlu maral şəkli var. Lakin burada apardığımız yoxlama qazıntısının mataerialları ilk orta əsrlərdən qabağa getmir. Ən çox maral şəkli (sahəsinə görə) Yazılıtəpədədir. Lakin yuxarıda qeyd etdik ki, Yazılıtəpədə orta əsrlərdən qabaqkı dövrlərə aid materiallara rast gəlinməyib.

Kiçikdaş dağı ərazisindəki Daşqışlaq sahəsində də gözəl işlənmiş maral təsvirləri (daş № 11, 16, 17) var. Lakin bu sahədə də insan həyatının çox qədim çağlarına aid yaşayış izi məlum deyil.

Gözəl ifadə edilmiş maral təsvirlərindən yalnız Böyükdaş dağı yuxarı səki 138 №-li daşdakı kiçik ölçülü maral şəkli Daş dövrünün sonuna aid həyat izi qeydə alınmış «Maral» düşərgəsinin divarında, lakin yer səthindən 1,5-2,0 m hündürdə qeydə alınıb. Onu da qeyd etmək lazımdır ki, düşərgə sonralar maldarlar tərəfindən heyvan saxlamaq üçün ikinci dəfə istifadə edilib. Bütün bunlar, bizim Qobustan abidələri üzərində müşahidələrimiz, apardığımız arxeoloji qazıntıların nəticələri bizə maral təsvirlərinin dövrünü daha qədimlərə aid etməyə imkan vermir. Lakin nəzərə alsaq ki, arxeoloji ədəbiyyatda maral təsviri çəkilmiş bəzi materiallar (gil qab və tunc əşyalar) Tunc dövrünə aid edilir, bu təsvirlərin ən qədimlərini Tunc dövrünə (özü də əsasən son mərhələsinə) aid etmək olar

Maral təsvirləri 10-dan çox halda ovlanma səhnəsində verilmişdir. Bu səhnələrdə marallar nizə, üç-dişli yaba və yay-oxla ovlanırlar. Maraqlı burasıdır ki, apardığımız arxeoloji qazıntılar zamanı Qobustanda nə Daş dövrü (Mezolit-Neolit) düşərgələri, nə də sonrakı dövrlərin (Tunc, antik, orta əsrlər) yaşayış yerlərində ovlanmış maral sümüyünə rast gəlməmişik. Marala aid rast gəlinən də buynuz sümüyüdür ki, görünür müxtəlif əşya və ya alət düzəltmək üçün gətirilmişdir. Bunları götür-qoy etdikdə belə bir nəticəyə gəlməli olursan ki, Qobustanda maral da ovlanmayıb.

Qobustanda ibtidai insanlardan, Daş dövrü qobustanlılarından danışarkən heç də fikirləşmək lazım deyil ki, texniki səviyyəsi indikinə nisbətən çox-çox aşağı olan insanlar vəhşi idilər. Əlbəttə yox. Doğrusu, bəzən elələri tapılır ki, alt Paleolitdən başlamış istehsal təsərrüfatı yaranana qədər ibtidai insanlar adlandırılmış adamları çox aşağı səviyyəli, vəhşi hesab edirlər. Hətta hörmətli və yüksək dərəcəli alimlərimizdən birinin Qobustanda sal qayalar üzərində qazılmış ilk tərpənməz qablar - yalaqlar haqda danışarkən bu yalaqlardan guya cəlbedici vasitə kimi istifadə edildiyini, heyvan su üçün bu yalaqlara yaxınlaşanda «Ho.. Ho...» səsləri ilə onları hürküdüb qayadan salırdılar deməsini, «bu ho...ho...lardan sonralar danışıq dili yaranmışdır» izahını da eşitmişəm.

Sözsüz, qədim qobustanlıların Mezolit, Neolit dövrlərində bu səviyyədə vəhşi olmalarını düşünmək alim üçün gülüncdür. Bəlkə, 1,5 milyon il bundan qabaq Azıx mağarası və Quruçay dərəsində yaşamış ilk insanlar haqda belə demək olardı. Lakin qədim Qobustanda bizə məlum olan ilk abidələri yaradanlar artıq azı 80-100 min il bundan əvvəl müasir insan tipinə çevrilmiş, boylu-buxunlu, antropoloji cəhətdən bizdən heç də fərqlənməyən, danışıq dilinə, dünyagörüşünə, estetik zövqə malik, qəbilə üzvləri arasında böyük-kiçiyin yerini bilən, qəbilənin yaşaması üçün onun üzvlərinin kollektiv birliyinin labüdlüyünü dərk etmiş insanlar idilər.

Qobustanda orta Daş dövrü düşərgələrindən tapılmış mikroalətlərin ölçüsünə görə (uzunluğu 1,0-1,5, eni 0,3-0,5 sm) onlarda aparılmış dişəkləməyə (nəzərə alaq ki, onlar çaxmaq daşından düzəldiliblər) fikir verdikdə qədim qobustanlıların bu sənəti və vərdiş bacarığı qarşısında heyran qalırsan. Onların bu bacarığı, qayalar üzərində heyvanların adi xətlərlə nə qədər mütənasib və real təsvir etmək bacarığı, öz dövrü üçün yüksək mədəniyyətə və incə zövqə malik olduğunu göstərir. Əlbəttə, Qobustanın gözəl sənət əsərlərini zövqsüz adamların yaratmasından danışaraq olmaz. Qazıntılar zamanı hələ Daş dövründə qədim qobustanlıların qəşəng əşyalara həssas olmalarının şahidi olmuşam. Düşərgələrdə qazıntı sahəsində o dövrün mədəni təbəqəsindən daş alətlərlə birgə bəzək əşyaları - daşdan və sümükdən asma və muncuqlarla yanaşı təbiətdə su axarının cilaladığı xırda və zərif dağ bülluru və adi çay daşı nümunələrinə də rast gəlmişik. Sözsüz ki, göz oxşayan bu daşlar, eləcə də it başı və b. heyvan fiqurlarını xatırladan daş nümunələrinin düşərgəyə gətirilməsi qədim qobustanlıların estetik zövqü, gözəlliyə

aşiqliyinin nümunəsidir. «Firuz» düşərgəsində aşkar etdiyimiz kollektiv qəbirdəki skeletlərdən birinin boynunda daş muncuqlar və sümük alətlərlə (12-ci tablo, şəkil A) yanaşı 3 ədəd də kiçik çay daşından asma (amulet) vardır. Onlardan biri trapes, biri paralelloqram şəklində yastı, biri isə tamam yarımboğaz ayaqqabı formasındadır, «IV daşaltı sığınacaq» kimi qeydə alınmış düşərgədən tapdığımız çay daşından sürtgəc adlandırılan əzici alətin işlək üzdən kənar sahələri döymə üsulu ilə işlənmiş nöqtə və xətlərlə bəzədilmişdir (12-ci tablo, şəkil V). Bütün bunlar qədim insanların gözəlliyə bağlı olması ilə əlaqədar deyilmi? İndinin özündə də sənətkarlarımızın, eləcə də kəndlilərin öz əmək alətlərinin ağac dəstəyində açdıqları naxış-bəzək onların gözəllik istəyinin nəticəsi deyilmi? Bir də ki, əmək alətini naxışlamaq elə qədim babaların, göstərdiyim sürtgəcin naxışlanması adətinin nəsildən-nəslə keçərək indiyə kimi yaşayıb qalmasının nəticəsi deyilmi.

Qobustanda, qeyd etdiyimiz kimi, 100-dən çox maral təsviri qeydə alınıb, onlardan yalnız 14-ü ov səhnəsində göstərilir. Maralın ovlanmasını təsdiq etmək üçün onların sümükləri də tapılmayıb. Lakin maral kimi gözəllik simvolu sayılan başqa heyvanın - ceyranın şəkli maral təsvirlərindən az, sümük qalıqları isə olduqca çoxdur. Niyə? Necə ola bilər ki, qədim qobustanlılar gözəl ceyranı ovlamış, maralı isə yox? Maralı çox təsvir etmiş, ceyranı isə az?

Mən bunun səbəbini qısaca bunda görürəm ki, Qobustanda maral olmayıb.

Biz əvvəlcə Qobustan ekspedisiyasının 1947-48-ci illər işindən danışanda demişdik ki, o vaxt Qobustanda ceyran sürüləri varmış, sonra qara əllər qırıb az qala kökünü kəsib. Lakin indi də Qobustanın içərilərində tək-tək də olsa ceyrana rast gəlmək olur. Qobustanda ceyranın olması təbiidir. Çünki hər heyvanın yaşaması üçün bir təbii mühüt, ceyran üçün də düzən, yovşan bitən şoran sahələr, Ceyrançöl, Qobustan kimi qışı mülayim yerlər əlverişlidir.

Təbii olaraq belə yerlər marallar üçün əlverişli deyil. Maral üçün dağətəyi, şirəli yem örtüyü və meşəli sahələr əlverişlidir. Qobustan şəraiti maral üçün deyil. Soruşa bilərsiniz: «Bəs, Binəqədi qırlığında saxlanmış nəhəng maral sümükləri?» - Bəli, Binəqədi qalıqları içərisində maral var, lakin kərgədan da var, Məstanzadə öküzü adı almış, Qobustan öküzlərinə oxşar ibtidai öküz sümükləri də var. Yenə sual, maraqlı, dolaşıq, bir-birini çəkib gətirən suallar. Bəli belədir, doğrudur. Qobustanda kərgədan şəkli yoxdur, sümüyü də yoxdur. İbtidai öküz təsviri var, özüdə çox. Sümüyü də var, lakin az. Bəs səbəb? Yenə sual. Əlbəttə, belə suallara cavab vermək, özü də yenə də bu cür zəncirvari, ortaya çıxa biləcək bütün suallara tam cavab vermək asan deyil. Həm də ona görə ki, bu istiqamətdə xüsusi araşdırmalar aparılmayıb və istənilən əsaslar yoxdur. Bəlkə xülyalara dalaq, fantastikaya qapılaq, yalan deyək? Axı, «yalan da bir naxışdır» deyiblər. Mən isə bilə-bilə yalan danışa bilmərəm, ya cavab verməkdə acizliyimi boynuma alar, ya da susaram. İndi isə cavabım oxucunu mane etsə də, etməsə də öz məntiqim əsasında cavab verməyə cəhd etmək istərdim.

Bir daha qeyd edək ki, Böyükdaş və Kiçikdaş dağlarından cənubda, Böyük Qobustan ərazisində Atbulaq daş karxanasında mişar daşının (Abşeron əhəng daşı) içərisində fil sümüyü aşkar edilmişdir. Söz yox ki, sümük daş hələ bərkiməmiş, tum və balıqqulağı yığınının içinə düşmüş, onlar sonradan daşlaşmış və sümük onun içində qalmışdır. Yaşı isə milyonlarladır. 70-ci illərin əvvəllərində Qobustanın şimal sərhədi daxilində, Üçtəpə deyilən sahədə hərbçilər səngər qazarkən, özü də bir təpənin başında daşlaşmış balina skeletinə rast gəlmişdilər. Mütəxəssislərin fikrincə yaşı 10 milyondan çoxdur.

Yenə o vaxtlar Qobustanın geoloji və coğrafi xəritəsini hazırlamaq üçün Qobustan qoruğunun (mən o vaxt həm də qoruğun direktoru idim), Akademiyanın Coğrafiya və Tarix institutlarının, Tibb İnstitutu və Universitetin coğrafiya fakültəsinin alimlərindən ibarət bir dəstə Qobustanın içərilərinə ikigünlük kəşfiyyat xarakterli səfər etmişdik. Onda Qobustandakı palçıq vulkanlarından birinin kraterindən bir az aralı, püskürmə zamanı yerin təkindən bayıra atılmış bir daşlaşmış ağac parçasına rast gəldik. Mütəxəssis alimlər onun «Maykop» geoloji dövrünün ağacı olduğunu söylədilər. Deməli, Qobustanda milyon illər bundan əvvəl tropik təbiətli vaxtlar olub. O vaxtlar, eləcə də Binəqədi faunası dövrü də Qobustanda həyatın başlanmasından çox-çox əvvəllər olub. Sonra Qobustanın adi görünüşü də, təbiəti də, heyvanat aləmi də çox dəyişib. Qədim qobustanlılar gördüklərini çəkiblər. İbtidai öküzlərin nəsli e. ə. V-IV minilliklərə kimi davam edib. Qobustanlı babalar Mezolit, Neolit dövrlərində onları görüb, ona inanıb səcdə edib, ilahiləşdirib və təsvirini daşa köçürüb (8-ci tablo, şəkil B).

Nəhəng marallar isə Qobustanın sonuncu on minilliklərdə yaranmış təbii şəraitinə uyğunlaşmamış, nəsli kəsilmişdir. Qobustanda maral təsvirlərini yaradanlar sözsüz ki, maral görmüşlər, bəlkə lap ovlayıblar da, lakin Qobustandan kənarda, dağətəyi zonalara səfər zamanı.

Qobustanda əsas ovlanan, arxeoloji qazıntılar aparılmış düşərgələrdən (sümüyü ən çox tapılmış heyvan - ceyran və gurdur. Lakin onların heç birinin təsviri ayrılıqda maral və öküz kimi gözə çarpacaq dərəcədə çox deyil. Yenə sual. Deyək ki, gurlar həyatda bir növ atla uzunqulaq arasında, qatır boyda və ona oxşar bir heyvandır, əti dadlı və çox olsa da özü gözəl deyil. Əslində gurlar da özünəməxsus gözəllik və zərifliyə malikdir. Ceyran ki, çox zərif, gözəl, adı maralla yanaşı çəkilən heyvandır. Bəs niyə ceyran, özü də elə Qobustanda ola-ola, qədim qobustanlıların iqtisadi həyatında maraldan da çox əhəmiyyətli olduğu halda, az təsvir edilmişdir? Məntiqi sual, haqlı sual. Cavab verilməsi çox çətin görünən sual. Gəlin cavab axtaraq. İ. M. Cəfərzadə «Qobustan» albomunda yalnız Yazılıtəpədə 54 №-li daşdakı 10 №-li şəkli (onu atlı adam nizə ilə ovlayır) ceyran kimi qeydə almış və bir neçə heyvan təsvirini antilopa aid etmişdir. Əslində, birincisi, bu albomda keçi kimi qeydə alınan, Yazılıtəpədə həmin daşdakı 6, 136 №-li daşdakı - 4 və 5, Böyükdaş dağı yuxarı səki üzrə 12 №-li dağın qərb üzündəki 1 və 21, 46a №-li daşdakı tək, 33 №-li daşdakı 44, 66 №-li daşdakı 17 aşağı səki sahəsindəki 1

№-li daşda 8 və 12, 201a №-li daşda 3 və 5, 163 №-li daşda 1-3 №-si ilə qeydə alınmış təsvirlər ceyran şəkilləridir. «Kənizə» düşərgəsində 117 №-li daşın şərq üzündə və 116a №-li daşda qazıntı nəticəsində açılmış, «Ceyranlar» düşərgəsinin divarlarında, Qayaaltı sahəsi üzrə 8 və 12 №-li və s. daşlarda da ceyran təsvirləri var. İkincisi, göstərilən daşlardakı təsvirlərin real çəkilməsi hesabına keçi yox, ceyran olduğunu çətinliklə də olsa seçmək mümkündür. Lakin sxematik olanda və səbatsız çəkilmiş təsvirlərin keçiyə və ya ceyrana aid olmasını söyləmək çox çətindir.

Keçi ilə ceyran boyuna görə, ümumən görünüşcə bir-birinə yaxın heyvanlardır. Qədim qobustanlılar daş üzərində hər iki heyvanı kiçik oxşar bədən, və buynuzla təsvir etmişlər. Bunlar arasındakı fərqi, görünür, hər «rəssam» deyil, bacarıqlı «rəssam» verə bilmişdir. Ən yaxşı halda ceyranla keçi şəkli arasındakı fərqi görünür, onların buynuzunda axtarmaq lazımdır. Belə ki, keçilərdə buynuz əksər halda arxaya, qövsvari əyilib ucu boynuna tərəf qatlanır, ceyranlarda isə dik qalxıb azca arxaya meyllənir və bəzən bir az da vintvari burulur. Bu prinsiplə keçi və ceyran şəkillərini araşdırsaq ceyran təsvirləri çoxalmış olar. Bir də keçiyə aid edilmiş bəzi təsvirlərdə (yuxarı səki daş № 66 və aşağı səki daş № 263) iri buynuzlar yanında iki qoşa və kiçik çıxıntı verilir. Bizcə onları qulaq yox, ceyranlara xas olan 3 və 4-cü buynuzlar saymaq lazımdır.

Qobustanda say cəhətdən at təsvirləri də çoxluq təşkil edir. Sayca onlar da yüzdən çoxdur və dörddə üç hissəsi kompozisiyalı, yəni süvari ilə birgə, ovçunun, döyüşçünün, yük aparanın, yol gedənin atı kimi təsvir edilmişdir. Bu cür at şəkilləri əsasən sxematikdir, onların at təsviri sayılmasına üstündə süvari olması zəmanət verir. Tək, süvarisiz təsvir edilmiş at təsvirlərindən də sxematik çəkilmişləri var. Axı bütün heyvanlar kimi at da dörd ayaq, 2 qulaq, bədən və quyruqdan ibarət təsvir olunmuşlar. Lakin tək çəkilmiş atların dinamik duruşu, baxışı, bədən üzvlərinin ata xas ifadəsi elə verilmişdir ki, onların at olmasına heç bir şübhə qalmır.

Süvari ilə birgə göstərilmiş bir sıra at təsvirləri də (Yazılıtəpədə 9-cu daşdakı 13 №-li şəkildə, 13-cü daşdakı 45 №-li, 34-cü daşda 1 №-li, 40-cı daşda 1 №-li şəkildə və s.) elə real çəkilmişdir ki, üstündə adam olmasa da onların at olması aydındır.

İ. M. Cəfərzadə üstündə adam olmayan, lakin yüklü at təsvirlərinn dəvə saymışdır. Əlbəttə, yüklənmiş və zəncirvari düzülmüş (Böyükdaş dağı aşağı səkidə 155 №-li daşdakı kimi) yüklü heyvanları dəvə karvanı hesab etmək olar. Özü də bu səhnə orta əsrlərdə çəkilmişdir və o zaman üçün quraq Qobustan sahəcikdə karvanda atların yükləndiyinə inanmaq çətindir. Bununla belə, bir sıra daşlar üzərində karvan səhnəsində dəvə kimi qeydə alınmış şəkillər boynu, bədəni, ayaqlarının quruluşuna və qulaqlarının dik-qoşa olması ilə dəvədən çox atı xatırladır. Onların ayrılıqda hər birinin boynu bədəndən azca üfüqi olaraq irəli çıxır və düzbucaq altında yuxarı qalxaraq, kəsik tərəfi aşağı olmaqla yarım çevrə şəkilli,

səviyyəcə heyvanın (bədənindən də, yükündən də hündür dayanan başa birləşir. Onun da üstündən iki qoşa çıxıntı - qulaq qalxır. Kiçikdaş dağında Daşqışlaq sahəsindəki 2 və 36 №-li daşlarda qeydə alınmış 20-yə qədər dəvə təsvirlərində isə heyvanın başı əyilmiş xətlə qabağa çıxır, başı bədənlə bir səviyyədədir və boyun xəttinin ucunun qalınlaşması ilə göstərilir. Burada 36 №-li daşdakı 3 şəkildə və 2 №-li daşdakı karvanda (10-cu tablo, şəkil E), biri-birinə zəncirvari bağlanmış 20-yə yaxın heyvan qulaqsız təsvir edilmişdir. Hər halda Böyükdaşda aşağı səkidəki 155 №-li daşdakı karvanda da, Daşqışlaqda 2 №-li daşda da karvan səhnəsini çəkənlər dəvə təsvir etmişlər. Görünür, əvvəlki 155 №-li daşdakı (və ümumən Böyükdaş dağında bir sıra daşlarda) eyni formada təsvir edilmiş dəvələrin «rəssamı» bir qədər səbatsız olub və dəvəyə qoşa qulaq qoyulub.

Qobustanda həm at, həm də dəvə təsvirlərinin dəqiq dövrünü demək xeyli çətindir. Bu iki heyvanın təsviri ilə əlaqədar arxeoloji qazıntılar nəticəsində onlarla əlaqəli heç bir materiala rast olmamışıq. Karvan təsvirləri nisbətən son dövrlərin şəkilləri ilə bir sahədədir. Nəzərə alsaq ki, karvanlar ölkənin iqtisadi həyatında ticarətin meydana gəlib genişlənməsi, karvan yollarının, karvansaraların güclü dövlət nəzarəti olmaqla qaçaq-quldurdan qorunmasının təminatı sisteminin və qanununun yaranması ilə bağlıdır. Onları əsasən orta əsrlərə aid etmək lazımdır. Karvan səhnələrinin çəkiliş texnikası və şəkillərin saxlanma dərəcəsi də onları orta əsrlərə, ən tezi onun orta mərhələlərindən qabağa aid etmək olmaz.

At təsvirlərinin tarixindən danışdıqda qeyd etmək lazımdır ki, Azərbaycan atın ilk əhliləşmə ocaqlarından biridir. Tarixin eneolit dövrünə aid Əlikömək təpəsində arxeoloji qazıntılar zamanı əhliləşmiş at sümüklərinin tapılması bunu təsdiq edir. Qobustanda nizə və üçdişli yaba ilə ov edən süvarilər atı yəhərsiz minmiş və yalmanından yapışmışlar.

Qobustan qayaları üzərində 20-dən çox yırtıcı təsviri qeydə alınıb. Onların da təsvirləri çox reallıqla verilmişdir. Yazılıtəpədə 42-ci daşdakı şir təsvirlərinin mütənasibliyi və heyvanın bütün əzablarının özünəməxsus səciyyəsi ilə göstərilməsi bir tərəfdən adamı heyran qoyur, ikinci tərəfdən dövrün rəssamlarının (İ. M. Cəfərzadə onların dövrünü e. ə. IV-III minilliyə aid adir) müşahidə bacarığı və heyvanın bədən quruluşu, səciyyəvi hərəkət və xüsusiyyətlərini gözəl bilməsini göstərir (10-cu tablo, şəkil Q).

Şirlərin başı iri, boyun hissəsi yoğun, getdikcə nazilən uzun quyruğunun ucu bir dəstə tüklə yumru, pəncələri iri, caynaqlı, beli nazik, dişləri görünməklə ağzı açıq verilmişdir.

Qobustanda yırtıcı heyvan təsvirləri arasında şir təsvirləri çoxluq təşkil edir. Xüsusən Yazılıtəpədə qeydə alınmış yırtıcı şəkilləri əsasən şirlərdir. Görünür, bu ərazi vaxtilə şirlərin məskən salması üçün əlverişli olmuşdur. Qobustan qəsəbəsinin yaşlı sakinlərindən eşitmişdim ki, şir və ya pələng tipli nəhəng və əcayib bir yırtıcı heyvan Qobustanda axırıncı dəfə əsrimizin əvvəllərində öldürülmüşdür.

Qobustan qayalarında təsviri həkk edilmiş başqa yırtıcı heyvanlardan pələng, bəbir, canavar, tülkü it və pişik təsvirləri vardır. Onların da hər biri özünəməxsus dinamikliyi ilə, sxematik olsa da, çox real çəkilmişdir. Məsələn, qeyd etdiyimiz Böyükdaş dağı yuxarı səki sahəsində 1v №-li daşdakı pişik təsviri quyruğunu yuxarı qaldırıb qabağa əyilmiş şəkildə, qulaqlarını arxaya yatırdaraq nazlanmış kimi təsvir edilmişdir.

12 №-li daşdakı 10-cu şəkli İshaq müəllim öküz ovlayan ovçunun iti kimi qeydə alıb. Əslində isə o pələng və ya bu cinsdən olan başqa yırtıcıdır. Çox güman ki, öküzə hücum edirmiş, lakin ovçu kimi qeyd olunan adam (13-cü şəkil) qılıncla yırtıcının qabağını kəsib 23 №-li daşdakı 18-ci şəkil də it kimi qeydə alınıb. Şəkil sxematikdir və çox cavandır. Görünür son əsrlərdə çəkilib. Yırtıcının başının iri, boynunun yoğun olması, bədənin arxaya doğru getdikcə nazilməsi, ayaqlarının caynaqlı, quyruğunun pişik quyruğu kimi yuxarı qalxıb arxaya əyilməsinə baxmayaraq, ucunun saçaqlı topa tüklə qeyd edilməsi onun şir olmasına şübhə doğumur. Quyruğun vəziyyətinin səhv verilməsini isə onun rəssamının şir haqda biliyinin səthi olması ilə izah etmək olar.

24a və 30 №-li daşlarda xallı pələng və ya bəbirin marallara hücum etməsi səhnəsi təsvir edilib. Onlardan birincisi, Qobustanda yeganə saxlanmış rəngli şəkildir (12-ci tablo, şəkil Q). Burada xallı bəbir var gücü ilə qaçan maralı az qalır ki, arxadan tutsun. İkinci səhnədə çox kiçik ölçülü pələng və maral təsvirləri bıçağın ucu ilə cızılmış xətlərlə qabaq-qabağa dayanmış təsvir edilmişlər. Bu səhnədə də həyatı, heyvanların hərəkət və xasiyyətlərini qədim insanların necə gözəl bilmələri əks olunur. Səhnədə pələng qabaq ayaqları üstə əyilərək qulaqlarını qabağa şəkləmiş, ağzı açıq maralın üstünə atılmaq üçün hazır vəziyyətdədir. Onun qarşısında dayanmış və çox real təsvir edilmiş maral özünü yırtıcıdan müdafiə etmək üçün qabaq ayaqlarını irəli qoyub, başını yuxarı qaldırıb və buynuzlarını qabağa verməklə, bütün bədəninin vəziyyəti ilə yırtıcının onun üstünə atılacağı təqdirdə ona zərə vurmağa hazır vəziyyətdə təsvir edilib. Oxucu düşünə bilər ki, maral niyə qaçmır, axı bu yırtıcı qaçıb onu tuta bilməz. Lakin bu mümkün deyil. Rəssam bu səhnəni elə verib ki, yaxşı-yaxşı baxıb düşünəndə hiss edirsən ki, bu səhnədə yaranmış vəziyyətdə maralın qaçmaq üçün arxaya dönməsinə itirəcəyi vaxt pələngin onun üstünə atılmasına bəs edər. Bu səhnədə maralın özünü buynuzu ilə müdafiə etməkdən başqa çarəsi yoxdur. 90 №-li daşda boynuna xalta keçirilmiş it başqa yırtıcının (şir) qabağını kəsib.

Dağın aşağı səki sahəsindəki 201a №-li daşda itin canavarı qovması verilib, 239 №-li daşda iki yırtıcı qarşı-qarşıya qoyulub (döyüşə hazırdırlar). Biri şir, biri isə pişik kimilər qəbiləsindən çox iri heyvanın təsviridir. O başı və boynunun iriliyi, ayaqlarının dırnaqlı olması kimi əlamətləri ilə şiri xatırladır. Lakin quyruğu nisbətən qısa və ucu nazikdir. Bir də ki və ən əsasən, ağzından qabağa heyvana görə çox iri ölçülü, dimdikvari çıxıntı uzanır və bu yırtıcıya əcayib görkəm verir. Bu daşdakı şəkillər qayada sürtmə yolu ilə çəkilmişlər.

Yazılıtəpədə 59 №-li daşın üstündə iki şirin keçilərə hücumu səhnəsi verilib. Bu səhnədə şirlərdən biri keçinin başından tutub. İkinci şirin qabağında başqa keçinin arxa hissəsi, dal ayaqları yuxarı olmaqla göstərilmişdir. Bu o deməkdir ki, şir keçinin qabaq hissəsini artıq yemişdir. Bəs belə niyə? Axı hər hansı heyvanın dal budları daha ətlidir. Sən demə hər canlının özünəməxsus bir xüsusiyyəti olduğu kimi şirlər üçün də ovladığı heyvanı başdan yeməyə başlamaq xüsusiyyəti vardır. Onlar heç vaxt, deyək ki, canavar kimi, ovunun buduna, qarnına yapışmır, o əvvəl ovunun başından yapışır, başından başlayıb yeyir. Bunu, əlbəttə, indi də çox adam bilmir. Göstərilən səhnəni yaradan qədim Qobustan rəssamı isə bilirmiş. Haradan? Elə Qobustandan. Dəfələrlə bu cür səhnənin müşahidəçisi - şahidi olmaqla bilmişdir.

Şir təsvirləri və heykəlcikləri yuxarı Paleolit mağaralarından məlumdur. Onu da qeyd edək ki, arxeoloji ədəbiyyatda şir (eləcə də pələng) heykəlcikləri və təsvirlərinin ovsunçuluq məqsədi güddüyü, mühafizəkar rolu oynadığı qeyd edilir. Belə hesab edilir ki, guya daşdan, sümükdən hazırlanmış kiçik ölçülü şir və pələng heykəlciyini eləcə də bu heyvanların azı dişlərini amulet və talisman kimi boyundan asmaq adamı xətadan qoruyar, həmin yırtıcı ona dəyməz, özü şir və ya pələng kimi güclü və çevik olar. Bu heyvanlar mədəni cəhətdən geri qalmış bir sıra Uzaq Şərq xalqları arasında ilahiləşdirilir, öz kökləri, əcdadları sayılır, ona pərəstiş edilir. Azərbaycanda yuxarı Paleolit dövrünə aid Binəqədi qır qəbiristanlığından da qədim şir sümüyü tapılmışdır. Onları tədqiq edən N. K. Vereşakin o heyvanda (sümüyü əsasında) həm mağara şiri, həm də pələngin elementlərini qeydə almış və heyvana şirpələng (tiqrlev) adı vermişdir. Qobustan qayaüstü təsvirlər kolleksiyasındakı şir şəkillərinə xüsusi diqqət yetirdikdə adama elə gəlir ki, elə bunlar Binəqədi qırlığından tapılmış şirlərdən - şirpələnglərdəndir. Qaldı şir və pələng kimi güclü yırtıcının Qobustan qayalarında qədim sakinlər tərəfindən təsvir olunmasına, sözsüz ki, o vaxtlar qədim rəssam çəkəcəyi obyekti (şiri) bilavasitə görmədən çəkə bilməzdi, özü də yuxarıda qeyd olunan səciyyəvi xüsusiyyətləri və təbiəti ilə təsvir olunmalarının məqsədi çox güman ki, başqa xalqlarda olduğu kimi ovsunçuluq və totemizmlə bağlıdır.

Qobustanda cəmi dörd ədəd quş təsviri qeydə alınmışdır. Onlardan biri Böyükdaş dağı yuxarı səki sahəsində 63 №-li qaya üzərindədir. Burada təsvir olunmuş tuş çox güman ki, su quşudur. Onun ayaqları, boynu və quyruğu çox uzundur. Ayağında barmaqları göstərilib, ağzı açıqdır. Qalan üç quş şəkli dağın aşağı səki sahəsində qeydə alınıb. Onlardan ikisi öyrədilmiş ov quşlarıdır. Biri süvarinin əlində təsvir edilib (daş № 258), o biri keçinin buynuzunda (daş № 217) çəkilmişdir. Dövrü orta əsrlərdən əvvələ getmir. Dördüncü quş təsviri 330 №-li daşda qeydə alınıb. O çox sxematikdir. Elə bil qarşısındakı, Qobustan üçün yeganə olan ağac təsvirinə tərəf uçur. Quşların heç birinin dövrünü dəqiq müəyyənləşdirmək mümkün deyil. İ. Cəfərzadə onlardan ucu quşunu e. ə. I minilliyə, keçinin buynuzunda oturmuğa quşu isə e.ə. III-II minilliklərə aid

etmişdir. Söz yox ki, süvarinin əlindəki quş şahin tipli ov quşudur. Etnoqrafik məlumatlar göstərir ki, öyrədilmiş qartalın keçinin buynuzuna oturub (qanadları ilə onun gözünü örtməklə sahibinin heyvanı ovlamasına köməyi məlumdur.

Bununla belə, quş təsvirlərinin niyə az olması maraq doğurur. Yəqin ki, bu vəziyyəti qədim Qobustanla heyvanın çox, ət ərzağının bol olması, eləcə də quşu ovlamağın çətinliyi ilə izah etmək olar. Yay-oxun təkmilləşdiyi, nizə-qılınc dövründə isə sözsüz ki, əkinçilik və maldarlığın əhalini ərzaqla təmin etdiyi, ovçuluğun bu cəhətdən əsas təsərrüfat sahəsi kimi əhəmiyyətini itirdiyi zaman quşu ovlamaq iqtisadi ehtiyacdan [ox, insanların əyləncə məşğuliyyəti kimi yaşayır. Qobustanda qeydə alınmış 4 quşdan ikisinin ov quşu olması bu fikri təsdiq edir. Eyni zamanda öyrədilmiş (quşla tək-tək hallarda xırda heyvanları ovlardılar. Bu isə qəbilənin, kollektivin dolanmasına təminat verə bilməzdi.

Qobustan qayalarında qədim heyvan təsvirləri arasında Qobustanın indiki təbii şəraitində yaşaması çətin hesab edilən antilop təsvirləri də vardır.

Qobustan təsvirlərinin mövzu genişliyi, onun başqa oxşar kolleksiyalar arasında üstünlüyünün təsdiqidir. Bu barədə dəfələrlə, təkrar-təkrar deməyə dəyər.

Biz yuxarıda Qobustanın qədim qayaüstü təsvirlərinin bir neçə tipindən söz açdıq, bu kolleksiyanın əsas mövzuları haqda təsəvvür yaratmağa çalışdıq. Lakin bunların hamısı haqda nəinki söhbət açmaq, onları tam sadalamaq da çətindir. Mənə elə gəlir ki, Qobustan kolleksiyasında hansı heyvanların (canlıların) təsviri saxlanıb sualına ən yaxşı cavab qısaca olaraq «bu kolleksiyanın yarandığı tarixi dövr ərzində bu ərazidə yaşamış bütün heyvanların» cavabı bəs edər. Doğrudur, bütün tiplərdən olan heyvan şəkilləri eyni dərəcədə çoxluq təşkil etmir. Buraya pişik, tülkü, balıq, tısbağa, bəy və s. kimi heyvan və həşərat şəkillərini daxil etmək olar. Bu qrupdan balıq təsvirləri nisbətən çox və diqqət cəlb edəndir. Axı, balıq da başqa ov heyvanları ilə yanaşı ibtidai insanların həyatında, eləcə də sonrakı dövrlərdə də yaşayış mənbələrinin bir obyekti kimi əsas rol oynamış və indiyə qədər də insanın diqqətindən kənar deyil.

Qobustanda 6 ədəd balıq təsviri qeydə alınıb. Onlardan dördü Böyükdaş dağı yuxarı səki sahəsinin 104 və 105 №-li daşlarında (hərəsində iki balıq şəkli), biri Kiçikdaş dağı üzrə 49 №-li daşın aşağı hissəsində, Ceyranlar düşərgəsində qazıntı nəticəsində, mədəni təbəqənin altı səviyyəsində, biri isə Qayaaltı kolleksiyanın 5 №-li daşında aşkar edilmişdir (6-cı tablo, şəkil A).

Balıq şəkillərinin hamısı xarici görünüşcə bədən quruluşunun əlamətlərinə görə nərə balığı cinsindəndir. Hamısında burun hissə küt verilmiş, quyruq üzgəclərindən üstdəki xeyli uzundur. İki balığın (daş № 104 və 105-də) arxa hissəsi, 49 №-li daşda isə başı silinib saxlanmamışdır. Hər üçü nisbətən kiçik ölçülüdür. Onların uzunluqları qalmış hissədə 50 sm qədərdir. Qalan üç bütöv balıq şəklindən 104 №-li daşdakının uzunluğu 115 sm, 105 №-li daşdakınınkı 158 sm, Qayaaltı kolleksiyadan 5 №-li daşdakı balıq şəklinin uzunluğu isə 430 sm-dir.

Qobustana səyahət bölməsində «Ana zağa»dakı ulu nənə bizə bu sonuncu balığın bölgə olduğunu demişdi. (Qeyd edək ki, bizim zəmanəmizdə, bir neçə il bundan qabaq Xəzər dənizində uzunluğu 4 metrdən, ağırlığı bir tondan artıq nərə cinsli balıq tutulması haqda qəzetdə məlumat olmuşdu). Qalan iki iri ölçülü balıqlar da bəlkə bölgədir. Hər halda hər üçü nərə cinsli balıqlardır. Belə çıxır ki, qədim Qobustanda yalnız nərə ovlayıblar? Demək çətindir. Hər halda «Ana zağada» çox iri nərə balığının üzgəcinin mili tapılmışdır. Nərə balığında başqa sümük olmadığını nəzərə alsaq fikrimizin doğruluğuna təkid edə bilərik.

104 №-li daşdakı balıq şəkli bir növ ovlanma vəziyyətində çəkilmişdir. Qobustanda yuxarı səki sahəsi üzrə 33 və 45, aşağı səki üzrə isə 9 №-li daşda tor şəkilləri var və çox güman ki, balıqçılıq torudur. Qazıntılar zamanı çay daşından iki tərəfindən gəz açılmış, balıqçılıq toru üçün ağırlıq daşı kimi, işlədilmiş çoxlu pərsəng tapılmışdır. Bunlar bütövlükdə qədim Qobustanda balıqçılığın da əsas həyat mənbələrindən olduğunu göstərir. Bəs, doğrudandamı qədim qobustanlılar ancaq nərə cinsli, sümüksüz balıqları ovlayıblar? Sözsüz ki, yox. Balıq sümüklərinin min illər ərzində, özü də Qobustan düşərgələrində saxlanmaması (düşərgələrin mədəni təbəqələrində ətraf qayaların havadan yığdığı şeh hesabına həmişə nəmişlik hiss olunur) təəccüb doğurmamalıdır. Qədim qobustanlılar isə balıqlarla yanaşı dənizdə suiti, su tısbağası da ovlamışlar. Qazıntılar zamanı «Ana zağa»dan suiti sümüyü də aşkar edilmişdir. Aşağı səki sahəsində çoxlu qayıq şəkilləri ilə yanaşı qarmağa düşmüş tısbağa təsviri də vardır. Bu baxımdan Qobustan qayalarındakı qayıq təsvirlərinin çoxluğu da qədim qobustanlıların təsərrüfatında balıqçılığın nə qədər geniş və inkişaf etdiyinə sübutdur.

## QOBUSTANDA QAYIQ TƏSVİRLƏRİ

Qobustanda qayıq təsvirləri yüzdən çoxdur. Onlar qayalar üzərində qazma üsulu ilə çəkilmişlər. Formalarına görə üç cürə: xətti, siluet və hörmə görünüşlü qayıqlardır. Xətlə çəkilmiş qayıqlar ən qədimdir. Apardığımız arxeoloji qazıntılar göstərir ki, Paleolit dövründə qayıq düzəldilməyib. Qayıqların tarixi Qobustanda orta Daş (Mezolit) dövründən başlayır. İlk qayıqlar əsasən ağac gövdəsindən düzəldilmiş, kiçik ölçülü, təknəvari olmuş, 1-2 adam və yük götürmüş, əsasən çayları keçmək üçün işlədilmişlər. Bu tip qayıq təsvirləri Böyükdaş və Kiçikdaş dağlarının ətəklərindəki daşlarda çoxdur. Onlara tək-tək dağların yuxarılarında da rast gəlinir. Belə qayıqlar kiçik ölçülüdürlər.

Qayıq təsvirlərinin dağın aşağısında, düzənliyə yaxın sahələrdə daşlarda çoxluğu görünür, bu, qədim qobustanlıların balıqçılıq fəaliyyəti ilə əlaqədardır. Kiçikdaş dağı 85 №-li daşdan qədim qayıq təsvirlərindən birinin içində 2 adam, aralarında isə qayığın yükü göstərilmiş, Böyükdaş dağı yuxarı səki sahəsindəki 42 №-li daşda isə qayığın fəlakətə uğraması səhnəsi təsvir edilmişdir. Burala qayıq təsviri ortadan qatlanıb sınmış kimi göstərilmişdir.

İkinci tip qayıq təsvirləri qayalarda kölgəvari döyülmüş enli gövdəlidir. Böyükdaş dağının aşağı səki sahəsindəki 8 və 99 №-li, Kiçikdaş sahəsindəki 50 və 123 №-li daşlarda çəkilmiş bu tip qayıq təsvirləri qamışdan və qarğıdan hazırlanmışdır. Bu cür qayıqları İ. Cəfərzadə eradan əvvəlki VII-VI minilliklərə aid etmişdir (5-ci tablo, şəkil A və 13-cü tablo, şəkil A).

Üçüncü tip qayıq təsviri Daşqışlaq sahəsində 13 №-li daş üzərində qeydə alınmışdır. Buradakı hər iki qayıq xətlə çəkilmiş, forması qövs tərəfi aşağı olmaqla seqment şəkillidir. Hər iki qayıq təsvirinin gövdəsi sağa və sola maili çəkilmiş xətlərin kəsişməsindən alınan şəbəkə ilə doldurulmuşdur. Bu cür qayıqlar bir növ səbətvaridir. Çox güman ki, onların üzərinə heyvan dərisi çəkilmiş və ya içəridən su keçirməyən maddə ilə (qətran) suvanmışdır. Onlar Mesopotamiyada e.ə. VIII əsrə aid karkas üzərinə ağac qabığı və ya heyvan dərisi çəkilməklə hazırlanmış yüngül qayığa oxşayır.

Qobustanda 1 və 2-ci tip qayıq təsvirlərinin içərisində dikinə, lakin qısa çəkilmiş xətdən ibarət simvolik adam verilmişdir. 2-ci tip gəmilərin bəzilərindəki bu cür dənizçiləri çəpinə xətt kəsir. Görünür ki, bu xətlərlə avarlar göstərilmişdir.

Bəzi qayıq təsvirlərinin burnunda günəş çəkilmişdir. Başqa regionlarda və tarixin sonrakı dövrlərində gəminin başında quş, ilan, heyvan başı formalı simvollar, quyruq (hissəsinin quş quyruğu kimi düzəldildiyi məlumdur.

Arxeoloji ədəbiyyatda bəzən qayıq təsvirlərinin dənizlərdən uzaq məsafələrdə olmasına əsaslanaraq hesab edirlər ki, gəmilər ölünün ruhunu o biri dünyaya aparmaq üçün çəkilmişdir. Əlbəttə, qədim gəmilər və onların çəkilmiş təsvirlərinin ölünü axirət dünyaya aparmaq üçün olmaları haqda fikirlər və əfsanələr çoxdur. Qobustan qayıqlarının burnundakı günəş təsvirinin də pis havada günəşi çağırmaq üçün, ovsunçuluq məqsədi ilə çəkildiyini hesab edənlər də var.

Mən gəmi təsvirlərinin burnunda verilmiş günəş şəklinin günəşi çağırmaq məqsədi ilə çəkilməsinin əleyhinəyəm. Gəminin burnunda günəş şəkli çəkilməsini ovsun və günəş şəklinin günəşi çağırmaq olduğunu iddia edənlər, deyəsən insan tarixinin inkişaf mərhələlərini yaxşı bilmirlər, bu cür izahla bizim qədim qobustanlı babalarımızı həyatdan kənar, küt təbiəti bilməyən ağılsızlar hesab edirlər. Yuxarıda demişdim ki, qədim Qobustan sakinləri elə indiki insan tipində idilər. Bizim kimi düşünməyi də, dərk etməyi də bacarırdılar. Oxucu özü düşünsün, bizim Qobustan mədəniyyətini yaradanlar haqda belə fikirləşmək onların özlərinin səviyyəsinin aşağılığından irəli gəlmirmi?

Mezolit dövrü qobustanlılarının çaxmaq daşından mikroölçülü lövhələri necə qoparmasını (daşı daşa vurmaqla), onlar üzərində mikroskopik dərəcədə xırda dişəkləri necə işləmələrini fikirləşəndə az qalırsan səcdə edəsən. Bir də, yuxarıda ayrı-ayrı heyvanları və bütöv səhnələri onların necə real, mütənasib, təbiət qanunlarına, heyvanların anatomik və həyati xüsusiyyətlərini gözəl bilmələri ilə çəkdikləri haqda danışmışdıq. Biz qəti deyirik, qədim qobustanlılar öz dövrünün

ən inkişaf etmiş və mədəni adamları, öz dövrünə görə elmi-texniki və həyati biliklərin qabaqcılları səviyyəsinə bərabər adamlar idilər.

İnsan yarananndan kün çıxanda yuvasından (mağarasından, ocağından...) çıxıb çölə, ova, işə gedib (elə indiki kimi, öz dövrünün tələbinə uyğun, öz səviyyəsində), axşam evinə, mağarasına, ocağına qayıdıb, oturub (ocaq başında), yatıb, bilib ki, neçə keçəcək, səhər açılacaq, günəş çıxacaq, yenidən işə, ova... gün günü əvəz edəcək. Bunu nəinki Mezolit və Neolit dövrünün, elə alt Paleolit dövrünün adamları da 100 min illər bundan qabaq bilirdilər. Bunu nəinki insanlar, bütün canlılar bilir, hətta yarasalar da bilir ki, gecə qurtarır, gün çıxacaq, işıq olacaq, qaçıb mağaraların tavanından asılmaq, axşam qaranlığını gözləmək lazımdır.

Bəlkə, pis havada günəşi çağırıblar. Yenə yox. Mən sual edərdim, il fəsillərə - yaza, yaya, payıza, qışa nə vaxtdan və kim tərəfindən bölünüb, eləcə də aya, həftəyə... Əlbəttə, insanlar tərəfindən, onların nəsilbənəsil təbiət qanunlarını müşahidələri nəticəsində, özü də hər yerin öz iqlim qurşağına uyğun olaraq. Deməк, insanlar (eləcə də qədim qobustanlılar) yaxşı bidirdilər ki, fəsillər üzrə nə vaxt hansı bitki bitir, meyvə yetişir, yarpaq tökülür, hava soyuyur. Günəş yayda yandırır, qışda isə heç isitmir də. Odur ki, günəşi çağırmaqla gələn deyil, qədim adamlar inansaydılar ki, günəşin şəklini çəkməklə, çağırmaqla o gəlir, özü də lap yaydakı kimi isti olur, daha yanacaq ehtiyatı görməzdilər.

Mən hiss edirəm ki, mənə etiraz edənlər, «inamsız insan yaşaya bilməz, gəminin burnunda günəş çəkməklə ona inanıblar» deyənlər, hətta etnoqrafik dəlillər söyləyənlər də olacaq. Bəli, bunlar düzdür, lakin kim inanar ki, qışın dumanlı, çiskinli günündə gəminin burun hissəsinə günəş təsviri çəkilsə, doğrudan da elə o gün hava açılar, duman çəkilər, günəş çıxar? Əlbəttə, yox.

50-ci illərə qədər, Göycə mahalı, bizim yaylaqlar Ermənistana verilənə qədər hər il kəndimizin adamları dədə-baba yaylaqlarımıza gedərdi. Orada çox vaxt yağış, duman, soyuq olur. Yadımdadır, həftə ilə yağmurlu günlər olardı. Ancaq hamı bilirdi ki, hava açılıb günəşli günlər olacaq. Qonşuda Mələk nənə adlı bir qarı vardı. Yağış yağanda yuyub sərdiyi paltarı yığmazdı. Deyərdi: - «yağ-yağ, paltarı yığan deyiləm, axırda özün qurudacaqsan» (yəni günəş çıxacaq, qurudacaq). Bu, Mələk nənənin günəşin gələcəyinə inamı idi. Allah ona rəhmət eləsin.

Bir də görürdün duman dağılır, axşam buludun arasından ulduz görünür. Belə vaxtda qonşular Feyzulla kişinin qızı Pərnisanı, Pirməmməd oğlu Nəbinin oğlu Dadaşı, Əmrahoğlu Mədədi və başqa anasının ilki olan uşaqları səslər, tələb edərdilər ki, göydə ulduz görünür, tez onu bağla, səhər gün olsun. Onlar da üzünü ulduza tutub deyərdilər:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Əgər səhər gün çıxmasa

Dörd yanını dağlaram
Məhşərəcən bağlaram.

Səhərisi gün doğrudan da gün çıxan vaxt da, günəşin çıxmadığı günlər də olurdu. Birinci halda axşam ulduzu bağlayanlara təşəkkür edilirdi, elə bil bütün yaylaqdakı ellər, obalar üçün günəşin çıxmasının açarı elə onların əlində imiş. Lakin hava dumanlı qalıb gün çıxmayanda bir dəfə də onlara irad tutanın səsini eşitməzdik. Hamı bilirdi ki, külək dumanı qovub aparmadı, ona görə də günəş çıxmadı. Nə olar sabah çıxar, o biri gün çıxar, axır çıxacaq. Ulduzu bağlamaq isə bir adət idi, bəlkə də ilk uşağın üstünlüyü, kəsərliliyinə inam yaratmaq, ona, ilk uşağa istəkdən yaranan adət, nə isə...

Gəminin burnunda günəş təsviri çəkmək qışda, pis havada günəşin çıxmasına zəmanət ola bilməz. Bəs, Qobustanda gəmi təsvirlərinin burnundakı günəş təsvirləri nə üçün çəkilib?

Mən yuxarıda demişəm və bir daha qeyd edirəm ki, qədim qayaüstü təsvirlərin hər birinin və onların hissələrinin nə məqsədlə çəkilməsi haqda qəti fikir söyləmək çox çətindir. Lap tam mənası ilə düzünü söyləmiş olsan da qətiliyinə təkid edə bilməzsən, sonra o qədər niyələr çıxır ki, axı, keçmişdən dediyin fikiri təsdiq edəcək heç kəs qalmayıb. Yozumlar isə müxtəlif ola bilir və hər kəs özünü haqlı sayır.

Mən də Qobustan gəmilərindəki günəş təsviri, onun məqsədi barədə öz izahımı söyləyə bilərəm. Əvvəlcədən oxucuların nəzərinə çatdırım ki, burun hissəsində günəş təsviri çəkilmiş gəmi şəkilləri yalnız Qobustandadır. Məncə, bu o deməkdir ki, günəşin bu qaydada təsviri Qobustan üçün lazım imiş. Nə üçün? Görünür, Qobustan şəraiti ilə əlaqədar, Qobustan Xəzər dənizinin qərb sahilindədir. Balıqçılıq qobustanlıların həyat və təsərrüfatında ovçuluq və yığıcılıqdan az əhəmiyyətli sahə olmayıb. Buna görə də onlar hələ Mezolit dövründən qayıq düzəldib dənizə çıxa bilmişlər. Bir tərəfdən də qeyd etdik ki, ilk kiçik ölçülü qayıq təsvirlərində günəş təsviri yoxdur. Burnunda günəş təsvir olunan iri qayıqlar -gəmilərdir. O gəmilər ki, sahildən uzaqlaşıb dənizə çıxa bilirlər.

Mən gəmidə olmuşam, dənizə çıxmış və dənizdən qayıtmışam. Bilmirəm, bəlkə mənə elə gəlir, adam gəmidə olarkən, sahil görünməyəndə elə bil suyun üzündə qalır, cəhəti itirir (söhbət texniki vasitələrlə təchiz olunmuş səriştəli dənizçilərdən getmir bir cəhət, bir istiqamət axtarır. Bununla əlaqədar ta qədim zamanlardan dənizçilər üçün açıq dənizdə ay, ulduz və günəş bir növ kompas rolunu oynayıb. Qobustanda isə dənizə çıxan qədim qobustanlılar səhər-səhər, günəşə tərəf şərqə - dənizə, axşam evə - qərbə, yenə günəşə tərəf üzməli idilər. Bütün günü günəşə tərəf üzmək, günəşlə bərabər dəniz üzərində dolanıb, istiqaməti itirmədən, axşam günəşlə geri qayıda bilərdi. Görünür, gəminin burun hissəsində

günəş təsvir etmək azmamaq, istiqaməti itirməmək üçün həmişə günəşə tərəf üzmək lazım olduğunu göstərmək üçündür.

***Başqa bir inam.*** Məlum olduğu kimi, qədim Misirdən başlamış, demək olar bütün qədim mədəniyyət ocaqlarında insanlar günəşə inanmış, ona sitayiş etmişlər. Əlbəttə, dağlarında vulkanlar od püskürən Qobustan, torpağından alov çıxan Abşeron, atəşpərəstliyin ocağı, çox qədim zamanlardan «Odlar diyarı» kimi tanınan bir ərazi üçün də günəşi müqəddəs saymaq, ona sitayiş etmək istisna olmamışdır. Qobustanda günəş pirinin olması da bu fikri təsdiq edir. Kiçikdaş dağında 97 №-li qayanın üstündə 20-dən çox günəş simvolu -spiralvari çevrələr çəkilmişdir. Onlardan 6 ədədi qaya üzərində yer səviyyəsindən hündürdədir, qalanları isə qazıntı nəticəsində aşkar edilmişdir. Qazıntı zamanı buradan ocaq qalığı, son Eneolit və ilk Tunc dövrü qab qırıqları və s. materiallar tapılmışdır. Eyni spiralvari günəş simvolları üzbəüzdəki 18 №-li daşın dibində də aşkar edilmişdir. Arxeoloji ədəbiyyatdan günəş məbədinin divarlarının spiralvari dairələr və çərxi-fələk - svastika nişanları ilə bəzədilməsi məlumdur. Qobustanda qazılmış 7 №-li kurqanın qəbir daşının üstündə və bir çox şəkilli daşlar üzərində də günəş simvolu olan işarələr vardır. Bütün bunlar günəşə inamın, ona pərəstişin Qobustanda güclü olması və uzun zaman davam etməsili göstərir.

Beləliklə, günəş Qobustanda sitayiş edilən obyektlərdən, qədim qobustanlıların allahlarından biri olmuş, onları nəinki isitmiş, hətta dəniz səyahətində müşayiət etmiş, onlara yol göstərmişdir.

Bu söhbət oxucuya təzadlı görünə bilər, deyə bilər ki, qədim qobustanlılar günəşi allah sayıb, ona inanmışlar, lakin qayığın burnuna adicə yol göstərən, mayak kimi çəkmişlər.

***Bir aydınlıq.*** Bəli, o dövrdə hər yerdə, eləcə qədim Qobustanda da günəş ümumi allah, insanlara həyat verən, həyat mənbəyi idi. Lakin hər qəbilənin, qrupun, hətta bəzən ailənin də öz allahı, totemi vardı. Çoxallahlılıq dövrü idi. Hamı üçün ümumi günəş allahdan başqa, adamlar və qəbilələr ayrı-ayrılıqda heyvanlara, təbiət hadisələrinə, göy gurultusuna, şimşək çaxmasına, dağa, daşa, hətta özlərinin düzəltdikləri heykəlciklərə və s. inanmış, ona səcdə etmişlər. İndi bütün bunlar təəccüblü görünsə də, dünyada hələ də belə inamlar qalmış yerlər var.

Qayıq təsvirlərinin burnunda günəşin yol göstərici kimi təsvir edilməsi heç də o dövr üçün günəşə inamsızlıq kimi başa düşülməməlidir. Əksinə, günəş göydə görünsə də, görünməsə də onlar üçün allah sayılmış, inanmışlar ki, o var, qarşısını duman, bulud alsa da var. Ona inanmaq, ona tərəf getmək həmişə səadət gətirməlidir. Günəşin qayıqların burnunda çəkilməsi də günəşi çağırmaq üçün yox, günəşə inananların ona səcdə etməsi, günəşə arxa çevirməmək, həmişə ona tərəf getmək, üzmək təbliğatıdır.

Söhbət ki, Qobustanın gəmi təsvirlərindən düşdü, daha bir məsələ haqda - Qobustan gəmiləri tipində «Ra» və «Tiqris» gəmilərini düzəldərək dənizlər keçmiş, okeana çıxmış məşhur norveçli alim və səyyah Tur Heyerdalın Qobustana gəlməsi

haqda da məlumat vermək istərdim. Çünki Heyerdalın Qobustana səfərindən sonra mətbuatda və s. «Qobustan bilicilərinin» dilində belə şayiələr gəzmişdi ki, guya məhz Heyerdal Qobustan gəmilərinin dünyada ən qədim olduğunu göstərib və tarixini dəqiqləşdirib və s.

Mən Qobustanın qədim mədəniyyət ocağı olmasını və tarixinin qədimliyini Tur Heyerdalın və b. şəxsiyyətlərin adı və dedikləri əsasında təsdiqləməyə tərəfdar deyiləm. Bəzi alim və tədqiqatçılarımızı da indiyə qədər bizdə vərdiş halı almış öz gücümüzə və bacarığımıza inamsızlıqdan, başqa millətin tanınmış nümayəndələrinin dediklərinə haqq-nahaq üstünlük verərək ona baş əyməkdən, qədim mədəniyyətimizin, milli kökümüzün haradansa, başqa yerlərdən gəlmə saymaqdan əl çəkməyə səsləyirəm.

1981-ci il avqustun ortalarında Tarix İnstitutundan mənə xəbər verdilər ki, (o vaxt mən ekspedisiyada idim) ayın axırı üçün Tur Heyerdal Qobustana gələcək. Ayın 28-də o, Bakıya və 29-da Qobustana gəldi. O, əslində Azərbaycana Qobustandakı qayıq təsvirlərinə baxmağa gəlmişdi. Özü də buraya gələnə kimi onun Qobustan qayıqları, onların dövrü haqda məlumatı var idi. Gəlməsindən məqsəd isə Qobustan «Tiqris»lərinin qamışdan hazırlandıqlarını və onların dövrü haqdakı məlumatları yoxlamaq idi.

Mən onu Qobustanın tarixi-arxeoloji abidələri, qayaüstü təsvirlər, alardığımız arxeoloji qazıntıların nəticələri ilə tanış etdim. Onu da deyim ki, mən ona ümumiyyətlə qayaüstü təsvirlər haqda məlumat verərkən bir qədər bikef görünürdü. Ona görə də «Ana zağa» mağarasındakı qadın təsvirlərini göstərib zarafatla dedim ki, gör Qobustanın qadınları necə gözəldirlər. O da zarafatla cavab verdi ki, «qadınları özünə götür, mənə isə gəmiləri göstər». Mən onun arzusu ilə gəzib baxa biləcəyimiz sahələrdəki qayıq təsvirlərini ona göstərdim və biz bu təsvirlər ilə əlaqədar fikir mübadiləsi etdik. Söhbətimiz çox canlı keçirdi. Tərcüməçi - Heyerdalın kitablarını rus dilinə tərcümə etmiş, həm də onun dostu, Oslo universitetində təhsil almış Lev Jdanov dediklərimizi elə tərcümə edirdi ki, elə bil tərcüməsiz danışırdıq.

T. Heyerdal qayıq təsvirlərinə baxdıqca I tip qayıqların ağacdan, ikincilərin qamışdan və qarğıdan düzəldildiyinə etiraz etmədiyini bildirdi. Bir də onu ən çox maraqlandıran günəşin qayığın burun hissəsində verilməsi oldu. Axı o, qədim Misir qayıqlarında günəş təsvirinin qayığın burnunda yox, ortasında - dor ağacında təsvir olunduğunu görmüşdü. Özü də etiraf etdi, günəşin bu cür təsvirini birinci dəfədir, özü də Qobustanda görür. O, günəş təsvirinin günəşə sitayişlə əlaqədar olması fikri ilə razılaşdı.

Qonaqla əsas mübahisə Qobustan qayalarındakı qayıq təsvirlərinin tarixi barədə oldu. O, hələ Azərbaycana gələnə qədər Qobustan gəmilərinin e.ə. VII-VI minilliklərə aid edilməsini bilirdi və buna şübhə ilə yanaşırdı (onu müşayiət edənlərdən biri də moskvalı etnoqraf Henrix Anoxin idi. Yəqin ki, onun vasitəsilə İ. Cəfərzadənin «Qobustan» (Bakı, 1973) albomu ilə tanış olmuşdu). Odur ki,

o bildirdi ki, Şərq ölkələrində gəmi təsvirləri xeyli gec dövrlərə, cəmi 3500 il bundan əvvələ aid edilir. Bu, bizdən Qobustandakı gəmi təsvirlərinin qədimliyini əsaslandırmağı tələb etmək idi. Çünki o, Qobustanda qayıq təsvirlərinin tarixinin göstərdiyimiz qədər qədim olması ilə heç cür razılaşmaq istəmirdi. Məsələ çox ciddi qoyulmuşdu.

Onu da deyim ki, (təvəzökardıqdan uzaq olsa da) əgər o gün hansı bir (üzürlü və ya üzürsüz) səbəbdənsə mənim onu müşayiət edib izahat vermək imkanım olmasaydı, yəqin ki, bizim tədqiqatların nəticəsi ilə tanış olmayan və bizim bu məsələnin sübutu üçün dəlillərimizi bilməyən onu razı sala bilməyəcəkdi.

Mən onunla bir saata qədər mübahisə etməli oldum. Ən əvvəl qonağa qədim qayaüstü təsvirlər, o cümlədən qayıq təsvirlərinin (yarandığı dövrdə Qobustanda olmuş əlverişli təbii-coğrafi şəraitdən söhbət açdım. Bu işdə mənə xüsusilə Azərbaycan EA-nın müxbir üzvü (indi akademik) Budaq Budaqov kömək etdi. Sonra qonağa Qobustanda aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmiş materiallar, onların saxlanmış olduğu mədəni təbəqələr, buradan tapılmış, üzərində gəmi şəkli çəkilmiş daşları göstərdim və lazımi məlumat verdim. Bundan sonra o bildirdi ki, Qobustanda aparılan yüksək səviyyəli arxeoloji qazıntı və tədqiqat işlərinin nəticələri Qobustan qayıqlarının qədimliyinə onda şübhə qoymur. Sonra etiraf etdi ki, Qobustanda qədim mədəniyyət və ibtidai incəsənət abidələrinin bu qədər zəngin, onun köklərinin, xüsusilə qayıq təsvirlərinin bu qədər qədim olmasını gözləmirmiş.

Açığını deyim, bu etirafa kimi Heyerdal çox soyuqqanlı idi, gülmürdü, üz-gözündən şübhə tökülürdü. Yalnız bu uzun mübahisədən sonra göstərdiyimiz etirafı etdi və əllərini qaldırıb (olduğu kimi deyirəm) iki kəlmə dedi. Tərcüməçi də onun kimi əllərini qaldırıb tərcümə etdi: «Mən təslim». Sonra Tur bildirdi ki, hər şey indi ona aydın oddu, qayıqların tarixi ilə də, tədqiqatçıların nəticələri ilə də razıdır. Deməli, Qobustanda qayıq təsvirlərinin ən qədim olmasını və tarixini o bizə yox, biz ona dedik. O isə güman etdiyini bildirdi ki, ola bilsin Qobustan, kökləri çox qədimə gedən və indiyə qədər məlum olmayan, Mesopotamiyadan da qədim mədəniyyət ocağıdır. Onun bizdən qabaq, bizə dediyi əsas fikir bu idi. Bundan sonra qonağın üzünə təbəssüm gəldi, gözləri güldü. Çünki o gəlişindən çox razı qalmışdı, Qobustana məftun olmuşdu. Artıq dincəlmək də istəmir, hey yeni şəkillər görmək istəyirdi. Ona təklif edəndə ki, -«yorulmusunuz, gedək bir az dincəlin», etiraz etdi ki: «Nə dincəlmək? Gördüklərim və eşitdiklərimdən artıq dincəlmək varmı? Mənə bütün gəmi şəkillərini göstərin». Sonra o biləndə ki, gəmi təsvirlərinin çoxu marşrutdan kənarda, Kiçikdaş dağı sahəsindədir, bizi addımbaşı izləyən və işləməyə mane olan mətbuat işçilərini və avtoqraf almaq üçün əl-ayağa dolaşan «müşahidəçiləri» göstərib dedi: «Mənə bunlar yox, siz (məni və Firuzə Muradovanı göstərərək) tədqiqatçılar, tərcüməçi və maşın bəs edərdi. Mən o dağdakı qayıq təsvirlərinə də baxardım» (13-cü tablo, şəkil B).

Mən ona Kiçikdaş dağının Daşqışlaq sahəsindəki III tip – səbətvari qayıqların fotosu və rəngli slaydını göstərdim. Heyerdal onların səbətvari, dərin oturacaqlı qayıqlar olması haqda fikrimizi təsdiq etdi və bu tip qayıqlardan Mesopotamiyanın çay və göllərində indi də istifadə olunduğunu söylədi. O bizdən ayrılarkən Qobustana bir daha gəlmək, Qobustan abidələri ilə daha geniş, daha yaxından tanış olmaq arzusunda olduğunu bildirdi.

1987-ci ilin sonunda xəbər tutdum ki, Tur Heyerdal 1988-ci ilin yazında yenidən Qobustana gəlmək və Qobustandan kinofilm çəkmək üçün icazə alıb. Lakin erməni daşnaklarının 1988-ci ilin ilk aylarından qaldırdığı, Azərbaycan xalqının başına gələn bugünkü müsibətlərə səbəb məşhur Qarabağ «problemi» onun yenidən Qobustana gəlməsinə mane oldu.

## QƏDİM QOBUSTANDA «YALLI»

Qədim qobustanlıların yaşayışı, adət-ənənələri və kökü ovçuluqla bağlı ibtidai həyat tərzini əks etdirən tablolar içərisində «Yallı» rəqsi səhnələri də diqqəti cəlb edir (7-ci tablo, şəkil B; 10-cu tablo, şəkil V). Müasir balet, teatr, rəqs sənətinin başlanğıcı olan «Yallı» rəqsinin kökü çox qədimlərdən, Daş dövründən başlayır. Özü də insanların həyatı zərurətindən doğmuşdur. «Yallı»nın Azərbaycanda ən qədim rəqs olduğunu söyləmək üçün işcə dəlilə müraciət edək.

Birincisi, Qobustan (qayalarında tarixin müxtəlif mərhələlərinə aid kollektiv rəqs - «yallı» səhnələri vardır. Əlbəttə, bu cəhət başqa regionları istisna etmir. Belə ki, qayalarda çəkilmiş yallıya oxşar kollektiv rəqs səhnələri başqa yerlərdə (məs: Özbəkistanda, Qazaxıstanda, Sibirdə və s.) və başqa xalqlarda da vardır. Bu nə deməkdir? Böyük bir ərazilə, bəlkə dünyanın hər yerində eyni mədəniyyətmi olmuşdur? Hər halda (bu qədim insanların dünyagörüşü və ideologiyası ilə bağlı olsa da) yallı oyunu ibtidai insanların yaşamaq üçün qalib gəlmək ehtiyacından doğmuşdur. Bu rəqs ibtidai insanların güclülüyünü, dözümlülüyünü, çevikliyini, kollektivin bir adam kimi birgə, ahəngdar hərəkətini təmin etmək üçün məşq rəqsi, ibtidai idman oyunu kimi meydana gəlmişdir. Bu cür məşqlə qəbilə üzvləri ov zamanı bir adam kimi hərəkət etmək, güclü vəhşi heyvana ovda iştirak edən ovçuların bir anda zərbə endirmək, heyvan sürüsünü lazımi istiqamətə - tələyə, əlverişli ov sahəsinə yönəltmək, qaçmağa yol tapmayan yaralı vəhşinin ovçulara hücum edəcəyi təqdirdə necə hərəkət etmək, yoldaşına necə kömək etmək və s. kimi vərdişlərə yiyələnirdilər. Belə olmasaydı onlar təbiətin sərt qanunlarına və güclü vəhşi heyvanlara qarşı aciz qalardılar. Axı, uğurlu ov - qida, qida isə yaşamaq demək idi. Deməli, yaşamaq üçün yeməli, «yallanmalı», «yal» (qida) əldə etməli idilər. Bunun üçün ovladıqları heyvanı hər gün səhərdən axşamadək qovmağa dözməli, ona qalib gəlməli idi. Bu isə qədim ovçudan güclü və çevik olmağı, o da öz növbəsində məşq tələb edirdi.

Bütün göstərilən vərdişlər, eləcə də nizə və ox atmaq, lazım gələrsə yaralı heyvanın üzərinə atılmaq, ağaca dırmaşmaq, qayadan atılmaq və s. «yallı» oyununun məşqində qazanılırdı. Bütün bu söhbətlər insanların təbiətlə üz-üzə durduğu ibtidai dövrlərə aiddir.

Qədim qobustanlıların (ovçuların) öz işlərin müvəffəqiyyəti üçün necə məşq etmələri qayalardakı kişi təsvirlərinin ayaq əzələlərinin qabarıq, bədənlərinin qamətli və möhkəm təsvir edilməsində aydın görünür.

Zaman keçdikcə həyat inkişaf edir, ibtidai dövr daha mütərəqqi tarixi dövrlərin yaranması, yaşayış üçün lazım olan nemətləri insanların özlərinin yaratması, ovçuluqdan istehsal təsərrüfatına keçilməsi başlanır, ovçuluğu əkinçilik və maldarlıq təsərrüfatı əvəz edir. İnsanların qida ilə təmin edilməsində ovçuluğun ikinci, üçüncü yerə keçməsi ilə əlaqədar «yallı» oyunu üçün vərdişlər də get-gedə yumşalır, öz formasını dəyişir, insanlar üçün əyləncə, sağlamlıq və gözəllik oyununa çevrilir, tamaşa və teatr səhnələrinə çıxır.

***Bir haşiyə.*** Oxucular yəqin bilirlər ki, insanlarda irsiyyət, irqi mənsubiyyət nəsildən-nəslə keçir, təbiətin, dünyanın sonsuzluq məhvərində fırlanan bir element kimi davam edir. Mənə elə gəlir ki, (etiraf edirəm ki, mən bu sahələr üzrə mütəxəssis deyiləm, xüsusi məşğul da olmamışam) insanların min illər ərzində qazandıqları vərdişlər, adət-ənənələr də bir növ «irsilik» hüququ qazanır, özününküləşir. Belə ki, məsələn, ayrı-ayrı fərdlər və ya qruplar istisna olmaqla, bütöv bir xalqın, millətin dili, milli musiqi hissiyyatı, həyata və təsərrüfata münasibətlərinin elementləri müəyyən qədər dəyişə bilər, lakin itə bilməz.

Bu cəhətdən Azərbaycan xalq rəqsi «yallı»nın köklərinə və bu gününə nəzər salaq. Yuxarıda göstərdiyimiz «yallı» oyununu yaradan təbii-tarixi səbəblər, dövrü, şəraiti həyatda çox əsas məsələnin (ov-qida) həlli üçün ciddi və çətin hazırlıq tələb edirdi. Belə bir hazırlığa nail olmaq üçün məşqin tələbatı da çox çətin idi. O dövrün daş aləti ilə heyvan, özü də güclü heyvan ovu o qədər də asan, qəbilə üzvlərinin ayrı-ayrılıqda öhdəsindən gələ biləcəyi iş deyildi.

«Yallı» oyununa güclü, dözümlü, özü də 20 yaşla 40 yaş arasında kişilər girirdilər.

Hazırda «yallı» oyununu çox vaxt tamaşa meydançalarında görürük. Bu «yallı» söz yox ki, onun ovçuluqda öz əhəmiyyətini itirməsindən atom dövrünə qədər inkişaf yolunun bəhrəsidir. İndi «yallı»da yaşından asılı olmayaraq kişi və qadın bir yerdə rəqs edir, ürəkaçan istirahət səhnəsi yaranır. Lakin bu müasirləşmiş «yallı»dır. Kişilərlə qadınların birlikdə «yallı» getməsi səhnəsini, mənim fikrimcə, Qobustan «yallı»sı ilə bağlamaq və xalq rəqsi adlandırmaq dövrün tələbilə düz gəlmir, xalqın ifasında yaşamış fərmanı vermir, Qobustan qayalarında yalnız kişilərin ifa etdiyi «yallı» səhnəsinin ruhunda deyil. Bu cür, kişilərlə bir yerdə, bərabər sayda və bir sırada «yallı» oynamaq İslamın hökm sürdüyü yüzilliklərdə, xüsusən də bizim kəndlər və obalarımızda, qadınların üzlərini göstərməyə haqqı olmadığı bir şəraitdə mümküm deyildi.

Bir də xalq arasında, necə deyərlər, toyda-mağarda oynanan «yallı» var, uşaqlıq vaxtlarında kənddə gördüyüm «yallı». O «yallı» ki, mən onu yada salmaqla yuxarıda qədim Qobustan «yallı»sı haqda dediklərim nəticəyə gəlmişəm.

Yadımdadır, otuzuncu illər idi (mənim təxminən 9-10 yaşım vardı). Kənddə Oktyabr inqilabının ildönümü günü idi. Bayram şənliyini keçirmək üçün kənd camaatı dəstə ilə tarla düşərgəsinə gedirdi (deyəsən kolxoz belə qərar çıxarmışdı). Axını qara zurna müşayiət edir, bir dəstə kənd cavanı isə çalınan «yallı» sədaları altında insan axınının qabağında gedirdi. Oyuna kəndin hörmətli cavanlarından Gülməmmədoğlu Bayram başçılıq edirdi (Gülməmmədoğlu Bayram 37-ci illər repressiyasının qurbanı olmuşdur). Ümumiyyətlə, o vaxt kənd şənliklərində «yallı» daimi oyun idi. Ona Gülməmmədoğlu Bayram, İsmayıloğlu İslam və b. adları yadımdan çıxmış seçmə cavanlar başçılıq edərdilər. Başçı cərgə ilə düzülmüş oyunçular dəstəsinin boy sırası ilə baş tərəfində durar, əlində qamçı və ya möhkəm eşilmiş çatı olardı. Dəstə harmonik şəkildə (elə səhnədəki kimi) rəqs edirəm. Başçı əlindəki qamçı və ya çatını yellədə-yellədə hərdən gözlənilməz bir hərəkət edərdi (məsələn, cibindən yaylıq və ya bıçaq çıxarar, papağını yuxarı atıb- tutar, yerdən əlinə daş götürər, atılıb ağacdan yarpaq qoparar və s). Oyunçular da başçının etdiyi hər bir hərəkəti olduğu kimi təkrar etməli idilər, əks halda başçı tərəfindən qamçı və ya çatı ilə vurulub cəzalandırılardı (onu da deyim ki, bu cəza zərbəsi heç də yüngül olmurdu). Başçı həmişə vəziyyəti çətinləşdirmək, oyunçuları daha çətin «suallarla» imtahan etmək üçün fənd axtarmalı, oyunçular isə onu təkrar etməli idilər. Lakin başçının ortaya atdığı hərəkət prinsipcə yerinə yetirilməsi mümkün olan hərəkət olmalı idi. Odur ki, göstərdiyim vaxt ahıl, uşaq, böyük bir yerdə, qabaqda «yallı» dəstəsi tarla düşərgəsinə gedərkən birdən başçı (Gülməmmədoğlu Bayram) atılıb bir uşağı qucağına götürdü. Oyunda iştirak edən cavanlar hamısı adamlara tərəf yüyürdü, kimi uşaq, kimisi də əlinə uşaq keçmədiyindən, yaşlı adamları qucağına götürdü. Lazımi vaxtda bu hərəkəti icra etməyə müvəffəq olmayan və cəza zərbəsi alan da oldu.

Mən bu hadisəni və o vaxt kənddə dəfələrlə gördüyüm «yallı» oyununun ümumi şərtlərini qeydə almaqla oxucunun diqqətini ona cəlb etmək istəyirəm ki, yallının gedişində başçı cibindən yaylıq, bıçaq və ya kişiyə məxsus hər hansı əşya çıxarır, papaq atır, kəmər açır və s. nə edirsə, deməli başqa üzvlər də kişi olmalı, onlarda da bu əşyalar olmalıdır (deyək ki, ovçudur, demək silahı olmalıdır). Əgər ağacdan yarpaq qoparır, su arxından atılır, yerdən daş götürür və s. hərəkətləri vaxtında təkrar edirsə, o «yallı» oynaya bilər, yəni qədim ovçu kimi əli də, ayağı da, başı da işləyir, gücü də çatır, hər hərəkətə, hər hadisəyə hazırdır. Biz bu hərəkətlərdə qədim qobustanlılara məşq kimi lazım olmuş qədim «yallı»nın saxlanmış cizgilərini görürük.

Bütün oyunlar (istər qədim, istər müasir) kökü etibarı ilə gücün və ağlın qələbəsi üçün məşq rolu oynayır və bütün qələbələrin rəhnidir. Hərb sahəsində də, idmanda da, təhsildə də qələbə qazanmaq yaxşı təlim möhkəm məşq tələb edir. Nə

alim, nə rəssam, nə musiqiçi və s. təlimsiz, biliksiz, zəhmətsiz əsər yarada bilməz. Bütün idmançılar, eləcə də zehni yarış idmançıları olan şahmatçılar da yaxşı bilirlər ki, yüksək pilləyə qalxmaq üçün güclü, dözümlü, öz sahəsində tam hazır olmalıdırlar. Bilirlər ki, birinci olmaq üçün möhkəm hazırlıq, məşq lazımdır. Bunsuz qələbə də ola bilməz.

«Yallı»nın köklərinin çox qədimlərə getməsinə dəlalət edən ikinci sübut «yallı» sözünün özünü hesab etmək olar.

Yuxarıda qeyd olunduğu kimi, «yallı»nın kökünü yemək mənasında işlənən «yal» sözü təşkil edir. «Yallı» ov, yəni qida əldə etmək üçün lazımı gücə və vərdişə yeyələnmək oyunudur. Bəzən deyirlər yal it üçün yeməyin adıdır. Bəli, indi dilimizdə belə qalıb, yeri gələndə elə indi də yemək mənasında işlədilir.

Yeməkdən başqa dağın qılıncvari tirəsinə və atın boynuna da «yal» deyilir. Dağ tirəsinin «yal» adlanması da, çox güman ki, yal-yemək-yallı oyunu sözləri ilə əlaqəlidir. Çünki, «yallı» oyununda qazanılmış bütün vərdişlər əsasında ov adətən dağ tirəsində, dağın aşırımında, bir yandan pusqu qurmaq, o biri tərəfdən ov heyvanlarını dağdan uçurmaq üçün qovub oraya yönəltmək tələb edir. Dağın yalı ovun uğurlu olması üçün münasib yerlərdəndir, bir növ bərədir. Nahaq yerə demirlər ki ovçu ovu bərəsində vurar.

Qaldı atın «yalı». Dilimizdə belə ifadələr var - «...filankəs... atın yalından yapışdı» və ya «atı yalmanlayıb mindi». Bu ifadələrdə atın «yalı» və ya «yalmanı» dedikdə, atın yalı kimi onun uzun, dağ tirəsi kimi boynu, yalmanı dedikdə yalında bitmiş uzun və gur teli başa düşülməlidir. Onu da deyim ki, «yallı» sözü elə lap qədimdən, Qobustandan türkdilli söz kimi işlənilməkdədir.

Bir neçə kəlmə «yallı» oyununa başqa izahlar haqqında.

Qayaüstü təsvirlərlə məşğul olan bəzi alimlər və həvəskarlar «yallı»nı mərasim oyunu, ovsunçuluqla bağlı rəqs səhnəsi hesab edirlər. Bu cür yozma tərəfdarları hesab edirlər ki, uğurlu ov üçün ocaq başında «yallı» getmək lazım imiş və inama görə kollektiv nə qədər çox rəqs etsəydi, ov o qədər uğurlu olardı. Ona görə də bu cür «yallı» - mərasim oyunları günlər və həftə ilə ocaq ətrafında davam edərdi.

Əlbəttə, cəmiyyətin tarixi boyu insanların dünyagörüşündə ovsunçuluğun müəyyən yer tutması hallarını inkar etmək fikrində deyilik. Eləcə də kollektivin ovdan əvvəl «yallı» getməsinin ovçularda qələbəyə, oyun uğurlu olacağına inam yarada biləcəyinə də sözüm yoxdur. Lakin uğurlu oyun «yallı» oyununun formal və uzunmüddətli ifasından asılı olması düzgün izah deyil. Yəni mərasim üçün «yallı» getmək heç də ov obyekti olan heyvanlara təsir və onları təslim edə bilməz.

***İnam.*** Bəli, inam müvəffəqiyyət üçün əsas şərtlərdəndir. Müharibədə qələbəyə, ovda müvəffəqiyyətə inanmaq gərəkdir. Lakin yalnız inamla qələbə çalmaq olmaz. İnam o vaxt qələbə gətirir ki, müharibə üçün lazım olan hər cür silah və texnika, ordunun yaxşı hazırlığı, möhkəm nizam-intizam olsun, əsgərlərin yaxşı fiziki hazırlığı, qədim Qobustan ovçuları kimi dözümlü, güclü, çevik və s.

lazımi hazırlığa malik olsun. O zaman onlarda qələbəyə həqiqi inam yaranır və qələbə əldə olunur. Qədim qobustanlılar da ovda müvəffəqiyyət qazanacaqlarına ona görə inanmırdılar ki, «yallı»» oynayıb, mərasim icra ediblər, ona görə inanırdılar ki, ov üçün hər cür hazırlıq keçiblər, lazımi gücə malikdirlər, dözümlüdürlər və s.

Qobustan qayaüstü təsvirlərinin yaradıcılarının nə kimi bacarığa, həyati biliklərə malik olmaları haqda söhbət açmışdıq. Onu da qeyd etmişdik ki, süvarinin nizə ilə keçi ovlaması nə qədər səbatsız, Həyati biliklərdən uzaq səhnədir. Lakin bu kimi şəkil və səhnələr qədim qayaüstü təsvirlərin məqsədli çəkilməsi çərçivəsindən kənardır və onların həyatı olduğu kimi əks etdirməsi fikrini kölgə altına ala bilməz. Belə səriştəsiz, qeyri-real «tablolar» azdır, kökləri də qədim qayaüstü təsvirlərin yaranması dövründən və məqsədindən uzaqdır. Onlar əsasən son dövrlərin, ovçuluq təsərrüfatının qəbiləni təminedici sahə kimi aradan çıxması, onun köhnə üsullarla aparılması qaydasının yaddan çıxması dövrünün məhsuludur. Bu dövrdən rəsmlər də reallığını itirir.

Biz yuxarıda yeri gəldikcə qayalar üzərində həkk edilmiş bəzi qədim səhnələr, onların həyatiliyi və reallığı haqda məlumat vermişdik. Əlbəttə, Qobustan qayalarında saxlanmış bütün təsvir və səhnələr haqda söhbət açmaq, onların hər birini təsvir etmək bizim bu işimizin həcmi baxımından mümkün deyil və onların hamısından danışmağa ehtiyac da yoxdur. Bu, Qobustanın bütün qayaüstü təsvirləri kompleksinin tam çapı ilə əlaqədər həyata keçirilə bilər və olacaqdır.

Yuxarıda biz Qobustanın qədim qayaüstü təsvirlər kolleksiyası və ümumən Qobustan abidələri haqda ümumi aydınlıq yaratmaq məqsədilə buradakı bəzi seçmə, yəni söhbətimizin izahı ilə əlaqədar şəkil və səhnələr haqda məlumat verdik. Bu baxımdan daha bir səhnə, qədim ovçuluq təsərrüfatının silah işlətmədən, tələ üsulu ilə apardıqları ov üsulu haqqında məlumat vermək istəyirəm. Yuxarıda Böyükdaş və Kiçikdaş dağlarının hər yandan qayalı uçurumla əhatə olunmuş hamar zirvəsinin (Qədim qobustanlılar üçün təbii tələ olduğunu demişdik.

Qədim qobustanlılar qayalar arasında qurma tələlərdən istifadə edib heyvanları diri də tuta bilmişlər. Kiçikdaş dağında 58 №-li qayada belə bir ov üsulu səhnəsi təsvir edilmişdir. Bu səhnədə vəhşi öküz tələyə düşüb. Səhnə özü öküzün də insanın da rahat keçə biləcəyi qaya çatının arasında çəkilib. Şəkildə yuxarısı bir, aşağıya tərəf haçalanan ip təsvir edilib. Bir ucuna da nə isə ağırlıq bağlanıb. Görünür bu ipin ucunu tutmaq, sürüşüb çıxmağa qoymamaq üçündür. İpin arasında öküz təsvir edilib. İlk baxımda bu adi bir səhnədir, öküzün üstündən enən xətt haçalanıb bucaq əmələ gətirir. Lakin fikir verdikdə aydın olur ki, öküz adicə dayanmayıb, o tələdədir və elə təsvir edilib ki, irəli dartınıb nədənsə qopmaq, azad olmağa çalışır. Bununla yanaşı öküzün ağzından iki xətt çıxır. Həyatı, təbiəti bilməyən deyər, nə olsun öküzün dilidir. Amma yox, qədim qobustanlı yaxşı bilirdi ki, öküzün dili heç vaxt bayıra (itinki kimi) çıxmır. Özü də öküzdə iki yox, bir dil var. Bəs bu xətlər nədir? Öküz tələdədir, o azad olmaq üçün dartınır, çalışır,

böyüdür. O çox yorulub (lap bütün günü kəndlinin çubuğu altında kotan çəkmiş öküz kimi) odur ki, bu xətlər, öküzlər üçün bu vəziyyətdə xas olan, ağzından daşan köpüyün göstəricisidir.

Əlbəttə, bu təbii qanunauyğunluğu qədim qobustanlı rəssam bilib, bəlkə tələyə düşmüş öküzün vəziyyətini də dəfələrlə görüb və ona görə də bu səhnəni çox real və canlı təsvir edib.

## QOBUSTANDAKI BAŞQA ABİDƏLƏR HAQQINDA

Qobustanda Böyükdaş və Kiçikdaş dağları ərazisində orta Daş dövründən başlamış həyat min illər boyu, eramızın orta əsrlər dövrünə qədər davam etmişdir. Bu dövr ərzində davam edən həyat Qobustanda qayaüstü təsvirlərdən əlavə müxtəlif dövrlərin həyat, təsərrüfat və mədəniyyətinin izlərini qoymuş, bir çox müxtəlif tipli tarixi abidələr yaratmışdır. Bəzi tipləri haqda söhbət açmağı lazım bildiyimiz bu abidələr də qədim qayaüstü təsvirlərlə yanaşı, (qədim qobustanlıların min illər ərzində həyat ehtiyacından irəli gəlib yaradılmışdır

Qayaüstü təsvirlər kimi Qobustanda başqa tarixi-mədəni abidələr də müxtəlif tiplidir. Onların da yaranması və müxtəlif tipli olması Qobustanda həyatın min illər boyu davam etməsi, bu dövr ərzində insanların yaşayış tərzinin, həyat iqliminin dəyişməsi ilə bağlıdır. Belə abidələrə qazıntılar nəticəsində qədim düşərgə və yaşayış yerlərindən əldə edilmiş daş alətlər, silahlar, bəzək əşyaları və insanların başqa məişət əşyaları, Qobustanın qədim musiqi aləti «Qaval daş», yalaqlar, dəlmələr, qədim yazılar, işarə və damğalar, pirlər, karvansaralar və s. daxildir. Bu kimi abidələrin də xalqımızın keçmişi, tarixi, adət-ənənəsi, təsərrüfat həyatı, ideoloji dünyagörüşü və s. haqda anlayışları araşdırmaq üçün əhəmiyyəti böyükdür.

***Qavaldaş.*** Qobustanda maraq doğuran qədim abidələrdən biri qədim musiqi aləti-Qavaldaşdır. İshaq müəllimin əsərlərində onun adı «Qavalçalan daş» deyə çəkilir. Bu təsadüfi deyil, çünki həmin abidə yerli maldarlara ata-babadan bu ad altında məlum olmuş və yaddaşlardan silinməmişdir.

Daşdan bu cür qədim musiqi aləti Qobustanda iki ədəddir. Bunlardan birincisi Cingirdağın şimal-şərq ətəyindədir. O Cingirdağ - Yazılıtəpə qədim qayaüstü təsvirlər kolleksiyası üzrə 114 №-li daş kimi qeydə alınmışdır (12-ci tablo, şəkil B). İkinci Qavaldaş Böyükdaş dağının şimal-şərq ətəyində yastı və nəhəng qaya parçasıdır. O bir (qərb) yanını torpaq örtmüş sal qayanın üstündədir. Qavaldaşın şimal ucu 50 sm-dən çox yuxarı qaldırılıb və daşın ortasına yaxın yerdə altına balaca bir daş atılmışdır. Beləliklə, Qavaldaşın cənub ucu altına atılmış daşın üstündə olmaqla bütövlükdə havada qalmışdır.

Cingirdağdakı birinci Qavaldaş ortada 70 sm qalınlığında, şərq tərəfdə getdikcə nazikləşən (uzunluğu 270, eni 200 sm) yastı qaya parçasıdır. Bu qaya

parçası iki ədəd nisbətən kiçik daşın üstünə qoyulub, onlar isə öz növbəsində üstü şərqə tərəf maili nəhəng qaya üzərində yerləşdirilib.

Qavaldaşların hər biri görkəmcə ətrafda olln minlərlə qaya parçalarından o qədər də fərqlənmir. Nə çox ətrafda yastı iri və xırda ölçülü daş və qaya parçası. Bəs niyə yalnız bunlar, göstərilən iki daş musiqi aləti sayılır? Bunun səbəbi həmin daşların müxtəlif sahələrinə xırda daşlarla zərbə endirməklə alınan müxtəlif tonlu, metal cingiltili səslərdir. Bəli, bu daşlarda zərb alətlərində ifa edilən musiqi nömrələrini səsləndirmək mümkündür.

Qavaldaşın səs çıxarmasının sirri çox sadədir - onun hava yastığı üzərinə qaldırılmasındadır. Bəli, quru, yüngül, özündən altdakı daş və qaya üzərinə iki nöqtədə toxunan və beləliklə bir növ havada qalmış təbəqəvari yastı əhəngdaşına kiçik daşla zərbə vurduqda qalınlığından və nazikliyindən, böyük və kiçikliyindən, zərbənin daşın qalın və ya nazik hissəsinə, vurulmasından asılı olaraq müxtəlif toplu, istənilən ahəngli səslər alınır. Hətta, kiçik daş parçası 6 yana, elə yalın əllə də Qavaldaşa ötəri bir zərbə vurduqda onun içərisindən gələn zümzümə bir dəqiqə kəsilmir.

Mən Qavaldaşın səsinin adi milli nağaradan da güclü səslənməsi haqda söhbət açmaq istəmirəm. Yəqin ki, oxucuların bir çoxu xalqımızın ən qədim mədəniyyət ocağı - Qobustanda olmuş, onun qədim qayaüstü təsvirlərini ziyarətə gəlmiş və burada nəinki Qavaldaşın səsini eşitmiş, hətta kiçik daşla vurub onu dindirmişlər də. Oxucuların böyük əksəriyyəti bəlkə də elə hamısı söz yox ki, Qavaldaşın səsini televiziya verilişlərində mərhum sənətkarımız, bir çox musiqi festivalları laureatı, nağaraçalan Cingiz Mehdiyevin dindirməsində eşitmişlər.

Qobustana ekskursiyaya - qədim mədəniyyət ocağımıza ziyarətə gələnlər çox vaxt sual edirlər: «Qavaldaşdan musiqi aləti kimi istifadə etmiş babalarımızdan heç kəs zəmanəmizə qədər yaşamayıb, o dövrdə yazı da olmayıb, yazılı sənət də yoxdu. Bəs alimlər necə biliblər ki, bu daşlar musiqi alətidir? Onlar necə aşkar edilmişlər?» sözsüz ki, təbii olaraq bu vəziyyətdə düşüb qalmış daşlara da təsadüf etmək olur, demək olarmı ki, qədim babalarımız onların hamısından istifadə ediblər?..

***Əvvəlcə bir haşiyə.*** 1973-cü ilin yazında Azərbaycan Ali Soveti sessiyasının gündəliyinə Azərbaycanda tarixi abidələrin vəziyyəti və mühafizəsi məsələsi qoyulmuşdu. Məsləhət olmuşdu ki, sessiya öz işinə başlaması ərəfədə və iclaslararası tənəffüslərdə iclas salonuna giriş qapısındakı zal və foyelərdə, deputatları tanış etmək üçün tarixi-arxeoloji və qədim memarlıq abidələrinin şəkilləri və tapıntı eksponatlardan sərgi təşkil edilsin, eyni zamanda musiqi mədəniyyətimizin qədim abidəsi - Qavaldaşda qədim melodiyalar səsləndirilsin.

Bu ərəfədə, bir gün mədəniyyət nazirinin o vaxtkı müavini Rüstəm Babaxanov məni çağırıb tapşırıq verdi ki, səhər telestudiyadan bir nəfər operator və nağaraçalan Çingiz Mehdiyevi götürərsən gedərsiniz Qavaldaşda bir-iki qədim

musiqi nömrəsi çalıb lentə alarsınız. Qoy sessiya iştirakçıları və qonaqlar eşidib görsünlər ki, bizim xalqın mədəni kökü nə qədər qədimdən gəlir.

Səhəri biz görüşdük rəhmətlik Çingiz nağarası ilə gəlmişdi. Mən ona dedim: «Çingiz, nağaranı burada, studiyada bir yerdə qoy qalsın, lazım deyil». O təəccüblə «Necə, bəs mən niyə gedirəm, çalmaq lazım olmayacaq?» Dedim: «Yox Çingiz, çalacaqsan, bu yoldaş da (adını bilmədiyim operatoru göstərdim) lentə yazacaq, ancaq Qobustanın öz nağarasında çalmaq lazımdır». O əvvəl bir söz demədi, razılaşdı, maşına oturub yola düşdük. Yolda soruşdu: «Cəfərqulu müəllim, çalacağım nağara hansındandır. Birdən məktəb barabanı olar? Böyükdür, kiçikdir, nədəndir, axı mən nədə çalacağımı bilmədim? Dedim: «Çingiz, narahat olma, orada nə sizin nağaradan, nə də heç bir baraban yoxdu. Siz zəmanəmizdə ilk dəfə olaraq səsini maqnitofon lentinə yazmaq üçün Azərbaycanın ən qədim zərb musiqi alətini - Qavaldaşı səsləndirəcəksiniz. Bu şərəf sizin qismətinizə düşüb, bunun üçün narahat olmaq yox, sevinmək lazımdır. Qaldı çalacağınız alət, o iri bir qaya parçasıdır. Nə deyim, gedək görərsən. Əminəm ki, o alətdə istədiyin havanı çala biləcək və sonra özün də razı qalacaqsan».

Yolda maşını saxlayıb 2 ədəd yumurta formalı lakin bir qədər iri çay daşı götürdüm. Maşın Qavaldaşın 25-30 metrliyində dayandı, düşüb piyada getdik. Qavaldaşa çatanda mən çaydaşılarını Çingizə uzatdım.

- Al, Çingiz, məharətini göstər.

- Nə, daşı neynirəm, nə çalım?

- Çingiz, bizim babalardan qalma ən qədim musiqi alətimiz budur (Qavaldaşı göstərdim), babalarımız hələ çox qədim zamanlarda yallı rəqslərini, bayram və şənliklərini bu daşdan axan musiqi sədaları altında keçiriblər. Al, bu kiçik daşlarla bir bu qaya parçasına toxun və qulaq as.

O daşların hərəsini bir əlində tutub Qavaldaşa yaxınlaşdı. Sonra əlindəki daşları Qavaldaşa toxundurub üzümə baxdı. Mən qımışdım. Onun sifəti donmuşdu. Daşdan çıxan zümzümə hələ də davam edirdi. Sonra yenidən daşa əvvəlcə iki yavaş, sonra iki bərk zərbə endirdi və geri çəkildi. İndi onun da sifəti güldü.

- Cəfərqulu müəllim, bu lap aləmdir ki? -dedi.

- Çal, Çingiz, - dedim, - çal yazaq aparaq səsləndirək. Qoy hamı görsün ki, ulu babalarımız daşların sirrinə necə bələd olublar, ondan nəinki silah və əmək alətləri düzəldiblər, hələ onların səsindən də istifadə etməyi bacarıblar.

- Bəli, - dedi Çingiz, sonra operatora – Qur, qardaş, dedi, qur maqnitofonunu bu daşın dibində, yazın, görək nə çıxır. - Sonra mənə - Nə çalım, Cəfərqulu müəllim?

- Çal, Çingiz, qədim yallı havasın çal, - dedim, - qoy o havanı Qavaldaşın «dilindən» eşidib özümüz üçün bu yerlərin keçmişi haqda təsəvvür yaradaq, o vaxtların şahidi olan qayalar isə bu səsi yenidən eşidib diksinsin.

Çingiz çaldı, maqnitofon işlədi, Qavaldaşın səsi qayalarda əks-səda verdi. Qədim yallı, tərəkəmə havaları və Çingizin, oradaca həvəsə gəlib bəslədiyi «Qədim

ritmlər» Qavaldaşın nəfəsindən lentə köçürüldü. Qavaldaşın səsi respublika Ali Sovetinin sessiyasında qonaqlar üçün, sonra isə dəfələrlə radio dalğaları və televiziya ilə səsləndirildi. Eşidənlərin çoxu inana bilmirdi ki, bu melodiyalar nağarada deyil, qavaldaşda ifa edilir.

Yadımdadır bir dəfə qavaldaşı o vaxtlar respublika televiziyasında «Dalğa» proqramının ilk verilişlərindən birində səsləndirməli olduq. Bu dəfə Çingiz oğlu Həsən də (o da nağaraçıdır, atasının sənətini davam etdirir) nağarasını da götürmüşdü. Çingiz Qavaldaşı səsləndirdi. Sonra Qavaldaşı yenidən oğlu Həsənlə birlikdə səsləndirdilər. Daha sonra Çingiz gətirdiyi nağaranı götürüb eyni melodiyanı onda çalmağa başladı. Yenidən, bir də Qavaldaş səsləndi. Bu səfərdə iştirak edənlərin hamısı Qazaldaşın nağaradan daha yaxşı səsləndiyini söylədi.

«Qavaldaş» necə tapılmış, onun musiqi aləti olduğu necə müəyyənləşdirilmişdir? Bu haqda İshaq müəllim belə nəql edirdi ki, 1947-ci ildə axtarışda olarkən bir dəfə, yazın istisində yorulub Cingirdağ zonasında yaxınlıqdakı çoban dəyələrinə yaxınlaşıb su istəyir. Onu yorulmuş görüb alaçığa dəvət edirlər, körəməz verirlər, içir, sonra oturub bir qədər dincəlmək istəyir. Düşərgədəkilər onun başına yığışıb işi ilə maraqlanırlar, söhbət edirlər. Bir azdan çobanların briqadiri yolda görünür (o düşərgədə yox imiş) və yaxınlaşıb toğlu sürüsünün yerini - harada olduğunu soruşur. Çobanlardan biri cavab verir ki, «Qaval çalan daşın» yanındadır. İshaq müəllim bu cümləni tutur və soruşur: «Sürü haradadır dediniz?» Çoban cavab verir ki, «Qaval çalan daşın yanındadır». İshaq müəllimi maraq götürür, çobanları o daş haqda sorğu-suala tutur. Deyirlər ki, bəli, Cingirdağın şimal-şərq ətəyində belə bir daş var ki, qaval kimi səslənir. Onu nağara kimi çalıb səsləndirmək olur. İshaq müəllim xahiş edir ki, daşı ona göstərsinlər. Bir nəfər gedib daşı göstərir. İshaq müəllim deyirdi ki, çoban daşı çaldı və daşdan elə bir məlahətli səs qopdu ki, az qalmışdı mən özüm də oynayam. Bir də deyirdi ki, mən maldarların çoxundan, qocasından da cavanından da soruşanda ki: «Siz nə bildiniz ki, bu daş nağara kimi səs çıxarır və ona «Qaval çalan daş» adını kim verib? Hamısı çiyinlərini çəkib deyirdilər: «Nə bilim ata-babadan gözümüzü açandan onu «Qaval çalan daş» deyə eşidib tanımışıq».

Böyükdaş dağındakı 2 №-li Qavaldaş isə sonralar aşkar edilib qeydə alınmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, özündən altdakı qayaya-daşa az toxunmaqla bir növ havada qalmış hər hansı yastı və iri əhəng daşı parçası müəyyən ölçüdə səs çıxarır. Biz belələrinə çox rast gəlmişik. Lakin bu daşların yeri, vəziyyəti, duruşu və s. qədim insanlar tərəfindən onların musiqi aləti kimi istifadə edilməsi haqda fikir söyləməyə haqq vermir.

Böyükdaş dağındakı Qavaldaşın qaldırılıb altına daş qoyulmaqla, xüsusi olaraq düzəldildiyini qeyd etmişdik. Onu da deyim -ki, hələ təzəcə aşkar edilən zaman onun şimal ucu və cənub tərəfi səthində döyülüb hamarlanmış sahələr aydın görünürdü (bu sahələr indi də turistlər tərəfindən döyülməkdən təzələnib ağarıblar). Onun qədim qobustanlılar, çox güman ki, 200-300 metr aralıdakı, ilk Tunc dövrünə

aid «Dairə» yaşayış yerinin sakinləri tərəfindən qaldırılıb düzəldildiyi və musiqi aləti kimi istifadə edildiyi bizdə şübhə doğurmur.

Qobustana ekskursiyaya gəlmiş həmvətənlərdən, elə qonaqlardan da soruşan olar ki, bəs Böyükdaşda, yuxarı səkidə, marşrutun axırındakı Qavaldaş?

Əlbəttə, ekskursiya marşrutunun axırında gələnlərə Qavaldaş kimi təqdim edilən belə bir daş var. Lakin o əsl Qavaldaş deyil, adi qaya parçasıdır, qədim adamlar ondan qavaldaş kimi istifadə etməyiblər. Onu son illərdə Qobustan qoruğunun əməkdaşları qoyublar ki, ekskursiyanın axırında, əsl Qavaldaşa baxmağa, onu dindirməyə gedə bilməyən (əsl Qavaldaşın uzaqda olması və ya vaxtın azlığı üzündən) qonaqlara Qavaldaş haqda məlumatı burada versinlər, bu daşı səsləndirməklə daha dolğun təsəvvür yaratsınlar.

Cingirdağdakı 1 №-li Qavaldaş qədim Qobustanda görünür daha çox səsləndirilmişdir. Onun şərq tərəfi döyülməkdən quruluşca pianoyaoxşar görkəm almışdır. Onun bir ucundan o biri ucuna qədər yan-yana vurulan zərbələrdən alınan səslər pianoda bu istiqamətdə basılan dillərin verdiyi səslər kimi dəyişir. Bu səslənmənin təsirini ifadə etməyə çətinlik çəkirəm.

Qavaldaşın təqdim olunan fotosunu İshaq müəllim 1947-48-ci illərdə çəkib (12-ci tablo, şəkil B). O vaxt Qavaldaş qədimdəki kimi tam salamat olub. İndi daşın şərq tərəfinin çalınan səthi boyaboy sındırılıb. Kimsə, hansı yaramaz, hansı qanmazsa (oxucudan üzr istəyirəm) daşdan çıxan səsə görə hesab edib ki, yəqin içərisi boşdur... Sındırıb (İshaq müəllimin qeydinə görə 1953-cü ildə sındırılıb). Söz yox ki, 1 №-li Qavaldaş sındırılmamış daha ahəngdar səslənirmiş, lakin indi də pis səslənmir.

Qavaldaşdan danışdıq, ancaq oxucu heç də elə fikir etməsin ki, qədim qobustanlılar çalğı aləti kimi yalnız bu daşdan istifadə ediblər. Əlbəttə, dünyanın hər yerində və bütün xalqlarda olduğu kimi qədim qobustanlılar da, söz yox ki, qarğıdan, qamışdan, ağacdan, tarım çəkilmiş teldən, dəridən və s. orqanik materiallardan düzəldilmiş nəfəsli və zərb musiqi alətlərindən də istifadə etmişlər. Lakin, orqanik materiallardan düzəldilmiş musiqi alətlərinin nümunələri min illər ərzində, zamanın hökmü ilə çürüyüb məhv olmuş, bizə qədər gəlib çatmamışdır. Qərinələrin tufanlarına sinə gərərək bizə gəlib çatanı Qavaldaş olmuşdur. Bir də daşdan musiqi aləti kimi istifadə edilməsi tək bizdə, Qobustanda deyil, dünyanın bir sıra regionlarında məlumdur.

Ədəbiyyatda qaya və qədim daş tablolar üzərində qədim musiqi alətlərinin təsvirlərinə rast gəlinir. Daş tam-tamlar və daş litofonlar da məlumdur.

1949-cu ildə Cənubi Vyetnamda dəmir yol fəhlələri Ndut Lyanq Krak kəndi yaxınlığında torpaq işləri zamanı əhəng daşından uzunluğu bir metrə qədər, hər iki üzdən qəlpələr qopardılmaqla yonulub nazildilmiş bir neçə qəribə formalı daş lövhə aşkar edirlər. Neolit dövrünə aid edilən bu daş lövhələnin vəzifəsini müəyyən etməkdə uzun müddət alimlər çətinlik çəkirlər. 9 il sonra bir nəfər torpaq sahibi, fransız Bulbe göstərilən daş lövhələrin yerindən onlarca kilometr aralıdakı

Buon Berde kəndində, təsadüfən bir dini bayrama rast gəlir və görür ki, müqəddəs camışı qurbankəsmə məqamında üç ədəd uzunsov daş lövhə gətirib ipdən asdılar. Sonra daş lövhələri çalmağa başlayır və onlardan alınan melodiya altında camışı kəsib qanından bu daşların çopur səthinə də çilərdilər. Beləliklə, əvvəl tapılmış daş lövhələrin də qədim musiqi aləti - litofon olduğu aydınlaşır (məlumat «Nauka i jizn» jurnalından (1908, № 1) götürülüb).

Yadımdadır, bir dəfə Qobustana Afrikadan Mali Respublikasının mədəniyyət işçiləri gəlmişdilər. Onlara Qavaldaşı göstərəndə onların ölkəsində də belə çalınan daş olduğunu, ona tam-tam deyildiyini bildirdilər.

Ədəbiyyatda tam-tamların vəzifəsi çox vaxt musiqi ifa etmək üçün yox, səs siqnallarının ötürücüsü, bir növ edilən basqınlar və bu kimi hadisələr haqda xəbərdarlıq ötürücüsü kimi izah edilir. Biz bu cür izahla tam razı deyilik. Götürək elə Qobustanı. Cəmi iki Qavaldaş (Böyükdaşda və Cingirdağda) məlumdur. Araları, əgər düz xətt çəksən və aradakı nəhəng Kənizə dağını belə silib götürsən 7-8 km-dir. Şıx qaya ilə Şonqardağ qədim insan məskənlərinin arası isə 15-20 km-dir. Tam-tamlar da qavaldaşlar da adi qaya parçalarıdır, qayalar dənizinin içərisində başqa daşlardan seçilmir, onların səsi yerləşdikləri ərazi və dağın ərazisindən kənara çıxmır. Onları dağların zirvəsinə, səsin qonşu dağa çata biləcək nöqtəsinə qaldırmaq da mümkün deyil və beləsinə bir dənə də olsun təsadüf olunmayıb. Ona görə də təcili xəbərlərin tam-tamlar vasitəsilə uzaq məsafəyə ötürülməsi haqda fikirlər əsassızdır. Tam-tamlardan, deyək ki, qavaldaşdan «xəbərçi» kimi yalnız ətraf ərazidə (Yazılıtəpə və Cingirdağda 1 №-li, Böyükdaşda 2 №-li Qavaldaşla) yaşayan qəbilə ağsaqqallarını qəbilə şurasına yığmaq və ya ovçuları ova səsləmək üçün istifadə oluna bilər.

Uzaq məsafəyə xəbər göndərmək üçün siqnal vasitəsi kimi dağların başında od yandırmaq, tüstü qaldırmaq daha əlverişlidir, o da ki, təmiz, dumansız hava şəraitində. Qobustanın qavaldaşları olduqları sahənin sakinlərinin - qədim Qobustan qəbiləsinin şənliklərini musiqi sədalarına qərq etmiş, cavanları yallı oyununa həvəsləndirmişdir. Qavaldaş Qobustanın möcüzələrindəndir. Bu gün də onda istənilən musiqini səsləndirmək olar.

***Yalaqlar.*** Yalaqlar qayalar və daşlar üzərində qazılmış ilk tərpənməz qablardır. Bu cür qablar Qobustanda çoxdur. Bu tip abidələrə əsasən (mənim təcrübi müşahidələrimə görə) qədim düşərgə və yaşayış yerləri olan sahələrdə qaya və daşlar üzərində təsadüf olunur. Qobustanda yalaqlar Böyükdaş, Kiçikdaş sahələri və Cingirdağda Yazılıtəpədə çoxdur. Şonqardağ sahəsində «Şonqar» düşərgəsi ətrafında da yalaqlar var. Mən Böyük Qobustan ərazisində qədim yaşayış izi olmayan heç bir başqa dağın ərazisindəki daşlı-qayalı sahədə yalağa təsadüf etməmişəm.

Arxeoloji dəlillərə əsasən yalaqların yaranma tarixi yeni Daş, Neolit dövründən başlayır və onlardan istifadə müxtəlif formalarda indiyə kimi davam edir.

Yalaq sözü, indi xalq arasında, itə yal (yemək) qekülən çuxur (qab) mənasında işlənir. Buradan aydınca görünür ki, yalaq çox qədimdən bəri yemək mənasını saxlamış, yemək qabı mənası daşıyır. (Yalaqlara, xüsusən qayalar üzərindəki yalaqlara cülyə də deyilir, Məs: Qazax rayonunda). Qədim yalaqlar çevrilmiş konus şəklində qazılmış, formaca da Neolit dözrünün sivri oturacaqlı ilk gil qablarını xatırladır. Belə qablardan biri «Ana zağa» düşərgəsində iri daş parçası üzərində, Neolit dövrünün ocaq qalığının kənarında, biri, yenə o dövrə aid «Kənizə» düşərgəsində qərb kameranın içində, ikisi də düşərgənin şərq tərəfi həyətində aşkar edilmişdir. «Ana zağa» ətrafındakı 26, 28, 53-57 və 143 №-li daşlar üzərində də 40-a qədər yalaq vardır. Dağın aşağı səki sahəsində isə 200-dən çox yalaq qeydə alınıb. Qobustan qayalarındakı bu cür yalaqların diametri 10-40 sm, dərinlikləri isə 10-20 sm-ə çatır. Onlar əsasən açıq havada, qayaların üst səthində qazılmışdır. Çoxunun kənarında yağış suyunu ona istiqamətləndirmək üçün nazik qanovlar vardır. Deməli, bu cür yalaqlar yağış suyu yığmaq üçün nəzərdə tutulmuşdur.

Böyükdaş dağı aşağı səki sahəsindəki 2,5x1,8 m səthə və 50-60 sm qalınlığa malik 21 №-li daş üzərində irili-xırdalı 21 ədəd yalaq qazılmışdır. Qeyd edək ki, birincisi, bu daş çox iri bir qayanın bu daşa tərəf əyilməklə əmələ gətirdiyi örtülü sahədədir və heç vaxt bu daşın yalaqlarına yağış suyu düşmür. İkincisi, üzərində yalaqlar qazılmış bu daş parçasının yalaqlar qazılmış səthi odun təsirindən yanıb qızarmışdır. Görünür, vaxtilə qədim qobustanlılar onun üstündə güclü ocaq qalamaqla daşı bərk qızdırmış, sonra odu və külü süpürüb təmizləyərək bu yalaqlara çiy ərzaq qoyub üstünü örtmüşlər ki, daşın istisi (daş soyuyana qədər) onu bişirsin. Bu daş bir nöz qədim qobustanlıların «pitixanası» rolunu oynamışdır və biz bu daşı şərti olaraq «Qobustan mətbəxi» adlandırmışıq.

«Ana zağa» və «Kənizə» düşərgələrində qazıntı zamanı diqqətimizi yuxarıda qeyd etdiyimiz Neolit dövrü yalaqları ətrafında rast gəldiyimiz çoxlu çaydaşı qırıqları cəlb etmişdi. Ümumiyyətlə, çaydaşı qırıq və qəlpələrinə Qobustanın Daş dövrü düşərgələrində çox rast gəlmişik. Onlar bu daşdan alət düzəldərkən alınmış qəlpə və qırıqlardır. Onların üzərindəki, əsasdan qopardılmaq üçün vurulmuş zərbələrin izi və alınmış zərbə düyünləri əsasında bu cür istehsal tullantılarını, elə çaydaşından düzəldilmiş alətlərin özünü də seçmək arxeoloq üçün çox asandır. Qeyd etdiyimiz düşərgədə yalaqların yanında topa halında rast olduğumuz çaydaşı qırıqlarında isə onların zərbə ilə qopardılmasını göstərən heç bir əlamət yoxdur.

Lakin onların xeyli hissəsinin ocaqda olması, yanıb qızarması aydın bilinir. Deməli, bu çaydaşı qırıqları yalaqlarda maye (su, süd kimi) qızdırmaq, xörək (yarma, piti) bişirmək üçün qızdırıcı kimi işləmiş çaydaşılarının qırıqlarıdır. Bu üsulla yemək bişirmək üçün yalağa müəyyən qədər soyuq ərzaq tökülür və ocaqda çox bərk qızdırılmış çay daşını təmizləyib onun içinə atırlar və daşın istisindən maye qızır, qaynayır, bişir. Əgər bir daşın istisi yalaqdakı həcmin

qızıb bişməsinə bəs etməsə, vaxtaşırı yalaqdan soyumuş daşı kənar edib əvəzinə başqa qızmış çaydaşı atırlar və s. Deməli, qazıntı zamanı yalaqların yanında aşkar edilmiş, ocaqda olmuş, lakin heç bir zərbə almadan parçalanmasına çaydaşıların bərk, qızarıncaya qədər qızdırılmış halda soyuq mayenin içinə atılması temperaturun bir anda kəskin dəyişməsi səbəb olmuşdur. Bu o deməkdir ki, qədim qobustanlılar yalaqlardan xörək -piti və yabanı dənlərdən - çətənə və dabanı taxıl dənlərini, daş sürtgəclər vasitəsilə əzərək yarma bişirmək üçün istifadə etmişlər. Qeyd edək ki, yabanı buğda Qobustanda indi də bitir və dən verin. Etnoqrafik dəlillər göstərir ki, yalaqlardan tərpənməz qablar kimi istifadə edilməsi (müəyyən şəraitlə əlaqədər, qab olmadığı təqdirdə) zəmanəmizə qədər davam edir. Çobanların çöldə qoyunu yalağa sağıb sonra qızdırılmış daşlarla südü qaynadıb «qoqurtmac» deyilən qatılaşmış süd məhsulu, hazırlamaları haqda məlumatlar var. Onların qab olmayan yerdə yalağa sağılmış südün içinə maya atıb pendir düzəltmələri də məlumdur.

70-ci illərin əvvəllərində (dəqiq tarixi yadımda deyil) Bakıda geofiziklərin Ümumittifaq konfransı keçirdi. Konfrans iştirakçılarından bir dəstə Qobustana gəlmişdi. Onlara mən özüm bələdçilik edirdim. «Ana zağa» yaxınlığındakı yalaqların yanında yuxarıdakı fikrimi söylədikdə iştirakçılardan biri - moskvalı bir alim, bildirdi ki, turist kimi Yaponiyada olarkən onlara qızdırılmış daşların köməyi ilə yalaqlarda bişirilmiş düyü veriblər.

Tarixən gildən, daha sonralar metal, şüşə və b. materiallardan qabların meydana gəlməsi və inkişafı daş yalağlara olan ehtiyacı heçə endirir və yalaqlar məişətdə birbaşa insanlara qulluqetmə funksiyasını itirir, adamlar onlardan itə yemək, yal tökmək üçün istifadə edirlər. Bununla belə, Qobustan qayalarındakı yalaqlardan maldarların yağış suyu yığmaq üçün istifadəsi son vaxtlara kimi davam etmişdir. Diametrləri ən çoxu 25-30 sm, dərinlikləri 15-20 sm-dən çox olmayan, əsasən çevrilmiş konus formalı qədim yalaqların həcmi get-gedə böyümüş, forması dəyişmiş və onlar təknəvari dördbucaqlı vannalara və daş çərhovuzlara çevrilmişlər.

***Dəlmələr.*** Qədim Qobustanda təsərrüfat həyatı ilə bağlı abidələrdən biri də dəlmələrdir. Onlara əsasən qədim düşərgə və sığınacaqların divarlarında, ən çox isə antik və orta əsr dövrlərinin yaşayış məskənlərində, ətrafın arxac daşlarında (demək olar addımbaşı) rast gəlinir. Qobustanda Cingirdağ - Yazılıtəpə sahəsindəki daşlarda ilk illər 100-ə qədər dəlmə qeydə alınmışdır.

Dəlmələr daş və qayaların tilində, iki tərəfdən iti daş, sonralar isə metal alətlərlə qazılaraq açılmışdır; Onlardan düşərgə sığınacaqların divarlarında bir, bir yarım, bəzən iki metr və daha hündürdən açılmışları zənbil və torbalarda ərzaq məhsulları asmaq üçün, yaşayış yeri ətrafındakı dəlmələr isə heyvanları (atı, öküzü, dana-buzovu və s.) bağlamaq üçün idi. Qobustanda ən qədim dəlmələrdən biri "ovçular zağasında", 45 №-li daşdakı öküz ovu səhnəsinin qabağındakı daşın üst tilindədir. 45 №-li daşın o biri üzündə isə Qobustanda yeganə, boynunda ip olan

vəhşi öküz təsviri var. Buradakı dəlmə hər iki tərəfdən burma üsulu ilə işlənib, başqa dəlmələrə görə xeyli geniş deşiyə malikdir. Özü də «Ovçular zağasına» arxeoloji qazıntı nəticəsində, bir metrə qədər dərindən, torpağın altından aşkar olunmuşdur. Çox güman ki, heyvanların əhliləşdirilməsi dövrünə aiddir. O zaman onda diri tutulmuş balaları № yaralı heyvanları, görünür, bu daşa bağlayıb, ot verib yedizdirirlərmiş ki, sonra heyvanlar insanlara öyrəşib əhliləşmişlər.

Qobustanda qədim yaşayış olmuş ərazilərdə bir ucundan deşik (dəlmə) açılmış, insanın gücü çata biləcək, ölçücə kiçik daşlara da rast gəlinir. Onlar əslində iki məqsədlə -heyvanın xüsusən atın, otlamasına imkan yaratmaqdan ötrü belə daşa bağlayıb hörükləmək üçün və gəmi-qayıqlarda lövbər kimi istifadə oluna bilərlər. Bu ölçülü və eyni məqsədlə işlədilmiş, lakin bir ucu və yanından deşik açmaq əvəzinə daşın ortasından ip bağlamaq üçün dərin gəz açılmış daşlara da rast gəlinir.

***İşarə və damğalar.*** Qayaüstü təsvirlərlə yanaşı Qobustanda işarə və damğalar da diqqəti cəlb edir. Daş və qaya (eləcə də ağac, metal və s. materiallar) üzərində qazılmış işarə və damğalar ideoqramlar, simvollar qayaüstü təsvirlər arasında xüsusi yer tutur. Qaya və daşlar üzərində qədim şəkillərlə yanaşı tez-tez bu kimi abidələrə də rast gəlinir. Onlar bir çox qədim rəsm qallereyalarında artıq Paleolit dövründən məlumdur. Lakin təbii çəkilişi ilə adamı heyran edən qədim incəsənət əsərləri - qədim qayaüstü təsvirlərlə yanaşı çəkilmiş bu tip abidələrə çox vaxt fikir verilməmiş və onlar uçota alınmamışdır. Tarixən yazı əvəzi, yazı simvolu sayılan bu tip abidələr Qobustanda çoxdur və onlar müxtəlif məna və məqsəd daşımışlar.

Qobustanda qeydə alınmış işarə və damğalardan ən qədimlərinin yaranma tarixi Tunc və bir qədər də qabaqkı dövrlərdən başlayır. Onlar arxeoloji ədəbiyyatda göy cisimləri kimi başa düşülən çərxi-fələk nişanı, biri-birinin içində olmaqla konsentrik çevrələr, çevrənin perpendikulyar kəsişən xəttlərlə dörd yerə bölünməsi, bir nöqtə və çevrədən yanlara çəkilmiş şüavari xətlərlə alınmış işarələr kimi abidələrdir.

Göy cisimləri kimi başa düşülən işarə və damğalara Qobustanda əsasən yaşayış yerləri və onların yaxınlığındakı qayalar, eləcə də kurqan tipli qəbir abidələrinin daşları üzərində rast gəlinmişdir. Görünür, axırıncılar axirət dünyası ilə bağlı insanlara həyat və işıq mənbəyi - günəşin tərənnümü üçün yaradılmışdır.

İşarə və damğalar qayalar, daşlar, tikili qalıqları, qəbir daşları üzərində eləcə də iri ağacların, (çinarların) gövdəsində qazılmışdır. Qobustan zonasında işarə və damğalar son zamanlara kimi yaşamışdır. Onların yaranması zərurətini heç də nə təsadüfi, nə də birmənalı izah etmək yaramaz. Kosmik işarələr əsasən günəşə, aya, ulduza və s. pərəstişin nəticəsi kimi izah edilir, axirət dünyaya inamla əlaqələndirilir. Belə işarələrə az-az təsadüf edilir. Qobustan qayalarında ən çox yayılmış işarə kiçik çevrədən aşağıya tərəf çəkilmiş üç şüavari xətt və ya əvvəl bir

xətt çəkilərək sonra onun yanlarından ayrılmış xətlərin əmələ gətirdiyi formaya malik işarələrdir (14-cü tablo, şəkil A).

Bu tip işarələr Cingirdağ ərazisində çoxdur. Cingirdağ sahəsində 43 daş üzərində 170-ə qədər işarə-damğa qeydə alınıb. Onlardan 23 daş üzərində yalnız işarələr qazılıb (120 ədəd), 20 daşda isə işarələrlə yanaşı qayaüstü təsvirlər də vardır. 123 və 143 №-li daşlar üzərində 21 və 36 ədəd olmaqla 57 işarə qazılmışdır. Onların hamısı müxtəlif ölçülü elementlərlə olsalar da eyni motivli işarələrdir.

Qaya və daşlar üzərində işarə və damğaların nə məqsədlə qazılması haqda tam və qəti fikir söyləmək, söz demək çətindir. Hər halda onların tayfa-qəbilə nəsli və şəxsi damğa-işarələri olduğu haqda fikir bizə görə, daha ağlabatandır, əsas sayılmalıdır. Bu işdə ayrı-ayrılıqda həmin abidələrin yaranma tarixini də bilmək vacibdir. Əlbəttə, qayalar üzərində qazılmış qədim şəkillər kimi işarə və damğalar, eləcə də başqa abidələrin də yaranması tarixinə çox ehtiyatla, götür-qoyla yanaşmaq lazımdır. Xüsusən də bu abidələrdən söhbət açmaq xatirinə qələm işlədən alimlər üçün. Bu haqda sonrakı bölmədə.

***Qobustanda qədim yazılar.*** Qədim tarixin öyrənilib dəqiqləşdirilməsi işində qayalar, qədim tikililər, qəbir daşları və s. üzərində saxlanmış epiqrafik abidələrin də tarixi mənbə kimi böyük əhəmiyyəti var. Bu kimi kitabələrdə əsasən binaların nə vaxt, kim tərəfindən tikilməsi, dəfn olunanın kimliyi, yaşadığı dövr haqda məlumat və dini kəlamlar verilir. Bir qisim yazılar qaya, daş, tikili, ağac, divar və s. üzərində avtoqraflar kimi meydana gəlir. Bir də tarixi əhəmiyyəti olan, keçmişdən xəbər verən, keçmişin almanaxı olan (Bisütun yazıları kimi) kitabələr də olur. Qobustan qayaları üzərində də bir sıra yazı qalıqları qeydə alınmışdır. Onların çoxu ərəb əlifbası ilə, biri isə latın qrafikası ilə yazılmışdır. Ərəb əlifbası ilə yazılmış kitabələrdən biri və latın qrafikalı yazı müəyyən tarixi əhəmiyyətə malikdir.

***Qədim Roma kitabəsi.*** Latın qrafikası ilə latın dilində yazılmış bu kitabə 1948-ci ildə İ. M. Cəfərzadə tərəfindən Böyükdaş dağı aşağı səki sahəsində 16-cı daş kimi qeydə alınmış qaya üzərində aşkar edilmişdir. Bu kitabə romalıların ildırım-sürətli, XII legionu və ya onun senturiyasının, eramızın I əsrinin 84-96-cı illəri arasında Şərqi Azərbaycanda-Qobustan ərazisində olduğunu göstərir. Kitabənin dövrü onun mətnindən aydın olur. Kitabədə deyilir ki, imperator Domisian Sezar Avqust Kermanskinin dövrü Lütsi Yuli Maksim XII ildırım sürətli legionun senturiyası. Deməli, kitabə 84-cü ildən əvvəl yazıla bilməzdi. Çünki burada Domisianın ləqəbi-Kermanski sözü işlənib. Tarixən məlumdur ki, Domisian bu adı 84-cü ildə qallar üzərində qələbədən sonra alıb. Kitabə 96-cı ildən sonra da yazıla bilməzdi, çünki Flavilər sülaləsinin son nümayəndəsi olan Roma imperatoru Tit Flavi Domisian 96-cı ildə bürokratik hakimiyyətini möhkəmləndirməsindən narazı qalmış senatın əli ilə azad edilmiş qullar tərəfindən öldürülmüş və onun adının hər yerdən silinməsi haqda qərar çıxarılmışdı. Belə olduqda, sözsüz ki, ölümündən sonra onun adı bu kitabədə çəkilə bilməzdi. Burada Domisianın adının

saxlanması isə, görünür onunla bağlıdır ki, Domisianın ölümündən sonra romalıların əli bu yerlərə çatmayıb. Roma qoşun hissəsinin o dövrdə Azərbaycana kəlməsi, eləcə də Qobustan ərazisində olması haqqında ümumiyyətlə, heç bir yazılı məlumat saxlanmamışdır. Ona görə də Roma qoşunlarının bu ərazidə olmasının səbəbi haqda da tam və qəti söz demək çətindir. Lakin bu yazı, hər halda, göstərilən dövrdə romalıların buraya gəlmiş olduqlarına şahidlik edir. Kitabədə XII ildırımsürətli legionun adı çəkilib və sentüriya (80-dan 120 nəfərə qədər sayda qoşun bölməsi) işarəsi qoyulub. Bunu da demək çətindir ki, burada legionun özü və ya onun senturiyası olub?

Qobustandakı qədim Roma kitabəsinə İ. M. Cəfərzadə, P. X. Tumbil, Y. A. Paxomov və Z. İ. Yampolski xüsusi məqalələr həsr ediblər. Lakin axır nəticə kimi burada olmuş Roma qoşunlarının nə sayı, nə də kəlmələrinin məqsədi, bu haqda bir başqa yazılı məlumatın, maddi dəlilin olmaması üzündən tam aydınlaşdırılmır. Aydın olan isə odur ki, birincisi, kitabə, adı hələ eradan əvvəlki III əsrdən çəkilən, Xəzər dənizinin qərb sahili boyu cənubdan şimala gedən yolun üstündədir. Yəni romalılar buraya bu qədim yolla gəlmişlər. Fərqi yoxdu, Tumbilin güman etdiyi kimi Sarmat keçidi vasitəsilə olsa (şimaldan) da, Ermənistandan keçərək Ağstafa vadisi və Kür ilə, cənubdan Xəzər sahili ilə olsa da Böyükdaş və Kənizə dağları ilə Xəzər dənizi arasından keçən yolla gəlmişlər.

İkincisi, romalılar bu kitabəni çox güman ki, ötəri, yolüstü yazmayıblar, az müddətə (heç olmasa bir neçə günlüyə) də olsa burada dincəlmək üçün dayanıblar. Biz ona əsaslanırıq ki, o vaxt üçün qoşun hissəsinin Kür çayından şimala, heç olmasa su olan Bakıya kimi getməsi üçün (100 km-dən çox) azı iki gün vaxt lazım idi və onlar bu yolu gecələyib dincəlmədəm keçə bilməzdilər. Bir tərəfdən də orada içməli su da olmalı idi. Belə bir nöqtə, həm yolun yarı edilməsi, həm də su olması baxımından Böyükdaş dağının ətəyi ola bilərdi. Bizim Qobustanda apardığımız tədqiqat və müşahidələrimiz də göstərir ki, romalılar tərəfindən bu kitabə yazıldığı vaxt, ümumən antik dövrdə Böyükdaş dağının cənub və şərq tərəfinin cənub hissəsində qaynar həyat olmuşdur. Nəzərə alsaq ki, o vaxt Böyükdaş dağı yuxarı səki sahəsindəki çox sulu bulaq -quyunun (bu quyunun suyu ilin payız, qış və yaz aylarında daşıb öz-özünə axır) suyu əl ilə yonulub düzəldilmiş daş arxla dağın cənub ətəyinə axıdılmışdır, buradakı qaynar həyatın həcmini təsəvvür etmək olar,

Daha bir qeyd. İ. M. Cəfərzadə 16 №-li daşın üzərində kitabədən 4 və 8 metr qərbə olmaqla 2 ədəd sadə qazılmış xaçvari (üstəgəl işarəsi kimi) işarə qeydə almışdır. Biz hesab edirik ki, bu iki işarə əsl mənasında xristianlıqla bağlı deyil (belə hesab edəklər olub), çünki, əvvələn kitabə ilə işarələrin qazılması üsulu və saxlanma vəziyyəti uyğun deyil, bir də ki, Böyük Qobustan ərazisindəki 30 illik axtarış və müşahidələrimizə əsasən bu ərazidə ümumiyyətlə, müsəlmanlığa qədər bütpərəstlik və atəşpərəstlik olub, xristianlıq olmayıb.

Hər halda Qobustandakı latın dilli Roma kitabəsi tariximizin bir səhifəsinə işarədir, bu səhifənin doldurulması yeni materiallar və xüsusi tədqiqat tələb edir.

***Ərəb qrafikalı yazılar.*** Qobustanda bir neçə daş və qaya üzərində Ərəb əlifbası ilə yazılar da qeydə alınmışdır. Onlar əsasən bir-iki isimdən və ya nəsli adlardan ibarətdir. Ərəb əlifbası ilə, lakin fars dilində yazılmış bir kitabə bu baxımdan müəyyən əhəmiyyət kəsb edir. O, Yazılıtəpədə 91 №-li daş üzərində qeydə alınmışdır. Kitabə üç sətirdən ibarətdir.

1-ci sətirdə - «İmad», 2-ci sətirdə - İ. M. Cəfərzadənin oxuduğu kimi - «Şaki» (və ya «Şaci»), 3-cü sətirdə - «dua qoftə rəft» yəni - dua etdi getdi yazılmış və dua etdi sözü ilə getdi sözü arasında iri bir çevrə qazılmışdır. İshaq müəllimin bu dairəvi işarəni ibadət duvağı hesab etməsi həqiqətə uyğundur. Yazının dövrü orta əsrlərə - XIII-XIV əsrlərə aid edilir (14-cü tablo, şəkil B).

Qobustanda Kiçikdaş dağı Daşqışlaq sahəsindəki 15 №-li daşın üzərində, maral şəkilləri arasında ərəb əlifbası ilə iki yazı qalığı var. Onlardan biri müəyyən əhəmiyyət kəsb edir. 2 sözdən ibarət olan bu da, yazıda «Məlik Şaci» yazılmışdır. Burada yazı kufi xətlədir. Lakin Nəsx xəttinin elementlərinin olması yazını XIII əsrə aid edir. Bu yazı çox aydın yazılmış və yaxşı saxlanmışdır. Buradakı «Şaci» sözü formaca Yazılıtəpədəki «Şaki» oxunmuş sözlə eynidir. Orada əlifin yuxarı ucu sola əyilib simin başlanğıcı ilə birləşdiyindən «Şaki» kimi oxunmuşdur və bizə görə orada da «Şaki» yox, «Şaci» yazılmışdır, hər iki oxunuşda bu söz isimdən sonra gəlir və çox güman ki, Şaci ya məkani ləqəb, ya da orta əsrlərdə bu regiondakı qəbilələrdən birinin adıdır. Bir sıra daşlarda isə ərəb əlifbası ilə «Bəylər» sözü yazılmışdır. Son əsrlərə aid yazılar əslən Mərəzə - Şamaxı zonasından olan nəslin adıdır və burada həmin nəslin adının tez-tez yazılması son əsrlərdə bu yerlərdə o nəslin qışlalaması ilə əlaqədardır.

Yazılıtəpədə 91 №-li daşdakı yazı isə Yazılıtəpənin pir kimi ibadət yeri olmasının məhsuludur və bu baxımdan İmad Şacinin bu yerə gəlib ibadət etməsi, namaz qılması heç də təəccüblü deyil. Onu da qeyd edək ki, Yazılıtəpədə apardığımız arxeoloji qazıntı nəticəsində aşkar edilmiş XII-XIII əsrlərə aid üçotaqlı dini bina qalığı yazıya qədər artıq burada var idi və yüz illərlə özündən qabaq «müqəddəs yerdə» yaranmış pir üçün inşa edilmişdi.

***Qobustanda pirlər.*** Qobustanın qədim qayaüstü təsvirlərinin sonrakı tarixi dövrlərdə ilahi qüvvə tərəfindən yaradıldığının güman edilməsi bu yerlərdə pirlərin yaranmasına, qayalarda mehrablar yonulmasına, qazılmış ayaq izlərinin müqəddəslərin ayaq izləri sayılması və s. kimi inamlara səbəb olmuşdur. Ümumiyyətlə, Böyük Qobustan ərazisində pirlər çoxdur. Onlardan bütpərəstlik və atəşpərəstlik dövrlərinin pirləri demək olar ki, tamamilə yaddan çıxmışdır. Bununla belə qayalar üzərində saxlanmış göy cisimlərinin şəkillərinin olması, qədim şəkillərin çoxunun totemizmlə əlaqəli olması, Kərkəz, Şonqar, Turaqay, Kənizə, Cingir baba kimi müəyyən etiqadlarla bağlı dağ adlarının saxlanması bu ərazidə vaxtilə pirlər şəbəkəsinin çoxluğunu göstərir. Onlardan bir qismi (İshaq müəllimin

arxiv yazılarında adı çəkilən «Cingir baba», «Sarı baba», «Huri qızlar» «Şıxı qaya» kimi, görünür, müsəlmançılıqdan qabaqkı dövrlərin dini görüşlərinə uyğun pirlər) artıq yaddan çıxır. Bəli, həyat zamanın gərdişinə uyğun neçə də tez və amansız dəyişir. 1950-ci illərdə Qobustan qışlaqlarının sahiblərinin hamısının bilib tanıdığı bu pirlərin yerini göstərə biləcək adam tapmaq indi gec də çətindir.

Pir dedikdə əslində inam, ibarət yeri düşünülür. Bəli, pirə inama, etiqada görə gəlir, ibadət edirlər. Biz azərbaycanlılarda belə bir inam yerinə ocaq da deyilir (Bittili ocağı, Hacı Əfəndinin ocağı və s). Bizə elə gəlir ki, ocaq inamı, ocağa səcdə də pirə səcdənin anonimidir və bu adla inam daha güclüdür. «Ocaq haqqı» ən inandırıcı andı, «ocağı söndü» ən dəhşətli faciəni, ən qəddar qarğışı ifadə edir. Əlbəttə, inamla əlaqədar, ümumən pirlər, ocaq, od, günəş, ay, su, çörək və s. inam obyektləri haqda çox danışmaq odardı! Lakin bu bizim məqsədimizdən genişdir. Biz Qobustan ərazisində qayaüstü təsvirlərdən əlavə başqa abidələr haqda, eləcə də bir qədər də pirlər haqda məlumat da kifayətlənməliyik.

Qobustanda formasını və funksiyasını saxlamış pirlər əslində müsəlmançılıq dövründə yaranmış pirlərdir («Qara atlı», «Sofu Həmid», «Sofu Novruz» və s.).

***Qara atlı piri.*** Kiçikdaş dağ massivinin cənub qurtaracağında, kiçik təpə üstündəki iri qaya parçalarından birinin altında düzəldilmiş pir belə adlanır. Burada nəhəng qaya parçasının altında qayadan yonularaq sənduqə formalı qəbir daşı düzəldilmiş, qaya örtüyü sahəsi açıq tərəflərdə hörülərək qapı asılmaqla pir üçün yarımağara tipli otağa çevrilmişdir. Sənduqənin üstündə və ətrafında zəvvarlar tərəfindən gətirilmiş qab-qacaq qoyulmuş, ip-sap, cır-cındır (parça qırıqları) asılmış, bütün başqa pirlərdəki kimi adi pir səhnəsi yaradılmışdır. Rəvayətə görə, bu sənduqə qeybə çəkilmiş mömin bir ərəb sərkərdəsinin qəbrinin simvoludur.

Bu pirin yaranması buradan bir qədər cənub-şərqdəki «Qara atlı» qəbristanlığındakı at fiquru formalı qəbir daşı (10-cu tablo, şəkil D) ilə əlaqədardır. Bəli, bu qəbristanlıqdakı bir qəbir daşı başsız və ayaqsız olsa da üstündə yəhər və silah növləri olmaqla atın bədəni formasındadır. Yanında isə formaca keçədən qış üçün boğazlı çəkməni andıran yonulmuş bir daş parçası - atın kəsilmiş başı (?) var.

Qara atlı qəbristanlığındakı at fiquru və Qara atlı piri ilə əlaqədar əfsanədə deyilir ki, bu diyarda islam dini yayılan vaxtlarda ərəb missionerləri və qoşun dəstələri ilə «dinsizlər» (atəşpərəst və bütpərəstlər) arasında tez-tez baş verən toqquşmaların birində çox böyük nüfuza malik mömin hərbi rəis dəstəsindən aralı düşüb dinsizlər tərəfindən təqib olunaraq bu yerə - Kiçikdaş dağının cənubuna, indiki Qara atlı qəbristanı olan yerə çatır. Burada görür ki, artıq düşmənlər onu haqlayıb. Odur ki, atından düşüb gizlənmək üçün qayaların arasına qaçır. Düşmənlər ata çatıb, görəndə ki, sahibi yoxdu, atın başını kəsirlər. Sonra yenidən müqəddəs şəxsin dalınca qayalığa cumurlar və indiki pirə çevrilmiş yerdə ona çatdıqda, düşmən əlinə keçməmək üçün o qeybə çəkilir, görünməz olur. Elə həmin anda da atının başı kəsilmiş cəsədi daşa dönür.

Qara atlı qəbiristanındakı at fiquru Azərbaycanın bir sıra cənub rayonlarında orta əsrlər dövrü üçün məlum qoç, qoyun, at fiqurlarından biridir.

Qara atlı xalq arasında uzun sürən pis xəstəliklərdən azad olma piri sayılırdı. İndi də işlərinin düzəlməsi, xəstəlikdən azad olması üçün bu pirə nəzir deyən və ibadətə gələnlər çoxdur. Pirin içərisində uşağı olmayan qadınlar tərəfindən nənni (yüyürük) asılmasına da təsadüf olunur.

***Sofi Həmid piri.*** Səngəçal karvansarasından Qaraçı karvansarasına, Şıxqayaya, oradan da qərbə - Şamaxıya gedən qədim karvan yolunun üstündə, Miyəcik deyilən yerə çatmamış, yolun solunda, hündür təpənin dibində, düzdəki qəbristanlıqda Sofu Həmid adlı müqəddəs bir qocanın qəbridir. Qəbrin üstündə ağ daşdan, çöldən kub şəkilli, üstündə 8 tərəfli gümbəzə malik məqbərə tikilib. Məqbərənin ətrafı dördbucaqlı olaraq hasara alınmışdır. Məqbərənin içində, girişdən sağ tərəfdə Sofu Həmidin qəbirüstü tikilisidir. İshaq müəllim 1940-cı ildə bu qəbir qutusunu necə gördüyünü belə təsvir edirdi: üstü 2 kv metrə qədər, hündürlüyü 80 sm olan dördbucaqlıdır. Üstündə, görünür ziyarətçilərin uzun müddət əl vurub toxunmasından tam şumallaşmış 2-3 ədəd tünd rəngli çay daşı var idi. Bu daşların yanında isə köhnə bir saxsı cam vardı. Onun içinə yarıya qədər su tökülmüşdü. Bu su pirin həyətindən götürülmüş torpağın onda əridildiyindən bulanıq olurdu. Torpaq suya qabın yanına qoyulmuş ağac qaşıqla qatılardı. Sənduqənin üstündəki dəmir çubuğa isə pirə gələnlərin paltarlarından əsgilər, qadın saçı və s. bağlanmışdı. Bir yanda ağac çərçivədə köhnə, parıltısını itirmiş güzgü qoyulmuş, bir küncdə isə uşaq üçün simvolik nənni asılmışdı. Qapının girəcəyində isə yerə çoxlu dəmir mıx çalınmışdı. İshaq müəllimin dediyinə görə elə o vaxt Şamaxı rayonundan Şıxlar qəbiləsindən olan iki nəfər oradaca ona danışıb ki, Sofu Həmid piri əsasən ilan vuran adamlara onun zəhərindən qurtarmaq üçün kömək edir və odur ki, ona «İlan piri» də deyilir.

Sofu Həmid piri haqda rəvayətə görə Sofu Həmid 450 il bundan qabaq Abşeronda, Pirşağı kəndində yaşayırmış və oranın şeyxlərinin qohumu imiş. Rəvayətlərin hamısının əsasını belə bir süjet təşkil edir ki, mömin allah bəndəsi Sofu Həmid qoca vaxtı oğlanlarına vəsiyyət edir ki, öləndə onu dəvəsinin üstünə sarıyıb buraxsınlar, dəvə harda yatsa orada da dəfn etsinlər (onun varı-dövləti bir ağ dəvəsi varmış). Odur ki, Sofu Həmid öləndə oğlanları onun vəsiyyətinə əməl edirlər, ölüsünü dəvənin üstünə sarıyıb buraxırlar. Ağ dəvə baş alıb gedir və gəlib Qobustana çıxır, indi pirdəki qəbir daşının yerində yatır. Sofu Həmidi düşürüb oradaca dəfn edirlər, dəvə isə daşa dönür.

Sofu Həmid pirinin əslində ilan piri olması haqda Vladimir Bezmenovun Qafqazın tarixi və arxeologiyası cəmiyyətinin xəbərlərinin I cildindəki Şirvan haqdakı məqaləsindən: Sofu Həmidin qəbri və onun ətrafındakı torpaq zəhərli ilan və həşəratların sancmalarının öldürücü nəticələrini yox etmək kimi qəribə xüsusiyyətə malikdir. Misal üçün - bu torpaqla zəhərli ilanın dişi dəyişmiş yeri sürtmək, bədənə iynə ilə olduğu kimi yeridilmiş zəhərin təsirini azaldır. Bu yerə

sürünüb gəlmiş ilan zəhər vermək iqtidarını itirir. Qobustanda eləcə də Şirvanda hər ehtimala qarşı şəfaverici vasitə kimi bu torpaqdan bir çimdik dəsmalın ucuna bağlayıb özləri ilə gəzdirirlər.

Məqalədə belə bir məlumat da verilir ki, Mərhum Mir-Mühəmməd Şirazı tərəfindən tərtib edilmiş Karabazinin (padzəhr çarə) və ya “Mahzen-ül-ədviyyat” (Dərmanlar mağazası, yəni aptek) kitabının torpağın xassəsi fəslində belə yazılmışdı: «Sofu Həmid Kabıstanskinin torpağı güclü tirilkiyat (zəhərkəsici) cümləsindəndir və vaxtında həm sürtmək, həm də su ilə udmaqla işlədilərsə ən qorxulu ilan növünün zəhərini təsirsizləşdirir və ona görə də onların sancmasından xilasedici vasitə kimi məsləhət bilinir.

Əlbəttə, vaxtilə xalq arasında yayılmış və hətta V. Bezmenov tərəfindən qələmə alınmış, torpağın sürtülüb və ya əridilib içilməsinin ilan zəhəri üçün şəfa verəcəyinin heç bir elmi-tibbi əsası yoxdur, bu, ümumi dini etiqad inamına əsaslanır. Söz yox, Sofu Həmid piri torpağının neçə ilan vuranı xilas etməsi haqda məlumat yoxdur. Lakin belə bir şərti məlumat da var ki, bu üsullarla ilan vurmuş (sancmış) adam bu yerə çox tez çatdırılmalıdır (görünür, nə vaxtsa ilan vurmuş adamın aqibəti pis qurtarmış və səbəbi onun pirə gec çatdırılması ilə izah olunmuşdur).

Sofu Həmid babanın ağ dəvəsinə gəldikdə deməliyəm ki, indi doğrudan da pirin həyətində, Sofu Həmidin sərdabəsinin qabağında bir neçə metrlikdə, ağ daşdan, təbii böyüklükdə, dizlərini qatlayıb yatmış dəvə heykəli var. İshaq müəllim bu dəvə heykəlinin faşizmə qarşı 1941-1945-ci illər müharibəsi vaxtı Mədəniyyət Nazirliyi tərəfindən Sofu Həmid piri yanındakı «Ovdana» gözətçi qoyulmuş, eyni zamanda pirə qulluq edən Baba Gözəl adlı bir nəfərin sifarişilə Şamaxı rayonunun Sündi kəndi sakinləri tərəfindən düzəldildiyini söyləmişdi. 1966-cı ildə mən özüm, t.e.n. F. M. Muradova ilə Şamaxı zonasına daşlar üzərində işarə və damğaları toplamaq üçün arxeoloji səfərdə olarkən Sündi kəndində olduq və bu məsələ ilə maraqlandıq. Orada Bizə Sofu Həmid pirindəki ağ dəvə heykəlini doğrudan da Sündi kəndinin sakini Nemətov Balanemətin düzəltdiyini söylədilər.

***Sofu Novruz piri.*** Bu pir adi qəbiristanlıqla kiçik, dördbucaqlı məqbərə içində, deyilənə görə, Sofu Novruz adlı mömin və müqəddəs bir şəxsin qəbridir. Sofu Novruz piri (və Sofu Novruz qəbiristanlığı Qobustan qəsəbəsindən Umbakı yolu ilə, sonra köhnə torpaq yolla qərbə, Qaynarça deyilən (25 km məsafədə) yerdən keçərək Ərəbqədim və Mərəzəyə gedən yolla 50 km məsafədə, kiçik dağın cənub ətəyindədir. Burada yol çox böyük bir qəbiristanlığı iki hissəyə ayırır. Sağda, dağa tərəf şimal hissədə qəbirlər təzədir, hətta indi də Mərəzə (Qobustan) rayonu kəndlərindən, bəzən elə Qaradağ-Ələt zonasından da vəsiyyətə əsasən ölüləri burada dəfn edirlər. Qəbiristanlığın çox geniş sahəsində, yolun sol hissəsində qəbirlərin hamısı qədimdir. Bu hissədə zəmanəmizdə gözümüz öyrəndiyi formada və yazısı olan bir dənə də qəbir yoxdu. Qəbirlərin hamısında başdaşıları adi, qəbirətrafı daşlardan az seçilən, çox iri olmayan yonulmamış

daşlardandır. Lakin onların çoxunun üzərində müxtəlif) formalı işarə və damğalar qazılmışdır. Onların çoxu Qobustan qoruğu ərazisindəki Böyükdaş, Kiçikdaş və Cingirdağ sahəsinin qayaları və yaxın ərazilərdəki son əsrlərin qəbir daşları üzərində qeydə alınmış işarə və damğalardan fərqlidir. Bizə görə, Sofu Novruz qəbiristanlığındakı işarə və damğalar Qobustan zonasında yazı mədəniyyətindən qabaqkı dövrlərin məhsuludur və orta əsrlərin ilk çağlarına, bəlkə də daha qədim tarixi zamanlara aiddir. Qəbiristanlığın bu hissəsində, eləcə də pir ətrafındakı hissədən dağın zirvəsinə tərəf döşündə bir neçə çox böyük, 10 metrlərlə diametrə malik və nisbətən kiçik diametrli, əsasən dairəvi planda, yonulmamış iri daşlardan, qədim kromlexlər tipli hörgü qalıqları var.

Bu sahənin Qobustan qoruğu və Qobustan qəsəbəsindən uzaqlığı, lazımi nəqliyyat vasitəsinin və fəhlə qüvvəsinnn olmaması üzündən bu abidələrdə yoxlama qazıntısı belə apara bilməmişik. Lakin müşahidələrə əsasən deyə bilərəm ki, bu divar qalıqları Böyükdaşda eramızdan əvvəlki III minilliyin sonuna aid «Dairə» yaşayış yeri və Qaynarça kromlexləri tipindədir. Bu tip abidələr Böyük Qobustanın qərb sərhədləri daxilində «Qoçbulaq» deyilən Qoşabulağın ətrafında da çoxdur. Güman edirik ki, onların arxeoloji qazıntılarla tədqiqi Qobustanın ilk Tunc dövründən sonrakı az məlum olan tarixi-mədəni irsi haqda material verəcəkdir.

## QOBUSTAN ABİDƏLƏRİNƏ BƏZİ MÜNASİBƏTLƏR HAQQINDA

Həyat aksiomalarından biri odur ki, insan dünyaya bir dəfə gəlir və bir dəfə də ölür. Lakin bir ölməzlik, yəni insanın cismani olaraq ölməsi, ruhunun isə mütləq və əbədi yaşaması ideyası da var. Bu ideya bütün dinlər tərəfindən qəbul edilir, inanılır. İnsamları pis işlərdən çəkinməyə, dəyərli, xeyirli işləri isə sevməyə, qürurlu olmağa səsləyir. Bu yaxşıdır. Lakin doğrudanmı insan ölәndən sonra onun ruhu yaşayır, gəzir, görür?

Biz yuxarıda, qədim Qobustana səyahət edərkən, ulu bir nənənin ruhu ilə «danışdıq», Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqat işləri nəticəsində Qobustanın keçmişi haqda bizdə yaranan təsəvvürləri onun dili ilə söylədik.

Bizim çıxardığımız nəticələr doğru, həqiqətə uyğundursa, ulu nənənin «dili ilə» dediklərimiz tam olmasa da o dövrün həyat tərzini ümumən az-çox düzgün əks etdirirsə, deməli o nənənin də, onunla tayadan bizə baxan qədim şəkillərdəki babaların da ruhunu sezindirmiş, onları ölməz etmiş oluruq. Biz əminik ki, o dövrdə qədim qobustanlılar yalan, fırıldaq bilməyib, heç yalana, əyriliyə ehtiyacları da olmayıb, məqsədlərini, deyək ki, kitab yazıb səhifə doldurmaq, ad, dərəcə almaq, yüksək vəzifə tutmaq üçün əyrilik, satqınlıq etməkdən uzaq olub, düzlük, doğruluq, halal əmək seviblər. Başqasının tikəsini ələ keçirmək üçün onun üstünə tüpürüb sahibini iyrəndirmək, başqasının yaxşı işini öz adına çıxmaq və s. kimi, zəmanəmizdə rast gəldiyimiz yaramazlıqları ağıllarına da gətirməyiblər, Onların ruhu həqiqətlərdə, insanlıqda, nağıllarda, atalar sözlərində, qəlblərdə, istəklərdə

yaşayır, xalq tərəfindən yaşadılır. Onlar doğrudan da ölməzdirlər və doğruçu, zəhmətkeş, tamahsız, geniş ürəkli və s kimi insani sifətli nəvə-nəticələrinin simasında yaşayırlar.

Bu yozumlar üçün biz tələsməmişik. Bunun üçün 30 il ərzində Qobustanda onlarca abidədə qazıntı aparmışıq, eyni bir qaya üzərindəki qədim şəkil və səhnələrə dəfələrlə tamaşa etmiş, düşünmüşük. Biri birinə zidd çıxan nəticələr və dəlillərin həyatiliyi haqda düşünmüş, çalışmışıq ki, olub keçmişləri təsəvvürümüzdə tələsik, şəxsi istəyimiz baxımından yox, tarixi dövrün tələbinə uyğun, həyatiliyi nöqteyi-nəzərdən canlandıraq.

* * *

Qədim qayaüstü təsvirlər dünyada müxtəlif regionlarda, tarixin müxtəlif mərhələlərində yaranmış və qədim tarixin şahidləri kimi saxlanmışdır. Biz qeyd etmişdik ki, qayaüstü təsvirlərin meydana gəlməsi həyat, həyati zərurətlə, insanın tarixi dövrlər ərzində dünyəvi görüşləri və təsərrüfat həyatı ilə bağlı olmuşdur. Bəli, bu, qayaüstü təsvirlərin yaradılması məqsədinə ümumi yanaşmadır. Lakin onun bilavasitə nə məqsəd güdməsinin izahında fikir ayrılıqları, müxtəlif izahlar mövcuddur. Bu müxtəliflik özünü qayaüstü təsvirlərin niyə bəzən, deyək ki, 2000-2500 metr yüksəklikdə, ibtidai adamlar üçün çıxılması çətin olan yerlərdə, yaşayış düşərgələrindən çox-çox uzaqlarda, mağaraların qaranlıq zallarında, qayaların əlçatmaz hündür sahələrində, dar, keçilməz aralarında çəkilməsinin izahında özünü göstərir. Bunlarla yanaşı bizim Qobustanımızda qədim qayaüstü təsvirlər qədim insan düşərgələri daşaltı sığınacaqların divarlarında, düşərgə ətrafında, heç bir çətinlik çəkmədən yaxınlaşması mümkün olan daşlar üzərində, hətta ocaq qırağındakı kiçik daşlar üzərində də çəkilmişdir.

Bütün bunlara görə qayaüstü təsvirlərin meydanagəlmə, çəkilmə səbəbləri hələ də çox tədqiqatlar tələb edir.

Qədim qayaüstü təsvirlərin varlığı bizə ümumən məlumdur. Onların minillər bundan qabaq yarandıqlarını bilirik. Təsəvvür edək ki, bu biliklərimiz böyük bir dağ massivinin yaxınlığında durub 5-10 km məsafədən görünən dağın yaşıl görünməsi səbəbinin meşə ilə örtülü olmasını bilməyimizə bərabərdir. Qədim qayaüstü təsvirlər kolleksiyasındakı şəkil və səhnələrin ayrı-ayrılıqda nə üçün çəkildiyi, nə demək olduğunu bilmək isə, bu baxımdan, uzaq məsafədən o meşədə hansı ağacların bitdiyini, ayrı-ayrılıqda görüb seçməyə bərabərdir. Əlbəttə, qeyd etdiyimiz kimi əgər bu niyələri öz bildiyi, düşündüyü, bacardığı kimi izah edənlərin fikirlərini birbaşa filan alim belə deyibsə onu sən də öz süzgəcindən keçirmədən, olduğu kimi ya qəbul edir, ya da əks cərəyanla həmrəy olub inkar edirsənsə qədim qayaüstü təsvirlərin yaranma səbəbləri haqda izahının ən çox yayılmışı, ovsunçuluqla bağlıdır. Başqa qrup alimlərin konsepsiyasına, görə ovsunçuluq qayaüstü təsvirlərin nə meydana gəlməsinə, nə də rəssamlığın və nəqqaşlığın inkişafına səbəb olmamışdır. Onlara görə qayaüstü təsvirlər heç bir mistik və dini oyanmalar nəticəsi deyil, insanların təbiətən təsviri sənətə meyilli

olmasının, həyatla bağlı, həyati görüşlərinin nəticəsidir. Biz də sonuncu konsepsiya ilə razılaşırıq.

Uşaqlıqda hər kəs, əli bir təhər qələm tutan uşaq da ilk əvvəl qələmini cızma-qara şəkillər çəkməyə yönəldir, çəkdiyi eybəcər şəkillərdə anasını, atasını, özünü, bacı və qardaşını görür. Quş çəkir, heyvan çəkir, meyvə ağacı çəkir... dairədən şüa saçan günəş təsvir edir və s. Mən özüm də, əminəm ki, oxucuların da 100% olmasa da 99 faizi, hərf öyrənməzdən qabaq belə şəkillər çəkmişik. Əlbəttə, 5-6 yaşlı uşağın bu kimi əyri-düz çəkdiyi rəsmləri ovsun və ya dinlə bağlamaq ağıla sığan deyil.

Qayaüstü təsvirlərlə yanaşı qədim insanlardan yadigar qalmış abidələr sırasında daşdan, gildən metaldan və s. hazırlanmış kiçik fiqurlar, modellər, heykəlciklər kimi qədim incəsənət abidələri də diqqəti cəlb edir. Bunların da yaranma səbəbləri və izahı çox vaxt eyni ilə qayaüstü təsvirlərə olan fikirlərə uyğunlaşdırılır, makiya (ovsun) ilə bağlanır. Makiya tərəfdarları qədim insanların demək olar ki, bütöv hərəkət və əməllərini ovçuluqla bağlı ovsunçuluq hərəkəti hesab etməklə, necə deyərlər, məsələni birbaşa, zəhmətsiz «həll etmiş» olurlar. İnandırıcı olmaq üçün ovsunçuluğun təbliğ etdiyi şəksiz inamdan da istifadə edirlər.

Ovsunçuluq insanların sonradan, həyat şəraitinin ağırlaşması nəticəsində axtardığı çıxış, yaratdığı istəkdir. Ov obyektinin istənilən qədər çox olduğu bolluq şəraitində ov heyvanını ovsunlamaq ovçuların ağlına çətin ki, kələydi. Bir də qayaüstü təsvirlərin çoxunun məzmunu etibarilə, nə ovsunçuluq, nə də totem kimi yaranmasını iddia etmək çətindir (yırtıcının ot yeyən heyvana hücumu, gəminin burnunda günəş şəkli çəkmək, öküzün tələyə düşməsi və s. səhnələr).

Mən nə qayaüstü təsvirlər, nə də plastik abidələr haqda deyilənlərin ucdantutma hamısını inkar etmək fikirində deyiləm. Demirəm ki, qayaüstü və ya plastik abidələrin heç biri dinləmi, ovsunçuluqlamı, rəvayətlərin kökü iləmi bağlı ola bilməz. İstəyirəm ki, oxucular da və sözsüz ki mənim bu fikirlərimə qarşı nizə çevirəcək həmkarlarım da mənim dediklərimi deyilənlərə qarşı şəkk sayaraq götür-qoy etsinlər, məntiqi cəhətdən mümkünlüyünə fikir versinlər. Mənə görə, hər deyilənin düzlüyünə kor-koranə inanmaq, şəksiz inanmaq fanatikliyə gətirib çıxarır. Mən elmdə fanatizmi görmək istəmirəm. Elmdə məntiq tərəfdarıyam. Əlbəttə, min-min illər bundan qabaqkı hər hansı bir abidəni yaratmış insanın hər abidə üçün ayrılıqda nə düşündüyünü olduğu kimi tapmaq, yozmaq çox çətindir. Lakin bunun üçün baş çatladıb fikir demək (qədim adamın fikrini «oxumaq») lazımdır. Bu elmdir və o vaxt əsl elmdir ki, izahı məntiqi, inandırıcı, həyati olsun. Söylədiyi fikirləri əks fikir və şəklərdən qoruya bilsin.

Mən hesab edirəm ki, tədqiqatçı bir abidənin dövrü, yaranma səbəbi və mənası haqda fikir söyləmək üçün (özü də yeni fikir) oxşar abidələr haqda söylənmişlərlə yanaşı deyəcəyi fikrin həyatiliyini də öyrənməli, bu fikrin doğruluğuna özü əmin olmalıdır.

Yuxarıda, Qobustan qayalarındakı qədim kişi təsvirlərindən söz açanda göstərmişdik ki, başı sıxıntıvari verilmiş, qamətli, qıçı dizdən aşağısı qabarıq əzələli, çiyinlərində kaman, əllərində ox, belləri kəmərçinli kişi təsvirlərinə yalnız Böyükdaş dağının yuxarı səki sahəsinin daşları üzərində rast gəlinir. Bu tip insan təsvirləri Yazılıtəpədə, Kiçikdaşda, eləcə də Böyükdaşın aşağı səki sahəsində yoxdur. Yazılıtəpədə bu tip kişi təsvirlərinin olmaması sözsüz ki, buradakı kolleksiyanın onlardan çox cavan olması ilə əlaqədərdir. Bəs Kiçikdaşda bu tip kişi şəkilləri niyə yoxdu? Orada onlardan daha qədim də cavan da şəkillər var. Bu da bir yana, elə Böyükdaş dağının özündə, onun yuxarı hissəsi üçün bu tip kişi təsvirlərinin səciyyəvi olduğu halda, onlardan 300-400 metr alçaqda, dağın ətəyində (aşağı səki kimi qeydə alınmış hissəsində), minlərlə qədim şəkillər arasında onlar yoxdur. Çox maraqlıdır, deyilmi? Bu sualın niyəsinə mən hələlik cavab verə bilmərəm. Çox maraqlı və qəribə vəziyyətdir. Bu sualın cavabı xüsusi tədqiqat tələb edir. Mənim isə buna hələlik nə vaxtım, nə də imkanım olmayıb. Əlbəttə, özünü Qobustan rəsmlərinin bilicisi kimi göstərən bəzi «tədqiqatçılar» kimi mən də bu məsələnin izahı ilə əlaqədər bir fikir (əyri-düz) söyləyə bilərdim. Bu izah tamam, səhv olsaydı da 30 il Qobustanda tədqiqat aparan adam olduğumdan hamı ona inanardı. Lakin əgər deyəcəyim fikrin həyatiliyinə mənim özümdə tam inam yaranmayıbsa tələsmək nəyə gərək? Mən belə edə bilmərəm.

Qobustan abidələri Azərbaycan xalqının keçmişi, adət-ənənələri, qədim mədəniyyəti və incəsənətinin köklərini, Şərqi Azərbaycanda keçmişin heyvanat aləmini, bitki örtüyünü, bu ərazidə geoloji və coğrafi dəyişiklikləri öyrənmək üçün gözəl mənbə, dilsiz məxəzdir. Bu (mənbədən istifadə etmək, bu məxəzi dindirmək üçün Qobustan qayaları üzərindəki qədim şəkilləri oxumaq lazımdır. Ona görə də bu daş kitablar tək alimləri, tarixçi arxeoloqları deyil, hamını maraqlandırır. Nəinki respublikamızda, ondan xaricdə də Qobustanla maraqlananların sayı çoxalır.

Son illər Qobustan abidələri və onların tədqiqinə aid tədqiqatçılarla yanaşı mətbuat səhifələrində, eləcə də elmi, elmi-publisistik ədəbiyyatda da tarixçilərin, sənətşünasların, jurnalistlərin və həvəskarların Qobustan haqqında çoxlu məqalə və yazılarına rast gəlmək olur. Qobustan radio dalğalarında eşidilir, televiziya ekranlarında görünür. Bütün bunlara Qobustan abidələrinə marağın, ona hörmətin, ona verilən qiymətin təzahürü kimi baxmaq lazımdır.

Bu, əslində çox yaxşıdır ki, xalqımızın kimliyi, kökü haqqında tariximizin daş səlnaməsinə diqqət bu qədər artıqdır. Lakin Qobustana, onun qayaüstü təsvirlərinin izahına həsr edilən yazılarda bəzən səhvlərə, qeyri-həyati izahlara da təsadüf olunur. Əlbəttə, neçə minillik tarixə malik abidələrin sirlərini yozarkən hər şeyi olduğu kimi görmək, heç bir səhvə yol verməmək mümkün deyil. Lakin səhv də var səhv də. Səhv var səndən, sənin izah etmə imkanından kənar məlumata aid olsun, səhv də var heç özünə əziyyət vermədən, axtarmadan, götür-qoy etmədən ağlına necə gəldi elə də yazıb səhv edəsən. Dözülməz odur ki bəzi məqalələr elə məqalə yazmaq xatirinə yazılır, Qobustan haqda eşitsə də onun haqqında

mütəxəssis, tədqiqatçı axtarmadan, Qobustanın bilmədən, öyrənmədən yazılır. Qobustan şəkillərinin izahı və tarixi həyati faktların ziddinə olsa da müəllifin istəyi baxımından şərh edilir, saxtalaşdırılır, əfsanəyə çevrilir. Bizə görə qələmə alınan vaxt üçün hər hansı bir izahda buraxılmış səhvi görməmək imkan xaricində olubsa o əslində səhv deyil, açılmamış sirri yada salmaqdır. Bir də var əlində imkan, məlumat ola-ola, həyati məntiqilikdən istifadə etmədən, özünə əziyyət vermədən, araşdırmalar aparmadan edilən səhvlər, bu dözülməz və zərərlidir.

Birinci hal üçün. İ. M. Cəfərzadənin əsərlərində iddia edilir ki, ölçücə iri, təbii ölçülü və ya bu ölçüyə yaxın insan və heyvan şəkilləri daha qədimdir. Onun ilk əsərlərində ən qədim təsvirlərin tarixi də xeyli cavan verilir və neolitdən qabağa hesab olunmur. Bizim Qobustanda apardığımız arxeoloji qazıntılar isə göstərir ki, şəkillərin daha qədim, ya gec olmağı üçün onların ölçüsü şərt deyil və Qobustanda həyat Neolitdən çox-çox qabaq, orta Daş dövrünün əvvəllərindən, (son illərin tədqiqatlarına görə isə bəlkə, də üst Paleolitdən) başlayır. Mən bu haqda İshaq müəllimin («Qobustan». Bakı, Elm, 1973) kitabına yazdığım rəydə demişəm. Lakin oradaca göstərirəm ki, bu «səhvlər» İshaq müəllimin səhvləri sayılmamalıdır. Çünki, o vaxtlar o öz fikirlərini ümumi ədəbiyyat və mülahizələr əsasında söyləmişdi. Onun əlində bizim apardığımız geniş arxeoloji qazıntıların verdiyi nəticələr yox idi.

İkinci hal-üçün. 1992-ci ildə İncəsənət İnstitutunun hazırladığı «Azərbaycan incəsənəti» kitabı çapdan çıxıb. Sözsüz ki, burada Qobustana yer verilməsi lazım idi və adi haldır. . , , '

Kitabın 15-ci səhifəsində «Kromlexlər» bəhsindən söhbət gedir. Göstərilir ki, «Qobustanın, Böyükdaş adlanan hissəsində (?) qayalıqların ətəyində, nisbətən düzənlik sahədə belə bir abidə var, diametri 21 metrdir, mərkəzində də tək daş var, ətrafına isə çevrə şəklində daşlar qoyulmuşdur». Sonra qeyd olunur ki, «hələlik bu abidənin daxilində və ətrafında arxeoloji qazıntı aparılmadığından onun haqqında ətraflı danışmaq mümkün deyil».

Nə deyim? Mənim Qobustanda, xüsusən də Böyükdaş dağında başına dəfələrlə dolanmadığım daş yoxdu. Lakin diametri 21 metr və ortasında tək daş dayanmış, kromlex tipli abidə tanımıram. Qobustanda Böyükdaşda da Kiçikdaşda da hörgü ilə hasarlanmış sahələr çoxdur, qədimləri də, cavanları da var. Lakin onlar çəpər, xalxal tipli hasarlardır, hörgüləri də yerin üstündə aydın görünür. Onların heç biri arxeoloji ədəbiyyatda kromlex adlanan abidələrdən deyil. Kromlex adətən qəbir ətrafı və dini yerlərin ətrafında dairəvi daş düzümləri kimi səslənir. Qobustanda arxeoloji qazıntılarla tədqiq etdiyimiz 30-dan çox kurqan qəbirlərin, demək olar ki, hamısı kurqanların -iri-xırdalığından asılı olaraq 5-dən 10-12 metrə qədər diametri olan kromlexlə - dairəvi daş düzümü ilə əhatə olunmuşdur (2-ci tablo, şəkil B). Kromlex tipli, çox iri diametrli dairəvi daş düzümlərindən ibarət abidələr Qobustanın içərilərində, Qaynarça deyilən yerdə (Böyükdaşdan 25 km qərbə), Sofu Novruz piri yanında və Qoçbulaq ətrafında da var. Bəli, Böyükdaş

dağının şimal-şərq ətəyində, düzdə də kromlex formalı bir abidə var. Əslində «Azərbaycan incəsənəti» kitabında, görünür bu abidə nəzərdə tutulur. Lakin «Dairə» yaşayış yeri adlandırdığımız bu abidənin diametri 21 metr yox, bir tərəfdə 45, onu kəsməklə isə 50 metrdir. Bu abidənin ortasında da deyilən kimi, nəzərə çarpacaq xüsusi daş yoxdur. Ən əsası da budur ki, 1969 və 1970-ci illərdə tarix elmləri namizədi F. M. Muradova ilə bu abidənin cənub və şimal sektorlarında geniş arxeoloji qazıntı aparmışıq. Qazıntının nəticələri F. Muradovanın «Qobustan Tunc dövründə» adlı namizədlik dissertasiyasının materiallarının yarısını verib və 1979-cu ildə eyni adlı monoqrafiyada çap olunub.

Oxuculardan üzr istəyirəm, məni maraqlandıran və ən çox narahat edən odur ki, kitabın müəllifləri arasında Qobustan abidələrinin izahına xüsusi kitablar həsr etmiş, məqalələr yazmış, doktorluq dissertasiyasında Qobustan abidələrinə fəsil ayırmış adam, sənətşünaslıq elmləri doktoru N. Rzayev ola-ola belə diqqətsizliyə, faktlara biganəliyə, Qobustana hörmətsizliyə niyə yol verilmişdir? Axı, N. Rzayevdə F. Muradovanın kitabı da var, özü də Qobustanda apardığımız bütün tədqiqatlardan xəbəri də.

Bu sətirləri yazmaqla mən Qobustan haqda qələm çalmağı heç kəsə irad tutmaq fikrində deyiləm. Lakin onda da olmur, necə deyərlər biri bir quyuya bir daş atır, on beşi çəkib çıxara bilmir. Bir də görürsən biri Qobustan haqda yazdığı adi məlumatların içində özündən ad (deyək ki, «Çobanlar zağası») işlədir. Həmin alimin işində getmiş, deyək ki, təsadüfi və ya makinaçı tərəfindən Ovçular zağası əvəzinə «Çobanlar zağası» yazılması nəticəsində buraxılmış bu səhvi başqaları da təkrar edir, kitaba salır. Elə bil Herodotdan və ya Strabondan sitat gətirilir ki, əyri-düzlüyünü yoxlamaq mümkün də deyil. Əlbəttə, səhvdir olub. Bəs mən niyə ağardıram? Çünki yuxarıda dedim səhv də var səhv də. Bir dəfə yay vaxtı şübhəli olduğum bir təsvirdə elementi dəqiqləşdirmək üçün Qobustanda idim. Qobustana gələn çox idi. Qobustan qoruğunun işçiləri gələnlərə ekskursiyalar aparırdılar. Marşrutdan qayıdan bir dəstə mənimlə qarşılaşdı. Ekskursiya aparıcısı mənimlə salamlaşıb qruppaya təqdim etdi: «Uşaqlar, tanış olun sizə dediyim Qobustan abidələrinin tədqiqatçısı Cəfərqulu müəllimdir». Sonra bir tələbəyə üz tutub: «İndi sizin soruşduğunuz zağanın yerini bilərik, Qobustanda nəinki zağaların hətta hər bir daşın yerini bilir, onları tədqiq edir, öyrənir», - dedi. (Məlum oldu ki, tələbələrdən biri tənəzzöhçüdən «Çobanlar zağası»nı soruşub, o isə bilməyib və hesab edib ki, bəlkə mən onu qeydə alsam da hələ ekskursiya marşrutuna daxil etməmişəm). Sonra məndən «Çobanlar zağası»nın yerini soruşdular. Mən fikirləşmədən: «Qobustanda bu adda mağara qeydə alınmayıb» - dedim. Sual verən tələbə qürurla, döşünü irəli verib: «Necə yoxdu, müəllim, kitabda var. Kitab yalan yazmır ki, yəqin siz bilmirsiniz» - deyir. Dəstədə bir canlanma əmələ gəldi, üzlərindən «bu da Qobustanın tədqiqatçısı, onun ən yaxşı bilicisi» istehzası oxundu.

Oxucu mənim vəziyyətimi təsəvvür edər. Deməli, «Çobanlar zağası» sözünü kitaba salan «müəllif» (bəlkə də heç Qobustanda olmayıb və ya elə bu tələbələr kimi cəmi 30 dəqiqə - bir saat, elə bu marşrutda olub) Qobustanı məndən yaxşı bilir... Mənim deməyə sözüm qalmır.

Bəzən Qobustana gələnlər çox olanda və qoruğum inciləri çatışmayanda və ya dəstədə məni tanıyan elm, incəsənət və mədəniyyət işçiləri olub məndən xahiş edəndə və bu kimi hallarda və s. mən özüm də həvəslə ekskursiyalar aparır və açığı, adamlara xidmət etməyimdən ləzzət alıram. Çünki öz tədqiqatlarımın nəticəsini təbliğ etməyə imkan yaranır, həm də belə qruplar adamı diqqətlə dinləyir, bu özü də tədqiqatçı üçün böyük hörmətə çevrilir... nə isə, sözüm onadır ki, bir də görürsən kimsə müxtəlif kitab və mətbuatdan oxuyub eşitdiyi (axı indi Qobustanla maraqlanan, onu oxuyanlar çoxdur) hansısa müəllifin əyri-düz izahı ilə əlaqədar suallar verir. Suallar çox vaxt adi suallar olsa da bəzən kabinet tədqiqatçılarının qeyri-həyati və qeyri-məntiqi izahlarının nəticələrinə əsaslanır. Bu cür suallar bəzən, qısa izah verilmiş ekskursiya mətni əsasında hazırlığa malik ekskursiya aparıcılarını da çaş-baş sala bilir. Belə olduqda Qobustan haqda uydurma izahlar, əsassız tarixlər və s. səhv fikirlər də yayılır ki, bunlar xalqımızın qədim mədəniyyətinə hörmətsizlikdir.

Bir-iki dəlilə müraciət edək. Yuxarıda qeyd etdim ki, Qobustan haqda yazılar çoxdur və getdikcə çoxalır. Onların əksəriyyəti jurnalistlər, qonaqlar, Qobustan haqda yazan ziyalı və tələbələr tərəfindən qələmə alınır. Bu kimi yazılarda gedən səhvlər xırda olur, gözə görünmür, elmi-izahi səhvlər olmur. Bir də var Qobustan abidələrinə elmi izah vermək baxımından yazılar ki, dediyimiz kimi bu sahədəki səhvlərlə razılaşmaq düz deyil. Götürək elə yuxarıda qeyd etdiyimiz «Azərbaycan incəsənəti» kitabını. Orada 20-23-cü səhifələrdə Qobustan qayaüstü təsvirləri haqda bəhs edilir. Bu hissənin hörmətli Nəsir Rzayev tərəfindəm yazıldığına heç bir şübhəmiz yoxdur. Buradakı fikir və yozumlar onun «Əsrlərin səsi» (1974), «Möcüzəli qərinələr» (1984), «Qayalar danışır» (1985), «Əcdadların izi ilə» (1992), ««Зарја искусства Азербајджана» (1993) kimi kitabları və bir sıra məqalələrindəki fikir və yozumların eynidir. N. Rzayevin incəsənətşünas alim kimi Qobustan qayaüstü təsvirlərinə müraciət etməsi, ixtisası baxımından bu abidələr haqda fikir söyləməsi təbiidir və xalqımızın qədim mədəniyyət və incəsənət abidələrinə, Qobustan qayaüstü təsvirlərinə müraciət etməyə onun tam haqqı var. Lakin Qobustana, onun qədim qayaüstü təsvirlərinin izahına həsr edilmiş məqalələr elə məqalə yazmaq xatirinə yazılırsa, bu izahlar müəllifin istəyi ilə tarixi və həyati faktların ziddinə şərh edilirsə, saxtalaşdırılırsa belə izahların müəlliflərinin, lap elə N. Rzayevin özünün də tədqiqatçı adlandırılmağa hüququ qalmır.

Qobustan qayaüstü təsvirləri haqda deyilənlər, söylənən fikir və izahların hamısının əyri-düzlüyündən söhbət açmağa nə ehtiyac var, nə də vaxt və həcm

imkanı. Lakin yuxarıda dediklərimizlə əlaqədar bir neçə məqamları aydınlaşdırmağı lazım bilirəm.

Qobustanda ən qədim şəkillərin bir hissəsini döşləri və baldırları qabarıq verilmiş qadın təsvirləri təşkil edir. Onlarda nəslin davametdiricisi ana təsvir edilir və rəmzi məna daşıyır.

Qobustanın ana rəmzi ifadə edən qadın təsvirlərinin oxşarı daha qədim dövrlərə aid edilən qadın heykəlcikləri Paleolit düşərgələrindən məlumdur. Qədim dövrlərin tədqiqi ilə məşğul olan heç bir alim - arxeoloq bu şəkillərin və heykəlciklərin qadını təsvir etdiyinə şübhə etmir. Qeyd edək ki, Qobustanda «Kənizə» düşərgəsindən arxeoloji qazıntılar zamanı qadın şəkillərinin tam oxşarı olan qadın heykəlcikləri də tapılmışdır.

N. Rzayev doktorluq dissertasiyasının 2-ci fəslində qədim Qobustan şəkillərini incəsənət baxımından izah edərkən yeni bir fikir söyləmək xatirinə Böyükdaş dağı yuxarı səki sahəsində 78 №-li daşdakı qadın təsvirlərini «bələk» («mumiya») şəkli kimi vermiş, az sonra isə «Qobustan» toplusunun 1970-ci il 1-ci nömrəsindəki məqaləsində öz səhvini etiraf etsə də qadın şəkilləri üçün yeni məna axtarmış, onları və bütün insan təsvirlərini heyvan dərisindən düzəldilmiş gizləncəklər hesab etmişdir. O, yuxarıda göstərilən əsərləri və başqa işlərində də bu izahı dönə-dönə təkrar edir. Gəlin Nəsir müəllimin qalın təsvirlərindən düzəltdiyi «gizləncəklərin» mahiyyəti ilə tanış olaq və məntiqi olaraq onların həyatiliyinə fikir verək. N. Rzayev yazır ki, ovlanacaq heyvana yaxınlaşmaq üçün «ovçular içalatı təmizlənmiş heyvan cəmdəklərini günün altında qurudur, sonra cəmdəyin mərkəzinə şaquli vəziyyətdə uzun bir ağac bənd edərək onun da ucuna heyvan başı keçirirmişlər. Qədim ovçu həmin ağacdan yapışıb heyvan cəmdəyini öz qarşısında qalxan kimi tutaraq ov edəcəyi heyvana asanlıqla yaxınlaşır və onu qəfildən oxla vururmuş» («Qayalar danışır», səh. 11).

N. Rzayev öküz təsvirlərinin hədəf, nişangah olduğunu iddia edir (bu fikir başqalarında da var). Deməli, belə çıxır ki, qədim qobustanlılar əsasən öküz ovlayırmışlar, özü də nizə və oxla öküz rəsmi üzərində sərrast atmaq üçün məşq keçir, heyvan, yəni öküz (söhbət öküz ovundan gedir, o bir dəfə də olsa, qədim Qobustanda əsas ov obyekti olmuş nə gurun, nə də ceyranın adını çəkir) ovlayırmışlar. Onlar vəhşi öküz sürüsünə yaxınlaşmaq üçün qurudulmuş öküz cəmdəyinə (müqəvvasına) girir və onlara yaxınlaşıb yaxın məsafədən oxla «öldürücü» zərbə endirirmişlər. Bu və buna oxşar izahların elementlərinə onun, bütün əsərlərində rast gəlinir. O bu fikirlərini xüsusi genişliyi ilə izah edir və ilk baxışda oxucuda belə cəfəngiyatlara inam yaradır.

Gəlin bu fikirləri məntiqin süzgəsindən keçirək. Bizim Qobustanın daşaltı düşərgələrində apardığımız arxeoloji qazıntıların nəticələri göstərir ki, qədim Qobustanda (Mezolit dövrü) əsasən ceyran və gur ovlanmışdır. Bu dövrün sümük qalıqlarının 80%-i «Ana zağada» da heyvanlara, ən qədim düşərgə - Qayaarasında isə 95%-dən çoxu ceyrana aiddir. Qazıntılar zamanı tək-tək öküz sümüklərinə də

rast gəlinmişdir. Lakin onlar əsasən qarışıq təbəqələrdən və sonrakı dövrlərin abidələrindən tapılmışdır. Deməli, öküz qədim Qobustanda heç də əsas ov obyekti olmamışdı. Qobustanda yalnız Böyükdaş dağı yuxarı səki sahəsindəki 45 №-li daşın şimal üzündə yay-oxla (hələ öz izahı və tarixinin dürüstləşdirilməsini gözləyən) öküz ovu səhnəsi var. Lakin N. Rzayev Qobustanda Kiçikdaş dağında 18 №-li daşda da öküzlərin ox və kamanla ovlandığını göstərir («Qayalar danışır», səh. 10).

Qəribədir, Kiçikdaş dağında 18 №-li daşda öküzün ox və kamanla ovlanması haqda məlumatı N. Rzayev görəsən haradan alıb? Axı, Nəsir müəllim əvvələn ümumiyyətlə Qobustanda olmayıb, xüsusən də Kiçikdaşda və 18 №-li daşı görməyib. İkincisi, 18 №-li daşın nə fotosu, nə də estap surəti çıxarılmayıb və heç yerdə də çap olunmayıb. Üçüncüsü də Kiçikdaş dağı 18 №-li daşda öküz şəkilləri var, lakin onlara heç kəs ox atmır... N. Rzayev göstərir ki, Qobustanın bu dövr (Mezolit) böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür. Mən bilmirəm o hansı öküz təsviri üzərində nizə və ya ox izi görüb, özü onu naturada görübmü? Mən 30 ildən çoxdur Qobustan qayaları arasında öküz, təsvirlərinə tamaşa etmişəm, lakin öküz təsvirləri üzərində nizə və ox zərbəsinin yerini görməmişəm.

Görünür savadsız və azsavadlı kəndlilərin bildiyi adi həyat qanunlarını N. Rzayev bilmir. Yəni o bilmir ki, öküzün diri çəkisi 300-400, dərisiz təmiz əti 120-150 kq və daha çox çəkir. Dərisi də üstə qurudulmuş cəsədi daha ağır olar. Bu cür öküz cəmdəyini, elə lap öküzün cəmdəksiz bütöv dərisini belə ovçuya «gizlənsək» kimi gəzdirmək çox çətindir və onun içindən yay-oxdan atəş açmaq da mümkün deyil. Bir də deyək ki, qədim ovçunun öküzün cəmdəyini gəzdirməyə gücü çatdı, öküz sürüsünə yaxınlaşa bildi, gizləncəkdən də çıxıb öküzü oxla vurdu. Yox, heç bir qədim qobustanlı ovçu belə ova getməzdi. O, yaxşı bilirdi ki, ibtidai yay-oxun zərbəsi vəhşi öküzü öldürə bilməz, əksinə, yaralı öküz ovçunu buynuzuna taxar, ayaqlayıb öldürər. Bunu qədim qobustanlılar da yaxşı bilirdi, elə indiki ovçular da bilirlər. İndinin özündə qaban ovuna gedən ovçu heç də qabanla üz-üzə gəldikdə müasir ov tüfəngindən açacağı atəşə tam arxayın olmur. O, atəşdən əvvəl, əgər qaban yaralanıb ona cühum edərsə özünü necə müdafiə edə biləcəyini, hansı daşın üstünə çıxacağı və ya ağacın budağına qalxacağını və ya cığırdan necə kənara atılacağını götür-qoy edir. Çünki az hallarda ov tüfəngindən sərrast atılan güllə qabanın ürəyinə çatıb onun hərəkətini dayandıra bilir...

N. Rzayev alman Bernard Qrjimekin fil, şir, pələng üçün iybilmə qabiliyyətini inkar etməsinə isnad edərək heyvanlarda (yəni Qobustanda da) belə olduğunu, onlar üçün görmə qabiliyyətinin əsas olduğunu göstərir. Aydındır ki, Nəsir müəllim başqasının fikirlərini öz istəyinə uyğunlaşdırmaq yolu ilə belə həyati «kəşflər» edir. O bilməlidir ki, heyvanlarda (itdə və pişikdəki kimi olmasa da) iybilmə var, güclüdür. Körpə buzovlar biri-birindən heç seçilmədiyi halda balası ölmüş inək onların heç birini yaxına, əmməyə buraxmır, yalnız üzərinə öz balasının iyi gələn dərisi salınmış buzovu, özü də şübhə ilə yaxın buraxır. Eləcə də

qoyun sürüsündə əmiş vaxtı yüzlərlə bir boyda, bir rəngdə körpə quzunun içindən qoyun yalnız öz balasını seçib əmizdirir.

Nəsir müəllim Qobustanın qadın şəkillərini Mezolit dövrü ovçularının gizlənəcəkləri, öküz şəkillərinin isə onların atıcılıq məşqi keçirməsi üçün hədəf kimi çəkildiyini iddia edir və öküz şəkillərini Neolit dövrünə aid edir. Belə çıxır ki, Mezolit ovçuları Neolit dövründə çəkilmiş öküz təsvirləri üzərində atıcılıq məşqi keçiblər?

Deyək ki, öküz şəkillərinin hədəf kimi istifadə edilməsi, həqiqətə uyğun olması da, deyilişdə məqsədyönlüdür, ağılabatandır. Bəs ovçuları gizləncəkdə - müqəvvada çəkmək nəyə lazım? Vəhşi heyvanlar qayalardakı şəkillərə baxmırdılar ki? Bir də qadın (eləcə də kişi) təsvirlərində hansı heyvanın dərisindən düzəldilmiş gizləncəklərdir? N. Rzayevin «gizləncəkləri» bir heyvana oxşamalıdır ya yox?

Görünür, N. Rzayev Sibir petroqlifləri içərisində ayı, Afrikada dəvəquşu dərisinə girmiş ovçu şəkillərini (biz onlar haqda fikir söyləməyi lazım bilmirik) görüb və Qobustanda onlara oxşar axtarıb. Lakin onlarda ayı və dəvəquşu öz görünüşündədir. İçərisində ovçu olması isə döş tərəfində oxun ucu (?) sayılan çıxıntı ilə izah edilir.

Böyükdaş dağı yuxarı səki sahəsində 78 №-li daşdakı, tədqiqatçı İ. M. Cəfərzadə tərəfindən şərti olaraq «Yeddi gözəl» adlandırılmış qadın təsvirlərini (4-cü tablo, şəkil A). N. Rzayev heyvan dərisindən gen şalvarlar geymiş, böyük öküz təsvirinə ox atan ovçular sayır. Hesab edir ki, ovçular arxadan görünür və onların yönü öküzə tərəf olduğundan irəlidə ox və kaman tutan əlləri görünmür. Sonra da onların kürəklərindəki alətin kaman olduğu göstərilir («Qobustanın sirləri», 1-ci məqalə, səh. 19). Maraqlıdır, əgər ovçular doğrudan da görünməyən əlləri ilə öküzə öx atırlarsa (axı, ox kamanla atılır) kürəklərindəki kaman nədir?

Buradakı qadın təsvirlərini İ. Cəfərzadə IV-III, öküz təsvirini isə VI minilliyin əvvəllərinə aid edir. N. Rzayev isə bu öküz şəklinin X-VIII minilliklərdə «cızıldığını» göstərir. Deməli, İshaq müəllimin səhvini daha da dərinləşdirir. Axı, buradakı öküz təsviri qadın (Rzayevə görə heyvan dərisindən gen şalvar geymiş və üstündən sarınmış kişi ovçular) şəkillərindən sonra çəkilibdir. Bunu nəinki şəkilin özünə yerində baxmaqla yoxlamaq, elə təsvirə kitabda diqqətlə baxmaqla da müəyyən etmək olur.

Qobustanın qayaüstü təsvirlərinin ən qədim tarixini İ. M. Cəfərzadə ilk məqalələrində eramızdan əvvəlki IV, VI minilliklərə, Ovçular zağasında, öz rəhbərliyi ilə apardığımız qazıntıya əsasən isə VIII minnillikdən qabağa aid etməmişdi (Qobustan, 1973). O bu kitabı hazırlayarkən mənim Ana zağada və IV daşaltı sığınacaqda apardığım qazıntıların nəticələri ilə tanış və mənim elmi rəhbərim idi. O vaxt İshaq müəllim bilirdi ki, mən Qobustanda Mezolit dövrü düşərgələri açmışam və Qobustanda həyatın kökləri VIII minillikdən çox-çox qabaqlara, XII-X minilliklərə gedir. Lakin o bunları öz adından deməyi rəva bilməmişdir. N. Rzayev isə Qobustanın qədim tarixinin Mezolitin əvvəllərindən

başlanmasının mənim zəhmətim nəticəsində aşkarlandığını çox yaxşı bilir. Lakin son əsərlərində yazılarını oxuculara elə təqdim edir ki, guya Qobustan təsvirlərinin tarixinin Mezolit dövrünə - XIII minilliyə qədər dərinləşdirilməsi onun tədqiqatları nəticəsidir. Cəmi bir-iki yerdə adımı çəksə də elə deyir ki, yəni mən də Qobustanda şəkillərin axtarışında iştirak etmişəm, hətta «Qobustan muzeyinin direktoru, arxeoloq C. Rüstəmovun Böyükdaşda tapdığı marala hücum edən şir təsviri oxra ilə boyanmışdır» yazmışdı. Əvvələn, mən özüm o səhnədəki şəkilləri tapmışam demərəm, çünki onu mənə rəhmətlik Araz dayı göstərib, ikincisi, oradakı təsvirlər orxa ilə boyanmayıb, elə rənglə çəkilib.

Yuxarıdakıları deməklə N. Rzayevin Qobustan abidələri haqqında incəsənət baxımından söylədiyi başqa dəyərli fikirlərinin də əleyhinə çıxmaq fikirində deyilik. İrad tutduğumuz və qeyd etmədiyimiz səhvləri isə sözsüz ki, onun Qobustanı yalnız yarımçıq, dəqiqləşdirilməmiş yazılar əsasında, öz istəyi, quraşdırması baxımından yozması nəticəsidir. Belə səhvlər isə Qobustanı şöhrətləndirmək əvəzinə onun başını aşağı edir.

Yeri gəlmişkən Qobustan «mədh» edən başqa bir kitab «İşıq» nəşriyyatının 1974-cü ildə buraxdığı «İnsan, zaman, izlər...» haqqında. Görkəmcə çox gözəl tərtib edilmiş bu kitab əslində Qobustan abidələrinə, xalqımızın qədim mədəniyyətinə hörmətsizlikdir.

Kitabda əsas mətn kimi şair E. Borçalının eyni adlı poeması verilmiş, xalqımızın qədim mədəniyyət və incəsənət abidələri və qədim həyat tərzinin güzgüsü olan Qobustanın qədim qayaüstü təsvirləri poema üçün heç uyğun olmayan illüstrasiya edilmişdir. Bizim E. Borçalının şairlik bacarığına və onun poeması bədiiliyinə sözümüz yoxdu. Lakin tədim babalarımızın əl izinin əsli olan Qobustan təsvirlərinin hər hansı nağıl-poema üçün adi və izahsız şəkillərə çevrilməsi qəbahətdir. Poemada şairin Qobustanı elmi əsaslarla bilmədən mədh etmək və bilmədən sahədə ona verilmiş, sifarişi yerinə yetirmək istəyi Qobustanı nağıla çevirməyə gətirib çıxarmış, xalqımızın qədim mədəniyyət və incəsənət abidələri Məlikməmməd nağılı kimi qələmə verilmişdir. Qobustanda qədim qayaüstü təsvirlərin fotosundan ibarət bu albomda Qobustan rəsmlərinin izahı və tarixi haqqında məlumat yoxdur. Heç bu qədim təsvirlərin fotoşəkilləri üçün şəkilaltı yazılar belə verilməmişdir. Bir də ki, şəkilaltı sözləri kim yazacaqdı? Məsələ burasındadır ki, Qobustan fotoalbomunu o vaxt “Foto nəşriyyat” adlanan «İşıq» nəşriyyatının təşəbbüsü idə Qobustan qoruğu hazırlayırdı. Əmək müqaviləsinə əsasən albom 0,5 ç.v. həcmində mətnlə müşayiət edilməli idi.

Qobustan abidələrini təbliğ edəcək fotoalbomun lazımı səviyyədə çıxması üçün Qobustan qoruğu müqavilədə göstərilən mətni də hazırladı, abidələrin fotosunun çəkilməsi üçün isə bir aydan çox qoruğun əməkdaşları və avtomaşını fotoqraf Y. Şamilovun qulluğuna verildi. Lakin iş başa çatdıqda məlum oldu ki, kitaba nağıl-poema da daxil edilir. Qobustan qoruğu fotoalboma onun

hazırlanması planında nəzərdə tutulmamış nağıl-poemanın daxil edilməsinə, Qobustan təsvirlərinin nağıla çevrilməsinə qəti etiraz etdi.

Etiraz Qobustan təsvirlərinin poemada illustirasiyaya çevrilməsi ilə nəticələndi. Bəs səbəb? Səbəb amirlik dövrünün dostbazlığı, tanışbazlığı, sən mənə, mən sənə prinsipi... Sən demə poema sifariş veriləndə, tanışlıqda qabaqcadan onun qonararı da ödənilibmiş və poema yaradı-yaramadı, heç bir etiraza baxmadan çap olunmalı imiş. Qobustan qoruğu isə əsasən Qobustanın təbliği ilə maraqlandığı üçün yazdığı mətn üçün əmək müqaviləsi ilə nəzərdə tutulmuş qonararı vaxtında tələb etməmiş və almamışdı. Bəli, nəşriyyatın o vaxtkı rəhbərliyi planlaşdırılmış, lakin qonararı verilməmiş mətnin əvəzinə nağıl-poemamı çap etdirdi.

Qeyd edək ki, Qobustan haqda poemanı yazmaq üçün şairin Qobustanla tanışlığı yalnız bizim verdiyimiz kiçik mətndən ibarət olub, vəssalam. Ümumiyyətlə maddi abidələr, arxeoloji tədqiqatlar haqda təsəvvürü olmayan şair onu da nəzmə çəkməkdə çətinlik çəkib. Bizim mətndən götürüb nəzmə çəkməklə işlətdiyi:

«-Buyur-dedi-ocaq başına,
buyur, oturaq, danışaq.
tunc geyimli, qartal gözlü bu qadın

Əmr elədi bir ikidə:
- Kabab çəkin gur ətindən!
Qonağımız da dadsın bir az
dünyanın ləzzətindən?»

bir qədər sonra

«bu gördüyün həqiqət,
yoxsa əfsanə idi?
bəs o biri qayada
o öküzlər nə idi,
o atlılar nə idi?»

kimi ifadələrin mənasını da tam dərk etməyib. Mən əminəm ki, əgər o vaxt şair poemasını Kislovodsk kurortunda fikirləşdiyi fantaziyalar əsasında yox, bircə gün Qobustanda bizi dinlədikdən sonra yazsaydı onun poeması nağıl-poema yox, Qobustanı oxucuya çatdıracaq poema olardı. Görünür, elə buna görədir ki, kitabdakı 80 fotoşəkil heç bir izahını tapmır. Poemaya isə olsa-olsa yalnız rəssam P. Babayevin çəkdiyi 6-7 ədəd fantastik tabloları uyğunlaşdırmaq olar.

Qobustanın dərdləri, müsibətləri çox olub. Onlar haqda sonrakı bölmələrdə də az-çox söhbət açacağıq. Lakin yuxarıda göstərilənlər kimi başdansovdu münasibətlər onun üçün az dərd deyil, dözülməzdir.

Qobustanın qədim qayaüstü təsvirləri ilə əlaqədar yazılar çox olub və olacaq da. Biz onların hamısına münasibət bildirməyi artıq sayırıq. Lakin daha iki yazı haqda söz deməyi vacib hesab edirəm. Ona görə yox ki, kim olsa Qobustan haqda öz, fikrini, izahını, sözünü deyə bilməz, yox, ona görə ki, qoy hamı bilsin, Qobustan cəfəngiyat obyekti deyil və olmamalıdır. Onun nə şişirdilməyə, nə də tarixinin dərinləşdirilməsinə ehtiyacı yoxdu. Qobustan elə Qobustan, xalqımızın qədim mədəniyyəti, mədəni irsimizin kökü, tariximizin güzgücüdür.

1990-cı il noyabr ayının 2-də «Aydınlıq» qəzetində «Qobustan-Qobustan» başlıqlı bir səhifəlik məqalə çap olunub. Məqalədə Qobustan sözünün «qur» və ya «qor» kimi sözlərdən kök götürməsi, günəşlə bağlılıq və s. kimi məsələlər haqda fikir yürüdülür, bəzi cəfəngiyatlar da söylənilir. Əslində bizi bu kimi fikirlər narahat etmədi. Nə olar, adamdır, öz fikrini deyir (özü də mərhum Mirəli Seyidovun fikirlərinə isnadla) qoy desin, mühakiməsini qoy aidi elmi sahələrin alimləri aparsın. Məni isə elmi-arxeoloji dəlillərin şişirdilməsi və yalanı narahat etdi. Belə ki, əvvələn, qəzetdə Qobustan adı ilə çap edilən yeganə şəkil Qobustandan deyil. Müəllif əlinə düşən və haradan olduğunu heç özü də bilmədiyi şəkil Qobustan kimi qəzetə verib.

İkincisi və ən dəhşətlisi odur ki, məqalənin müəllifi (qeyd edək ki, o minlərlə şagird və tələbə kimi də olsa bəlkə heç Qobustanda olmayıb da və məqalədən hiss olunduğu kimi Qobustan haqda heç bir elmi, ya jurnalist məqaləsi belə oxumamışdır) çox inamla Qobustanın tarixinin eramızdan 30-32 min il əvvələ aid olduğunu deyir. Bunu oxuduqda məni dəhşət götürdü. Necə yəni, 25 ildən çox Qobustan düşərgələrində apardığım qazıntılar nəticəsində mən 15 min ildən qədimə aid dəlil tapmamışam, bu məqalənin müəllifi T. Ağazadə isə evində və institutda oturub Qobustanın yaşının 32-34 min olduğunu göstərir.

Doğrusu mən belə məsuliyyətsizliyə dözməyib qəzetin redaksiyasına zəng vurdum. Dəstəyi redaktor özü götürdü. Mən məqalədə Qobustan üçün 32-34 min. illik tarixin göstərilməsinin çox böyük qəbahət olması, aidi olmayan şəklin Qobustan adına çap olunduğunu bildirdim. Hörmətli redaktor mənə mədəni şəkildə, çox düzgün olaraq cavab verdi:

- Cəfərqulu müəllim, biz müəllifin məqaləsini olduğu kimi çap etmişik. Siz deyirsiniz düz deyil, sözüm yox, ancaq EA Tarix İnstitutunun əməkdaşı özü də tarix elmləri namizədinin dəlillərinə biz inanmaya bilməzdik.

Nə deyim, çox haqlı cavabdır. Mən redaktordan üzr istəməli oldum. Lakin yenə dözə bilməyib müəllifi tapıb etirazımı bildirdim ki, ay yoldaş, axı siz nə əsasla Qobustanı eramızdan əvvəlki 30-32-ci minilliklərə aid edirsiniz? Nə cavab alsam yaxşıdır? «Bu da mənim fikirimdir». Əcəb fikirdir. Görünür bu da bir cür «patiriotluqdur». Deməli, elm nəyə lazım, tədqiqat nəyə lazımmış, kim istəsə

Qobustana nəinki 30-32, hətta 50, 100, 500 min istəsə lap milyon da yaş verə bilərmiş.

Başqa bir əsərdə İ. M. Cəfərzadənin Cingirdağda 123 və 14,3 № ilə qeydə aldığı daşlar üzərindəki, son orta əsrlərdə qazılmış işarə və damğalar Neolit və Eneolit dövrlərinin yaşayış yeri və tikili qalıqlarının planı kimi qələmə verilir. Yenə də cəfəngiyat, həqiqətlə heç bir əlaqəsi olmayan, məntiqilikdən və həyatdan uzaq bir nağıl, elmi axtarışın «nəticəsi» kimi qələmə verilən bir «elmi» cəfəngiyat!

Bu əsər çox hörmətli, tanınmış, adlar almış bir alimindir. Onun əsərləri və işi, elmimizə köməyi haqda çox yüksək fikirlər söyləyir. Mən özüm də onu alicənab və dərin elm sahibi kimi tanımışam. Lakin Qobustanla əlaqədər, ilk dəfə olaraq tanış olduğum bir işini oxuduqda belə fikrə gəldim ki, əgər onun başqa elmi məqalələri və həcmcə sanballı kitabların da bu cür «elmi» dəlilləri işıqlandırır, təbliğ edirsə vay elmimizin və millətimizin halına. Yəni elmlə cəfəngiyyat arasında bir fərq, sərhəd olmazmı? Sonra müəllifin başqa işləri ilə də maraqlandıqda gördüm ki, elmi fəaliyyətinin şah əsəri sayılacaq kitabının da əsasını bu və bu kimi başqa cəfəngiyatlar təşkil edir. Onu da qeyd edək ki, müəllifin əsərlərində 123 və 143 №-li daşların yeri səhv olaraq Yazılıtəpədə göstərilir. Əslində 123 №-li daş Yazılıtəpədən 300-350 m qərbdə, 143 №-li daş isə 1-km qədər cənub-şərqdə özü də qayalıqlardan və yaşayış sahəsi ola biləcək yerlərdən çox uzaq, düzənlikdədir. Sonuncu (№ 143) çox kiçik (hündürlüyü 108, ümumi uzunluğu 260 sm) daşdır (14-cü tablo, şəkil A). O çoxüzlüdür. İşarələr də daşın beş müxtəlif üzündə, normal vəziyyətdə qazılıb. İ. Cəfərzadə 143 №-li daşın müxtəlif üzlərindəki işarələri qrup-qrup olmaqla bir tabloda çap edib. Bizim müəllif isə daşın müxtəlif istiqamətlərə baxan işarələr qrupunda dağlar arasında, müxtəlif terraslarda salınmış kəndlər - qəsəbələr görür. Qayalarda qazılmış bəzi işarə və damğalarda nəinki evləri, hətta evlərin döşəməsinə həsir döşəndiyini, içində ocaq yandığını, adamları, həyətində çəpəri, heyvanları və s. görür. O bunları elə təsvir edir ki, elə bil İshaq müəllimin X-XV əsrlərə aid etdiyi (əslində, bəlkə bir qədər də gec qazılmış) bu işarə və damğalar doğrudan da 7-8 min il bundan qabağın yaşayış məhəllələrinin planıdır və onların kosmosa uçmuş əksi hansısa ulduza dəyib geri qayıdıb, bizə indi çatıb, onu da bu müəllif görüb kağıza köçürüb? Görəsən, XV əsrdə inşa edilmiş Bakı Xan sarayının əsas giriş qapısının sol tərəfində və bir qədər hündürdəki, eləcə də Qaraçı karvansarasının divarlarında və müəllifin özünün etiraf etdiyi kimi son orta əsrlərin təbir abidələri üzərində çoxlu miqdarda qazılmış, eyni işarə və damğaları da Peolit dövrünün adamlarımı qazıblar?

Mən əminəm ki, müəllif Cingirdağ sahəsində 143 №-li daşın özünü görsə, nəinki işarə və damğaların Neolit və Eneolit dövrü yaşayış məskənlərinin «planı» olması fikrindən əl çəkər, həm də kitabında müraciət etdiyi bütün qayaüstü təsvirlər kolleksiyalarının tədqiqatçılarından onları saymadığına görə üzr istərdi,

Nə deyim? Allah Qobustanı onun haqqında cəfəngiyat yazan, yuxarıdakı kimi tədqiqatçı və təbliğatçılardan qorusun!

## QAYAÜSTÜ TƏSVİRLƏRİN YARANMA SƏBƏBLƏRİ HAQDA

İnsan yaranan gündən dünya onun maraq dairəsidir. O, bütün ömrünü bu maraq dairəsində zəhmətlə, sevinclə, əziyyətlə, şadlıqla keçirir, fikri-zikri yemək-yaşamaq, axtarmaq-tapmaq, ehtiyacını ödəmək, istəyini yerinə yetirmək olur. Təminatı, dolanması yaxşı keçdikdə əyləncəyə də, gözəlliyə də fikir verir, özü də gözəlliklər yaratmaq həvəsinə düşür. İşi düz gətirmədikdə, şərait olmadıqda, ehtiyaclarını rəvan ödəyə bilmədikdə çətinlikləri aradan qaldırmaq üçün yollar axtarmağa, fövqəltəbii qüvvələrə baş əyməyə məcbur olur. O həyatının (zəhmətinin bəhrəsi, ovunun uğurluluğunun, sağlamlığının, xəstəliyinin və s. həm istənilən, həm də arzu olunmayan vəziyyətlərinin səbəbinin) kimdənsə, nədənsə asılı olmasına inanmalı olur. Onun ürəyində xeyir və şər qüvvələrin varlığı, ilahi qüvvələrin insan üzərində hakimliyi fikri onun özünün varlığını istiqamətləndirici amilə çevrilir, insan özü üçün allah da yaradır, ovsuna da inanır.

İnsan irsi və təcrübi biliklər əsasında baş verəcək hər şeyi bilir, onlar üçün həm sevinir, həm də kədərlənir. O bilir ki, kişi-qadın yeni insan, qəbiləyə artım gətirir. Uşaq doğulur ana-ata sevinir, iməkləyir, tutub ayağa qalxır, ilk addımını atır, ilk «ana», «ata» kəlmələrini deyir, bunların hamısı üçün valideyin sevinir Uşaq böyüyür, ilk qazanc gətirir, evlənir, uşağı (qocalar üçün nəvə) olur yenə sevinc və s. Bunlar hamısı təbiətin səndən, məndən və heç kəsdən asılı olmayan qanunlarıdır. Bu qanunların başqa, əks üzü də var. Demirəm təsadüflər nəticəsində, elə lap qocalıb 80-ı, 100-ü ötdükdə də insanın ölümü arzu olunmur, nəinki qocalıqda, eyni vaxtda lap pis və ağır xəstəliklərin incidib əzab verdiyi bir vaxtda da insan ölüm istəmir. Bəli, həyatda işi düz gətirmədikdə, çıxılması çətin görünən anlarda və s. bir sıra vəziyyətlərdə insanın Allahdan ölüm istəməsini çox adam eşidib. Lakin bu istək və qışqırıqlar dilin ucunda, boğazdan yuxarıdır, ürək onu demir. İnsan ən axır gündə, son nəfəsində belə yaşayacağına inamını itirmir, əgər itirirsə onu təbiblər də heç olmasa bir müddət, bir gün, bir neçə saat belə saxlaya bilmir. O ölməlidir, ölür!

Dünyanın işinə bax. İnsan ölür, əvvəl axır, yüz min illərdən sonra olmamışa dönür, adı da, qəbri də izi də itir, hətta ən tanınmış, dünyanı lərzəyə salmış adamlar da. Bu da həyatın qanunauyğunluqlarındandır.

Həyat belə qurulub. Onun qanunları rəngarəng, çox və dəyişilməzdir, «Xeyirlə şər qardaşdır» kəlamı havayı deyilməyib, biri doğulur, biri ölür, biri ağlayır biri gülür... Beləcə həyat da dağ çayı kimi axıb gedir. Günəş də səhər çıxır axşam batır (bizə, bizim dünyamıza görə olsa da).

Nə olsun? Mən bunları niyə yazıram? Bəlkə, bunların Qobustana bir dəxli var? Bəli, var. Qobustanda bizim dünyamızın bir zərrəsi, minillərin həyat meydanı, keçmişimizin tarixi, bu günümüzdə babalarımızın ocağına olan maraq dairəmizin bir nöqtəsidir.

Qobustanda həyat 12-13 min il bundan qabaq başlayıb. Bunu Qobustanda 30 ilə qədər apardığımız arxeoloji qazıntıların nəticələri deyir. Bəlkə bu tarixi bir-iki min il də qabaqdan hesab etmək olar. Buna işarə edən elementlər və məntiqi dəlillər var, işığı gəlir. Lakin bunun üçün materiallar, tarixi şahidlər hələlik azdır.

Qobustanda arxeoloji qazıntılar, qədim insan düşərgələrindən (20-dən çox insan məskəninin əksəriyyətində qədim qobustanlılar orta və yeni Daş dövründə - Mezolit və Neolitdə yaşamışlar) aşkar edilmiş materiallar, onların təsviri və təhlili irihəcmli elmi kitabda verilə bilər.

«Qobustan dünyası» kimi oxuculara təqdim etdiyimiz bu kitabda biz söhbətimizi Qobustanın qədim qayaüstü təsvirləri əsasında qurmuşuq. Ona görə də bir qədər onların necə, nə məqsədlə, hansı düşüncə və təfəkkürün nəticəsi kimi yarandığı haqda mülahizələrimizi bildirmək istərdik. Əlbəttə, yuxarıda biz demişik ki, bu haqda deyilən heç bir fikrin əyri və ya düzlüyünə heç kəs şahidlik edə bilməz. İbtidai adamların fikrini olduğu kimi oxumaq üçün yalnız ibtidai adam olmaq lazımdır, bu isə mümkün olan şey deyil. Ona görə də bizim fikirlərimiz arxeologiya elminin 200 ilə yaxın müddətdə əldə etdiyi nailiyyətlərin nəticələrinə, apardığımız arxeoloji qazıntılar, müşahidələr, şəxsi məntiq və mülahizələrə əsaslanır.

Qədim qayaüstü təsvirlərin mənasını açmaq çoxlu zəhmət və vaxt tələb edir. Bir də kolleksiyadan götürülmüş bir-iki qədim şəkil haqqında fikir söyləmək üçün onlar seçilmiş yox, tam şəkildə (kolleksiyada) öyrənilməlidir.

Biz yuxarıda Ulu nənənin dili ilə keçmişdən söz açmışdıq. Demişdik ki, Qobustan qayalarındakı hər insan təsviri ovda, əməkdə fərqlənmiş, qəbilədə hörmət qazanmış, tanınmış bir qədim qobustanlının əksi, obrazı kimi yaradılıb, «ölməzləşdirilib», pərəstiş obyektinə, başqalarının onun əməlləri və hörmətindən ibrət dərsi almaq simvoluna çevrilib. Sonuncu göstərici haqda fikir arxeoloji ədəbiyyatda var. Biz onunla müəyyən qədər razıyıq.

İnsan heç vaxt ölmək istəmir, eləcə də onun əzizləri, yaxınları, soydaşları onun öldüyünə inanmaq istəmirlər. İnsanlar ölmüş valideyninin adını uşağına, nəvəsinə qoyur (hələ sağlığında da öz adını nəvəsinə qoyan baba və nənələr var). İndi də əziz adam öldükdən sonra onun qəbri üstündə sərdabələr tikdirir, qəbir daşları qoydurur, üstündə barelyef əksini çəkdirir, varı, gücü çatmayanlar isə eləcə fotosunu yapışdırırlar. Bəli, bütün bunlar keçmişlə, insanların və dinlərin yaratdığı insanın ölməzliyi inamı ilə bağlı deyilmi? Arxeoloji qazıntılar zamanı açılmış qədim qəbirlərdə ölülərin yanına onun bəzək şeyləri, silahı, qab-qacağı, əmək alətləri işə qoyulurmuş? Qəbilə, başçıları və o dövrün hökmdarlarının qəbrində onların atının, nökərlərinin, arvadlarının basdırılması nə ilə bağlıdır? O dünyada ölmüş şəxsin qulluğunda duracaqları üçün basdırılmayıblarmı?

Misir fironu Tutanxamon öldükdə onu yerin altında hazırlanmış xüsusi sarayda dəfn etmiş, qızıl taxtı və neçə ton qızıldan ibarət var-dövlətini yanına qoymuşlar. Fironun tabutunu 453 kq təmiz qızıldan tökülmüş qapaq örtmüşdür.

Qapaq elə tökülmüşdür ki, üstü barelyef formasındadır və sahibinin sifətini əks etdirir. Fironun axirət binasında onun o dünyada ac qalmaması üçün qızardılıb mumiyalanmış turac və s. yeməklər də qoyulmuşdur. Bütün bunlar indiki əsas dinlərdə axirət dünyası, cənnət-cəhənnəm, ruhun yaşaması kimi inamların özülünü qoyub. Bəli, bütün bu inamlar islamdan da, xristianlıqdan da, başqa dünyəvi dinlərdən də çox-çox qabaq, ibtidai dövrün başlanğıcından, insanın özünü insan kimi dərk etdiyi zamandan yaranıb.

Arxeoloqlar tarixi-keçmiş insanların yaşayış tərzi, adət-ənənəsi, təfəkkürünü öyrənmək üçün qədim insan məskənlərində, onların qəbir abidələrində axtarışlar aparır, maddi dəlillər toplayır, mühakimələr yürüdürlər. Əldə edilmiş əmək alətləri, təsərrüfat əşyaları, ocaq və tikili qalıqları babaların yaşayış tərzi və təsərrüfat həyatından xəbər verirsə, qədim qayaüstü təsvirlərin yaranma səbəblərinin bağlı olduğu dini görüşlər, düşüncə və təfəkkürləri, adət-ənənələri haqda əsas materialları keçmişin qəbir abidələri verir. Müxtəlif tarixi dövrlərdə, müxtəlif dini görüşlərə malik insanların qəbir abidələrində, qəbir formasında, ölünün qəbirdə qoyulması vəziyyətində və s. fərq olur, Lakin insanın ölünü basdırmağa başladığı vaxtdan ta əsrimizə qədər (müəyyən qədər indi də) ölünün yanına avadanlıq bəzək əşyaları və paltar, at, qul, yemək-içmək, silah qoymaqla basdırılması ölümü tam axıracan qəbul etməmək, ölməzliyə inam deməkdir.

Arxeoloji ədəbiyyatda qayaüstü təsvirlərin yaranma səbəbi haqda mübahisələrdə alimlər əsasən ovsunçuluq (makiya) və real həyatla bağlılıq tərəfdarları kimi çıxış edirlər. Qayaüstü təsvirlərin dini və ya incəsənət abidəsi olması haqda da mübahisələr çox olur. Mən bu məsələlərə ilk dəfə toxunduğuma görə bu haqda fikir söyləmək istəməzdim. Çünki bu sahədə fikir söyləmək üçün mən xüsusi axtarış aparmamışam, heç düşünməmişəm də. Burası da var ki, mənim apardığım tədqiqatlar elə bilavasitə bu məsələlərə yaxındır, qayaüstü təsvirləri yaradanların həyatını, tarixini, kimliyini öyrənməyə qulluq edir.

Qayaüstü təsvirlərin yaranma səbəbinin izahında mən real həyatla bağlılıq tərəfdarıyam. Qayaüstü təsvirlərin izahında ovsun tərəfdarları çoxluq təşkil edir. Onlar hesab edirlər ki, ovsun dindən qabaqdır və qayaüstü təsvirlər tam mənfəət üçün çəkilmişdir. Yəni, heyvanları çəkmişlər ki, ov uğurlu olsun, qadın şəkilləri bolluq rəmzidir, heyvanların artmasına kömək etmək üçündür, günəş təsviri günəşi çağırmaq üçündü, və s. Buna görə də qayaüstü təsvirlər incəsənət abidələri sayıla bilməz. Əgər incəsənət abidəsi kimi yaransa idi biri-birinin, yenisi qədiminin üstündən çəkilib altdakını kəsib korlamazdı. Eyni zamanda qayaüstü təsvirlərin mifik görüşlər və ovsun mərasimi ilə bağlılığı da irəli sürülür.

Bəli, ilk baxışda bu cür fikir və dəlillər inandırıcı görünür. Elə izah edirlər ki, az qalırsan inanasan ki, nəinki qayaüstü təsvirlər elə dünya özü də ovsun üstündə yaranıb. Hətta qədim qayaüstü təsvirlər haqda qələm işlədən müəlliflərin çoxu da fikirləşmədən, bu konsepsiyanın təsiri ilə ovsuna düşüb əsərlərində qədim təsvirlərin izahının əsas səbəbini ovsunçuluqla bağlayırlar.

Mən abidələrin yaranma səbəblərinin ovsunçuluq ilə bağlılığını əsas götürən alimlərlə tam razılaşa bilmirəm. Eyni zamanda bir xalq, qəbilə, qrupun həyatı, adət-ənənəsi, dünyaya baxışı, təsəvvürü və s. izah edərkən onu başqasının həyatı, adət-ənənəsi və s. ilə eyniləşdirmək yolu ilə izahın da əleyhinəyəm. Bütün xalqlar və qəbilələrdə insanların həyatı üçün ümumi cəhətlər olsa da adamlar biri-birindən seçilir. Milyonlarla insanlardan biri-birinə oxşayanları olsa da hamısı seçilir, hətta ən oxşar əkizlər belə səsilə də olsa, hər hansı bir əlamətinə görə isə, heç olmasa yaxın adamları tərəfindən tanınıb seçilir. Qədim xalqlar, qəbilə və qrupların qoyub getdiyi abidələr kompleksi də mütləq, nə ilə isə biri-birindən özünəməxsusluğu ilə seçilir. Odur ki, xalqın tarixini düzgün öyrənmək üçün abidələrimizi başqalarından fərqləndirən əlamətləri ayırmağı onların fərqini tutmağı bacarmaq lazımdır. Necə ki, küçədə safari geymiş adam görsən bilirsən ki, hindlidir, başı çalmalıdırsa ərəbdir, başına geniş kənarlı həsir şlyapa qoyubsa - meksikalı və mərkəzi amerikalıdır və s.

Mən bilirəm ki, mənim bu cür izahımın əleyhinə çıxan çox olacaq. Bax, elə deyəsən o etirazları eşidirəm, - deyirlər ki, bəs necə olur ki, Fransada da, Afrikada da bizdə də, Sibirdə də ibtidai insanlar biri-birindən xəbərsiz eyni formalı və məqsədli alətlər (əl çapacağı, iti ucluq, qaşov və s.) düzəltmişlər. Bəli, müxtəlif tipli alətlər qədim insanlar tərəfindən və biri-birindən xəbərsiz olaraq hər yerdə düzəldilib. Axı, onların hamısı insanların paltar geyməsi kimi ümumi həyat ehtiyacı ilə əlaqədər (çapma üçün, kəsmək üçün, vurmaq, deşmək, əzmək və s. üçün) hər yerdə icra edəcəyi vəzifəyə uyğun formada düzəldilmişlər. Onların da hər biri, bir atadan, bir anadan olmuş oxşar əkizlərdə olduğu kimi, eyni ustanın əlilə hazırlansalar da bir-birindən seçilməsini təmin edəcək ştrixlərə malikdirlər. Biri-birindən seçilməsi mümkün olmayan ekzemplyarlar yalnız qəlibdə və ya zavod dəzgahlarında düzəldilə bilər.

Beləliklə, mən hesab edirəm ki, milyonlarla insan fərdləri, meşədəki ağaclar, çöldəki bitkilər və s. və s. öz aralarında fərqləndiyi, tanındığı kimi insan qrupları - qəbilələr də öz aralarında həyata baxışları, xüsusilə mədəni qalıqları ilə seçilə bilərlər. İnsan cəmiyyətinin tarixi, həyatı və mədəniyyətini öyrənib izah edərkən bu fərqləri, deyək ki, heç olmasa Avstraliya və Qafqazın qədim qəbilələrinin mədəni irsləri arasındakı fərqləri ümumi oxşarlığa görə eyniləşdirmək yox, onları seçmək lazımdır. Deməli, müxtəlif dövrlərdə, müxtəlif qədim müəllif - rəssam tərəfindən qayada qazılmış qayaüstü rəsmlər də mövzusu, yaranmasına, dövrün tələbatı baxımından biri-birindən seçilməlidir. Onların yaranma səbəblərini izah etdikdə də hər dövrün qayaüstü təsvirlər kolleksiyasının bütövlükdə və fərdi çəkilməsi üçün ola biləcək səbəbləri seçib öyrənmək və sonra fikir söyləmək lazımdır.

Qayaüstü təsvirlərin ovsunçuluq məqsədilə çəkilməsini hesab etmək bizə görə, onunla bağlıdır ki, bu konsepsiya tərəfdarları ibtidai adamları təkcə texniki-mədəni səviyyəsi aşağı, təbiət qüvvələri qarşısında aciz insanlar deyil, həm də

həyatda tam aciz, bir növ yalnız yemək və yatmaq qeydinə qalan canlı varlıq sayırlar.

Dünyada ən qədim qayaüstü təsvirlərin çoxu üst Paleolitə aid edilir. Bu dövrün insanları artıq müasir insanlara bənzəyirlər. O dövrün maddi qalıqlarını (arxeoloji materialları) (yaradanları o qədər də küt, deyilişi qədər ibtidai - geri qalmış, aciz və bacarıqsız saymaq bizə görə o qədər də düz deyil, sadəlövhlükdür. Kim deyə bilər ki, İspaniya və Fransa mağaralarındakı 20-30 min il bundan qabaq oxranı piyə qatıb düzəltdiyi rəngi barmağı ilə hamar olmayan, girintili-çıxıntılı səthdə bizən, vəhşi at, kərgədan və s. kimi heyvanların şəklini böyük ustalıqla təsvir etmiş ibtidai rəssamların bacarığı indiki rəssamlardan aşağı olub? Yəni o rəsmləri yaradan, eləcə də Qobustanda təbii böyüklükdə öküz, 4 m-dən çox uzunluğu olan balıq təsvirlərini bir neçə xəttin köməyilə çox real və mütənasib verə bilən, əməlləri müasir adamları heyran qoyacaq qədim Qobustan rəssamının ağlı yəni o qədər işləməyib ki, qida əldə etməkdə aciz olub, ovsuna yalvarıb. Mən buna inanmıram. İnanmıram ki, çaxmaq, yaşma, dəvəgözü və bu cür şüşə qədər kövrək, lakin çox möhkəm daşlardan alət düzəldən, onu xüsusi formaya sala bilən, lazım gəldikdə bu daşlardan qopardılmış lövhəvari qəlpələrin nəinki kənarlarını dişəkləmək, hətta qalın üzlərindən qəlpədər qopartmaqla lazımi qədər nazildib ox ucluğu, nizə ucluğu düzəldə bilən qədim babalar ədəbiyyata düşdüyü qədər də aciz olub? Bəli, ehtiyac insanı hər şeyə qadir edir, lakin düşünən insanı, heyvanı yox. İbtidai insanlar gücü çatmayan təbiət qüvvələri qarşısında aciz olmuşlar. Elə indi də zəlzələ, tufan, qışın soyuq, yayın bəzən çox isti olması kimi hallara qarşı çətinlik çəkirik. Lakin qədim insanlar yem, yemək, «yal» əldə etmək üçün əməl, vasitə, özündə güc tapmış, heyvan ovlamaq üçün silah növləri düzəltməyi, tələlər qurmağı və s. bacarmışlar. Eləcə də təbiətin hazır nemətlərinin hansının yeməli olduğunu, onları nə vaxt, haradan yığmaq lazım olduğunu öyrənmiş və bilmişlər.

İbtidai insanların təbii qüvvələr qarşısında gücsüzlüyü, yuxarıda qeyd etdiyimiz kimi, onları fövqəltəbii qüvvələrə baş əyməyə məcbur edir, onlarda kimdənsə, nədənsə asılı olmaları fikrini, allahları, dini yaradır. Bu kimi asılılıqdan çıxmaq arzusu ovsunun yaranmasına, ona inama gətirir. Bizə görə ilk insanlarda təbiət qüvvələri qarşısında acizliklə əlaqədər yaranan inamlar ilk dini görüşlərdir. İnsanların zəmanəmizdə yaradıb qəbul etdiyi müxtəlif dinlər isə ilk inamların müxtəlif şəraitdə insanlar tərəfindən öz istəklərinə uyğun, müxtəlif istiqamətlərdə inkişafının nəticəsidir.

Ovsunçuluğun dindən qabaq yaranması fikrini irəli sürənlər onun müasir dini ehkamlara görə bəsit, sadə formada olmasını əsas götürürlər.

Qobustanın qədim qayaüstü təsvirlərinin yaranma səbəblərini biz ovsunla bağlılıqda yox, dinin köklərini yaratmış inamla bağlılıqda görürük. Biz artıq bu inam və təsvirlərin yaranma səbəbləri haqda, yeri gəldikcə onun ovsun əsasında və ya bizim necə hesab etdiyimiz hatda söhbət açmışıq. Bizə görə insan təsvirlərində

əsasən qəbilə üzvləri, onların hörmətliləri, ovda və əməkdə fərqlənənləri, ayrı-ayrı fərdlər, qadınlar (ana simvolu kimi), heyvanlar əsasən totem, pərəstiş obyekti, az miqdarda ovlamış, əsasən isə qəbilənin, adamların keçisi, atı, malı və s. marallar gözəllik simvolu kimi və s. çəkilmişlər. Rəsmlərdə istənilən hadisənin qabaqcadan arzu olunan kimi göstərilməsi yox, artıq olmuş hadisələr, varlıqlar təsvir olunur. Bu baxımdan Qobustanın qayaüstü təsvirlərinin müəyyən mənada şəkillərlə verilmiş hadisələr haqda piktoqrafik yazıya yaxınlığını qeyd etmək olar.

Makiya tərəfdarlarına görə: 1. Təsvirlər ovsun məqsədilə olmasa idi qayalarda şəkillər çəkmək də lazım gəlməzdi. Elə isə bəs indi qəbir daşları üzərində heykəl qoymaq, yaradılan portretlər, məbədlərin divarlarında, tramvaylarda... məktəblərdə şagird mizlərində yazılan adlardamı ovsun məqsədi güdür? Yox, bütün bunlar ölməzlik inamından gələn özünü əbədiləşdirmə inamının nəticəsidir.

2. Makiya tərəftarları hesab edirlər ki, şəkillər ovsun məqsədi ilə çəkilməsəydi bir-birinin üstündən, eləcə də qaranlıq mağaralarda və əlçatmaz sahələrdə qazılmazdı. Bəli, Qobustanda bir-birinin üstündən çəkilmiş, altdakını kəsmiş və korlamış şəkillər çoxdur. Lakin bu o deməkdirmi ki, sonuncu rəssam ovsun məqsədi güddüyünə görə altdakı şəkilə fikir verməyib? Yox, sadəcə olaraq onlar arasında dövr fərqi çoxdur, vaxt keçdikcə daha qədimlər köhnəlib, təzəliyini itirir, tam diqqət etməsən görünməz olur və hətta silinib itir. Bu cür biri digəri üzərində çəkilmiş şəkillərə isə əsasən qədim yaşayış yerlərinin divarlarında daha çox rast gəlinir. Deməli başqa dövrün adamları bir yandan qədim şəkillərə o qədər də fikir vermir, bəlkə onu heç görməmişlər də. Bir də ki, əgər çəkilən insan təsviri kiminsə, qəbilə üzvünün xatirəsini əbədiləşdirirsə onun əksi (şəkili) niyə yaşayış yerinin divarında (indi ümumi qəbristanlıqda dəfn olunma sayağı) qazılmayaydı? Daha qədim şəkillərin sonrakı nəsillər tərəfindən görünməyib, yeni təsvirlərlə kəsilib korlanmasını da adi hal saymaq olar. Bəli, çox vaxt onlar altdakı şəkilləri görməyiblər.

Kiçik bir izahat: ən qədim təsvirlərin üzərində onu kəsib korlayan nisbətən sonrakı rəsmləri çəkən rəssamı sözsüz ki, əsasən öz çəkdiyi şəkil maraqlandırıb. Qobustanın qədim qayaüstü təsvirlərinin ilk tədqiqatçısı İ. M. Cəfərzadə də, mən də qayalar üzərindəki hər cür (ən qədim və sonrakı) təsvirləri öyrənmək üçün onların hamısının estampını olduğu kimi çıxarmağa, hər birinin tarixini müəyyənləşdirmək üçün hansının hansını kəsməsini (sonra çəkildiyini) müəyyənləşdirməyə çalışmışıq. Lakin çox vaxt hamısını görə bilməmişik. Mən özüm dəfələrlə, mənə yaxşı tanış olan səhnədə, hətta deyək ki, nəinki ildə, ayda, həftədə, lap ekspedisiya vaxtı gündə yanından keçdiyim, dibində oturub qazıntı apardığım qayalar üzərindəki məlum təsvirlər arasında daha bir, qabaq mənə məlum olmayan, İshaq müəllimin estampına düşməmiş şəkil gördükdə təəccüblənmişəm ki, necə olub onu indiyə qədər görməmişəm.

Kiçikdaş dağı Qayaaltı kolleksiyasının 5 №-li ilə qeydə aldığımız daşında nəhəng bir balıq şəkli var, uzunluğu 4, 3 metrdir, əvvəldə Ulu nənənin dediyi bölgə balığı. Biz onun estamp surətini və fotosunu, üstündəki başqa təsvirlərlə birlikdə 4 dəfə təzədən işləməli olmuşuq. 1-ci dəfə onun quyruq hissəsini (naməlum şəkil qalığı kimi), 2-ci dəfə bundan sola gedən və üstündə üçbucaqlı fiqur qazılmış uzun xətt qalığını (balığın bel xətti və üst üzgəsi) görüb götürmüş, 3-cü dəfə balığın tam konturunu aşkarlayıb estamp etmişik, 4-cü dəfə balığın ortasında və ondan aşağıda da başqa şəkillər (insan və öküz) olduğunu aydınlaşdıra bilmişik (1972, 1985 və 1986 illərdə). İ. M. Cəfərzadənin estampını çıxardığı və hətta bəzi çap etdiyi səhnələrdə də gözə dəyməyən, estampdan kənar qalmış təsvirlər çoxdur. (Biz çalışırıq ki, «Qobustan petroqlifləri»nin tam çapı üçün buraxılmış təsvirləri mümkün qədər yerinə qoyaq).

Qədim təsvirlərin qaranlıq, əlçatmaz, çətin keçilən yerlərdə (səthlərdə) çəkilməsini də makiya ilə əlaqələndirmək ilk baxışda yenə inandırıcı görünür.

Bəli, Qobustanda «Ana zağa» ətrafında belə vəziyyət var. Kiçikdaşda yuxarıda qeyd etdiyimiz, balıq olan 5 №-li qayanın uçuruma baxan, əlçatmaz üzündə də qədim təsvirlər var. (Onların nə tam fotosunu çəkmək, nə də bir hissə də olsa estampını çıxarmaq mümkün deyil). İndi qoy əvvəl makiya tərəfdarları cavab versinlər ki, bu şəkilləri, lap elə ovsun məqsədilə olsa da, necə çəkiblər? Axı, Böyükdaş dağı yuxarı səki sahəsindəki 78 №-li qayanın qərb üzü dibindəki qadın və öküz (bunlar yuxarıda söhbət açdığımız «7 gözəl» adlandırılan qadın və oradakı öküz deyil, onlar daşın cənub başındadır) təsvirlərilə qabağındakı qaya arasında məsafə 0,5 m qədər və daha dardır. Bu şəkillərə heç adamın əli də çatmır. Onları yalnız yandan baxmaqla görmək olur və s. Lakin axtarışlar və tutuşdurmalar deyir ki, təsvirlərin bu kimi çətin vəziyyətlərdə, əlçatmaz sahələrdə olması bu yerlərdə vaxtilə vəziyyətin başqa cür, şəraitin əlverişli olması, minillər ərzində qayaların uçub dağılması, yıxılması, aşması, çevrilməsi nəticəsi ilə əlaqədardır. Onlar çəkilən vaxt bu yerlər nə əlçatmaz, nə də qaranlıq olmamışdı.

Makiya tərəfdarlarının irəli sürdüyü bir fikrə də etiraz edək. Bəziləri hesab edirlər ki, qədim qayaüstü təsvirlər ovsun məqsədi ilə, -yalnız ovun müvəffəqiyyətli olması, yəni tam mənfəət üçün çəkilib. O vaxt estetik hiss olmamış, ona görə də onları incəsənət abidəsi hesab etmək olmaz.

Moskvalı arxeoloq A. A. Formozov bu fikrə çox haqlı olaraq etiraz edir ki, hər bir sənət (rəssamlıq, qrafika, heykəltəraşlıq) əsərini yaradan bir mənfəət güdməmiş deyil, hamısının məqsədi ilə yanaşı mənfəəti də nəzərə alınır. Doğrudan da bu cür əsərlər ya, satılmaqla, ya ad almaqla, ya heç olmasa bağışlanıb hörmət qazanılması ilə öz mənfəətini gətirir. Bu tip əsərlərin incəsənət əsəri olmasına heç kəs etiraz etmir. Eləcə də portretlər, plakatlar, mozaika, freska, kilsə şəkilləri, barelyeflər, qəbir daşları və s. incəsənət əsərləri sayılır və hər biri axır nəticədə mənfəət gətirir. Əksinə, bu baxımdan bəlkə də elə qayaüstü təsvirlər öz müəllifi üçün xüsusi mənfəət gətirməyib. Axı, daş dövründə, qəbilənin kollektiv

yaşayışı şəraitində, qəbilə üzvləri kollektivin yaşaması üçün bacardığı işi icra edib, qəbilənin ümumi süfrəsindən yediyi vaxt hər hansı ağsaqqalın, fərqlənmişin surətini qayada yonmağa, əlavə, xüsusi bir mükafat kimi nə ala bilərdi? Onun mənfəəti güman ki, yaxşı işinə görə bir və ya bir neçə dəfə payına «yağlı tikə» verilməsi olardı.

Söz yox ki, mənimlə bu məsələdə, eləcədə qayaüstü təsvirlərin izahı ilə əlaqədar fikirlərimlə razılaşmayanlar, mənim başqaların fikirləri əleyhinə çıxmağıma irad tutanlar olacaq. Onlardan xahiş edərdim ki, mənim «səhvimi» - axı filan böyük alim filan kitabında belə yazıb isnadına əsasən tənqid etməyə tələsməsinlər, əvvəl mənim tənqid etdiyim fikirlər, eləcə də mənim fikirlərimin həyatiliyinə əmin olsunlar, məntiqiliyini yoxlasınlar, sonra qiymət versinlər, tənqid etsinlər.

Onu da qeyd edək ki, əgər ovun uğurlu olması üçün qayalarda ovlanacaq heyvanın şəklini çəkmək müvəffəqiyyəti təmin edən əsas amil olsa idi, bütün qayalıqlar qədim təsvirlərlə dolu olmalı idi.

Qobustanda qədim insan düşərgələrində və onun ətrafında ən çox qədim insan və öküz təsvirləri olduğu halda keçi təsvirləri tək-təkdir və onların da bəzisi, bizə elə gəlir ki, ceyran şəkilləridir. Yazılıtəpədə əksinədir. Keçi şəkilləri Böyükdaş dağı aşağı səki sahəsində də nisbətən çoxdur və vaxtilə pir kimi ibadət yeri odmuş sahədədir. Beləliklə, bizim nəticələrimizə görə Qobustan qayaüstü təsvirləri süjet müxtəlifliyi qədər də müxtəlif səbəblərdən yaradılmışlar. Onlar başlanğıc etibarilə imkanların dünyagörüşləri ilə bağlı həyat və təsərrüfat zərurətləri nəticəsində yaradılmışdır. Qədim qayaüstü təsvirlərin yaranma səbəblərini, qeyd etdiyimiz kimi, qədim insanlar tərəfindən hörmətli müasirlərinin ölməzliyi ilə əlaqədər, onlara pərəstişin nəticəsi, onlara qoyulmuş «abidələr» mövqeyindən, heyvan təsvirlərini totem, var-dövlət, öz heyvanı və sürüsü, kəsilmiş qurbanlar və s kimi həyati ehtiyac və istəklərlə bağlı izah etmək lazımdır. Gəmi təsvirləri, kollektiv əmək, kollektiv və tək-tək rəqs səhnələri, müxtəlif üsullarla ov səhnələri və s. insanların həyat şəraiti və tərzinin göstəricisidir.

Qədim qayaüstü təsvirlərlə yanaşı Qobustandakı «Qaval daşlar», müxtəlif tarixi dövrlərdə qazılmış yalaq və çapma hovuzlar, heyvan bağlamaq və ərzaq asmaq üçün dəlmələr, qədim düşərgə və yaşayış yerləri və s. kimi insan faaliyyətinin qalıqları, bu yerlərdə minillərlə adi insan həyatının, müxtəlif tarixi dövrü və inkişafı səviyyəsindən məlumat verən arxeoloji xəbərçilərdir.

Qədim qayaüstü təsvirlərin yaranma səbəblərinin izahı üçün bəzən nağıl və əfsanələrə də müraciət edirlər. Bəli, həyat özü ilə yanaşı nağıllar və əfsanələr lə yaradır. Lakin nağıllar və əfsanələr həyat - tarix yaratmır. Qobustan qədim babalarımızın tarixən yaşayış tərzi və mədəni inkişafının güzgüsüdür. Ona olduğu kimi, tarixi əks etdirdiyi kimi baxmaq lazımdır. Onu şişirtmək, nağıla,

əfsanəyə çevirmək, daha da «böyütmək» üçün dartıb-dartıb nəticədə əymək lazım deyil, tariximizi gülünc göstərər.

## QAYAÜSTÜ TƏSVİRLƏRİN DÖVRLƏŞDİRİLMƏSİ

Qayaüstü təsvirlərin dövrünü müəyyənləşdirmək üçün hələlik nə ümumiləşdirilmiş, nə də fiziki-kimyəvi üsul məlumdur. Bunun üçün əsasən rəsmin qayada döyülməsi texnikası, şəklin üslubu, ya mövzu yığımı və ya şəcərə müşahidəsi (köhnə-təzəliyi, biri-birini kəsməsi) və s kimi üsullar əsas götürülür. Lakin abidənin tarixini düzgün müəyyənləşdirmək üçün bu üsulların heç biri ayrılıqda, hər bir qayaüstü təsvir üçün ayrılıqda əsas ola bilməz. Qayaüstü təsvirlərin düzgün tarixiləşdirilməsi üçün bu və başqa üsullardan hamılıqla, kompleks şəkildə istifadə etməklə yanaşı, əsasən onların yaradıcılarının düşərgələri və qəbir abidələrində (aparılmış qazıntıların nəticələrini nəzərə almaq lazımdır.

Əgər qayaüstü təsvirlər qədim düşərgə, yaşayış yeri və qəbir abidələrindən uzaqdırsa onların tarixini əsaslandırılmış şəkildə müəyyən etmək çox çətin olur. Təsvirlərdə eyni obyektin (deyək ki, insanın, öküzün, keçinin və s. ayrı-ayrılıqda) iri və ya kiçik ölçülü, az və çox real çəkilməsi də onun tarixini müəyyənləşdirmək üçün əsas ola bilməz. Belə bir fərdin təsviri nəhəng qaya səthində çox iri ölçüdə də kiçik də qazıla bilər. Lakin ocaq başında kiçik bir daş parçası üzərinə qazılmış eyni heyvan şəkli dövründən asılı olmayaraq kiçik ölçülü olacaqdır. Qayalar üzərindəki qədim təsvirlərin reallıq dərəcəsi də sözsüz həmişə əsas kimi qəbul oluna bilməz. Axı, kolleksiyada, deyək ki, Qobustanda qeydə alınmış müxtəlif tarixi dövrlərə aid yüzlərlə keçi təsviri sözsüz ki, nə bir «rəssamın», nə də rəssamlıq məktəbinin yaratdığı əsərlərdir. O dövrün «rəssamlarının» heç də hamısı eyni qabiliyyətə, indiki ölçü ilə savada malik olmamışdı. Elə indinin özündə bir neçə lap eyni məktəbi qurtarmış adam naturadan və ya fotosundan istifadə etmədən hansı bir heyvanın, deyək ki, öküzün, keçinin təsvirini çəkməyi tələb etsək onların çəkdiyi rəsmlərin heç ikisi də bir-biri ilə eyni olmayacaq.

Qədim qayaüstü təsvirlərin dövrünü dəqiqləşdirmək sahəsində arxeoloji qazıntıların nəticələri əsas ola bilər, əgər qazıntı ilə tədqiq edilən abidənin qayaüstü təsvirlər mədəniyyəti ilə əlaqəsi olsa, yəni biləvasitə qonşu olsalar. Bu baxımdan qədim şəkillərin tarixinin müəyyənləşdirilib dəqiqləşdirilməsi üçün Qobustanda aparılmış qazıntı-tədqiqat işləri böyük elmi əhəmiyyət kəsb edir.

Doğrudur, qayaüstü təsvirlərin aşkar edilib qeydə alındığı yerlərdən çox uzaqda aparılmış qazıntılar zamanı əldə edilmiş materiallardan gil qablar, sümükdən və tuncdan düzəldilmiş əşya, silah, kəmər və s. üzərində müxtəlif bəzək xətləri və təsvirlərə (keçi, maral, balıq və s.) rast gəlinir və bu kimi materiallar qayaüstü təsvirlərdə, bir ümumi hal kimi bu və ya başqa süjetin hansı tarixi dövrdən başlanıb yaranması üçün əsas götürülür. Bu da müəyyən qədər deyək ki, Xanlar rayonundan üzərində keçi ovu səhnəsi təsvir edilmiş qab, Şahtaxtıdan

üzərində heyvan rəsmləri çəkilmiş boyalı qab, müxtəlif rayonlardan tapılmış tunc kəmərlər kimi abidələr üzərindəki təsvirlər, tapıntı və onu müşayiət edən materiallarla dövrləşdirmək baxımından əhəmiyyətlidir. Lakin, qədim təsvirlərin tam dəqiq, yəni nəinki müəyyən yüzilliyin əvvəli - axırı ilə lap əsrlə də müəyyənləşdirilməsi etiraz doğura bilər.

Qədim qayaüstü təsvirlərin dövrünü çox geniş götürmək lazımdır. Belə ki, eyni süjet istifadə olunan abidənin (gil qabın, kəmərin və s.) düzəldilməsindən əvvəl də, sonra da yaşaya bilər. Yəni deyək ki, bir keçi şəkli və ya hər hansı bir rəsmin tarixini arxeoloji materialın üzərindəki eyni tipli rəsmə əsasən o materialın (gil qabın) dövründən sözsüz ki, qabağa aid edirik. Lakin o qabın üzərindəki şəklin qabdan gec olmaması o demək deyil ki, bizim onunla oxşar saydığımız obyekt ondan gec ola bilməz. Və ya bir arxeoloji abidə üzərində qeydə alınmış süjetin yalnız o tapıntı dövründə meydana gəldiyini, ondan çox-çox qabaq da yaşamadığını kim təsdiq edə bilər? Ona görə də Qobustanda arxeoloji qazıntılar zamanı aşkar edilmiş abidə ilə bilavasitə bağlı, qədim təsvirlərin tarixini daha düzgün təyin etmək olar.

Misal üçün, «Ana zağa»nın şimal divarını təşkil edən 30 №-li qayanın düşərgəyə baxan üzündə, 12-14 metr uzunu, 5-6 metr hündürlüyü olan sahədə yüzlərlə qədim şəkillər bir-birinin üstündə çəkilib (15-ci tablo, şəkil E). Bu səhnənin 1,5 metr hündürlüyündə aşağı hissəsi qazıntı nəticəsində torpaq altından üzə çıxarılıb. Buradakı şəkillər bir-birinə qarışmış, kölgə kimi döyülmüş, belləri kəmərçinli və yay-oxla silahlanmış Mezolit dövrü adamlarının təsvirləridir. Bu şəkillərin aşağı, ayaq hissəsi Daş dövrünün mədəni təbəqəsinə çatır, qalan hissəsi sonrakı Eneolit, Tunc, Antik dövrlərinin qalıqları ilə örtülmüşdür. Buradakı insan təsvirləri o vaxt - Daş dövrü rəssamları tərəfindən, adamların rahat dayanıb işləyə biləcəyi səviyyədə çəkilmişdir. Minillər ərzində, sonrakı tarixi dövrlərdəki insan fəaliyyəti nəticəsində yaranmış mədəni təbəqələrin altında qalmışdır. Bununla yanaşı Daş dövrü təbəqəsinin özünün içində, ocaq başında və təbəqənin altında qalmış, üzərində göstərilən tip təsvirlərin çəkildiyi kiçik ölçülü daşların da aşkara çıxarılması onların Qobustanda Daş dövrü Mezolit və Neolit) rəssamlarının işi olduğuna şübhə qoymur.

«Ana zağa»da həyat davam etdikcə əmələ gələn mədəni təbəqə qalınlaşmış, daha qədim şəkilləri örtmüş, sonrakı dövrün sakinləri isə əlləri satdıqca yuxarı sahələri öz dövrlərinin təsvirləri ilə bəzəmişlər. Ona görə də Daş dövrü adamlarının əli çatmamış, sonrakı dövrlərdə çəkilmiş şəkillər olan səviyyədə daş dövrü şəkilləri yoxdur. Buna bənzər səhnə və mədəni təbəqə altından aşkar edilmiş, üzərində təsvirlər qazılmış daşlar Qobustanda «Kənizə», «Firuz», «Qayaarası» və başqa düşərgələrdən, «Böyükdaş» Tunc dövrü yaşayış yerindən, eləcə də 3, 7, 15, 18, 23, 28, 30 №-li kurqanlardan da aşkar edilmişdir ki, onlar Qobustanın qədim qayaüstü təsvirlərinin tarixini dəqiqləşdirmək üçün bir növ doğum şəhadətnaməsi sayıla bilərlər (15-ci tablo, şəkil A,B,V,Q,D).

***Bir qeyd.*** Kurqanların qazıntısı ilə aşkar edilmiş şəkilli daşların kurqanlara təsadüfi gətirildiyini və bu təsvirlərin daşın üzərində qabaqdan olduğunu söyləmək olardı. Lakin qazıntılar zamanı bu vəziyyətin ola biləcəyinə fikir verməklə biz müəyyən edə bilmişik ki, onlar elə dəfnlə əlaqədər çəkilmiş təsvirlərdir. Bu cür şəkilli daşlar 7, 18, 23 və 28 №-li kurqanlarda qəbrin üstünü örtmüş, 3, 7, 30 №-li kurqanların kromlex daşları, 15 №-li Kurqanın nişangah daşı kimi qoyulmuşdur. 3 №-li kurqanda 12 ədəd şəkilli daşdan ikisi kromlexdə, on ədədi isə daş qutu qəbrin ətrafına düzülüb ona söykənmiş vəziyyətdə qoyulmuşdur. Göstərilən daşlarda şəkillər hər yerdə düz vəziyyətdədir. Onların hamısında əsasən keçi təsvir edilmişdir. 3 №-li kurqanın şəkilli daşlarından birində sayqaq şəkli çəkilmişdir. Başqasının isə bir üzündə keçi təsviri düz vəziyyətdə qoyulmuş, əks üzündə isə kiçik ölçülü öküz təsviri var. Görünür bu öküz şəkli daşda qabaqdan olmuşdur, Belə ki, keçi şəkli daşda düz vəziyyətdə dayandığı halda onun ayaqları yuxarı vəziyyətdə qalmışdır. (15-ci tablo, şəkil D).

3 №-li kurqan eramızdan əvvəlki 3-cü minilliyə aiddir. Bu kurqanda basdırılan adam kurqanın böyüklüyü, ölünün daş qutuda dəfn edilməsi (qəbir çox qədim zamanlarda açılıb qarət edilmişdir) və bəzi əldən qalmış tapıntılara, eləcə də kromlexdə nişangah daşı kimi kobud daş heykəlin qoyulması dəfn olunanın çox hörmətli, varlı adam, qəbilə ağsaqqalı olmasına işarə edir. Onun qəbrinin ətrafına söykənmiş daşlardan 10 ədədinin üzərində çəkilmiş heyvan şəkilləri isə görünür rəmzi şəkildə onun mallarının öz yanında dəfn olunmasını ifadə edir. Bu məsələ qayaüstü təsvirlərin çəkilməsi səbəblərinin izahı üçün də əhəmiyyətlidir. Onu da qeyd edək ki, Qobustanda kurqanlar eləcə də yaşayış yerlərinin qazıntısından aşkar edilmiş daşlar üzərindəki keçi təsvirlərinin heç birinin belinin kəsik olmasına rast gəlməmişik.

Qobustanda ən qədim rəsmlər qadın təsvirləridir. Onlar adətən döş və baldırları qabarıq, başı çıxıntıvari, qolsuz olmaqla rəmzi ANA, nəslin davam etdiricisi kimi təsvir edilmişlər. Bəzi qadın təsvirlərində (Ceyranlar düşərgəsində) oturacaq almacıqları qoşa, hətta üç kiçik dairəcik şəklində verilmişdir. Qayaarası düşərgədə, «Ana zağa»da 29 №-li daşın şimal üzünün aşağı hissəsindəki tipli qadın təsvirləri Paleolit dövrü qadın fiqurlarına tam oxşar və Qobustanda ən qədimdir. Sonrakı qadın təsvirlərində baldırlar öndən görünüşdə ikiləşir, yayla (kaman) silahlanmış, bədəni xətlərlə kəsilib bəzənmiş və s. şəkildə verilirlər.

Öküz təsvirləri qadın və yay-oxla silahlanmış siluet şəkilli kişi təsvirlərindən sonradır. Onlar Qobustanda qədim insan düşərgələri və onların ətrafındakı qayalarda çəkilmiş ibtidai vəhşi öküzlərdir. Deməli, Qobustanda öküz şəkilləri insan təsvirləri qədər qədimdir. Əlbəttə, qədim qobustanlılar ibtidai öküzü görmədən onun təsvirini yarada bilməzdilər. İbtidai öküzlərin isə nəsli eradan əvvəlki IV minillikdən kəsilib. Hər halda onlar qadın təsvirlərindən sonradır. Belə ki, Qobustanda bir neçə yerdə öküz təsviri qadını kəsir (Böyükdaş, yuxarı səkidə 29, 43, 78 №-li və Kiçikdaş dağında Qayaaltı sahənin 5 №-li daşında), lakin bir

yerdə belə, qadın təsvirinin öküzü kəsməsi qeydə alınmayıb. Bu o demək deyil ki, Qobustanda üst Paleolitin sonları - Mezolitin əvvəllərində qayalarda qadın təsvirləri çəkilən zaman bu yerlərdə öküz olmayıb. Əksinə, Qobustanda (və Abşeronda) Qobustan öküzləri tipli, Binəqədi qır qalıqlarından tapılmış «Məstanzadə» öküzləri yaşayarkən çox güman ki, bu yerlərdə heç həyat olmamışdır (hər halda o yaşda həyat izi, Şərqi Azərbaycanda hələlik bizə məlum deyil).

Qobustanda öküz təsvirləri çoxdur. Sözsüz ki, onların çox qədimləri də, gec çəkilmişləri də var. Qədim Qobustanda öküz əsas ov obyekti də olmayıb. Ona görə də bir sıra «tərs» suallara cavab tapmaq çətin olduğundan onların hər biri haqda və ya dövrlər üzrə tarix demək də çətindir. Lakin qadına pərəstişlə öküzün totem olması onların eyni dövrə aidliyini, həmişə öküz qadından sonra çəkilsə də, qədimliyini göstərir.

Qabaqda qeyd etmişdik ki, qədim Qobustanda ən çox ceyran və gur ovlanmışdır. Lakin onların təsvirləri azdır. Onlar da, az olsalar da, əsasən qədim düşərgələrdə və onlara yaxın yerlərdədir. Ceyran şəkilləri keçiyə, gur şəkilləri isə ata oxşadığından ayrı-ayrılıqda hər birinin tarixini müəyyənləşdirmək çətindir. Lakin ümumən ceyran təsvirlərini gur şəkillərindən daha qədimdən çəkildiyini söyləmək olar. Çünki «Qayaarası» düşərgəsində ən çox ceyran ovlanması görünür bu yerlərdə hələ gurların məskunlaşmaması ilə əlaqədardır. Bundan sonrakı bütün dövrlərdə ceyran da, gur da başqa heyvanlar da həmişə yaşamışlar. Ona görə də onların tarixinin hər tip, fərd üçün ayrı-ayrılıqda müəyyənləşdirilməsi çox çətindir. Bu çox böyük problemdir və onun həlli bizim bu işimizin çərçivəsindən kənardır. Bir də ki, bizim söhbətimizin əvvəllərində də bu məsələlərlə əlaqədər fikirlərimiz olub.

## QOBUSTANDA KEÇMİŞ VƏ İNDİKİ VƏZİYYƏT

Qobustanda aparılmış arxeoloji qazıntılar, müşahidə və tədqiqatlarımızın nəticələri göstərir ki, Böyükdaş və Kiçikdaş dağları ərazisində həyat üst Paleolitin sonundan -Mezolitə keçid dövründən başlamış və orta əsrlərə qədər davam etmişdir. Burada həyat Daş dövründən antik dövrə qədər xüsusən qaynar olmuş, orta əsrlərdən, görünür iqlimin dəyişməsi, rütubətin azalması, quraqlığın çoxalması, torpağın şoranlaşması, bitki örtüyü və heyvanat aləminin kasıblaması get-gedə yaşayış şəraitinin pisləşməsinə səbəb olmuşdur. Lakin Qobustanda həyat tam kəsilməmiş, maldarlar üçün qışlaqlarda da olsa XX əsrə qədər davam etmişdir. Qobustanda Daş dövrü yaşayış yerlərinin çoxluğu o dövrdə burada yaşayışın daha qaynar olması ilə bağlıdır ki, ən çox qayaüstü təsvirlər də o dövrdə yaradılmışdır.

Qobustan abidələri həyatla yanaşı yaranmağa başladığı kimi bu minillər ərzində hər cür təsirlərə də məruz qalmış, bir yandan yaranıb çoxalan abidələr bir yandan da korlanmış, dağılmış, silinmişdir və s. Əlbəttə, abidələrin saxlanmasına

belə mənfi təsir həm insanlar (elə çox qədimdən, onların özlərinin dövründən indiyə kimi), həm də təbii qüvvələr (su, külək, günəş, soyuq, zəlzələ və s.) tərəfindən edilmiş və nəticəsi ondan ibarətdir ki, bizim götür-qoylarımıza görə qayalar üzərində döyülmüş. sürtülmüş, qazılmış, cızılmış qədim rəsmlərdən bizə qədər gəlib çatan (qeydə alınmışları) çox az faiz təşkil edir. Elə qaya sahələri var ki, külək onun səthində şəbəkə düzəldib, ovub töküb, kənar hissələrdə isə orda-burda xətt qalığına (yəqin ki, qədim şəkil qalığı izləri) rast gəlinir. Qədim şəkillərdən bir qismi yenə də daşın yumşaqlığından yağış suları ilə yuyulub tamam və ya hissə-hissə silinib (məs. Böyükdaş dağı aşağı səki sahəsi üzrə 1 №-li daşın şərq üzünün cənub hissəsindəki gəmi təsvirləri kimi); bir hissə qədim təsvirlər qazılmış olduqları qaya səthinin isti və soyuğun, yağış və küləyin təsiri ilə lay-lay qopub düşmüşdür (misal üçün Böyükdaş dağı yuxarı səki sahəsində 39 və 67 №-li qayalardakı «yallı» səhnələrinin hissələri kimi). Qeyd edək ki, 67 №-li qayadakı «yallı» səhnəsində 1948-1950-ci illərdə İshaq müəllim yuxarı cərgədə 5, altdakı cərgədə 7 adam olmaqla 12 adam rəsmi qeydə alıb, çap da edib. İndi bu səhnədə 10 adamın rəsmi qalıb, hər cərgənin sol tərəfində qayadan bir lay (təbəqə) qopub. Bunlardan başqa çox yerdə, xüsusən qayaların altında və sığınacaq tipli örtülü yerlərin divarlarında da min illər ərzində müxtəlif dövrlərin adamları tərəfindən qaya - daşın dibində qalanmış ocaqların da istisi daşı (əhəngi) yandırıb korlamış və oradakı şəkilləri məhv etmişdir.

Qobustana ən böyük ziyanı tikinti üçün daş kəsənlər vurub. Bu iş xüsusən şəhərsalma ilə əlaqədar, binaların yonma ağ daşdan tikildiyi vaxtlardan başlanmışdır. Bakıdakı bir çox binaların keyfiyyətli daşları (o cümlədən Xan sarayı kompleksinin daşları hələ XV əsrdən, çox güman ki, ondan da qabaqdan) Qobustandan araba və dəvə ilə daşınıb gətirilmişdir. Bu iş - qayaları partladıb daş qırmaq əsrimizin 40-cı illərində Qobustana qarşı çox güclü, dağıdıcı düşmənə çevrilmişdir. Nəticədə, Böyükdaş və Kiçikdaş dağlarının ətəklərində çox böyük sahələrdə minlərlə qayalar partladılıb, daşı doğranıb daşınmış, yerlə-yeksan edilmişdir. Qayaların partladılması ilə (özü də insan yaşayışı üçün ən əlverişli, qədim düşərgə yerlərdə olan qayalar) nəinki minlərlə şəkillər eləcə də başqa maddi qalıqlar məhv edilmişdir. Bu cür yerlərə baxdıqca adamı dəhşət götürür. Belə ki, Böyükdaş dağının cənub və cənub-şərq ətəyi qayaları (yeri gəlmişkən qeyd edək ki, yaşlı yerlilərin dediyinə görə vaxtilə bu sahədə olmuş nəhəng qayaların dibində bütöv qoyun sürüsü, mal naxırı kölgələnə bilirmiş); dağın yuxarı səki sahəsindəki su quyusu ətrafında qədim yaşayış yerlərini örtmüş qaya çıxıntıları; «Ana zağa» düşərgəsi ətrafındakı qayalar; Kiçikdaş dağının şərq ətəyi və cənub qurtaracağı sahələrinin qayaları üzərindəki qədim şəkillər və yaşayış yerləri məhv edilmişdir.

Azərbaycan EA Tarix İnstitutunun Qobustanda qədim qayaüstü təsvirləri aşkar etdiyi vaxtdan, Qobustanda qayaların sındırılmasına qarşı mübarizəsinə baxmayaraq 1950-ci illərin əvvəllərinə kimi daşların partladılıb əl ilə doğranması davam etmiş, hətta üzərində qədim şəkillər olan, qeydə alınıb nömrələnmiş bir

neçə daş (Böyükdaş dağı aşağı səki sahəsi üzrə 15, 203, 212, 216, 220 və s. kimi şəkilli daşlar) da 1950-ci ildə sındırılıb məhv edilmişdir. 1951-ci ildən isə Qobustan abidələri mexanikləşdirilmiş Duvannı daş karxanasının «dəyirmanında üyüdülməyə» məruz qaldı. Böyükdaş dağının üstünə, karxananın işləməsi üçün yol çəkilməsi, yüksək gərginlikli elektrik xətti çəkilməsi də neçə-neçə qayanın bu işə mane olmaması üçün partladılıb götürülməsinə səbəb oldu.

Böyükdaş dağının hər tərəfdən sıldırım qaya ilə əhatələnmiş, daş dövründə Qobustan qəbilələrinin qovma üsulu ilə ov etməsi üçün təbii tələsi, Tunc dövründə qonşu qəbilələrin basqınından qorunduqları təbii möhkəm yaşayış yeri («Böyükdaş» yaşayış yeri) olmuş düzən zirvəsində mexanikləşdirilmiş daş karxanası açıldı. Onun fəaliyyəti nəticəsində qədim Qobustan sakinlərinin maddi-mədəniyyət qalıqları buldozerlə süpürülüb atılmış, dağın üstü eybəcər hala salınmış, dağın tam dağıdılması üçün real şərait yaradılmışdır. Bu vəziyyət haqda yuxarıda yeri gəldikcə danışmışıq.

Bəli, Qobustan abidələrinin başına nə oyunlar açılmayıb? Bu suala Qobustanın Daş dövrü sakinlərindən biri «Kirpi» jurnalında belə cavab vermişdi:

- Ey mənim nəticə-kötükcələrim, mən sizin fəxrlə haqqında danışdığınız bu abidələri minilliklər boyu, qışın soyuğunda, yayın istisində, daş alətlərlə, ovum uğurlu olduqda tox, olmayanda ac, qarına yaratdım. Sizin üçün yadigar tarix qoydum. Minilliklər boyu ruhum onların yanına qayıtdıqca təsəlli tapır, şad olurdu. İndi siz, neçə vaxtdır ki, onları dağıtmaqla məşğul olmusunuz. Söz düşəndə isə məni ibtidai insan, vəhşi, geri qalmış adlandırırsınız. Bu necə olur? Yaradan mən, bağışlayan mən laqeydcəsinə dağıdan siz, vəhşi, geri qalmış ibtidai mən, mədəni siz? Bağışlayın, mədəni kimdi, vəhşi kim? İnciməyin!..

Qobustanda qədim qayaüstü təsvirlərin elm aləminə məlum olması Qobustan abidələrinin tam dağılmasının qarşısını almağa bir qədər kömək etdi. Şəkilli daşların axtarılıb qeydə alınmasına başlandı. Onların üzərində iri ölçüdə (gözə çarpan) inventar nömrələri yazıldı, toxunulmazlıqları haqda qərarlar çıxarıldı, tapşırıqlar verildi. Müəyyən qədər əl ilə daş sındırılmasının qarşısı alındı. Mexanikləşdirilmiş daş karxanasının fəaliyyətə başlaması ilə qayaların partladılıb doğranması dayandırıldı.

Qobustan abidələrinin qorunub saxlanması naminə, Tarix İnstitutu o vaxt müraciət və məktublarla yuxarı orqanlar qarşısında məsələlər qaldırmış, lakin Böyükdaşda mexanikləşdirilmiş daş karxanasının açılmasına mane ola bilməmişdi. Rəhmətlik İshaq müəllim deyirdi:

- Bir dəfə Mir Cəfər Bağırov (o vaxtkı Azərbaycan KP MK-nın birinci katibi) məni yanına çağırtdırıb dedi: «Yoldaş Cəfərzadə, nə deyirsiniz, qayalarda bir neçə cızıq tapmısınız deyə istəyirsiniz ki, müharibədən qayıtmış, Hitlerə qələbə çalmış əsgərlərimiz üçün ev tikməyək?»

Aydın idi. Amirlik dövründə baş katibin bu amiranə sözünə kim etiraz edə bilərdi?

Qeyd edək ki, Böyükdaş dağının (sonra da Kiçikdaş dağının) üstündə daş karxanasının açılması və buna icazə verilməsi böyük tarixi səhv, tarixi abidələrə qarşı görünməmiş cinayət idi. Ona görə ki;

1. Mexanikləşdirilmiş daş karxanası açılarkən qədim qobustanlıların yaşayış yeri, öz təbii quruluşu, müxtəlif tarixi dövrlərin çoxlu abidələrini özündə saxlaması, bütövlükdə Böyükdaş dağının özünün tarixi abidə olması nəzərə alınmamışdı.

2. Daş karxanası işə başlayana qədər dağın Tunc dövründə təbii qala kimi, yaşayış yerinə çevrilmiş yastı zirvəsi tədqiq edilməmişdi.

3. Nəzərə alınmamışdı ki, dağın üstünü örtmüş 15-20 metr qalınlığında əhəng daşı layı, üstü şərqə tərəf maili olan dəniz dibinin, su keçirməyən gilin üstündədir. Burada daş karxanasının fəaliyyəti nəticəsində, daşın kəsilməsi ilə alınacaq çalaya yığılacaq yağış sularının qaya örtüyü ilə dəniz gilinin arasına düşməsi qayaların minillər ərzində təbii şəkildə qopub şərqə tərəf diyirlənməsilə dağın görkəminin dağılması prosesi 100 dəfə, 1000 dəfə sürətlənə bilər.

Beləliklə, nə bunları nəzərə alan, nə də tarixçilərin abidələrin qorunması üçün qaldırdıqları səsi eşidən oldu. Beləcə, düz 15 il alimlər Qobustanda qayaüstü təsvirlərin öyrənilməsi və arxeoloji qazıntılarla öz tədqiqatlarını Qobustan qayalarını kəsib əridən daş karxanası ilə qonşuluqda aparmalı oldular. Bu dövrdə nəinki dağın üstü doğranıb dərinləşdi, eləcə də gecə-gündüzlü iş şəraitində, karxanada işçi qüvvəsi kimi istifadə edilən məhbusların (onlar düşərgələri ilə karxana arasında azad gəzirdilər) qədim şəkillərin üstündən yazdıqları avtoqraflarla Qobustan abidələrinə daha bir zərbə vuruldu. 1962-1963-cü illərdə Böyükdaş dağının üstünə yolu qısaltmaq üçün açılmış tunel dağın qədim şəklini də dəyişdi. Sonra Respublika Tikinti Materialları Nazirliyi Böyükdaş dağının üstündən milyonlarla doğranmış daş çıxarmaqla Kiçikdaş dağının zirvəsini də karxana üçün hazırlamağa başladı.

1965-ci ildən mən Qobustanda geniş arxeoloji qazıntı işləri aparmağa başladım. həmin il «Çardağ zağa», «Qara zağa» IV daşaltı sığınacaq və «Ana zağa»da, 1966-cı ildə yenə «Ana zağa» və 1 və 2 №-li kurqanlarda qazıntı aparmaqla yanaşı daş karxanasının Böyükdaş dağına (onun tarixi-arxeoloji abidələrinə) vurduğu zərbələr və bu zərbələrin gələcək nəticələri haqda fikirləşməli oldum. Daş karxanasının maneəsiz genişlənməsinin nəticəsinin gətirə biləcəyi ziyan gündən-günə iri görünür və bu haqda təbil çalınmasını tələb edirdi.

Bu yolda ilk addım Qobustanda qədim qayaüstü təsvirlər, qədim düşərgə və yaşayış yerləri, kurqan abidələri saxlanmış Böyükdaş, Kiçikdaş, Cingirdağ və Yazılıtəpə sahələrinin 1966-cı ildə Respublika Nazirlər Sovetinin 9 sentyabr tarixli 503 №-li qərarı ilə Mədəniyyət Nazirliyi nəzdində Qobustan Dövlət Tarixi-Bədii Qoruğu elan edilməsi oldu.

Yeri gəlmişkən qeyd edim ki, Qobustan ərazisinin qoruq elan edilməsi üçün, Tarix İnstitutunun əməkdaşı, tarix elmləri doktoru mərhum Zelik Yampolskinin əməyi çox olub. Allah ona rəhmət eləsin.

Qobustan Dövlət Tarixi-Bədii Qoruğu 1967-ci il fevral ayından fəaliyyətə başladı və bu vaxtdan Qobustan abidələrinə maraq və diqqət artdı. 1971-ci ildə Qobustan abidələri üzərində Duvannı daş karxanasının dağıdıcı işi dayandırıldı, O vaxta qədər dağıdılan dağılmış, sındırılan sınmış, itən itmişdi, Bundan sonra daş karxanasının dağıdıcı fəaliyyətinin izlərini silmək, Qobustanı abadlaşdırmaq, onu geniş və hərtərəfli öyrənmək, onu milli mənlik timsalına çevirmək və sözsüz, xarici turizmə şərait yaratmaq üçün (hökumət və partiya qərarları verildi. Qobustan qoruğu ərazisinin abadlaşdırılması, (ətrafına sərhəd işarələri vurulması, bəzi sahələrinin hasara alınması, Səlyan şossesindən, Səngəçal qəsəbəsi yanından Cingirdağ sahəsinə, oradan Kənizə dağının şərq ətəyi ilə Böyükdaşa və Kiçikdaşa, oradan da yenə Səlyan şossesinə çıxan, qoruq ərazisində isə bu yoldan turistlərin abidələrin yığcam sahələrinə gedə biləcəyi qollar ayrılan yol çəkilməsi, Böyükdaş dağının ətəyində muzey kompleksi və muzeyə giriş arkası və s. planlaşdırıldı. 1976-cı ilə kimi Qobustan ərazisinin abadlaşdırılması və yollar çəkilməsinin planları Azərbaycan Dövlət Layihə İnstitutu və Bakı soveti tərəfindən hazırlandı. Lakin get-gedə bu qərarların həyata keçirilməsi işinə maraq azaldı. Hazır layihələrin maliyyələşdirilməsi, abadlıq işləri və yollar çəkilməsi planının icrası yaddan çıxdı. Qobustan dildən-dilə düşsə də turkistlərin və ekskursiyaların, eləcə də sərbəst gələnlərin sayı getdikcə artsa da, bununla yanaşı baxımsız Qobustanın dərdi də artdı. Qapısız, hasarsız Qobustan muzeyi onu görməyə gələnlər üçün dönüb oldu, necə deyərlər, açıq şəhər. Dağın ərazisində nəzarətsiz gəzənlər, xüsusən məktəblilər (bəzən elə böyüklər də) və çobanlar addımbaşı, «qədim babaları» kimi qayalarda aftoqraflar yazmağa və bununla da Qobustanın qədim təsvirlərini korlamağa başladılar. Bunun üçün tək Qobustan qoruğunu təqsirkar etmək düz deyil, Çünki davamiyət, özü də nəzarətsiz davamiyət, çoxaldıqca nəzarəti də artırmaq lazım idi. Qoruğun az miqdar elmi işçisi və ekskursiya aparıcısının gücü, nəinki üç dağın ərazisi, İç Böyükdaş dağının ekskursiya marşrutuna daxil edilmiş sahəsini belə tam nəzarətdə saxlamağa çatmır.

Get-gedə Qobustan unudulmağa başladı: Mədəniyyət Nazirliyinin Qobustan kimi zəngin, ümumbəşəri əhəmiyyətə malik, Azərbaycan xalqının on minillik tarixinin güzgüsü olan açıq səma altındakı bu muzeyə hansısa ev muzeyi ilə bir səviyyədə baxması Qobustana olan marağın get-gedə zəifləyib aşağı düşməsinə səbəb oldu.

Qobustan abidələri aşkar edildiyi vaxtdan cəmi iki dəfə lazımi qədər diqqət mərkəzində olub. Onlardan, bir dəfə Qobustanda qədim qayaüstü təsvirlərin varlığının aşkara çıxarılıb öyrənilməyə başladığı ilk illərdə - 1950-ci illərin əvvəllərində, ikinci dəfə Qobustanda qoruq yaradılmasından sonrakı 5-6 il ərzində. Hər iki halda Qobustana marağın, onun bir tarixi mərkəz, qədim mədəniyyət ocağı

kimi qiymətləndirilməsinin əsas şərtini vəzifəli şəxslərin, akademiya və Mədəniyyət Nazirliyi rəhbərliyinin Qobustana hörmətində, onların sözdə yox, işdə Qobustan abidələri ilə maraqlanması və ona qiymət verməsində, onun da nəticəsində Qobustana, adicə olaraq, tez-tez getmələrində görürəm.

Birinci hal üçün. Qobustan hələ yenicə açıldığı, çoxlarının hələ Qobustanın qədim mədəniyyət ocağı olmasını inkar etdiyi, Qobustan qayaüstü təsvirlərinin səyyar ovçular və çobanların əməlləri olduğunu düşünənlər olduğu vaxt respublika Elmlər Akademiyasının prezidenti, dünya şöhrətli alim Yusif Məmmədəliyevin və Azərbaycanın xalq şairi, ölməz Səməd Vurğunun (16-cı tablo. şəkil A və B), eləcə də institut direktorları, elmlər doktorlarının tez-tez Qobustana getməsi, abidələrlə maraqlanması, Qobustanın əhali arasında tanınması, onun hörmətinin artmasını bilavasitə təmin etmişdi.

İndi Böyükdaş dağındakı muzey binası o vaxt daş karxanasına edilmiş bəzi güzəştlər əvəzində, onun hesabına, Qobustanı öyrənən arxeoloji ekspedisiya üçün baza tikilmişdir.

İshaq müəllim deyirdi ki, o binanın tikintisini razılaşdıq. Sonra planı, cizgisi hazırlandı. Karxana işə başlamağı gecikdirirdi. Bir dəfə akademiyada Səməd Vurğunla görüşəndə məndən binanın tikintisinin nə yerdə olduğunu soruşdu. Gileyləndim. Dedim: - Ay Səməd, çox o yan-bu yan edirlər, gecikdirirlər, işə başlamaq istəmirlər. O qayıtdı ki, Əə, ay İshaq, Səməd Vurğun ölməyib ki, kefini pozma, onlar tikməz, mən özüm tikdirərəm, öz pulumla, qorxma sizin rahat işləməniz üçün bina tikiləcək.

Bəli, Səməd Vurğun kimi adamın bu cür qiyməti və ürək-dirəyindən sonra Qobustanın qədim mədəniyyət ocağı olmasına kimdə şübhə qala bilərdi. İlk illər göstərilən yüksək şəxslərin tez-tez Qobustana getməsi, Qobustanın öyrənilməsi üçün ekspedisiya təşkili və onun hər cür təchiz edilməsi Qobustanın tanınması üçün əsas şərt olmuşdu.

İkinci dəfə Qobustan ərazisində dövlət qoruğu yaradıldığı gündən, şəxsən mədəniyyət naziri, görkəmli bəstəkarımız Rauf Hacıyevin və müavini Rüstəm Babaxanovun dövründə xüsusi diqqət mərkəzində olmuşdur. Həm nazir, həm də nazir müavini tərəfindən bu diqqət heç də bəzilərinin o dövrün iyrənc münasibətləri əsasında, mənim direktor kimi şəxsi «qulluğum» müqabilində olduğunu düşünə biləcəkləri səbəbdən deyildi. Əksinə, hər iki rəhbərin (nazir və müavinin) xalqımızın keçmiş tarixi və mədəniyyətinə hədsiz hörməti, bu sahədə Qobustan abidələrinin əhəmiyyətini dərindən başa düşmələrinin nəticəsi idi. (Mən Qobustan qoruğunda ilk direktor olduğum 10 ilin 5-6 ilini R. Hacıyev və R. Babaxanovun rəhbərliyi altında, qalanını Zakir Bağırovun Nazir, Nəbi Xəzri və Teymur Əliyevin nazir müavini olduqları vaxt işləmişəm). R. Hacıyev və R. Babaxanovun vaxtında Qobustan qoruğunun təşkili, onun əsl mənasında açıq səma altında, minilliklərin tarixini orijinaldan nümayiş etdirən bir muzeyə çevrilməsi bütün mədəniyyət nazirliyinin bir nömrəli qayğısına çevrilmişdi. Nazirliyin

tabeliyində olan bütün idarə və təşkilatlar (təchizat idarəsi, təmir və istehsal sexləri, plan büroları və s.) rəhbərliyin xüsusi tapşırığı ilə sözsüz və tam təmənnasız Qobustana kömək etməli, onun sifarişlərini növbədənkənar, birinci yerinə yetirməli idi. Qobustanın başqa nazirlik və yuxarı təşkilatlardan asılı işi olduqda mütləq zəng çalar, nazir və ya müavin adından Qobustana kömək etməyi xahiş edərdilər.

O vaxt nazir və müavini heç olmasa ayda bir dəfə (bəzən 2-3 dəfə) Qobustana gələrdi, qonaq gətirərdi, ya da elə özü istirahət gününü Qobustanda keçirərdi. Bəzən abidələr haqda, məndən qabaq qonağa R. Babaxanov özü izahat verər, ekskursiya başlayardı. Nazir və müavinin Qobustana gəlməsi adamlarda, Qobustan qəsəbəsinin rəhbər və ziyalıları arasında ən tutarlı təbliğat rolu oynayırdı.

Yadımdadır, bir dəfə R. Babaxanov xəbər göndərdi ki, sabah səhər saat 8-in yarısında Qobustanda olum, qonaq gələcək. Oldum. sonra saat 8-də Rüstəm müəllim öz maşınında bir nəfərdə gəldi. Məlum oldu ki, qonaq Fransa baletinin ulduzu Serj Lifardır. O, Moskvada R. Hacıyevlə görüşüb Qobustan, oradakı kollektiv rəqs səhnələri, onların çox qədimliyi haqda ondan məlumatlandıqdan sonra bir saatlığa da olsa Qobustanda olmaq, qədim «yallı» təsvirlərini görmək istədiyini bildirib, Təcili olaraq lazımı razılıqlar, Bakıya və geriyə uçmağa təyyarəyə bilet alınıb, R. Babaxanova qonağı qarşılamaq, Qobustana aparmaq və qaytarıb saat 13. 00-da Moskvaya yola salmaq haqda tapşırıq verilib. Elə də oldu. Qonaq aeroportdan bir-başa Qobustana gəldiyi kimi Qobustandan da birbaşa aeroporta qayıtdı. O qobustanda qədim yallı şəkillərini gördü və Qobustan haqda geniş məlumat aldı. (Qeyd edim ki, Serj Lifar yaşlı və əslən ukraynalı idi. O inqilab vaxtı, cavan olanda, ailəsi ilə Fransaya köçübmüş, ona görə də bizimlə rahat rus dilində danışır və izahımızı dinləyirdi). Məncə, daha artıq izaha ehtiyac yoxdur. R. Hacıyevin təbliğatı öz bəhrəsini verdi. Fransa ilə Azərbaycan balet məktəbləri arasında o vaxtkı mübadilə, «Qobustan kölgələri» baletinin Fransaya getməsi ilə nəticələndi.

Sonrakı illərdə R. Hacıyev də R. Babaxanov da nazirlikdən getdilər, yerinə yeniləri gəldi, get-gedə Qobustana maraq, baxım azaldı. Qobustan muzeyi də adi ev muzeyləri ilə yanaşı qoyuldu.

Qobustan abidələri elmimizin, tariximizin, xalqımızın fəxridir. Onu qorumaq, öyrənmək, təbliğ etmək lazımdır. Bunun üçün:

1. Qobustanın abadlaşdırılması, yollar çəkilməsi və heç olmasa hələlik Böyükdaş dağı ətrafının hasarlanması işi təxirə salınmadan həyata keçirilməlidir.

2. Qobustan qoruğunun ehtiyaclarından doğan hər cür təsərrüfat işləri və Qobustanda qonaqların rahatlığı üçün lazımı işlər görülməlidir.

3. Qobustanın hər bir daşının toxunulmaz muzey eksponatı olduğunu nəzərə alaraq Qobustan qayaları - Qobustan abidələri arasında nəzarətsiz gəzintilərin qarşısı alınmalı, iş şəraiti yaxşılaşmalı və abidələri qorunması məsələsi sistemli olaraq, səmərəli şəkildə həll edilməlidir.

4. Qobustana gələnlərə və turistlərə hər vaxt və yüksək səviyyədə qulluq etmək, onların hər birinə abidə haqqında lazımı məlumat vermək üçün xüsusi rejim - qayda yaratmaq lazımdır.

5. Qobustan beynəlxalq miqyasda reklam olunmalı, o haqda bukletlər, bələdçilər, açıqcalar, döş nişanları və s. çapların keyfiyətli buraxılması və geniş yayılması təşkil edilməlidir.

6. Qobustan abidələrinin tədqiqini sürətləndirmək, bunun üçün Qobustan arxeoloji ekspedisiyasının iş şəraitini yaxşılaşdırmaq, Qobustanın qədim qayaüstü təsvirləri - Qobustan petroqliflərinin tam çapı təşkil edilməlidir. Əfsus ki, Qobustan abidələrinin tədqiqi üçün lazımı şərait və köməklik göstərilmir. Elmi axtarışlar bir növ «həvəskar» səviyyəsində aparılır. Abidələrin qorunması üçün qoruğun lazımı qədər qüvvəsi və imkanı yoxdur. Qobustan qoruğunun yaranmasından 28 il keçir. Qobustan beynəlxalq turizm marşrutuna daxil edilmişdir. Son illərdə tarixi mövzulu məclislər, respublika televiziyası, bir çox tədbir və çıxışlar Qobustan haqda söz demək və ya Qobustan lövhələrini göstərməklə başlayır. Kimdən soruşulsa - Qobustan nədir? Cavab verər ki, babalarımızın yurdu, qədim mədəniyyət ocağımız fəxrimiz və s. Lakin atalar deyib ki, «bal-bal deməklə ağız şirin olmur. Qobustana gurultulu çıxışlar, pafoslu sözlər yox, əməli kömək, onun qeydinə qalmaq, onu abadlaşdırmaq, ondan həm milli mənliyimizin təbliği, qədim tariximizin öyrənilməsi, həm də indiki zamanda gəlir götürmək üçün də istifadə etmək gərəkdir. Bu

işlər üçün 22-23 il əvvəl respublika hökumətinin müvafiq qərarları olub, tapşırıqlar verilib. Bəs bu qədər vaxtda nə iş görülüb? Qobustana yollar çəkilməsinin, qoruğun abadlaşdırılmasının başqa planı hazırlanıb. Vaxt keçib, iş yoxdur. Atalar deyib. «Pul qoy pul götür». Bəli, abadlıq işləri vaxtında aparılsaydı, Qobustan xarici turizm üçün lazımi şəkildə reklam edilsəydi, indi gəlir valyuta ilə hesablanardı. Yaddan çıxarmaq lazım deyil ki, Qobustan qədim tariximizin inkişaf güzgüsü, mədəniyyət ocağımız, kimliyimizin, qədim kökümüzün carçısı, açıq səma altında nə qədimlik dərəcəsi, nə də dövr müxtəlifliyi və bir ərazidə yığcamlığı və s. cəhətdən bərabəri olmayan bir muzey, bir incidir.

# NƏTİCƏ

«Qobustan dünyası» adı altında geniş oxucu kütləsi üçün Qobustan, onun tarixi abidələri və qədim qayaüstü təsvirləri haqda ümumi söhbət açdıq. Onun bu gününə və şərti olsa da keçmişinə səyahət etdik, qayalarına əl sürtdük, qədim sakinlərini «dindirdik», abidələrinin yaranma tarixi və səbəblərinə toxunduq, keçmişi ilə indisi arasında, dağlarında, daşlarında, təbiətində, iqlimdə, heyvanat aləmində və s. həm tənəzzülə, həm də inkişafa tərəf baş vermiş dəyişikliklərdən danışdıq və çox səthi də olsa onların səbəbləri ilə maraqlandıq. Bu kitabı təqdim etməklə oxucuya etdiyimiz xidmətimizin qiymətini isə hər halda, Qobustanla əsl mənasında maraqlanan və bu kitabı diqqətlə oxuyacaq oxucu verəcəkdir.

Belə bir atalar sözü var: «heç kəs deməz ki, ayranım turşdur». Məntiq elminin hökmünə görə, hər haldakı mən də kəslərdən biriyəm, deməli bu mənə də aiddir. Nə olar? Bu təbiidir. Sözsüz ki, mənim fikir və yozmalarımla razılaşmayanlar tapılacaq. Ona görə yox ki, qayaüstü təsvirlərin tarixi və yozumu ilə əlaqədar, açıq və örtülü şəkildə bəzilərinin əleyhinə fikir söyləmişəm, ona görə ki, qədim qayaüstü təsvirlərin izahı və dövrləşməsi ilə əlaqədar indiyə kimi mövcud isnadlara söykənməklə bəzən kobud, qeyri-həyati nəticələrə gətirən fikirlərə qol qoymaq istəməmişəm.

Sözsüz ki, Qobustan abidələri haqqında deyilməlilərin hamısını demək, onları geniş təsvir və izah etmək üçün bu kitabın həcmi çox kiçik, imkanı olduqca azdır. Ona görə bu kitabda mən 30 illik tədqiqat və müşahidələrim əsasında qayaüstü təsvirlər haqda gəldiyim nəticələri qısa şəkildə və sadə dildə oxucuya çatdırmağa çalışmışam.

Azərbaycan xalqının qədim tarixi, qədim mədəniyyəti və incəsənətinin köklərini işıqlandırmaq üçün Qobustan abidələri və qayaüstü təsvirlərindən cildlərlə elmi və elmi-kütləvi kitablar yazılmalıdır.

Qobustan qayaüstü təsvirlərinin izahı istər tədqiqatçılar, istərsə də həvəskarlar tərəfindən indiyə qədər nəşr olunmuş kitab və məqalələrdə əsasən arxeoloji ədəbiyyatda mövcud, çox vaxt həyatiliyi və məntiqiliyi nəzərə alınmadan, adət-ənənə donu geyindirilmiş, din və ovsunçuluqla əlaqələndirilmişdir.

Qobustan nə nağıldır, nə əfsanə. Qobustan abidələrini onun qədim sakinləri, ulu babalarımız yaratmışlar. Onlar ovsunçuluq əməlləri deyil, babalarımızın-kimliyini, mədəni səviyyəsi, qabiliyyəti və dünyagörüşünü əks etdirən qədim incəsənət abidələridir. Onlar, necə deyərlər, dağda-daşda (yəni yaşayış yerindən uzaqda) deyil, əsrlər boyu, minilliklər ərzində babalarımızın ocaq yandırıb yaşadıqları, ov üçün nə qədər uzaqlara getsələr də yenə hər gün qocalarının və uşaqlarının yanına qayıtmalı olduqları qədim məskənlərində yaradılmışdır.

Qobustan qayaları dilə gəldikcə tariximizin, neçə-neçə sirlərinə işıq düşür. Qədim təsvirləri dilləndirmək, onların dediklərinin doğruluğunu yəqin etməkdə bizə qədim insan düşərgələrində aparılmış arxeoloji qazıntılar, onlardan əldə

edilmiş maddi-mədəniyyət qalıqları - çaxmaq daşından və sümükdən hazırlanmış müxtəlif çeşidli əmək alətləri, silahlar, müxtəlif materiallardan düzəldilmiş bəzək əşyaları, gil qab qırıqları və s. kömək edir.

Qədim qayaüstü təsvirlərin dövrünün dəqiqləşdirilməsində Qobustanda apardığımız arxeoloji qazıntıların nəticələrinin xüsusi əhəmiyyəti var. Bu barədə yuxarıda, yeri gəldikcə söhbətimiz olub. Əlbəttə, Qobustanda arxeoloji qazıntılar aparılana qədər Qobustan qayaüstü təsvirlərinin yaşı çox cavan, daş dövrünün axırlarından, eramızdan əvvəlki V-III minilliklər arasında hesab edilirdi (bax: Qobustan qayaüstü təsvirləri haqda 1960-cı ilə qədərki məqalə və yazılar). 1960 və 1961-ci illərdə «Ovçular zağasında» aparılmış qazıntılara əsasən onların ən qədiminin yaşı Neolit dövrünə, eramızdan əvvəlki VIII-VI minilliklərə qədər dərinləşdirildi. 1965-ci ildən başlayaraq müəllifin apardığı arxeoloji qazıntı və tədqiqatlar göstərdi ki, Qobustanda həyat hələ yuxarı Neolit dövrünün sonu, Mezolit dövrünün əvvəllərindən, eramızdan əvvəlki XIII-XII minilliklərdən başlamışdır.

Qobustanda ən qədim insan düşərgələri Kiçikdaş dağında («Qayaarası» və «Ceyranlar»), Böyükdaş dağında («Ana zağa», «Kənizə», «Daşaltı» və s.) və Şonqardağda («Şonqar») aşkar edilib öyrənilmişdir. Ən qədim qadın və kişi təsvirləri də əsasən bu dağların ərazisində, qədim insan düşərgələri və onların ətrafındadır. Sayca az, lakin əsas ov obyekti olan ceyran, balıq və sayca çox olan öküz təsvirlərinin də bəziləri qədimdir. Onlar da siluet insan təsvirləri kimi əsasən qədim düşərgələrin ətrafında çəkilmişlər.

Qobustanda qayaüstü təsvirlərin mövzusu çox və rəngarəngdir. Hər biri çəkilişi ilə xüsusi məqsəd güdür və dövrünün həyat tələbi, kollektivin ictimai, siyasi və dini baxışları ilə bağlıdır.

Qobustan tariximizin, kimliyimizin güzgüsü, mədəni irsimizin başlanğıcı, tarixən ən qədim və ən mədəni xalq olmağımızı göstərən, fəxrimiz, iftixarımız, ulu babalarımızın (minillər ərzində açıq səma altında yaratdığı muzeydir. Qobustanda hər düşərgə və yaşayış yerinin özü də bir muzeydir. Qədim qayaüstü təsvirlərin hər biri qədim rəssamın sənət incisi, dünyada təsviri sənətin kökündən söhbət açan abidədir. Qobustan elə bir mədəniyyət ocağıdır ki, onun istisinə biz də qızınmışıq, bundan sonra da əsrlər boyu nəvə-nəticələrimiz qızınacaqlar.

Qobustanı qorumaq, onun qeydinə qalmaq, abidələrini daha dərindən öyrənmək, ərazisini abadlaşdırmaq, özünü xalqımızın müqəddəs pirinə çevirmək lazımdır.

Bədii redaktoru:
***T. Məlikov.***

Texniki redaktoru:
***Z. Nəcəfova.***

Korrektorları:
***M. Sasani, Z. Məmmədova,***

**İB № 5649.**

Yığılmağa verilmiş 02.11.93. Çapa imzalanmış 17.08.94.
Formatı 84x108 $^{1}/_{32}$. Mətbəə kağızı № 2. Ədəbi qarnitur.
Yüksək çap üsulu ilə. Şərti çap vərəqi 10, 08.
Şərti rəngli surəti 10.20. Uçot nəşr vərəqi 10,5.
Tirajı 5000. Sifariş 646. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və
İnformasiya Nazirliyi.
Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-370005,
Hüsü Hacıyev küçəsi, № 4.
«Qızıl Şərq» icarə mətbəəsi, Bakı,
Həzi Aslanov küçəsi, № 80.

# KİTABIN İÇİNDƏKİLƏR

MÜƏLLİFDƏN ... 3

QAYAÜSTÜ TƏSVİRLƏR ... 5

QOBUSTAN ... 7

QOBUSTAN QAYAÜSTÜ TƏSVİRLƏRİNİN AÇILMASI TARİXİNDƏN ... 12

QOBUSTANDA İLK AXTARIŞLAR ... 15

QOBUSTANA SƏYAHƏT ... 24

QOBUSTANIN QAYAÜSTÜ TƏSVİRLƏRİ ... 42

İNSAN TƏSVİRLƏRİ ... 43

HEYVAN TƏSVİRLƏRİ ... 47

QOBUSTANDA QAYIQ TƏSVİRLƏRİ ... 62

QƏDİM QOBUSTANDA «YALLI» ... 69

QOBUSTANDAKI BAŞQA ABİDƏLƏR HAQQINDA ... 74

QOBUSTAN ABİDƏLƏRİNƏ BƏZİ MÜNASİBƏTLƏR HAQQINDA ... 89

QAYAÜSTÜ TƏSVİRLƏRİN YARANMA SƏBƏBLƏRİ HAQDA ... 103

QAYAÜSTÜ TƏSVİRLƏRİN DÖVRLƏŞDİRİLMƏSİ ... 111

QOBUSTANDA KEÇMİŞ VƏ İNDİKİ VƏZİYYƏT ... 114

NƏTİCƏ ... 122





1-ci tablo, şəkil A – Böyükdaş dağında Qobustan ekspedisiyasının dəyəsi.
B – Yazılıtəpədə 9 №-li daş üzərindəki maral təsviri və rəssam Səfiyyə xanım Cəfərzadə.

2-ci tablo, şəkil A – Səngəçal kanvansarası (XV əsr)
B – Qobustanda 16 №-li Kurqanın kromlexi və qəbrin örtük daşı.



3-cü tablo, şəkil A – Böyükdaş dağı yuxarı səki sahəsində 29 №-li daşın şimal üzündəki şəkillərin estamp surəti.




4-cü tablo, şəkil A – 78 №-li daşda qadın şəkilləri (“Yeddi gözəl”).

B – 45 №-li daşın cənub üzündə əhliləşmiş öküz şəkili.




5-ci tablo, şəkil A – 29 №-li daşın cənub üzündəki kişi və gəmi təsvirləri.
B – Qobustanda arxeoloji qazıntılardan tapılmış daş alətlər və s. nümunələr.




6-cı tablo, şəkil A – Kiçikdaş dağı, Qayaaltı sahədə 5 №-li daşdakı balıq və B – qadın şəkilləri üzərində öküz təsviri




7-ci tablo, şəkil A – Qobustan qayalarındakı qadın təsvirlərinin, şəkil B – Böyükdaş, aşağı səki sahəsi, 9 №-li daşda yallı səhnəsi.




8-ci tablo, şəkil A - Böyükdaş yuxarı səki sahəsində kişi və öküz təsvirləri. B - Öküz və maral təsvirləri.




9-cu tablo, şəkil A – Böyükdaş aşağı səki sahəsindəki 13 №-li daşda və şəkil B - Yazılıtəpədəki 63 №-li daşda keçi təsvirləri, şəkil V - Yuxarı səki sahəsində 138 №-li daşda və Kiçikdaş, Daşqışlaq sahəsindəki 11 № - li daşdakı maral təsvirləri.



10-cu tablo, şəkil A və B – kişi şəkilləri, şəkil V – Yallı səhnəsi, şəkil Q – şir şəkilləri, şəkil D – Qara atlı qəbristanlığında at heykəli formada qəbir daşı, şəkil E – dəvə karvanı (Daşqışlaq daş № 2).



11-ci tablo, şəkil A – Yazılıtəpədə 46 və 47 №-li daşlarda keçi şəkilləri, şəkil B – Daşqışlaq sahəsi 15-17 №-li daşlarda marallar.



12-ci tablo, şəkil – A - «Firuz» düşərgəsində son Mezolit dövrü qəbrində bəzək əşyaları, daşdan və sümükdən alətlər. şəkil B -Qavaldaşın görünüşü, şəkil V - naxışla bəzədilmiş daş alət (sürtgəc), şəkil Q - Qobustanda rənglə çəkilmiş yırtıcı maralın qovulması səhnəsi.



13-cü tablo, şəkil A - Qobustanın gəmi təsvirləri, aşağı səki daş № 8, şəkil B - Tur Heyerdal Qobustanda Qavaldaşı çalır.



14-cü tablo, şəkil A - Cingirdağ, 143 №-li daşda işarələr (orta əsrlər) şəkil B - Yazılıtəpədə fars dilində kitabə.



15-ci tablo, şəkil A, B, V, Q, D – Qobustanda arxeoloji qazıntılar zamanı mədəni təbəqələrdən aşkar edilmiş kiçik daşlar üzərindəki şəkillərdən, şəkil E – Ana zağada, 30 №-li daşda arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş qayaüstü təsvirlərin ümumi görünüşü.



16-cı tablo, şəkil A – Səməd Vurğun (sağda) və İ. Cəfərzadə. Qobustanda şəkil B – soldan Y. Paxomov. EA-nın keçmiş prezidenti Yusif Məmmədəliyev, Ə.Ələsgərzadə, Ə.Əlizadə və İ.Əliyev Yazılıtəpədə 7 №-li daşın yanında.